Cild 3 № 1 2023
Vol 3 № 1 2023
ISSN 2788-8789 (print)
ISSN 2959-5223 (online)

# SOSİAL TƏDQİQATLAR

*Elmi-analitik jurnal*

# SOCIAL RESEARCH

*Scientific-analytical journal*

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

ISSN 2788-8789 (Print)
ISSN 2959-5223 (Online)

Cild 3. № 1. 2023

# SOSİAL TƏDQİQATLAR
# SOCIAL RESEARCH

*Elmi-analitik jurnal / Scientific-analytical journal*

Bakı - 2023

**SOSİAL TƏDQİQATLAR**
*elmi-analitik jurnal*

2021-ci ildən nəşr olunur.
**Rüblük nəşr:** Cild 3. № 1/ 2023
**Təsisçi:**
Sosial Tədqiqatlar Mərkəzi
**Təsisçinin hüquqi ünvanı:**
Azərbaycan Respublikası,
Bakı şəhəri, Yasamal rayonu
İsmayıl Qutqaşınlı küç., 18
**Redaksiyanın ünvanı:**
AZ1073, Bakı şəhəri, Yasamal rayonu,
İsmayıl bəy Qutqaşınlı küç., 18.
Tel.: (+994 012) 510-70-78
**www.socialresearchjournal.az**
**office@ socialresearchjournal.az**
"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq şəkildə təsis edilmişdir.
**Reyestr № 4248**
Jurnal Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən "Azərbaycan Respublikasında məqalələrin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısı"na ("Fəlsəfə və sosiologiya", "Siyasi elmlər", "İqtisad elmləri", "Tarix və antropologiya" elm bölmələri üzrə) daxil edilib.
**Tərtibatçı dizayner:** Qurban Cəlilov
**Texniki operator:** Babək Cəfər
**Korrektor:** A.Məmmədov

**SOCIAL RESEARCH**
*scientific-analytical journal*

First edition date in 2021
**Quarterly:** Vol 3. № 1/2023
**Publisher:**
Social Research Center
**Publishing House:**
Republic of Azerbaijan, Baku,
Yasamal district, 18 Ismayil,
Gutgashinli str.
**Editorial office:**
AZ 1073, Yasamal district,
18 Ismayil Gutgashinli str.
Tel.: (+994 012) 510-70-78
**www.socialresearchjournal.az**
**office@ socialresearchjournal.az**
Established by the Law "On Mass Media" of the Republic of Azerbaijan.
**Registration № 4248**
The journal was included in the list of periodical scientific publications recommended for the publication of articles in the Republic of Azerbaijan by the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan (Philosophy and Sociology, Political Sciences, Economic Sciences, History and Anthropology).
**Designer:** Gurban Jalilov
**Technical operator:** Babek Jafar
**Corrector:** A.Mammadov

Çapa imzalanıb:
Fiziki çap vərəqi:
Sifariş:
Tiraj:

"MM-S" müəssisəsinin mətbəəsində çap edilmişdir.
**Ünvan:** Azərbaycan Respublikası, AZ 1102, Bakı şəhəri,
Nəsimi rayonu, A.Tağızadə küçəsi, ev 13.

**Telefon:** (+994 12) 431 11 00
(+994 50) 314 09 37

© Sosial Tədqiqatlar Mərkəzi, 2023

## REDAKSİYA ŞURASI

**BAŞ REDAKTOR**
**Zahid Oruc**
*STM İdarə Heyətinin sədri*

**BAŞ REDAKTORUN MÜAVİNİ**
**Tahirə Allahyarova**
*STM İdarə Heyətinin üzvü, fəlsəfə elmləri doktoru, professor*

**MƏSUL KATİB**
**Aqşin Məmmədov**
*STM-in baş məsləhətçisi, filologiya üzrə fəlsəfə doktoru*

## BEYNƏLXALQ REDAKSİYA HEYƏTİ

**Zahid Oruc**
*STM İdarə Heyətinin sədri (Azərbaycan)*

**Rafiq Əliyev**
*AMEA-nın müxbir üzvü, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinın proqram direktoru, "Zadə irsi və süni intellekt" Assosiasiyasının prezidenti (Azərbaycan)*

**Urxan Ələkbərov**
*AMEA-nın akademiki (Azərbaycan)*

**Ağamalı Məmmədov**
*sosiologiya elmləri doktoru, professor, M.V. Lomonosov adına Moskva Dövlət Universiteti Kommunikativ sistemlərin sosiologiyası kafedrasının müdiri (Rusiya)*

**Tahirə Allahyarova**
*fəlsəfə elmləri doktoru, professor, STM İdarə Heyətinin üzvü (Azərbaycan)*

**Şahin Mustafayev**
*Beynəlxalq Türk Akademiyasının prezidenti (Qazaxıstan)*

**Ədalət Muradov**
*iqtisad elmləri doktoru, professor, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru (Azərbaycan)*

## EDITORIAL COUNCIL

**EDITOR IN CHIEF**
**Zahid Oruj**
*Chairman of the Board of the SRC*

**DEPUTY EDITOR IN CHIEF**
**Tahira Allahyarova**
*Board Member of the SRC, Doctor of Philosophical Sciences, Professor*

**EXECUTIVE SECRETARY**
**Agshin Mammadov**
*Chief Consultant of the SRC, Doctor of Philosophy in Philology*

## INTERNATIONAL EDITORIAL BOARD

**Zahid Oruj**
*Chairman of the Board of the Center for Social Research* (Azerbaijan)

**Rafig Aliyev**
*Corresponding member of ANAS, program director of Azerbaijan State University of Oil and Industry, "President of Zade heritage and artificial intelligence" Association* (Azerbaijan)

**Urkhan Alakbarov**
*Academician of ANAS (Azerbaijan)*

**Agamali Mammadov**
*Doctor of Sociological Sciences, Professor, Head of the Department of Sociology of Communicative Systems, Lomonosov Moscow State University (Russia)*

**Tahira Allahyarova**
*Doctor of Philosophical Sciences, Professor, Board Member of the SRC (Azerbaijan)*

**Shahin Mustafayev**
*President of the International Turkish Academy (Kazakhstan)*

**Adalat Muradov**
*Doctor of Economics, Professor, Rector of Azerbaijan State University of Economics (Azerbaijan)*

**İlham Məmmədzadə**
*fəlsəfə elmləri doktoru, professor, AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru (Azərbaycan)*

**Ilham Mammadzade**
*Doctor of Philosophical Sciences, Professor, Director of the Institute of Philosophy and Sociology of ANAS (Azerbaijan)*

**Rəfail Həsənov**
*sosiologiya elmləri doktoru, professor, Bakı Dövlət Universitetinin Sosiologiya kafedrasının müdiri (Azərbaycan)*

**Rafail Hasanov**
*Doctor of Sociological Sciences, Professor, Head of the Department of Sociology, Baku State University (Azerbaijan)*

**Zhang Şuhu**
*Çin Sosial Elmlər Akademiyasının (ÇSEA-CASS) Siyasi Elmlər İnstitutunun direktoru, Çin Xalq Siyasi Məşvərət Konfransının üzvü, professor (Çin Xalq Respublikası)*

**Zhang Shuhu**
*Director of the Institute of Political Science of the Chinese Academy of Social Sciences (CSEA-CASS), Member of the Chinese People’s Political Consultative Conference, Professor (People’s Republic of China)*

**Əbülfəz Süleymanlı**
*sosiologiya elmləri doktoru, professor, Üsküdar Universiteti Sosiologiya kafedrasının müdiri (Türkiyə)*

**Abulfaz Suleymanli**
*Doctor of Social Sciences, Professor, Head of the Department of Sociology, Uskudar University (Turkey)*

**Əli Hüseynli**
*hüquq üzrə fəlsəfə doktoru (Azərbaycan)*

**Ali Huseynli**
*Doctor of Philosophy in Law (Azerbaijan)*

**Musa Qasımlı**
*AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor (Azərbaycan)*

**Musa Gasimli**
*Corresponding member of ANAS, Doctor of Historical Sciences, Professor (Azerbaijan)*

**Hüseyn Qaraşov**
*sosiologiya elmləri doktoru, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru (Azərbaycan)*

**Huseyn Garashov**
*Doctor of Sociological Sciences, Rector of the Azerbaijan Academy of Labor and Social Relations (Azerbaijan)*

**Hikmət Əlizadə**
*pedaqoji elmlər doktoru, professor (Azərbaycan)*

**Hikmet Alizade**
*Doctor of Pedagogical Sciences, Professor (Azerbaijan)*

**Səməd Seyidov**
*psixologiya elmləri doktoru, professor (Azərbaycan)*

**Samad Seyidov**
*Doctor of Psychological Sciences, Professor (Azerbaijan)*

**Lyudmila Laxtionova,**
*Milli Aviasiya Universitetinin Təhsilin İnkişafı üzrə Tədris və Elm İnstitutunun direktor müavini,  iqtisad üzrə fəlsəfə doktoru, dosent (Ukrayna)*

**Liudmyla Lakhtionova,**
*PhD in Economics, Associate Professor, Deputy Director of the Educational and Scientific Institute for ducation Development of National Aviation University (Ukraine)*

**Vilayət Vəliyev**
*iqtisad elmləri doktoru, professor, Azərbaycan Texniki Universitetinin rektoru (Azərbaycan)*

**Vilayat Valiyev**
*Doctor of Economics, Professor, Rector of Azerbaijan Technical University (Azerbaijan)*

**Elşad Mirbəşiroğlu**
*siyasi elmlər doktoru, STM İdarə Heyətinin üzvü (Azərbaycan)*

**Elshad Mirbashiroglu**
*Doctor of Political Sciences, Board Member of the SRC (Azerbaijan)*

**Yusif Qasımov**
*riyaziyyat elmləri doktoru, Azərbaycan Universitetinin prorektoru*

**Yusif Gasimov**
*Doctor of Sciences in Mathematics Azerbaijan University, Vice-rector*

**Qızılgül Abbasova**
*fəlsəfə elmləri doktoru, professor (Azərbaycan)*

**Gizilgul Abbasova**
*Doctor of Philosophical Sciences, Professor (Azerbaijan)*

**Dilbadi Qasımov**
*hüquq elmləri doktoru, Strasburq Universiteti (Fransa)*

**Dilbadi Gasimov**
*Doctor of Juridical Sciences, University of Strasbourg (France)*

**Mayis Əliyev**
*hüquq elmləri doktoru, Bakı Dövlət Universitetinin professoru (Azərbaycan)*

**Mayis Aliyev**
*Doctor of Juridical Sciences, Professor of Baku State University (Azerbaijan)*

**Natalya Sosnovskaya**
*Belarus Elmlər Akademiyasının Sosiologiya İnstitutunun elmi katibi, sosiologiya üzrə fəlsəfə doktoru (Belarus)*

**Natalia Sosnovskaya**
*Scientific secretary of the Institute of Sociology of the Belarusian Academy of Sciences, Doctor of Philosophy in Sociology (Belarus)*

**Ariz Gözəlov**
*fəlsəfə doktoru, Rusiya Elmlər Akademiyasının Federal Elmi-Tədqiqat Sosioloji Mərkəzinin aparıcı elmi işçisi, Rusiya EA Fəlsəfə Cəmiyyətinin "Mədəniyyətlərin dialoqu: fəlsəfə və dünyagörüş problemləri" tədqiqat qrupunun rəhbəri (Rusiya)*

**Ariz Gozalov**
*Doctor of Philosophy, leading researcher of the Federal center of theoretical and applied sociology of the Russian Academy of Sciences, Head of the research group "Cultural dialog: issues of philosophy and outlook" of the Russian philosophical society RAS (Russia)*

**Tünzalə Verdiyeva**
*Azərbaycan Universitetinin Sosial işin təşkili kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru (Azərbaycan)*

**Tunzala Verdiyeva**
*Head of the Department of Social Work Organization of Azerbaijan University, Doctor of Philosophy in Pedagogy (Azerbaijan)*

❖ SOSİUM VƏ YENİ QLOBAL ÇAĞIRIŞLAR: SÜNİ İNTELLEKT TEXNOLOGİYALARI VƏ KİBERTƏHLÜKƏSİZLİYİN SOSİAL ASPEKTLƏRİ

**Zahid ORUC**
AZƏRBAYCANDA KİBERTƏHLÜKƏSİZLİKLƏ BAĞLI İLK İCTİMAİ RƏY SORĞUSU: BƏZİ NƏTİCƏLƏR........11

**Tahirə ALLAHYAROVA**
SÜNİ İNTELLEKT TEXNOLOGİYALARININ İNKİŞAFI VƏ TƏTBİQİNİN SOSİAL NƏTİCƏLƏRİ........23

**Lalə ƏKBƏROVA**
YENİ NƏSİL GENERATİV SÜNİ İNTELLEKT TEXNOLOGİYALARI (ChatGPT) VƏ İNSAN HÜQUQLARI: TƏNZİMLƏNMƏSİ İLƏ BAĞLI İLK CƏHDLƏR........42

❖ SOSİAL VƏ FƏLSƏFİ ELMLƏRİN AKTUAL PROBLEMLƏRİ

**Агамали МАМЕДОВ, Ариз ГЕЗАЛОВ**
ДЕКОНСТРУКЦИЯ ТЕКСТА ОБЩЕСТВЕ В ПОСТМОДЕРНА (Социально-философский анализ)........61

**Ebulfez SULEYMANLI, Gokhan ACHIKEL**
CHALLENGES OF THE INFORMATION SOCIETY AT UNIVERSITIES IN TURKIC REPUBLICS: CURRENT CONDITIONS........72

**Arzu HACIYEVA**
HEYDƏR HÜSEYNOVUN AZƏRBAYCAN FƏLSƏFƏSİNƏ DAİR MONOQRAFİYASINDA ZAMANIN “İZLƏRİ”: MƏTNLƏR VƏ TƏFSİRLƏR........79

**Yaqut ƏLİYEVA**
“CƏMİYYƏT-AİLƏ-TƏHSİL-KİV” SİSTEMİNİN UŞAQ/YENİYETMƏ CİNAYƏTKARLIĞINA TƏSİRİ VƏ ROLU........96

**Рена МАМЕДОВА**
ОСОБЕННОСТИ СОЦИАЛЬНОЙ РАБОТЫ С ДЕТЬМИ В АЗЕРБАЙДЖАНЕ И ЗАРУБЕЖОМ........110

**Eliza İSMAYILOVA**
AZƏRBAYCANDA YAŞLI ƏHALİ QRUPUNUN SOSİAL XİDMƏT ALMAQ EHTİYACLARINA BAXIŞ........123

**Sübhan PADAROV**
MODERN “XOŞBƏXTLİK DİSKURSU” VƏ ONUN TOTALİTAR PREZUMPSİYALARI........132

**Südabə HAŞIMOVA**
MÜASİR ŞƏRAİTDƏ PEŞƏ SOSİALLAŞMASININ XÜSUSİYYƏTLƏRİ VƏ PROBLEMLƏRİ........147

❖ İCTİMAİ RƏY. SOSİOLOJİ SORĞULAR

**Vüsalə RÜSTƏMOVA**
AZƏRBAYCANDA ELEKTROMOBİL VƏ HİBRİD NƏQLİYYAT VASİTƏLƏRİNİN TƏŞVİQİNDƏ VƏZİYYƏT VƏ İSTİFADƏÇİ MƏMNUNLUĞU.................................157

**Natəvan NƏCƏFOVA**
UŞAQ EVLƏRİNİN MƏZUNLARİ İLƏ BAĞLI APARILAN SOSİAL SİYASƏTİN EMPİRİK TƏDQİQİ.......................................................................168

❖ AKTUAL İCTİMAİ-SİYASİ MƏSƏLƏLƏR

**Malik Musawar HAMEED**
FUTURE OF KARABAKH: PEACE, RETURN, RESTORATION AND REVIVAL......178

**Inji RUSTAMOVA**
CHINESE FOREIGN POLICY: TO WHAT EXTENT ARE UYGHURS STRUGGLING TO FIND THEIR VOICE ON HUMAN RIGHTS PROTECTION IN CHINA?........................................................190

**Saliha Gizem ÖNDER**
ŞİDDETİN HARİTASI: TÜRKİSTAN COĞRAFYASINDA SİYASİ TOPRAKLAR.........205

**Günel QARAYEVA**
UTOPİK DÜNYAGÖRÜŞÜ SKANDİNAVİYA ÖLKƏLƏRİNDƏ SOSİAL SİYASƏTİN MƏNBƏYİ KİMİ.......................................................................214

**Əvəz RƏHİMOV**
İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏN SONRA ERMƏNİSTAN HAKİMİYYƏTİNİN XARİCİ SİYASƏT KURSU VƏ DİASPOR-ERMƏNİSTAN MÜNASİBƏTLƏRİ.........................................................230

❖ SOSİAL-İQTİSADİ TƏDQİQATLAR

**Şamil ƏZİZOV**
“BİR KƏMƏR, BİR YOL” TƏŞƏBBÜSÜNÜN MÜASİR VƏZİYYƏTİ VƏ GÖZLƏNİLƏN TƏSİRLƏRİ..........................................................................243

**Ramil HƏSƏNOV**
ALÜMİNİUM SƏNAYESİNİN FORMALAŞMASI: DÜNYA VƏ AZƏRBAYCAN TİMSALINDA...........................................................................253

**Habib MAHMUDOV**
CONCEPT OF SOCIAL MARKETING.......................................................................264

❖ SOCIETY AND NEW GLOBAL CHALLENGES: SOCIAL ASPECTS OF ARTIFICIAL INTELLIGENCE TECHNOLOGIES AND CYBER SECURITY

**Zahid ORUJ**
THE FIRST PUBLIC OPINION POLL ON CYBER SECURITY IN AZERBAIJAN: SOME FINDINGS..........11

**Tahira ALLAHYAROVA**
SOCIAL IMPLICATIONS OF THE DEVELOPMENT AND APPLICATION OF ARTIFICIAL INTELLIGENCE TECHNOLOGIES..........23

**Lala Akbarova**
NEW GENERATIVE ARTIFICIAL INTELLIGENCE TECHNOLOGIES (ChatGPT) AND HUMAN RIGHTS REGULATORY ATTEMPTS..........42

❖ CURRENT PROBLEMS OF SOCIAL AND PHILOSOPHICAL SCIENCES

**Agamali MAMEDOV, Ariz GOZALOV**
TEXT DECONSTRUCTION IN POSTMODERN SOCIETY (socio-philosophical analysis)..........61

**Ebulfez SULEYMANLI, Gokhan ACHIKEL**
CHALLENGES OF THE INFORMATION SOCIETY AT UNIVERSITIES IN TURKIC REPUBLICS: CURRENT CONDITIONS..........72

**Arzu HAJIYEVA**
“TRACES” OF TIME IN HEYDAR HUSEYNOV’S MONOGRAPH ON AZERBAIJANI PHILOSOPHY: TEXTS AND INTERPRETATIONS..........79

**Yagut ALIYEVA**
THE IMPACT AND ROLE OF THE "SOCIETY-FAMILY-EDUCATION-MEDIA” SYSTEM ON CHILD/ADOLESCENT CRIMINALITY..........96

**Rana MAMMADOVA**
FEATURES OF SOCIAL WORK WITH CHILDREN IN AZERBAIJAN AND ABROAD..........110

**Eliza ISMAYILOVA**
REVIEW OF THE NEEDS TO USE SOCIAL SERVICES OF THE ELDER POPULATION GROUP IN AZERBAIJAN..........123

**Subhan PADAROV**
THE MODERN DISCOURSE OF HAPPINESS AND ITS TOTALITARIAN PRESUMPTIONS..........132

**Sudaba HASHIMOVA**
FEATURES AND PROBLEMS OF PROFESSIONAL SOCIALIZATION IN MODERN CONDITIONS..........147

❖ PUBLIC OPINION. SOCIOLOGICAL SURVEYS

**Vusala RUSTAMOVA**
THE CONDITION IN THE PROMOTION OF ELECTRIC AND HYBRID VEHICLES IN AZERBAIJAN AND THE USER SATISFACTION..............................157

**Natavan NAJAFOVA**
EMPIRICAL STUDY OF SOCIAL POLICY REGARDING GRADUATES OF ORPHANAGES ....................................................................................168

❖ CURRENT SOCIAL AND POLITICAL ISSUES

**Malik Musawar HAMEED**
FUTURE OF KARABAKH: PEACE, RETURN, RESTORATION AND REVIVAL......178

**Inji RUSTAMOVA**
CHINESE FOREIGN POLICY: TO WHAT EXTENT ARE UYGHURS STRUGGLING TO FIND THEIR VOICE ON HUMAN RIGHTS PROTECTION IN CHINA?........................................................................190

**Saliha Gizem ÖNDER**
MAP OF VIOLENCE: POLITICAL LANDS IN TURKESTAN...................................205

**Gunel Garayeva**
UTOPIC WORLDVIEW AS A SOURCE OF SOCIAL POLICY IN THE SCANDINAVIAN COUNTRIES....................................................................214

**Avaz RAHIMOV**
THE FOREIGN POLICY COURSE OF THE ARMENIAN GOVERNMENT AND DIASPORA-ARMENIAN RELATIONS AFTER THE SECOND KARABAKH WAR...............................................................230

❖ SOCIO-ECONOMIC STUDIES

**Shamil AZIZOV**
CURRENT STATUS AND EXPECTED EFFECTS OF THE "ONE BELT, ONE ROAD" INITIATIVE.......................................................243

**Ramil HASANAOV**
THE FORMATION OF THE ALUMINUM INDUSTRY: ON THE EXAMPLE OF THE WORLD AND AZERBAIJAN....................................................253

**Habib MAHMUDOV**
CONCEPT OF SOCIAL MARKETING.......................................................................264

# SOSİUM VƏ YENİ QLOBAL ÇAĞIRIŞLAR:
## SÜNİ İNTELLEKT TEXNOLOGİYALARI VƏ KİBERTƏHLÜKƏSİZLİYİN SOSİAL ASPEKTLƏRİ

# SOCIETY AND NEW GLOBAL CHALLENGES:
## SOCIAL ASPECTS OF ARTIFICIAL INTELLIGENCE TECHNOLOGIES AND CYBER SECURITY

# AZƏRBAYCANDA KİBERTƏHLÜKƏSİZLİKLƏ BAĞLI İLK İCTİMAİ RƏY SORĞUSU: BƏZİ NƏTİCƏLƏR

**Zahid ORUC**
*Sosial Tədqiqatlar Mərkəzi İdarə Heyətinin sədri*
*E-mail: zahidoruc@gmail.com*

**Xülasə.** Məqalədə Azərbaycanda kibertəhlükəsizlik və onun sosial aspektləri ictimai rəy sorğusunun nəticələri əsasında-empirik tədqiqat prizmasından araşdırılır. Qeyd edilir ki, İKT texnologiyalarının inkişafı və elektron dövlət quruculuğu sahəsində, eləcə də internet istifadəçilərinin sayı və sürətlə artması baxımından regionun lider dövlətlərindən olan Azərbaycanda kibercinayət və kibertəhlükəsizlik məsələləri dövlətimizin strateji prioritetləri sırasındadır. Ölkə rəhbərliyinin bu sahədə müvafiq qanunverici əsasların hazırlanmasına, infrastrukturun yaradılması və inkişafına həssas diqqəti göz önündədir.

Son bir neçə ildə, xüsusilə də qlobal pandemiya şəraitinin meydana gəlməsi ilə onlayn fəaliyyətin miqyasının daha da genişlənməsi, kibertəhlülkəsizliyin "kiberpandemiya" səviyyəsində yüksələn templəri sözügedən məsələni strateji prioritetə çevirib.

Sosioloji tədqiqat gedişində ümumi əhali qrupları, kibercinayətdən zərərçəkənlər, özəl sektor, internet provayderlərinin iştirakı ilə ictimai rəy öyrənilib. Eləcə də, fokus qruplarla dərinləşdrilmiş müsahibələrin kəmiyyət və keyfiyyət əsaslı nəticələri təhlil edilib. Hazırkı dövrdə dünyada kibercinayətkarlığın getdikcə artan səviyyəsi ilə cəmiyyətin kibercinayətkarlıq haqqında məlumatlılıq səviyyəsinin nisbətin hələlik adekvat olmadığı təhlil edilib. Sosiumun kibercinayətin qurbanı olmaq riski ilə üzləşməməsi üçün cəmiyyətdə kibertəhlükəsizlik haqqında məlumatlılığın artırılması, bu yöndə təlim, maarifləndirmə, təhsil və akademik tədqiqat proqramlarının reallaşdırılmasının zəruriliyi qeyd edilib. Həmçinin cəmiyyətdə kibertəhlükəsizlik mədəniyyətinin formalaşdırılmasının aidiyyəti qurumlar və bu sahənin mütəxəssisləri qarşısında mühüm çağırış kimi durması vurğulanıb.

**Açar sözlər:** kibertəhlükəsizlik, ictimai rəy, sosial aspektlər, kibertəhdidlərlə bağlı məlumatlılıq, maarifləndirmə, rəqəmsal cəmiyyət, sosial kibertəhlükəsizlik, kibertəhlükəsizlik mədəniyyəti

## Giriş

Son dövrlər Azərbaycanda cəmiyyət səviyyəsində vətəndaşlara vacib xidmətlərin demək olar ki, əksəriyyəti rəqəmsallaşdırılıb və sözügedən istiqamətdə işlər sürətləndirilmiş rejimdə davam etdirilir. Ümumiyyətlə, bu prosesə qlobal müstəvidə təkan verilməklə, bütün dövlətlərin gələcəyi rəqəmsal transformasiya və onun statusundan asılıdır. Belə ki, 2023-cü ilin aprel ayına olan məlumata görə, dünya əhalisinin 64,6%-i, yaxud 5,18 milyard nəfəri qısa bir dövrdə rəqəmsal əhaliyə çevrilib, yəni internet istifadəçiləridir. Bunun 4,8 milyardı, yəni dünya əhalisinin 59,9%-i sosial media istifadəçiləridir [17]. Yəni hər il internet istifadəçilərinin sayı orta hesabla 200 milyon nəfər artır.

Son illər sürətlə inkişaf edən "süni intellekt" texnologiyaları da kibertəhlükələrə qlobal xarakter verir. Davosda keçirilən ənənəvi Dünya İqtisadi Forumu ekspertlərinin hazırladığı "Qlobal risklər" (The Global Risks Report 2018) hesabatında [16] təbii fəlakətlərdən və istiləşmədən sonra 3-cü yerdə kibercinayətlər sivilizasiya üçün ən mühüm təhlükə adlandırılıb. XXI yüzillikdə torpaq, su və hava kimi döyüş əməliyyatlarının aparıldığı 3 ənənəvi məkana yeni biri – kibermәkan, kiberfəza əlavə olunub.

Azərbaycana gəldikdə isə onu qeyd edə bilərik ki, əhalisinin 10,26 milyon nəfər olması fonunda 2022-ci ilin yanvarında ölkəmizdə 8,32 milyon internet istifadəçisi qeydə alınıb. Bu ümumi əhalinin 81.1 faizini təşkil edir [6]. Sosial media istifadəçilərinin sayı 5 milyona yaxındır ki, bu da ümumi əhalinin yarısını əhatə edir. Ölkə üzrə 11,3 milyon mobil telefon istifadəçisi mövcuddur. Son 10 ildə Azərbaycanda kibertəhlükəsizliyin təmin edilməsi istiqamətində müxtəlif addımlar atılıb. Ötən üç il müddətində isə bununla bağlı fəaliyyətlər intensivləşdirilib. Belə ki, COVID-19 pandemiyası dövlət və özəl sektor, səhiyyə, təhsil, ticarət və digər bir çox sahələrdə rəqəmsallaşmaya keçidə zəmin hazırlayıb. Bu gedişatla mövcud vəziyyət hökuməti və vətəndaşları texnologiyaların köməyi ilə dəyişikliklərə uyğunlaşmağa sövq edib. Belə demək mümkünsə, pandemiya cəmiyyətin rəqəmsallaşdırılması işində Azərbaycanda sıçrayışa şərait yaradıb.

Dövrümüzün qlobal çağırışlarından biri olan, hər bir ölkənin milli təhlükəsizliyinin ayrılmaz hissəsinə çevrilən kibertəhlükəsizlik mövzusu son illər Azərbaycanda sözün həqiqi mənasında medianın daimi başlığına çevrilib. "Kiberdələduzluğun yüksəlişi: kimdir günahkar?" və s. kimi müzakirə mövzuları dünyada və ölkəmizdə kibercinayətlərin indiyədək görünməyən səviyyəsini üzə çıxarıb.

Vətən müharibəsində parlaq qələbə Prezident İlham Əliyevin yerdə informasiya məkanında hücum əzmi ilə yanaşı, fəzada aparılan süni intellekt savaşı ilə mümkün oldu. Postmüharibə reallığı, Azərbaycanın hazırkı geosiyasi mövqeyi, hərbi potensialı, fəal xarici siyasəti cari və perspektiv təhlükəsizlik təhdidlərini də artırır. İşğaldan azad edilən ərazilərdə "ağıllı şəhərlər və kəndlər" kimi smart layihələr texnoloji resurslardan asılı olduğu üçün, informasiya hücumlarının hədəfindədir. Vətən müharibəsi dövründə Ermənistanın ölkəmizin maliyyə/bank sisteminə hücumları hamıya məlumdur.

Beləliklə, bu məqalədə empirik tədqiqat əsasında Azərbaycanda kibertəhlükəsizliyin sosial aspektləri, cəmiyyətə mümkün təsirləri, riskləri, kibertəhlükəsizlik mədəniyyətinin formalaşmasının vacibliyi və bu sahədə məlumatlılığın artırılması yolları araşdırılır.

## 1. Azərbaycanda kibertəhdidlərin tədqiqinin vəziyyəti

Azərbaycanda kibertəhlükəsizlik və onun sosial aspektlərinin təfərrüatlı təhlili üzrə çoxsaylı araşdırmalar aparılmadığı üçün sözügedən sahədə böyük boşluq mövcuddur. Mövcud tədqiqatlar kibertəhlükəsizlik siyasəti ilə bağlı müxtəlif məsələlərin təsvirini təqdim edir [11; 12; 13 ]. Kibertəhlükəsizliklə bağlı akademik tədqiqatlar daha çox AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunda aparılır. Azərbaycanın kibertəhlükəsizlik siyasəti və strategiyasının qiymətləndirilməsi, kibercinayətlərin sosial-mədəni təsirlərinin müəyyənləşdirilməsi üzrə rəsmi qurumlar səviyyəsində ətraflı tədqiqatlar hələ həyata keçirilməyib.

Müvafiq istiqamət üzrə özəl təşkilatların son dövrlərdəki fəaliyyətinə nəzər yetirdikdə, iki təşkilat – “Deloitte” Azərbaycan və “Kasperski” Azərbaycan ölkədə kibertəhlükələrin təhlili ilə bağlı daha fəal görünür.

“Deloitte” Araşdırma Mərkəzinin Bakı kiberkomandası 8 yanvar 2021-ci il tarixində ilk kibertəhlükəsizlik icmalını təqdim edib [5]. İcmal hədəf obyekti kimi Azərbaycanda fəaliyyət göstərən 26 bankı seçib. Araşdırma çərçivəsində onların internetdə açıq olan resursları öyrənilib. Burada lazımi meyarlar toplusu kibertəhlükəsizliyin qiymətləndirilməsində istifadə edilib: əlçatanlıq, domen reputasiyası, HTTP başlıqlarının təhlükəsizlik parametrləri, TLS və SSL təhlükəsizliyi, e-poçt sızması, açıq portlar, kibersquattinq və GDPR tələblərinə əsaslanan şəxsi məlumat təhlükəsizliyinə uyğunluq.

Tədqiqat nəticəsində müəyyən edilib ki, Azərbaycanda bəzi banklar bütün kibertəhlükəsizlik standartlarını və təcrübələrini tətbiq etmirlər. Təhlildə zəif təhlükəsizlik parametrlərindən və ya istifadəçi məlumatlılığının olmaması səbəbindən veb-serverlərdə həssas şifrələmə protokollarının istifadəsindən başlayaraq, nəticələrə dair müxtəlif faktlar qeyd edilib. Hesabatda araşdırma zamanı müəyyən edilmiş bütün problemlər işıqlandırılıb və onların mümkün həll yollarına aid tövsiyələr də təqdim edilib.

Azərbaycandakı “Kasperski” şirkəti də son vaxtlar bir sıra sorğular keçirir. 2021-ci ilin yekununda apardığı sorğunun nəticələrini açıqlayan şirkət qeyd edib ki, son bir ildə Bakı, Sumqayıt və Gəncə şəhərlərində istifadəçilərin 87%-i kibertəhlükələrlə üzləşib. Bu, onu göstərir ki, adıçəkilən şəhərlərdə hər 10 istifadəçidən 9-u kibertəhlükələrə məruz qalıb: “Təhlükələrin əksəriyyəti (80%) anlıq messencerlər (WhatsApp, SMS, Viber), 32%-i sosial şəbəkələr, 28%-i isə telefon zəngləri vasitəsilə meydana gəlib. Bundan başqa, dələduzların 27%-nin bank strukturlarını, 27%-nin şirkətləri, 17%-nin ticarət obyektlərini, 15%-nin isə onlayn platformaların satıcılarını saxta formada təmsil etdikləri məlum olub. Həmçinin, bu da aydındır ki, 34% hallarda dələduzlar guya lotereyadan uduşları köçürməyi, 25% hallarda investisiyalardan qazanc əldə etməyi, 14% hallarda isə sadə və mənfəət gətirən əməliyyatda iştirak etməyi təklif ediblər. Kiberdələduzlar kart məlumatları (36% hallarda), pul vəsaitlərinin kartdan karta köçürülməsi, vətəndaşların şəxsi və ödəniş məlumatları (21%) haqqında öyrənməyi hədəfləyərək, 16% hallarda qurbanlardan saxta keçidə (linkə) daxil olmağı xahiş ediblər” [4].

Aparılan azsaylı tədqiqatlarla yanaşı, qeyd edilənlərlə əlaqəli hüquqi-tənzimləyici məzmunlar (qanunlar, doktrinalar və qanunvericiliyin təkmilləşdirilməsi) dövlətin kibertəhlükəsizliyinin, bu sahədə dövlət siyasətinin prinsip və istiqamətlərinin yaradılması üzrə hüquqi və təşkilati çərçivə formalaşdırır. Buraya həmçinin dövlət orqanları, müəssisələr, institutlar, təşkilatlar, fərdlər və vətəndaşların sö-

zügedən sferada səlahiyyətləri, eyni zamanda onların fəaliyyətlərinin koordinasiyası üzrə başlıca prinsiplər də daxildir. Azərbaycanın kibertəhlükəsizlik siyasəti ilə bağlı hüquqi-tənzimləyici bazanın inkişafına əsas etibarilə 1999-2000-ci illərdə başlanılıb.

Mövzu üzrə hüquqi sənədlərdən başqa, müəyyən siyasət istiqamətləri bilavasitə kibertəhlükəsizliyə aiddir. Qeyd edilməlidir ki, kibertəhlükəsizlik və ya onunla bağlı özəl sektorla əməkdaşlığa dair ayrıca strategiya mövcud deyil, lakin müxtəlif siyasətlərin həyata keçirilməsində kibertəhlükəsizlik imkanlarının inkişafı üçün bəzi müddəalar təsbit edilib. Bu kimi strategiyalara “Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya”nı və bu Strategeya ilə bağlı Dövlət Proqramını, həmçinin “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasını və “Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi”ni aid etmək olar.

## 2. Kibertəhlükəsizliyin sosial aspektləri empirik tədqiqat kontekstində

Azərbaycanda kibertəhlükəsizlik istiqamətində aparılan tədqiqatların mövcud vəziyyətini nəzərə aldıqda Avropa İttifaqının təşəbbüsü və Sosial Tədqiqatlar Mərkəzinin iştirakı ilə həyata keçirilən layihələr (EU4Digital, Cybersecurity, CyberEast və s.) həm elmi-nəzəri, həm də data əsaslı olması ilə xüsusi əhəmiyyət kəsb edir.

Əvvəlcə onu qeyd edək ki, "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində kibertəhlükəsizlik standartlarının gücləndirilməsi üzrə indiyədək mühüm səylər göstərilib. 2008-ci ildə Azərbaycan Avropa Şurasının "Kibercinayətkarlıq haqqında" Konvensiyasını imzalayıb və Avropa İttifaqının mexanizmi olan Şərq Tərəfdaşlığı (ŞT) çərçivəsində həyata keçirilən kibercinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq layihəsində də fəal iştirak edir. ŞT-nin əsası qoyulduqdan sonra keçən illər ərzində Avropa Şurasının başlıca kibertəhlükəsizlik standartlarını dəstəkləyən çoxsaylı müqavilələr həmin standartların tətbiqində faktiki olaraq dövlətləri kibertəhlükəsizliyə daha da yaxınlaşdıran strateji çərçivə təqdim edib.

Sözügedən kontekstdə, Avropa İttifaqı və Avropa Şurası tərəfindən maliyyələşdirilən “Kiber Şərq” (CyberEast), həmçinin Avropa İttifaqı tərəfindən həyata keçirilən “Kibertəhlükəsizlik-Şərq” (CyberSecurity EAST) layihələri "Şərq Tərəfdaşlığı" ölkələrinin cinayət ədaləti və təhlükəsiz cəmiyyətin kibertəhlükəsizlik və kibercinayətkarlıqla mübarizə ilə bağlı imkanlarını inkişaf etdirməkdə dəstək məqsədi daşıyır [1].

Avropa İtifaqı tərəfindən ekspertlər qrupu və Sosial Tədqiqatlar Mərkəzinin tədqiqat qrupunun birgə həyata keçirdikləri sosioloji araşdırma zamanı sorğu aparılmasının üz-üzə (face to face) müsahibə metodunun təşkili üçün Azərbaycanın bütün inzibati rayonlarını əhatə edən əhali üzrə milli reprezentativ anketdə ümummilli miqyasda klaster seçmə nümunəsi tətbiq edilib. Sorğuda hədəf əminlik intervalı və xəta əmsalı müvafiq şəkildə 95% və 3%-dir (və ya daha az).

Avropa Şurası tərəfindən müəyyən edilmiş meyarlara uyğun olaraq xüsusi bir nümunə istifadə edilib. Sorğunun aparılmasında seçki dairəsi, ev təsərrüfatları, o cümlədən fərdlər səviyyəsində üç mərhələdə təbəqəli model tətbiq edilib. İntervüyerlər respondentlərin evlərində üz-üzə qaydada anket sorğusu aparıblar. Sorğuda iştirak etmək üçün hər ailədən yalnız bir respondent seçilməklə, gender-yaş və gender-təhsil kvotaları nəzərə alınıb. Ümumilikdə, 1600 respon-

dentdən ibarət yekun seçmə üzrə əlaqə saxlanılanların cavab nisbəti 48%-dən ibarət olub [1].

Müəssisə və təşkilatlarla sorğunun aparılmasına gəldikdə, 64 respondent arasında üzbəüz sorğu keçirilib. Bu rəqəmin 100-dən aşağı olmasının əsas səbəbləri aşağıdakılardır: a) əlaqə saxlanılan bir çox şirkətlərdə/qurumlarda İT-dən istifadə çatışmazlığı; b) həvəsləndirici amillərin çatışmazlığı; c) sorğuda iştirak üçün rəsmi məktubla müraciət edilən şirkətlərdən cavab alınmasının gecikməsi.

Sorğuda iştirak barədə respondent razılığı əldə olunduqdan sonra ev təsərrüfatları və ya ailədə 18 yaşdan yuxarı bir nəfər tərəfindən suallar cavablandırılıb. Mümkün qədər əhalinin bütün təbəqələrinin sorğuda iştirakının əhatə olunması üçün sorğu həftənin müxtəlif günlərində və günün müxtəlif vaxtlarında aparılıb.

Sorğu nəticəsində toplanılan məlumatlar SPSS (Statistical Package for the Social Sciences/Sosial Elmlər üzrə Statistik Paket) proqramı vasitəsilə təhlil edilib.

Sahə işinin aparılması əsasən maneəsiz davam etsə də, qarşıya çıxan ən ciddi problem bir sıra kəndlərdə (xüsusən, dağlıq ərazilərdə) internetin demək olar ki, tamamilə olmaması ilə bağlı olub. Bu, məlumatların toplanılmasına başlandıqdan sonra intervüyerləri müxtəlif seçmə nöqtələrinə keçməyə sövq edən amildir.

Tez-tez rast gəlinən digər məqam isə bəzi insanların (xüsusən, ucqar kəndlərdə) internetdən ilk növbədə yalnız müəyyən məqsəd və fasilələrlə, məsələn, lazım olduqda Votsap (WhatsApp) mesajlaşmaları və ya Yutub (YouTube) platformasına baxılması üçün istifadə etmələridir. Belə fərdlər əsasən passiv istifadəçilər hesab olunurlar. Onlar sorğuda uyğunluq təşkil etməsələr də, bu kimi iştirakçılarla əlaqəli qeyd edilən hal sahə işinin müddətinin müəyyən dərəcədə uzanmasına səbəb olan faktordur. Müəssisə və şirkətlərlə işin aparılması baxımından ən böyük maneə isə şəhərlərdən kənarda yerləşən qurumlar (şirkətlər) tərəfindən İT təhlükəsizlik tədbirlərinin olduqca məhdud səviyyədə tətbiqi ilə bağlıdır. Beləliklə, kənd ərazi vahidlərində yerləşən müəssisələrlə aparılan müsahibələr zamanı və sahə işinin əvvəlində ilkin məlumatlar təhlil edilərkən data toplanılmasının əhəmiyyətli dərəcədə gecikdirilməsinə gətirib çıxaran məqam aydın olub. Bundan başqa, bizneslərin əksəriyyətinin oflayn qaydada həyata keçirilməsi nəticəsində sorğuda iştirak edən müəssisələrin nadir hallarda İT təhlükəsizlik tədbirlərindən istifadəyə meyilli olması məlum olub. Məhz bununla əlaqədar olaraq belə tipli müəssisələri təmsil edən nümayəndələr sorğu zamanı bir çox suallara cavablar təqdim etməyiblər. Sorğu prosesində data toplanılmasının daha səmərəli şəkildə baş tutması üçün seçmənin ikinci mərhələsi təşkil edilib.

Sorğu nəticəsində məlum olub ki, əks tədbirlərin həyata keçirilməsi istiqamətində Kompüter İnsidentlərinə qarşı Mübarizə Mərkəzi (KİMM) 2021-ci ilin əvvəlindən etibarən kiberdələduzluq halları, bu cür cinayətlərdən müdafiə üsulları barədə ictimaiyyətin məlumatlılığını 40% həddində artırmağa nail olub.

Əlaqə saxlanılmış əhali sayı üzrə sorğuda ev təsərrüfatlarının 71,9%-nin (1643 nəfərin) internetə çıxışının olduğu məlum olub. Respondentlərin 28.3%-nin isə internetə heç bir çıxışı olmayıb [1].

Keçirilən sorğunun nəticələrinə əsasən smartfonlar (ağıllı mobil telefon) şəxsi ehtiyaclar üzrə ən çox istifadə edilən cihaz kimi qeydə alınıb. Təhlil göstərir ki, respondentlərin 73,3%-i rəqəmsal cihazlardan istifadə edərkən bəzi ehtiyat tədbirləri görürlər. Bununla yanaşı, respondentlərin nisbətən geniş hissəsinin (62,8%) “kibercinayət” sözü ilə

tanış olmadığı məlum olub. Müvafiq şəkildə, rəyi soruşulanların 93,6%-nin fişinq barədə məlumatsız olduğu təsbit edilib. Respondentlərin əksəriyyəti (86.7%) hesab edib ki, onlayn cinayət fəaliyyəti hesab edilən hər hansı bir cəhdin hədəfinə çevrilməyib. Həmin şəxslərə mövzu üzrə anlayışlar izah edildikdən sonra bu halda respondentlərin 74,3%-i belə növ cinayətin baş verməsi haqqında eşitdiklərini ifadə edib. Fişinq qurbanlarından sorğu suallarını cavablandıranların xeyli hissəsi (69.6%) sözügedən hadisələrdən ciddi şəkildə təsirlənmədiklərini və ya belə halları narahatlıq hesab etmədiklərini qeyd ediblər. Bununla yanaşı, respondentlərin yarıdan çoxu (56.9%) fikirləşir ki, qonşuluqda kimsə fişinq mesajı alarsa və daha sonra bunun qeyri-qanuni əməl olduğunu bilərsə, aidiyyəti qurumlara (polisə) bildirər. Sorğu iştirakçılarının 52,7%-i özünü və ailəsini qorumaq üçün fişinq haqqında yetərli məlumata malik olduğunu qeyd edib [1].

Tədqiqatın nəticələri sübut edir ki, sorğu iştirakçılarının 97,7%-i "rənsamveə" (ransomware) sözü ilə tanış deyil. Respondentlərin 60,7%-nin rəyinə əsasən qonşuluqda kiməsə qarşı rənsamveə hücumu baş verərsə və beləliklə, onların kompüter və mobil telefonlarına, yaxud oradakı fotoşəkil və digər məlumatlarına giriş imkanı itirilərsə, zərərçəkmiş şəxslər səlahiyyətli orqanlara və ya polisə bu barədə məlumat verərlər.

Respondentlərin demək olar ki, üçdə ikisi kibertəhdid və zorakılıq-təhqir (sui-istifadə, istismar və s.) ilə bağlı fikir bildirməkdən imtina edib. Bu istiqamətdə sualları cavablandırmağa razılaşanların isə 91%-i onlayn zorakılıqla üzləşməyib. Əksəriyyət şəxsi hesablarına giriş məlumatlarının son 12 ayda onlayn şəkildə ələ keçirilməsinə (yayılmasına) dair xəbərsiz olub. Digər tərəfdən, respondentlərin 61,6%-i özünü və ailəsini onlayn şəxsiyyət (kimlik) oğurluğu hadisəsindən mühafizə etmək üçün lazımi qədər məlumata malik olduğunu qeyd edib. Sorğu iştirakçılarının az hissəsi bu növ cinayətdən əziyyət çəksə belə, respondentlərin 40,6%-nə görə, məlumatlara daxil olunması və onlayn şəxsi məlumatlar/kimlik oğurluğu ən çox narahatlıq yaradan kiberpozuntudur [1].

Tədqiqatda İT mütəxəssisləri ilə fokus qruplarda təmsil olunan qurum/müəssisə və ya təşkilatların əhəmiyyətli hissəsində kibertəhlükəsizlik məsələlərinə cavabdeh xüsusi təşkilati rol/vəzifə və ya şöbənin olmadığı aşkara çıxıb. İT büdcəsi daxilində kibertəhlükəsizliyə çəkilən xərclərin həcmi isə, ümumiyyətlə, aşağı olmaqla yanaşı, əksər müəssisələrin sığortası yoxdur. Müşahidələr göstərib ki, ISO 27001 standartları fokus qrup iştirakçısı olan müəssisələrdə ən çox riayət edilən geniş yayılmış təhlükəsizlik standartıdır. Alınan qənaətə əsasən müəssisələrin/şirkətlərin çoxunda kibertəhlükəsizliyə yanaşma çox aşağıdır, yaxud ümumiyyətlə mövcud deyil. Hazırda mövcud olan kibertəhlükəsizlik texnologiyaları arasında viruslardan, casus proqramlarından və s. qorunmaq üçün proqram təminatından istifadə üstünlük təşkil edir, spam/fişinq filtrasiyası, məlumatların mühafizəsi və nəzarət isə yalnız bundan sonra gəlir. Kibercinayətkarlığın qurbanı olma ilə bağlı suallara dair rəylər fokus qrupunda iştirak edən müəssisələr arasında zərərçəkmişlərlə (qurbanlarla) bağlı halların çox aşağı olduğunu üzə çıxarıb. Bununla yanaşı, sorğuda iştirak edənlərin müvafiq olaraq 45,3%-i və 46,9%-i qabaqcıl təhlükəsizlik texnologiyaları və bu istiqamətdə ayrılan daha miqyaslı büdcələrin işlədikləri qurumların təhlükəsizliyini yaxşılaşdırmağa kömək edəcəyini düşünür. Müəssisələrin 65,6%-i noutbuklarda fayl şifrələməsi qaydasından istifadə edib. COVID-19 pandemiyasının müəssisələrə qarşı kibercinayətkarlığı kəskinləşdirməsinin aşkar edilməsi yönündə cavablar isə

deməkolar ki, bərabər şəkildə bölünüb [1].

Beləliklə, sorğu nəticələrinin sosial aspektdə təhlilindən aydın olur ki, Ümumi Əhali Qrupunun (ÜƏQ) rəylərində müxtəlif tezliklərdə yalnız üç kibercinayət hadisəsinə rast gəlinib: onlayn zorakılıq, şəxsi məlumatlar (kimlik) oğurluğu və fişinq. Bütün digər kibercinayətlər (rənsamveə, şəxsi məlumatların yayılması) barədə məlumatlılıq isə olduqca məhdud səviyyədə qeydə alınmaqla, sözügedən anlayışlar əsasən heç vaxt eşidilməyən növlərdir. Kibercinayətkarlığın qurbanı olma baxımından şəxsiyyət (kimlik) oğurluğu halları meydanagəlmə tezliyi və təsir miqyası nöqteyi-nəzərindən fərqlənir. ÜƏQ-lər arasında onlayn zorakılıq hadisələri şəxsiyyət oğurluğuna (4 bank kartı və 3 sosial media hesabı oğurluğu) nisbətdə çox yayılsa da (9 hal), birincinin zərərçəkmiş respondentlərə təsirə malik olmadığı məlumdur. Aparılan araşdırmaya görə, bütün iştirakçıların fişinq zəngləri və e-poçtları qəbul etməsi, lakin yalnız iki nəfər zərərçəkmiş şəxsin müəyyən edilməsi faktı özlüyündə bu kibercinayət növü və ondan müdafiə üzrə yüksək məlumatlılığın olmasını əks etdirir [1].

Sorğunun nəticələri göstərir ki, əksər respondentlər onlayn rejimdə çalışarkən və smartfonlardan istifadə edərkən özlərini təhlükədə hiss edirlər. “Heç nə və heç bir yer təhlükəsiz deyil” ifadəsi bu baxımdan üstünlük təşkil edən cavablardandır. Təhlükəsizliklə bağlı fokus qruplardan əldə edilən ən mühüm yanaşmalardan biri isə internet xidməti provayderlərinin (İXP) nümayəndələri tərəfindən irəli sürülüb. Belə ki, görülən bütün ciddi tədbirlərə baxmayaraq, hətta onlar da özlərini tam təhlükəsiz şəraitdə hiss etmədiklərini bildiriblər. Səbəb kimi istifadə edilən avadanlıq və proqram təminatlarının bütünlüklə xaricdən idxal olunması göstərilib.

Kibercinayətin qavranılma səviyyəsinə gəldikdə, “internet cinayətləri” və “informasiya cinayətləri” ifadələri ÜƏQ-lər arasında mövzu ilə bağlı bütün məqamları əhatə edən fikirlər kimi tez-tez qeyd edilsə də, İT mütəxəssislərinin bu nöqteyi-nəzərdən cavabları kəskin fərqlənir.

Bu qisim respondentlərə görə, digər cinayətlərlə müqayisədə kibercinayətlər potensial olaraq daha təhlükəlidir. Belə qənaət mövcuddur ki, zorakılıq və mülkiyyət əleyhinə cinayətlər, adətən, fərdlər, yaxud ictimai səviyyədə baş verdiyi halda, kibercinayətlərin geniş cəmiyyət miqyasında təsiri mümkün ola bilər. Bundan əlavə, İT mütəxəssisləri, İXP və hüquq-mühafizə orqanlarını təmsil edən bəzi respondentlər ziyan verilməsi məqsədilə başqasının avtomobilinin və ya ağıllı ev sisteminin asanlıqla zədələnməsinin mümkünlüyü fikrini səsləndiriblər.

Əksər ÜƏQ-lər və zərərçəkənlər arasında fişinq ən narahatedici kibercinayət növü kimi qeyd edilməklə, digər qruplarda müxtəlif cavablara (kibermüdaxilə/DDoS, kritik infrastruktur sahələrinə hücum) da rast gəlinib.

Hüquq-mühafizə orqanlarını təmsil edən respondentlərin baxışlarına əsasən, kibercinayətkarlığın əhəmiyyətli dərəcədə narahatedici tərəfi kritik infrastruktura ziyan yetirmək və beləliklə, qarışıqlıq, xaos yaratmaq xüsusiyyətidir. Bundan başqa, bir sıra qrupların rəylərində kibertəhdid kimi müəyyən hallarda vəziyyətin intiharla nəticələnə biləcəyinə dair qənaət də mövcuddur.

Müəyyən qrup respondentlər (18-21yaş) gələcəkdə kibercinayətkarlığın qurbanı olma ehtimallarına əsasən polisə müraciət ediləcək əsas struktur kimi yanaşsalar da, ümumilikdə ÜƏQ-lər, eləcə də QHT nümayəndələri bu təsisatı hadisə barədə məlumat bildiriləcək qurum kimi istisna etməyərək, əslində İT ekspertinə müraciətə müsbət baxdıqlarını bəyan ediblər. Belə ki, respondentlər

baş vermiş kiberhadisə nəticələrinin həlli üzrə polisin səriştəliliyinə yüksək dərəcədə inanmasalar da, polisə şikayət etməyi əsas vasitələrdən biri kimi nəzərdə saxlayıblar. Bununla da sorğu nəticələrindən də göründüyü kimi, kibercinayətlərin aşkarlanması və qeydiyyata alınmasında İT sektoru ilə polis arasında möhkəm əməkdaşlığa ehtiyac duyulur.

Məktəblilərin üzləşdikləri risklərin vurğulanması özlüyündə problemin olduqca vacib tərəfini əhatə edir. Sorğu çərçivəsində fokus qrupların birindən gələn təklifə əsasən ümummilli və məktəb səviyyəsində bu istiqamətdə maarifləndirmə işlərinin aparılması xüsusi əhəmiyyət kəsb edir.

Beləliklə, sorğunun aparıldığı bütün qruplar elektron xidmətlərdən (e-gov və e-ticarət) istifadənin artması, eyni zamanda, əvvəllər kağız üzərində toplanan məlumatların rəqəmsallaşdırılması nəticəsində kibercinayətkarlıq hallarının gələcəkdə intensivləşəcəyinə dair ortaq qənaətə malikdir. Buna baxmayaraq, ÜƏQ-lər ilə keçirilmiş sorğunun cavab göstəriciləri ilə fokus qruplarla müsahibələrin nəticələri arasında ən diqqətçəkən fərq kibercinayətkarlıqla bağlı gözləntilərə aiddir. Demək olar ki, hər bir fokus qrup iştirakçısı kibercinayətkarlığın gələcəkdə kəskin səviyyəyə çatacağını gözləsə də, ÜƏQ-lərin təxminən yarısı əksinə, bu istiqamətdə geriləmə olacağını düşünür. Ümumi rəylərdə belə təəccüblü məqamların meydana gəlməsi seçmə meyarlarına uyğun izah edilə bilər. Fokus qruplar üçün iştirakçılar müəyyən edilərkən hansısa kriteriyalar (məsələn, internetdən fəal istifadə, İT və ya İXP sektorunu təmsil etmə və s.) üzrə seçmə aparılır və beləliklə, nəticələrin müqayisəsi zamanı müxtəlif göstəricilər yaranır. Ümumi əhali sorğusunda isə seçmə təsadüfi qaydada həyata keçirilib.

## Nəticə və təkliflər

Sosial kibertəhlükəsizliklə bağlı araşdırmalar fərdi məxfiliyin qorunmasına deyil, qrupların necə manipulyasiya edildiyinə və fikirlərin formalaşmasına yönəlib. Sosial kibertəhlükəsizlik sosial təsir və qrup manipulyasiyası ilə əlaqəli yeni yaranan elm sahəsidir. Sosial kibermühitin formalaşdırılması və sosial kibertəhlükəsizliyin təşviqi üçün bu yeni elm sahəsində gələcək tədqiqatlara ehtiyac var [10].

Beləliklə, kibertəhlükəsizlik və onun sosial aspektlərinin empirik tədqiqat prizmasından tədqiqi aşağıdakı nəticələrə gəlməyə imkan verir:

- ❖ Azərbaycanda kibercinayətlərin bütün formaları geniş yayılmayıb. Bir çox kibercinayət növləri üzrə zərərçəkmə nisbəti istər fərdi, istərsə də təşkilati miqyasda olduqca aşağıdır. Respondentlərin əsas mövzuya dair məlumatsızlığı müşahidə edilən faktlardandır.
- ❖ Kibercinayətkarlığın səviyyəsinə adekvat olan yeni “onlayn kiberdüşüncə tərzinin” (“online-cybermindsets”) formalaşmasının müəyyən dərəcədə gecikdiyi reallıqdır. Bu istiqamətdə əsas maneə cəmiyyətin kibercinayətkarlıq haqqında düşüncələri ilə təhlükənin reallığı arasında mövcud olan əhəmiyyətli qavrayış, dünyagörüş boşluğudur (perception gap). Bu qavrayış boşluğunun nəticəsi ondan ibarətdir ki, ictimaiyyətin bir çox üzvlərinin onlayn təhlükəsizliyə həssaslığının olmaması, onu öz həyatının prioritetləri sırasına daxil etməməsi toplumu kibercinayətin qurbanı olmaq riski ilə üzüzə qoya bilər.
- ❖ “Kibercinayət” termininin əhali arasında hələ də geniş istifadə edilməməsi bu sahədə daha çox maarifləndirmə və məlumatlandırmanın aparılmasını zəruri edir. Xatırladaq ki, 2021-ci ildə Azərbaycanda 10 minə yaxın vətəndaşa qarşı kiberdələduzluq edən beynəlxalq kiberfırıldaqçı kripto-piramida ("Ponzi sxemi")

ifşa edilmişdi. Bu faktın özü əhalinin kibercinayətkarlıq haqqında tam məlumatlı olması qənaətinə ziddir.

❖ İnformasiyanın qorunması baxımından sorğunun nəticələri müsbət mənzərəni təqdim edir. Bununla yanaşı, hədəf qrupların əhəmiyyətli hissəsi özlərinin kifayət qədər qorunmadıqlarını hiss edir. Bu da CERT tərəfindən təşkil edilən maarifləndirmə proqramlarının faydalılığını, lakin onun coğrafiyası və əhatəsinin intensivləşdirilməsinə ehtiyac olduğunu göstərir.

❖ Kibertəhlükəsizliyin formalaşmasına müsbət təsir göstərə biləcək sosial və mədəni amillərə gəldikdə, bu sırada Azərbaycanda ənənəvi ailə dəyərlərini qeyd etmək olar. Ailələr uşaqların kibertəhlükəsizlik probleminə həssasdır. Fokus qrup iştirakçıları olan valideynlər özlərinin pandemiya zamanı ekranlar qarşısında və cihazlarla çox vaxt keçirdikləri üçün uşaqlarla bağlı narahatlıqlarını vurğulayıblar.

❖ Məlumdur ki, maraqlı qüvvələr Azərbaycan gəncləri arasında yad dini-ideoloji təbliğatda yeni texnologiyalardan istifadə edirlər. Müxtəlif məqsədləri, hədəfi olan virtual məkan burada sui-istifadə edilir. Bir çox faktlar göstərir ki, əsasən İrandan yönəldilən, uşaq və gəncləri hədəfə alan məqsədyönlü fəaliyyətlər çoxluq təşkil edir.

❖ Respondentin məsələləri qavramasına təsir edən digər sosial və mədəni kontekst internetdə “qürur, şərəf, ləyaqət, təhqir və s. ilə bağlı intihara səbəb ola biləcək, ənənəvi dəyərlərə, mentalitetə xas olan “şərəf/namus kibercinayətləri”-dir ("honor cybercrimes").

❖ Əksər insanlarda belə bir yanlış təsəvvür formalaşıb ki, onlayn məkanda aparılan bütün fəaliyyətlər haradasa anonim/naməlumdur. Cəmiyyəti kibertəhlükəsizlik sahəsində maarifləndirmək üçün aidiyyəti qurumların, bütün sektorların, təhsil müəssisələrinin, özəl və dövlət qurumlarının üzərinə böyük məsuliyyət düşür.

❖ İKT sənayesinin tədqiqi və inkişafı üçün İKT təhsilinin inkişafı, virtual təlim mərkəzləri və kompüter proqram təminatı mühəndisliyi mərkəzlərinin milli səviyyədə təşviqindən ibarət kompleks planın effektiv şəkildə həyata keçirilməsinə ehtiyac var.

❖ Azərbaycanın kiberqüdrətini artırmaq üçün universitetlərdə və akademik mühitdə kibertəhlükəsizliyin dərki yönündə tədqiqatların aparılmasına, maarifləndirici və informasiya fəaliyyətlərinin güclü şəkildə təşviqinə ehtiyac var. Akademik institutlarda kibertəhlükəsizlik mərkəzlərinin yaradılması cəmiyyətdə kibermüdafiə və fövqəladə hallar siyasətinin formalaşdırılmasına kömək edə bilər.

❖ Kibertəhlükəsizlik yönümlü tədqiqatlar aparan ayrıca qurumun, akademiya və s. təsis edilməsi Azərbaycanın kibertəhlükəsizlik üzrə ekspertlərin yetişməsinə təkan verə bilər.

❖ Ən vacib məsələlərdən biri cəmiyyətdə kibertəhlükəsizlik mədəniyyətinin formalaşmasıdır. Bu amil bu sahənin mütəxəssisləri qarşısında ən mühüm çağırışlardan biri kimi durur.

❖ Kibercinayətkarlıqla mübarizə üzrə güclü və operativ ixtisaslaşdırılmış bölmələr, “kiberordular”, “kiberkönüllülər” formatında resursların hazırlanması gündəliyə daxil edilməlidir. Mövzu ilə bağlı milli müzakirə forumları, dinləmələr kibercinayətkarlıqla bağlı real durumun dərk edilməsinə, ictimai rəyin diqqətinin yönəlməsinə maksimum şərait yaratmağa kömək edə bilər;

❖ Araşdırmadan da göründüyü kimi, Azərbaycanda ali təhsil müəssisələrində kibertəhlükəsizliklə bağlı heç bir bakalavr və magistr proqramları təklif olunmur və kibertəhlükəsizlik mövcud proqramlara daxil edilmir. Fraqmentar məzmunlu müəyyən mühazirələr oxunsa da, bu, ölkədə kibertəhlükəsizlik sahəsində yeni

mütəxəssislərin hazırlanmasında, fundamental problemlərin həllində çarə sayıla bilməz. Bir çox özəl təhsil şirkətləri kommersiya məqsədilə Azərbaycanda müxtəlif mühazirələr və kurslar təqdim edirlər. Bunlara həm yerli, həm də xarici kurslar daxildir.

❖ Kibertəhlükəsizlik siyasətinin mövcud vəziyyətinin təhlili milli kibertəhlükəsizlik strategiyasının qəbul edilməsinə təcili ehtiyac olduğunu üzə çıxarır. Sürətlə inkişaf edən informasiya infrastrukturu fonunda kibertəhlükəsizlik məsələlərinin nisbətən ləngiməsi mənzərəsi mövcuddur.

❖ Tədqiqatın nəticələri göstərir ki, İKT-nin və təhlükəsizlik infrastrukturunun inkişafı strategiya və qanunvericiliklə tarazlaşdırılmalıdır. Səlahiyyətli şəxslər kibertəhlükəsizlik siyasətlərinin və strategiyalarının effektivliyinə dair vaxtaşırı təhlillər aparmalıdırlar. Kiberhücumların dağıdıcı təsiri bir çox ölkələrin, o cümlədən Azərbaycanın milli təhlükəsizlik strategiyalarını təhlükə altına qoyur. Azərbaycanın ənənəvi milli təhlükəsizlik çərçivəsi dövlətin sürətlə artan e-infrastrukturunun təhlükəsizliyini təmin etmək üçün yeni təhlükəsizlik mexanizmlərini özündə birləşdirərək yeni kiberislahatların aparılmasını tələb edir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

**Azərbaycan dilində:**

1. Azərbaycanda kibercinayət və kibertəhlükəsizlik barometri. Ölkə üzrə kibercinayət və kibertəhlükəsizliyə ictimai münasibətin kəmiyyət və keyfiyyət əsaslı təhlili. Analitik hesabat. /Avropa İttifaqının, Avropa Şurasının və Sosial Tədqiqatlar Mərkəzinin birgə layihəsi/. Bakı, 2022, 115 s. - https://stm.az/storage/common/1682925330.KIBERCINAYET2022.pdf

2. "İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 2012

3. "Rəqəmsal transformasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 2021

**İngilis dilində:**

4. Azerbaijan talks cyberthreats faced by local users in several large cities. /13 December 2021/ - https://en.trend.az/business/it/3525910.html

5. Azerbaijani banks cybersecurity review. Cyber Risk Advisory. 2020. Deloitte Research Centre. - https://www2.deloitte.com/az/en/pages/risk/articles/azerbaijani-banks-cyber-security.html

6. Digital 2022: Azerbaijan. /15 February 2022/ - https://datareportal.com/reports/digital-2022-azerbaijan

7. Gass, R.H., Seiter, J.S. Persuasion: Social influence and compliance gaining. Routledge, UK (2015).

8. Government probe traces cyber-attacks to Iran, Netherlands. /23 January 2012/ - https://www.azernews.az/nation/40524.html

9. Joseph, K., Wei , W., Benigni, M., Carley, K.M. A Social-event Based Approach to Sentiment Analysis of Identities and Behaviors in Text. Journal of Mathematical Sociology. 40(3), 137-166 (2016).

10. Kathleen M. Carley, Guido Cervone, Nitin Agarwal, Huan Liu. Social Cyber-Security. http://www.casos.cs.cmu.edu/projects/projects/social_cyber_security/

Carley%20et%20al%20Social%20Cyber%20Security.pdf

11. Makili-Aliyev K. & Rehman. (2013). A.Cyber-Security Objective: Azerbaijan in the Digitalized World. SAM Review. - ict.az/en

12. Marcus Franda. Launching into Cyberspace: Internet Development and Politics in Five World Regions. London: Lynne Rienner Publishers, 2002, 280 p.

13. Natalia Spînu. Azerbaijan Cybersecurity Governance Assessment. Switzerland. November 2020 - https://www.dcaf.ch/sites/default/files/publications/documents/AzerbaijanCybersecurityGovernanceAssessment.pdf

14. National Cybersecurity Index – Azerbaijan. 17 Mart 2020

15. Reveron, D.S., ed.: Cyberspace and national security: threats, opportunities, and power in a virtual world. Georgetown University Press, Washington D.C. (2012).

16. The Global Risks Report 2018. / 13th Edition, World Economic Forum/ - https://report-files.weforum.org/docs/WEF_GRR18_Report.pdf

17. Worldwide digital population 2023. / May 22, 2023/ - https://www.statista.com/statistics/617136/digital-population-worldwide/

**Zahid Oruj**

## THE FIRST PUBLIC OPINION POLL ON CYBER SECURITY IN AZERBAIJAN: SOME FINDINGS

### Abstract

The article examines cybersecurity in Azerbaijan and its social aspects based on the results of a public opinion poll - from the standpoint of empirical research. It is noted that the issues of cybercrime and cybersecurity are among the strategic priorities of our state in Azerbaijan, which is one of the leading states in the region in terms of the development of ICT technologies and e-state building, as well as the number and rapid growth of Internet users. The country's leadership is paying close attention to the preparation of the relevant legislative framework in this area, the creation and development of infrastructure.

In the past few years, especially in the context of the emergence of a global pandemic, the further expansion of online activity, the increasing pace of cybersecurity - the "cyber pandemic" - this issue has become a strategic priority.

The sociological research studied public opinion with the participation of the general population, victims of cybercrime, the private sector and Internet service providers. The quantitative and qualitative results of in-depth interviews with focus groups were also analyzed, it was analyzed that the ratio between the increase in the level of cybercrime in the world and the level of awareness of cybercrime in society is still not adequate. In order for society not to face the risk of becoming a victim of cybercrime, it is necessary to raise public awareness of cybersecurity, implement training, educational, educational and research programs in this direction. It was also emphasized that the formation of a culture of cybersecurity in society is an important task for the relevant institutions and professionals in this field.

**Keywords:** cyber security, public opinion, social aspects, awareness of cyber threats, education, digital society, social cyber security, cyber security culture

**Захид Орудж**

# ПЕРВЫЙ ОПРОС ОБЩЕСТВЕННОГО МНЕНИЯ О КИБЕРБЕЗОПАСНОСТИ В АЗЕРБАЙДЖАНЕ: НЕКОТОРЫЕ ВЫВОДЫ

## Резюме

В статье рассматривается кибербезопасность в Азербайджане и ее социальные аспекты на основе результатов опроса общественного мнения - с позиции эмпирического исследования. Отмечается, что вопросы киберпреступности и кибербезопасности являются одними из стратегических приоритетов нашего государства в Азербайджане, которое является одним из ведущих государств в регионе с точки зрения развития ИКТ-технологий и электронного государственного строительства, а также количества и быстрого роста пользователей Интернета. Налицо чуткое внимание руководства страны к подготовке соответствующих законодательных основ в этой сфере, созданию и развитию инфраструктуры.

В последние несколько лет, особенно в условиях возникновения глобальной пандемии, дальнейшего расширения масштабов онлайн-активности, нарастания темпов кибербезопасности — “киберпандемии” — данный вопрос стал стратегически приоритетным.

В ходе социологического исследования изучалось общественное мнение с участием широких слоев населения, жертв киберпреступлений, частного сектора и интернет-провайдеров. Также были проанализированы количественные и качественные результаты глубинных интервью с фокус-группами, было проанализировано, что соотношение между ростом уровня киберпреступности в мире и уровнем осведомленности о киберпреступности в обществе по-прежнему не является адекватным. Для того чтобы общество не столкнулось с риском стать жертвой киберпреступности, необходимо повышать информированность общества о кибербезопасности, реализовывать обучающие, просветительские, образовательные и научно-исследовательские программы в этом направлении. Также было подчеркнуто, что формирование культуры кибербезопасности в обществе является важной задачей для соответствующих институтов и специалистов в этой области.

**Ключевые слова:** кибербезопасность, общественное мнение, социальные аспекты, осведомленность о киберугрозах, образование, цифровое общество, социальная кибербезопасность, культура кибербезопасности

# SÜNİ İNTELLEKT TEXNOLOGİYALARININ İNKİŞAFI VƏ TƏTBİQİNİN SOSİAL NƏTİCƏLƏRİ

**Tahirə ALLAHYAROVA**
*Sosial Tədqiqatlar Mərkəzi İdarə Heyətinin üzvü,*
*departament müdiri, professor*
*E-mail: tahirallahyarova@gmail.com*
*ORCID: 0000-0001-6491-0757*

**Xülasə.** Məqalədə süni intellekt texnologiyalarının, onun ən son formalarından biri olan generativ süni intellektin və yeni nəsil çatbotların tətbiqinin sosial effektləri və nəticələrindən bəhs edilir.

Müəllif süni intellekti 4-cü sənaye inqilabının, qlobal texnoloji inqilabın və bəşəriyyətə qarşı yeni çağırışın mühərriki kimi xarakterizə edir. Qeyd olunur ki, süni intellektin nəticələri qlobal əmək bölgüsünün, texnoloji zəncirlərin köklü şəkildə yenidən qurulmasına və nəticədə dünya iqtisadi və siyasi gücünün yenidən formalaşmasına təsir göstərəcək.

Dünyanın bütün regionlarında yeni nəsil İT texnologiyalarından və onların imkanlarından müxtəlif məqsədlər üçün istifadə edilməsi çox ciddi sosial nəticələrə, siyasi və beynəlxalq sabitliyin pozulmasına, yeni miqrasiya dalğalarının yaranmasına, ekstremist ideologiyaların yayılmasına, beynəlxalq terrorizmin və mütəşəkkil cinayətkarlığın artmasına səbəb ola bilər.

Məqalədə həmçinin süni intellektin sosial nəticələri ilə bağlı araşdırmalara nəzər salınır. Siyasi, iqtisadi, media və jurnalistika, təhsil, səhiyyə və sosial elmlərdə süni intellektdən istifadənin nəticələri təhlil edilir. O da vurğulanır ki, sosial şəbəkələr əvvəlcə demokratiyanı gücləndirən yenilik kimi təqdim edilsə də, sonradan dezinformasiya və xaos yarada bilən siyasi texnologiyalara çevrilib.

Yekun hissədə müəllif proseslərin ictimai-siyasi nəticələri, onlardan informasiya qarşıdurmasında istifadə, seçki texnologiyaları, ictimai rəyin manipulyasiyası, təhdidlər və rejimdəyişdirici siyasi məqsədlərlə mümkün istifadəsinin qarşısının alınmasının yolları və mexanizmləri ilə bağlı qənaətlərini təqdim edir.

**Açar sözlər:** süni intellekt (Sİ), generativ süni intellekt, sosial təsir və nəticələr, ChatGPT, yeni nəsil çatbotlar, cəmiyyət, Sİ və sosial elmlər, Sİ və iqtisadi proseslər, Sİ hüququ, Sİ idarəçiliyi

## Giriş

Yaratmaq, yazmaq tarix boyu insan ağlına xas olan keyfiyyət olub. Minillik tarix boyu insan təfəkkürü yazılı mətnlər, mədəniyyət, sənət, institutlar, sosial münasibətlər, cəmiyyətlər yaratmaq bacarığı ilə unikal varlıq kimi tək olub. 2022-ci ilin noyabr ayından artıq insanın - təbii intellektin rəqibi ortaya çıxıb. İnsan ağılı tarix boyu olduğu kimi, gündəlik fəaliyyətində müxtəlif işləri icra edərkən süni intellekt (Sİ) proqramları mediada xəbərlər, mətnlər yazır, sualları şərh edir, portretlər çəkir, elektron poçt yazışmalarına cavab verir, vergi bəyannamələrini hazırlayır, şeir və mahnılar yazır, bakalavr və magistr dərəcələrini alır, kodlaşdırma aparır, memarlıq planlarını çəkir, yüz cür layihələri cızır, sağlamlıqla bağlı məsləhətlər, dərman reseptləri verir, cərrahiyyə əməliyyatı aparır, dietik menyular hazırlayır və s. və i.a. Süni intellekt artıq həyatımıza daxil olub. Generativ adlanan yeni xassəli süni intellekt, yeni nəsil çatbotlar cəmiyyət həyatını köklü surətdə dəyişikliyə məruz qoyur.

2022-ci ilin noyabr ayından etibarən ABŞ-ın aparıcı qlobal media agentliklərində, çap və onlayn qəzet və jurnallarda məqalələrin süni intellekt (bundan sonra mətndə - Sİ), "Generativ Süni İntellekt"- ChatGPT çatbotu tərəfindən yazılması xəbəri gündəmə "informasiya bombası" kimi düşdü. Son illər Sİ sahəsində böyük kəşflər olsa da, nədənsə ChatGPT nümunəsi və onun məqalə, xəbər, esse yazması, mövzular sifariş etməklə təsviri, "analitik" icmallar təqdim etməsi tədqiqatçıların bu yeniliyə marağını dəfələrlə artırdı. Alarmist-həyəcan siqnalı kimi ifadə edilə biləcək mövqelərdən tutmuş, biganəliyə qədər müxtəlif proqnozlar təqdim edildi, proses indi də davam edir.

Yeni Sİ fenomeni sosial elmlər qarşısında da bir çox suallara cavab verməyi imperativə çevirdi. Onlardan bəziləri: Sİ texnologiyalarının sosial həyata fəal tətbiqi cəmiyyət üçün nə kimi yeni çağırışlar yaradıb? Bu çağırışlar daha çox müsbət, yoxsa mənfi məzmunludur? Müasir sosial/dövlət idarəçiliyində Sİ formalaşan yeni mühitin elementlərindən biri, yoxsa təməl "kərpic"-onurğa sütunu olacaq? Sİ cəmiyyətdə iqtisadi münasibətləri nə dərəcədə dəyişir? Yeni texnologiyalar rəqəmsal əsrdə insanların ünsiyyət/kommunikativ statusuna nə kimi təsir göstərir? Sİ ictimai-siyasi proses və sistemlərin fəaliyyət ənənəsini hansı istiqamətdə dəyişəcək: resurs, yoxsa lənətə çevriləcək? Təbii və süni intellekt savaşının perspektivləri ilə bağlı proqnozlarda realist, bədbin və nikbin proqnozların müqayisəsi nəyi göstərir? və s.

Tarix boyu elmi-texniki inkişaf və inqilabın nəticələri sosiumda mütləq olaraq cavab reaksiyası yaradıb. Hələ XIX əsrdə İngiltərədə "Ludditlər hərəkatı" - istehsalatda texnikadan (toxuculuq maşınlarından) istifadə olunmasına qarşı fəhlələrin "maşınları dağıdan" radikal fraksiya yaratması ilə bağlı hərəkat məlumdur. Zaman keçdikcə bu termin sənayeləşməyə, avtomatlaşdırmaya, kompüterləşdirməyə və ya ümumiyyətlə, yeni texnologiyalara qarşı çıxanları ifadə etmək üçün istifadə edilib [22]

Son onilliklərdə texnoloji inkişafın informasiya inqilabına transformasiyası, cəmiyyətlərin total rəqəmsallaşması, elektron idarəçilik və s. proseslər yüksələn xətt üzrə davam edir. İnsanlar yeni texnoloji innovasiyalara alışana qədər müəyyən vaxt lazım olur və müvafiq olaraq bu zaman müəyyən diskomfort hissləri ilə müşayiət olunur. Üstəlik də informasiya-kommunikasiya inqilabının sürəti və intensivliyi fonunda, mövcud şəraitdə sosium, insanlar qeyri-müəyyənlik vəziyyətində olur, onların ənənəvi həyat tərzi, vərdiş və bacarıqları, malik

olduqları təcrübələr sosial proseslərin virtuallaşmasının ciddi təzyiqi altında qalır.

Cəmiyyətdə rəqəmsallaşma prosesləri vətəndaşların bir-biri və dövlət qurumları ilə ünsiyyət formalarını, iştirak modellərini dəyişikliyə uğradır. Bir tərəfdən rəqəmsal texnologiyaların tətbiqi vaxt və əmək itkisini minimuma endirir, sosial idarəetmə proseslərinin demokratikləşdirilməsi və texnokratlaşdırılması, şəffaflıq və məmnunluq səviyyəsini yaxşılaşdırır. Digər tərəfdən isə rəqəmsallaşmanın neqativ təsirləri də üzə çıxır, məsələn, insanlara total nəzarətin texnoloji imkanları yaranır və s.

Sİ texnologiyalarının son bir ildə "qəfil partlayışa" bənzər inkişafı fonunda dünya miqyasında ilk növbədə bu texnologiyaları hazırlayanların, qlobal şirkət sahiblərinin özlərinin narahatlığı dilə gətirməsi indiyə qədər demək olar ki, ilk dəfə baş verib. Sİ texnologiyaları sahəsində tədqiqatların səngidilməsi, yavaşıdılması, hətta müəyyən müddətə moratorium qoyulması təklifləri geniş müzakirə edilir.

2023-cü ilin iyul ayında BMT Təhlükəsizlik Şurası beynəlxalq təhlükəsizliyə və stabilliyə ola biləcək potensial süni zəka riskləri ilə bağlı ilk dəfə iclas keçirib. BMT-nin baş katibi Antonio Quterreş bu yeni texnologiyanın idarə edilməsinə istiqamətlənmiş qlobal nəzarət orqanının formalaşdırılmasına çağırış edib. O bildirib ki, süni zəka sistemləri təsəvvür edilməsi mümkün olmayan miqyaslarda ölümləri, dərin psixoloji zərbələri, genişmiqyaslı travmaları reallaşdırmağa hədəflənmiş terrorçulara, cinayətkarlara və digər subyektlərə yardımçı ola bilərlər.

Quterreşin fikrincə, süni zəka üzərində qlobal nəzarət orqanına rəhbər rolunda BMT-nin Müşahidə Şurası çıxış etməlidir. Bu şura süni zəka sahəsindəki normalara riayət edilməsini idarə edə bilər. Bu cür nəzarət orqanına süni zəka sahəsində fəaliyyət göstərən mütəxəssislər daxil ola bilərlər. Onlar öz təcrübələrini süni zəka tərəfindən ola biləcək risklərlə mübarizə məsələsində lazımi səviyyədə texniki biliklərə sahib olmayan hökumətlərlə bölüşə biləcəklər. Bu cür orqanın yaradılması üçün nəzərdə tutulmuş qətnamənin qəbul edilməsi perspektivi hələ uzaq olsa da, diplomatların əksəriyyəti bu ideyanı dəstəkləyib.

Bundan əvvəl Almaniyada Sİ sahəsində tədqiqat aparan 84 alim bu ölkənin siyasi rəhbərliyinə müraciət edib. Sİ ilə yaradılan avtonom kütləvi qırğın silahlarının xüsusilə dəhşətli ola biləcəyi, hətta atom bombasından nəzarətin mümkünsüzlüyü, günahkarın tapılmaması və s. səbəblərdən daha müdhiş nəticələrin doğuracağı ilə bağlı məktubda qeyd olunub. Müraciət bu sözlərlə bitir: "Bu "Pandora qutusu" açıldıqdan sonra onu bağlamaq bəşəriyyət üçün çox çətin olacaq" [1].

Sİ tədqiqatlarının tempinin yavaşıdılması ilə bağlı əsas gətirilən başlıca arqument kimi onların ümumilikdə sosial, o cümlədən hüquqi, siyasi, iqtisadi, hərbi, mənəvi-mədəni, media, humanitar və s. nəticələri ilə bağlı qanunverici tənzimlənmənin demək olar ki, yox dərəcəsində olması qeyd edilir. Bu hüquqi tənzimlənmənin olmaması, Sİ texnologiyalarının inkişafının yavaşıdılması tərəfdarlarının fikrinə görə, böyük qlobal miqyaslı, ən vacibi "cəzasız cinayətlərə" yol aça, məsuliyyətsizlik mühiti yarada bilər.

İnsan-Təbii İntellekti və Süni İntellekt qarşı-qarşıya gəldiyi hazırkı vaxtdan milli, kontinental və qlobal miqyasda yeni reallıq yaranmaqdadır. Bu reallığın dərk edilməsi, onun üçün rəhbər etik prinsiplərin işlənib hazırlanması cəmiyyətin bir çox sosial qruplarından, ilk növbədə alimlərdən və strateqlərdən, dövlət xadimlərindən və filosoflardan,

mənəvi-mədəni fəaliyyət sahələrindən, texnokrat təbəqədən adekvat reaksiya, töhfə və çeviklik tələb edir. Bu çağırış nəinki cəmiyyət daxilində, həm də ən vacibi dünya dövlətlərinin ortaq səylərini, tərəfdaşlığını, nə qədər qəribə görünsə də, yaranmaqda olan yeni reallığı müəyyənləşdirmək üçün elə Sİ-nin də imkan və töhfələrini səfərbər etməyi imperativə çevirir.

Sİ insan qrossmeysterlərinin heç vaxt təsəvvür etmədiyi hərəkətləri tapmaqla şahmatın sərhədlərini genişləndirib. Başqa bir cəhdlə Sİ insan alimlərinin anlamadığı molekulyar xüsusiyyətləri analiz edərək yeni antibiotik kəşf edib. Bu gün artıq Sİ ilə işləyən reaktivlər simulyasiya edilmiş hava savaşlarında peşəkar mütəxəssis pilotları məğlub edir.

İlkin qənaətə görə, Sİ-nin hazırkı inkişaf tempi qarşısıalınmaz olsa da, onun cəmiyyət və bəşəriyyət üçün hədəfləri və nəticələri insanlardan, xüsusilə bununla bağlı geniş maarifləndirmə apara bilən tədqiqatçılardan asılı ola bilər.

## 1. Süni intellekt - 4-cü sənaye inqilabının mühərriki, qlobal texnoloji çevriliş və insanlığa yeni çağırış

"Süni intellekt" (Artificial Intelligence (AI) dedikdə, kompüter proqramı, yəni bir insan ağlının həll etdiyi problemləri həll edə bilən alqoritm başa düşülür. Anlayış kimi 1955-cı ildə ABŞ alimi Con Makkarti tərəfindən bu sahənin N.Vinerin "kibernetika" adlandırdığı elmdən fərqini vurğulamaq üçün elmi dövriyyəyə gətirilib. Sinonimi kimi "maşın zəkası" (computational intelligence) da istifadə edilir. 1950-ci ildə riyazi məntiq sahəsində məşhur ingilis alimi Alan Tyurinq "Mind" jurnalında "Maşın düşünə bilərmi?" adlı məqaləsində "Turing testi" təklif edib. Mənası belə idi ki, məntiqi baxımdan maşın düşünə bilər. Məsələn, bir insan və bir kompüter həmsöhbətlərinin görmədiyi şəkildə yerləşdirilir. Həmsöhbət insan yazılı şəkildə suallar verir və yazılı (səssiz və ya ekranda) cavablar alır. Tərəfmüqabillərin birinin maşın olduğunu bilmir. A.Tyurinqə görə, deməli, maşın düşünə bilər, ona hiss etməyi və yaratmağı öyrədəndə süni intellekt yaranacaq [21, s.441].

1997-ci ildə IBM şirkətinin "Deep Blue" adlı superkompüteri şahmat üzrə dünya çempionu H.Kasparovu oyunda məğlub etdi və 400 min dollar mükafata sahib oldu.

Sİ texnologiyalarının ən son sahəsi olan yeni nəsil çatbotlar, xüsusilə "Generativ Süni İntellekt" sistemləri (ChatGPT) hazırda ən sürətlə inkişaf edən texnologiya istiqamətidir. "Generativ" ifadəsi orijinal məzmun yaratmağa qadir Sİ mənasını verir. Generativ Sİ texnologiyalar müxtəlif növ kontentləri tərtib etməyi bacaran Sİ sistemlərini əhatə edir. ChatGPT "OpenAI" şirkəti tərəfindən 2022-ci ilin noyabrında istifadəyə verilmiş modeldir. Onun 2007-ci ildə ayfonun (iPhone) debütündən üzü bəri texnologiya dünyasının görünməmiş şəkildə xəyalları məşğul etdiyi qeyd edilir. ChatGPT "OpenAI" tərəfindən hazırlanmış və 8 milyondan çox veb səhifədən ibarət verilənlər bazasında təlim keçmiş ən müasir dil modelidir. O, müxtəlif təbii dil emal proqramlarını gücləndirmək üçün istifadə edilə bilən insanabənzər mətn yaratmaq üçün nəzərdə tutulmuşdur.

ChatGPT bizim gündəlik həyatımızda və iş axınlarımızda təbii dil emalından istifadə üsulumuzda inqilab etmək gücünə malikdir. Onun geniş dil anlayışı ona geniş mövzular üzrə müvafiq və məlumatlandırıcı mətn yaratmağa imkan verir. "OpenAI" adlı şirkət tərəfindən hazırlanmış ChatGPT həm giriş, həm də çıxış kimi mətndən istifadə edir. Di-

gər sistemlər, o cümlədən "Dall E" adlı başqa "OpenAI" məhsulu mətn sorğusundan şəkillər yarada bilər. "Google" və "Meta" şirkətləri oxşar texnologiyalar üzərində işləyir.

ChatGPT-nin qısa zaman ərzində böyük uğur qazanması bütün dünyada onun analoqlarının istifadəyə verilməsinə səbəb olub. Cəmi 3-4 ay ərzində bu model 1.5 milyard istifadəçi tərəfindən tətbiq edilib. "Microsoft" şirkəti onu axtarış sisteminə daxil edib, 2023-cü ilin mayında "Bing" şirkəti onu hamı üçün əlçatan edib.

ChatGPT çatbotu ən müxtəlif məzmun və profilli sənədlər yazmaq, riyazi hesablama, marketinq funksiyalı problemlərini həll etmək kimi çoxşaxəli işləri görə bilən Sİ köməkçisidir. Onun yeni datalarla ayaqlaşması üçün model mütəmadi olaraq yenilənməlidir.

Sİ-nin hazırda bəşər həyatının bütün sahələrinə nüfuz etməsi müəyyən mənada ötən əsrdə elektrik enerjisinin kəşfi ilə müqayisə edilir. Eyni zamanda, təsirinin ondan dəfələrlə dərin olacağı qeyd edilir. Sİ cəmiyyət həyatının bütün sahələrinə - siyasi, iqtisadi, hərbi, geosiyasi, hüquqi, sosial, mədəni, mənəvi və s. nüfuz edir. Sİ yarışı geosiyasətdə mövcud olan ənənəvi "güc" anlayışının mahiyyətini dəyişir. Sİ dövrü "zəiflərin, yaxud da ağıllıların zamanı" kimi də adlanır. Bu o deməkdir ki, "qlobal güc və ya kiçik dövlət" anlayışları artıq arxa plana keçir. Sİ texnologiyaları sahəsində kim güclüdürsə, o da "böyükdür", artıq ənənəvi başa düşülən maddi anlamlı hərbi/iqtisadi güc dövrü tarixdə qalıb.

Sİ-nin güclü təkanvericisi olduğu 4-cü sənaye inqilabı əksər dövlətlərin sosial-iqtisadi quruluşunu dərin dəyişikliklərə məruz qoyacaq. Onun tətbiqi ilə sənayenin səmərəliliyinin 30-40 faiz artırılması mümkündür. Bütün sahələrdə çarpaz təsir və nəticələrə malik olan Sİ texnologiyaları bir çox sektorlarda, məsələn, qərarların qəbulu və təhlükəsizlik, təbabət (diaqnoz qoyulması və yeni dərmanların hazırlanması), təhsil, fərdi məlumatların, asayişin qorunması, logistika, hərbi sahədə (avtonom killer robotlar), pilotsuz nəqliyyat vasitələri, kriptovalyutalar, saxta (fake) xəbərlərin yayılma "texnologiyaları", maliyyə bazarları və s. sahələrə dərin nüfuzedici təsirini göstərir. "Kembric Analitika" ilə bağlı hadisələr göstərdi ki, fərdi məlumatlar, məsələn, səhiyyədə, yaxud cinayətkarlıqla mübarizədə əhəmiyyətli töhfə verə, digər tərəfdən, siyasi/seçki mübarizəsində qeyri-qanuni istifadə oluna bilər.

Sİ-nin nəticələri qlobal əmək bölgüsünün köklü rekonfiqurasiyasına, texnoloji zəncirlərin yenidən qurulmasına və nəticədə dünya iqtisadi gücünün yenidən paylanmasına təsir göstərəcək. İnformasiya inqilabı müasir iqtisadi artımın əmək məhsuldarlığının artmasına təkan verən ən vacib drayveri olmaqla yanaşı, Sİ həm yeni imkanların, eyni zamanda həm də yeni çağırışların mənbəyidir. Belə ki, müxtəlif ölkələrdə yeni texnoloji ukladın tətbiqi dinamikasında və templərindəki fərqlər, qlobal rəqəmsal inkişafda disproporsiyalar qlobal bərabərsizliyin uçuruma qədər böyüməsinə səbəb ola bilər. Bu da dünyanın bütün bölgələrində Sİ-nin verdiyi imkanların geosiyasi məqsədlərlə istifadəsinə, siyasi və beynəlxalq sabitliyin pozulmasına, yeni miqrasiya dalğalarının baş qaldırmasına, ekstremist ideologiyaların yayılmasına, beynəlxalq terrorizmin və mütəşəkkil cinayətkarlığın artmasına təkan verə bilər. Beləliklə, bu gün Sİ bütün dünyanın gələcəyini təmin edəcək texnoloji inkişaf və texnoloji sıçrayışın drayveri, "düyməsidir". Elə bir sahə yoxdur ki, Sİ-nin toxunuşu ilə sanki sehirli şəkildə kökündən dəyişməsin. Sİ dövlət idarəçiliyində nəhəng məlumatların (Big Data) keyfiyyət təhlili əsasında real vaxt

rejimində düzgün və çevik qərarların qəbuluna imkan verir. Dünyada nəinki texnoloji, eləcə də geosiyasi liderlik uğrunda mübarizə ilk növbədə Sİ müstəvisinə keçib və bu sahədə görünməmiş qlobal rəqabət gedir. Artıq məlumdur ki, Sİ sahəsində üstünlüyünü təmin edən dünyada da üstün mövqelərdə olacaq.

Dünya Sİ sahəsində yarışa, daha dəqiq deyilsə, amansız rəqabətə şahidlik edir və hələlik ABŞ və Çin bu sahədə liderlik edir. Bununla yanaşı, Çin həm də dünyanın “Süni intellekt influenseri” statusunu qazanıb. 2018-ci ildə məlum olub ki, qlobal Sİ bazarı 2,5 milyard dollar təşkil edir və 2024-cü ilə qədər 137,2 milyard dollara çatacaq.

Sözügedən proseslər fonunda son bir neçə ildə, demək olar ki, eyni vaxtlarda dünyanın 40-dan artıq ölkəsində Milli Süni İntellekt strategiyalarının qəbul edilməsinə başlanılıb. 2017-ci ildə artıq beş ölkə Sİ ilə bağlı Milli Strategiya qəbul edib. 2018-ci il Sİ sahəsində milli strategiyaların qəbul edilməsində qlobal çevriliş ili olub, 30 ölkə (kətta Keniya da) analoji strategiya qəbul edib. 2018-2019-cu illər ərzində isə milli strategiya qəbul edən ölkələrin sayı 40-ı aşıb [3].

Bəzi ölkələrdə (ABŞ, Rusiya) Sİ strategiyalarının hazırlanması vacibliyi hərbi sahədə, yaxud bu sahə rəsmilərinin tövsiyəsi ilə başlayıb. ABŞ-ın sabiq müdafiə naziri Ceyms Mattis Prezident D.Trampa Sİ texnologiyalarının inkişafı üçün milli strategiya yaratmaqla bağlı müraciət etmişdi. Müraciətə çevik cavab verildi və 2018-ci ilin iyulunda ABŞ-da dövlətin 3 milli texnoloji hədəfi (kvant informatikası, superkompyutinq) arasında Sİ birinci yerı çıxarıldı.

Strategiyalarda ümumilik təşkil edən cəhətlər: 1. hədəflərin səviyyəsi; 2.ayrılan resursların həcmi; 3. strategiyanın keyfiyyəti və dəqiqliyi; 4. həyata keçirilməsinə nəzarət etmək imkanlarıdır. Məzmunca fərqli olmaqla, strategiyalarda Sİ siyasətinin müxtəlif aspektlərinin - elmi tədqiqat və inkişaf (R&D), istedadların aşkarlanması, qabiliyyət yönümlü təhsil sistemi, rəqəmsal infrastrukturun problemləri, dövlət-özəl qarşılıqlı münasibətləri, cəmiyyətə Sİ texnologiyalarının sosial nəticələri ilə bağlı maarifləndirmə və s. - inkişafına diqqət verilir. Ümumi cəhətlərə həmçinin onların xronoloji əhatəsini - 2030-cu ilə qədər hədəflənməsini aid etmək olar. Daha bir ümumi cəhəti “Sİ millətçiliyi”nin (AI nationalism) yaranmasıdır. Yəni hər bir ölkənin başqalarından bəhrələnməklə öz milli sənayesini yaratmağı hədəfləyir.

Bütövlükdə, dünyanın 40-dan artıq



ölkəsi Sİ sahəsində milli strategiyalar, yaxud analoji rəhbər sənədlər, milli proqramlar, fəaliyyət planı formatlı sənədlər qəbul edib. Qabaqcıl ölkələrlə yanaşı, Şərqi Avropa dövlərləri, hətta Afrikada Keniya və s. ölkələr qlobal Sİ rəqabətinə qoşulmuşdur. Millli dövlətlər bütün resurslarını bu rəqabətdə səfərbər edib, yüksək texnologiyalar sahəsində mühüm addımlar atıb.

MDB məkannda Rusiya, Belorus, Ukrayna, Ermənistan, Gürcüstan və Qazaxıstan uğurlu başlanğıca malikdir. Azərbaycan Sİ ilə bağlı milli strategiya qəbul edən və reytinqlərdə yer alan ölkələr sırasında yoxdur.

## 2. Süni intellektin sosial nəticələri ilə bağlı araşdırmalara nəzər

Artıq indiki vaxtda Sİ-nin cəmiyyət həyatında nüfuz etmədiyi sahə demək olar ki, qalmayıb və bu təsir nəinki gün-bəgün, hətta hər yeni saat artmaqdadır. Bu baxımdan onun sosial nəticələrinin araşdırılmasına nisbətən yeni başlanılıb. Diqqəti cəlb edən isə dünyanın siyasi, elmi və texnoloji problemlərinin təhlili sahəsində tanınımış şəxslərin bu istiqamətdə axtarışlara qoşulmasıdır. Buna misal kimi beynəlxalq diplomatik-siyasi ictimaiyyətin məşhur simalarından yüz yaşlı ABŞ diplomatı Henri Kissincerin, “Google” qlobal texnoloji şirkətinə on illərlə rəhbərlik edən Erik Şmidtin və digərlərinin bu sahədə ilk tədqiqatlardan birinin müəllifi olmasıdır. Onların 2021-ci ildə işıq üzü görən, sonra dəfələrlə nəşr edilən "Süni intellekt əsri və bizim bəşəri gələcəyimiz" (The Age of AI: And Our Human Future) adlı kitabında Sİ-nin bəşəriyyətin keçmiş, indiki və gələcək tendensiyaları fonunda yaxın perspektivləri, sosial nəticələri əsaslı şəkildə təhlil edilir [10].

Müəlliflər formalaşan yeni Sİ əsrində insanları qlobal idarəetmənin texnoloji, etik və mənəvi problemləri haqqında düşünməyə dəvət edir. Ümumi ifadə edilsə, kitabda qarşıya qoyulan bir çox suallar belədir: Big Datanın güclü şəbəkə effektləri milli sərhədləri aşaraq şəxsi təhlükəsizlik, hərbi və müdafiə strategiyaları üçün hansı böyük problemlər yaradır? Daima genişlənən Sİ əsrində bizim sıravi insanlar olaraq rolumuz nədən ibarət olacaq?

“Bu gün biz hiss etmədən insanlar, qurumlar və millətlər üçün əhəmiyyətli təsir göstərəcək yeni münasibətlər: Sİ və insanlar arasında, Sİ və ictimai-siyasi proseslər, yeni texnologiyanı yaradanlar, xidmət operatorları və istifadəçilər, hökumətlər və s. arasında tamamilə yeni münasibətlər formalaşır.

Formalaşan Sİ əsrində rəqəmsal dünya nizamının əsas paradoksu belə ifadə edilə bilər: ən yeni texnologiyalar və müvafiq olaraq cəmiyyətin rəqəmsal həyat tərzi nə qədər sürətlə genişlənirsə, onun təhlükəsizliyi də bir o qədər çox kövrək olur, təmin edilməsi ilə bağlı dərin problemlər ortaya çıxır. İnsan düşüncəsi, proseslərin dərki və Sİ əsaslı rəqəmsallaşma arasında olduqca həssas bir balans yaranır. Düşünən, yaradan kimdir, bəs nəzarət edən kimdir, burada əminliklə deyilə biləcək proqnozlar mövcuddurmu? sualı ortaya çıxır. Bütün sahə və infrastrukturların Sİ sistemlərinin tətbiqini davam etdirdikcə, onların müxtəlif forma və məqsədlərlə həyata keçirilən kiberhücumlara qarşı həssaslığı da artır. Bu paradoks rəqabətli təhlükəsizlik imkanlarını təmin etmək üçün şəxsiyyət-cəmiyyət-dövlət-müvafiq rəqəmsal infrastruktur arasında sıx əməkdaşlıq münasibətlərinin qurulmasını tələb edir.

Kitabda əldə edilən əsas qənaətlərə görə, Sİ bəşər reallığının yeni konsepsiyasıdır. Onun sosial sistemin bütün hərbi, siyasi, iqtisadi, mədəni-mənəvi, səhiyyə, təhsil və s. sahələrdə fundamental nəticələri cəmiyyətdə radikal dəyişiklikIərə

səbəb olacaq. Yalnız bu nəticələri düzgün dərk etməklə konstruktiv məqsədlərə nail olmaq olar. Cəmiyyətin fəaliyyət ənənəsi nə dərəcədə dəyişəcək, insanlar necə düşünəcək, rəyləri necə formalaşacaq, onlar məlumatları necə, hansı mənbələrdən alacaq, bu mənbələrin düzgünlüyü necə müəyyən ediləcək, dövlət-cəmiyyət münasibətləri bu fonda necə dəyişəcək, e-dövlətdən Sİ dövlətinə keçid necə baş verəcək? və s.

Bu suallara cavabların verilməsi üçün ilk növbədə onların hər bir cəmiyyətdə gündəmə gətirilməsi, müzakirəsi, doğru qərarların alınması, ictimai rəyin bizi gözləyən nəticələrlə bağlı məlumatlılığının artırılması, ortaq doğru qərarların alınmasına töhfə verməsi zəruridir. Sİ-nin formalaşdıracağı fərqli reallığın cəmiyyətə xidmət etməsi, fayda gətirməsi üçün onun uğurlu tətbiqini formalaşdırmağın yolları müəyyən edilməlidir.

Sİ texnologiyalarının qeyd edilən heyrətamiz inkişaf sürətinin özü ilə paralel - cavabı olmayan bir çox suallar doğurması BMT-nin insanabənzər robotların iştirak etdiyi Sİ sammitində də etiraf edilib. 2023-cü il iyunun 6-da BMT-nin Beynəlxalq Telekommunikasiya Birliyi (The International Telecommunication Union (ITU)) texnoloji agentliyi tərəfindən Cenevrədə keçirilən "Tərəqqi üçün süni intellekt qlobal zirvəsi" ( "AI for Good Global Summit") mövzusunda sammit təşkil edilib. Sammitdə qlobal texnoloji şirkətlərdən, eləcə də universitetlərdən və beynəlxalq təşkilatlardan 3000-ə yaxın mütəxəssis Sİ-dən bəşəriyyətin tərəqqisi yönündə istifadə olunmasını təmin etmək üçün ortaq baxışlar yaratmağa çalışıb. Sammit iştirakçıları tədbirdə onların ardınca maraqla boylanan insanabənzər robotlardan heyrətə gəlib. Qeyd edilib ki, cəmi bir neçə ay əvvəl generativ Sİ dünyanı lərzəyə salıb və sonrakı müddətdə onun sürətli inkişafına bənzər heç nə görünməyib. Yeni zəka formasının bizdən daha ağıllı ola bilməsi ehtimalı düşündüyümüzdən çox yaxındır” [6].

Hazırda çoxşaxəli istiqamətlərdə - tədqiqatçılar, jurnalistlər, özəl şirkətlər, ictimai qurumlar və vətəndaş cəmiyyəti təşkilatları da daxil olmaqla getdikcə artan aktorlar Sİ-nin inkişafının və istifadəsinin nəticələrinin, məsələn, milli təhlükəsizliyin, fundamental insan hüquqlarının pozulması və s. mənfi təsirlərə səbəb ola biləcək təhdid və risklərin xəritəsini yaratmağa səy göstərirlər [23].

Bundan əlavə, bütün dünyada tənzimləyicilər mövcud qanunların bu zərərlərə qarşı nə dərəcədə müqavimət göstərə biləcəyini və ya onlardan müdafiəni təmin etmək üçün yeni tənzimləyici tədbirlərə ehtiyac olub-olmadığını qiymətləndirməyə başlayır [7].

Məsələn, Avropa Komissiyası hazırda Aİ-nin hüquqi nizamı ilə bağlı belə bir qiymətləndirmə aparır. Aparılan tədqiqatlarda Sİ və sosium münasibətlərinin, Sİ-nin sosial nəticələrinin müsbət və mənfi tərəflərinin konseptual mənzərəsi, sistemləşdirilməsi və təsnifatı barədə danışmaq hələlik tezdir [9].

Xüsusən də sosial nəticə texnokratik sistemləri deyil, insan amilinin həlledici/mərkəzi olduğu sistemlər nəzərə alınarsa, olduqca geniş miqyasları əhatə edir:

Bəzi tədqiqatçılar Sİ-nin mənfi sosial nəticələrini 3 istiqamətdə fərqləndirməyi təklif edir:

1. Sİ-nin fərd/şəxsiyyət səviyyəsində mənfi nəticələri;

2. Sİ-nin təşkilati/kollektiv səviyyəsində mənfi nəticələri

3. Sİ-nin sosium-cəmiyyət səviyyəsində mənfi ziyanları/nəticələri [15].

Əgər diqqət edilsə, 1-ci və 2-ci səviyyələrdən fərqli olaraq, sosial miqyaslı: cəmiyyət səviyyəsində mənfi nəticələr hələlik diqqətdən kənarda qalır. Halbuki, əvvəlki iki səviyyə ilə müqayisədə onun əhəmiyyəti nəinki azaldıla bilməz,

birmənalı olaraq, əksinə diqqət mərkəzində olmalıdır. Üstəlik, sosial sistemlər nəzəriyyəsini yada salsaq, Sİ-nin inkişafı və tətbiqinin fərdlərə/şəxsiyyətlərə və kollektivlərə/institutlara təsirinin aradan qaldırılmasının mexanizmləri heç də həmişə sosium səviyyəsində adekvat sayıla bilməz. Nəticə etibarilə, Sİ-nin tənzimlənməsi ilə bağlı mövcud olan, yaxud hazırlanan qanunvericilik bazası cəmiyyət müstəvisində işlək ola bilmir, natamamlıq riskini daşıyır. Yaxud mövcud qanunlara əlavə və dəyişikliklərin edilməsi də bu boşluqları aradan qaldırmaq üçün uğurlu həll sayılmaz, ya da Sİ-nin mənfi təsirinə məruz qalan ictimai maraqları adekvat şəkildə qoruya bilməz.

Hazırda həyata keçirilən hüquqi qiymətləndirmələr və bununla bağlı risk təhlili, ilk növbədə, Sİ-nin əsasən şəxslərə/fərdlərə, nisbətən daha az dərəcədə müəyyən qruplara və ya institutlara/kollektivlərə mənfi təsirinə diqqət yetirir. Bununla yanaşı, Sİ sistemlərinin tətbiqi və istifadəsi şəxsi və kollektiv ziyanlardan fərqli olan, bu çərçivələri aşan cəmiyyət miqyaslı ictimai təhdidlərə də səbəb ola bilər. Məsələn, Sİ sistemlərindən ictimai-siyasi proseslərə ziyan vurmaq, qanunun aliliyini pozmaq və ya etnik-milli münasibətlərə nifaq salmaq və s. risklərin olması - bu fakt şəxs çərçivəsindən artıq kənara çıxır, bütövlükdə cəmiyyətə təsir edir [5, s.291].

Ayrılıqda şəxsi: bir və ya bir neçə şəxsin maraq və hüquqlarının pozulması halında baş verir. Məsələn, üztanıma sistemindən qanunsuz-qərəzlə istifadə (istər hüquq-mühafizə kontekstində, istərsə də digər işlərdə) qanunsuzluğa səbəb olur. Təbii ki, bu cür halda belə, Sİ-nin təsirinin nəticələri sırf fərdi xarakter daşımır, cəmiyyətin də maraqlarına toxunur. Eynilə müəyyən kollektiv, təşkilat, yaxud institusional çərçivədə Sİ-nin qərəzli tətbiqi riskləri olarsa, burada çərçivə yenə də nisbətən məhdud olur. Məhdudluq əsasən dəyən ziyanın miqyasını nəzərdə tutur.

Sİ-nin tətbiqinin arzuolunmaz sosial-sosietal nəticələri ictimai ziyan və təhlükənin bir və ya bir neçə yöndə ictimai maraqları qanunazidd olaraq haqsız pozulduğu zaman baş verir. Əvvəlki misallardan fərqli olaraq, ictimai ziyan nə bir şəxsin, nə də bir qrup insanın deyil, ümumi sosiumun maraqlarına, dolayısilə dövlətçilik mənafeyinə zidd olur. Məsələn, Sİ əsaslı seçici manipulyasiyası, ümumilikdə ictimai maraqlara toxunan qanunun aliliyi, bərabər hüquqlar, sosial təhlükəsizlik və s. hallarda söhbət bütövlükdə milli maraq və təhlükəsizliyə xələl gətirməkdən gedir ki, bu da fərdi maraqların məcmusundan kənara çıxır. Vətəndaşların maraq, mənafe və hüquqları qanunla qorunur. Bu sahədə vurulan ziyanlar sadəcə statik məzmunlu deyil. Ziyan, təhdid anlayışları bir cəmiyyətin normativ çərçivəsi ilə birlikdə zaman gedişində dəyişir. Maraqlar çoxşaxəli, məsələn, ictimai, siyasi, hüquqi, mənəvi-mədəni, psixoloji, maddi-maliyyə və s. xarakter daşıya bilər.

Beləliklə, bu gün üçün Sİ-nin sosial nəticələrinin 1.fərd/şəxsiyyət, 2.kollektiv/institusional və 3.sosium/sosial sistem səviyyələrində konseptuallaşdırılması prosesi davam edir. Bu istiqamətdə aparılan fəaliyyətin qeyd edilən reallıq səviyyələrini nəzərə alması, fərqləndirilməsi faydalıdır.

### 3. Süni intellektin tətbiqinin siyasi nəticələri: “2008-ci ildən başlayaraq seçkilər sosial şəbəkə işi olub, 2024-cü ildə isə süni intellekt seçkiləri olacaq”

Amerikalı araşdırmaçıların fikrinə görə, ABŞ-da 2024-cü il seçkilərində ChatGPT-generativ Sİ botlarının aparıcı olduğu texnologiyaların siyasi texnologiya vasitəsi qismində formalaşma

ili kimi həlledici olacaq. Məlum olduğu kimi, 2008-ci ildən başlayaraq, seçkilərdə "sosial media" faktoru önəmli rola malik olub və siyasi texnologiya vasitəsinə çevrilib. 2016-cı ildə ABŞ-da prezident seçklərində bu ölkənin özündə, həm də H.Klintonun özünün əleyhinə tətbiq edildi. 2016-cı ildən qlobal siyasiləşmə proseslərinin ikinci mərhələsi başlanğıcını götürüb. Növbəti hadisə İngiltərədə keçirilən Brexit referendumunun da sosial şəbəkə istifadəçilərinin siyasi mübarizəyə cəlb edilməsi oldu.

"Cambridge Analytica" şirkəti ilə əlaqədar qalmaqal iki milyard istifadəçinin şəxsi məlumatından ibarət nəhəng bazanın Feysbuk tərəfindən sui-istifadəsi ilə bağlı dərin narahatlıq yaratdı. Sosial psixologiyada mövcud olan "homofiliya nəzəriyyəsi"nə görə, eyni siyasi-ideoloji baxışlara və zövqlərə malik olan insanlar bir-biri ilə ünsiyyətə meyillidirlər. Bu da onları hədəf qrupları qismində asanlıqla yönləndirməyə, arzu edilən siyasi seçimə sövq etməyə imkan verir [16].

Bir çox tədqiqatlarda aparıcı Sİ texnoloqları dezinformasiya və saxta məlumatların ağlagəlməz yayılma sürətinin asanlıqla tirajlanmasının baş verdiyi 2024-cü seçki ili "dəhşətlərinin" mənzərəsini təsvir edir. Bu mənzərə ən qısası belə təsvir edilə bilər: "Gördüyünüz və ya eşitdiyiniz heç bir şeyə inana, etibar edə bilməyəcəksiniz". "Google" şirkətinin sabiq rəhbəri Erik Şmidt bildirib ki, bundan sonra seçki kampaniyaları "hər kəsin yarada biləcəyi saxta məlumatlarla dolu olacaq". Sİ indi mediada heç bir şeyə etibar etməməli olduğumuzu təsdiqləyən böyük bir faktora çevrilir. Artıq ilk gördüyünüz heç bir kadra, heç bir videoya və heç bir səsə də etibar etməməlisiniz" [19]. Artıq ABŞ prezidenti Co Baydenin sabiq aparat rəhbəri Ron Kleyn müsahibəsində Sİ əsaslı hücumlara qarşı mübarizə aparmaq üçün gələcək seçki kampaniyasının dəyişdirilməsinin vacib olduğunu bildirib: "Bayden ancaq seçki kampaniyasında olan insanlarla birbaşa əlaqə saxlamalı və "kənardan təsadüfi insanları gətirmək" əvəzinə, kampaniya gedişində yerli, ən etibarlı messencerləri işə götürməlidir".

## 4. Süni intellekt tətbiqlərinin mediaya təsirinin sosial nəticələri: ChatGPT müəllifli media və Sİ əsaslı dipfeyklə mübarizə problemi

Təsəvvür etmək çətin deyil ki, sata/fale məlumatların ən son və ən təhlükəli formalarından olan "dipfeyk" (deepfake) Sİ-nin ən yeni texnoloji imkanları ilə hansı səviyyəyə qalxa bilər. Sİ əsaslı "deepfake" "dərin saxtakarlıq" mənasını verir və demək olar "həqiqətdən fərqlənməyən saxta xəbərlər" erasının başlanğıcı deməkdir [8]. Bu metod Sİ (neyro şəbəkələr) vasitəsilə hər hansı insanın orijinala tam bənzəyən saxta video-foto görüntüsünün yaradılaraq gerçək kimi qələmə verilməsini mümkün edir. "Dipfeyk" fenomeni istənilən adamın, siyasi və ictimai rəy liderlərinin, prezidentlərin və digər məşhur şəxslərin orijinaldan fərqlənməyən, reallıqdakı mimika və jestlərini yaratmaq üçün siyasi şantaj, saxta "rüsvayçı" videolar və s. yollarla qeyri-sabitliyə rəvac vermək üçün istifadə edilə bilər. Hollivud ulduzlarının dipfeyk metodu ilə "rüsvayçı" videoları bütün internet məkanını bürüyəndən sonra onun tətbiqi "Reddit"də qadağan edilib. İlk dəfə 2017-cı ildə tətbiq edilən yeni texnologiya son illərin ən qorxulu kəşfi kimi bəyan edilib. ABŞ Konqresində senatorlar onu milli təhlükəsizliyə təhdid kimi dəyərləndirib.

Sİ tərəfindən yaradılan fotoşəkillər, görüntü və dipfeyk videolar xəbər lentlərini doldurduqca, medianın, informasiya agentliklərinin və istifadəçilərin də onların həqiqiliyini yoxlamaq üçün han-

sı alətlərə malik olduğu ilk və mühüm sualdır. Medianın Sİ sahəsində yeni çağırışlara hazır olmaları ayrıca fundamental sualdır. "Demokratiya Sİ-nin yaratdığı dezinformasiya çəyirtkəsi tərəfindən tamamilə məhv edilə bilər" [11].

### 5. İctimai səhiyyə və təbabət sahəsində süni intellektin tətbiqi

Görünməmiş müsbət yeniliklərə yol açan Sİ-nin təbabətdə tam bir innovasiya "partlayışı" yaratdığı qeyd edilir. Sİ-nin bu sahədə də təhdid yarada biləcək sosial nəticələri olmamış deyil. Hazırda olduqca geniş yayılmış robot cərrahiyyəsi, xəstəxanalarda qeydiyyat və diaqnoz robotları və s. çoxsaylı tətbiqlərin müvafiq olaraq qeyri-müəyyən tərəfləri də mövcuddur. İş o səviyyəyə çatıb ki, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) 2023-cü ilin mayında robot cərrahiyyə sahəsinə məsul şəxsləri, xəstələrə və istehlakçılara xidmətlər təklif edilməmişdən əvvəl sübuta əsaslanmayan faydaların nümayiş etdirilməsi ilə bağlı fəaliyyətləri barədə xəbərdarlıq etməyə məcbur olub. Məsələni bu proseslərin müvafiq qanunverici əsaslarının hələlik hazırlanmaması daha da qəlizləşdirir. Məsələn, bir istehsalçı cərrahi robot cihazını xəstəxanaya satır, həkimlərə cihazla əməliyyat aparmaq üçün etibarnamə verir. Burada istehsalçının həmin cihazla bağlı satın alan xəstəxananı xəbərdar etmək öhdəliyinin olub-olmaması qanunla qeyri-müəyyəndir. İstehsalçı hesab edir ki, robot cərrahiyyə əməliyyatını həyata keçirən həkimə xəbərdarlıq etdiyi üçün başqa tərəfi - xəstəni xəbərdar etmək kimi vəzifəsi yoxdur. Reallıqda baş vermiş bu hadisə nəticəsində yaranan şikayətlə ABŞ Ali Məhkəməsi razılaşmayıb. Çünki həkim əsasən məhsulun alıcısı olmayıb. Məhkəmə müəyyən edib ki, səhiyyə sektoru robot cərrahiyyə vasitələrinin istehsalçılarını, alıcıları tibbi cihazların mümkün təhlükələri barədə xəbərdar etməyi tələb edib. Xəstəxanalarda əməliyyat edən həkimlərə xəbərdarlıq etməklə bağlı ehtiyac var. Məhkəmə istehsalçının cihazı satın alan xəstəxananı xəbərdar etmək öhdəliyi barədə qərar çıxarmayıb. Nəticədə, alınan qərarlar tərəflər üçün hər hansı ciddi nəticə verməyib. Beləliklə, Sİ əsaslı təbabət hadisəsi kimi ilk məhkəmə şikayəti "Taylor intuitiv cərrahiyyəyə qarşı" işində Vaşinqton ştatının Ali Məhkəməsi qərara gəlib ki, təhlükəli tibbi məhsulların istehsalçıları, konkret deyilsə, Sİ ilə işləyən robot cərrahiyyə cihaz hansı xəstələrin cərrahiyyə əməliyyatı üçün riskli namizəd ola biləcəyi ilə bağlı təhlükələr barədə xəstəxanaları xəbərdar etməyə borcludur" [18].

Həmçinin, geniş yayılmış generativ Sİ laboratoriya təhsili olmayan insanlara son illərdə bəşəriyyətə pandemiya təhlükəsini yaşadan viruslara bənzər cisimləri müəyyən etməyə, hətta DNT skrininq üsulu ilə əldə etməyə, istehsalına və sui-istifadəsinə imkan verə bilər.

Daha dəhşətlisi, məsələn, kimya üzrə Sİ ilə məşğul olan şirkətlərin fəaliyyətidir. Misal üçün, 96 milyon kimyəvi birləşmədən ibarət data baza götürülür. Bu birləşmələr müxtəlif məlum xüsusiyyətlərə malikdir. Bu naməlum birləşmələrin xassələrini proqnozlaşdırmaq üçün data bazanın təhlili Sİ-yə öyrədilir. Beləliklə, Sİ yeni dərmanlar da, yeni zəhərlər də, yeni müdhiş vuruslar da yarada bilər [24].

Sİ əsaslı təbabət innovasiyalarını saymaqla bitməz. İnsanları depressiyadan, tənhalıqdan xilas edən çatbotlar və s. sahələrdə Sİ-nin mütləq səmərəliliyini müəyyən etmək hələlik çətindir. Çünki bu insan həyatının ən vacib sahəsi olan sağlamlıqla bağlı olduğu üçün burada baş verən səhv addımlar insanlara həyatları bahasına başa gələ bilər.

## 6. Süni intellektin sosial elmlərdə tətbiqləri

"Generativ süni intellekt" sistemləri, yeni nəsil çatbotlar sosial elmlərdə insanlararası münasibətləri və davranış modellərini öyrənmək üçün diqqət mərkəzinə gəlib.

Sosioloqlar ChatGPT və digər məzmun/mətn və təsvir yaratma vasitələrini idarə edən Sİ sistemlərinin insan davranışlarını, inancları və dəyərlərini daha yaxşı başa düşmək üçün istifadə oluna biləcəyi yönündə tədqiqatlar aparırlar [2].

Məlumdur ki, geniş dil modelləri (GDM; Large Language Models (LLM)), generativ Sİ alətləri istifadəçilərin suallarına Sİ sistemlərinə veb-saytlardan, kitablardan və digər məlumatlardan, mətnlər üzərindən cavab verməyə imkan verən sözlər arasındakı əlaqə və nümunələri tapır, müəyyən edir.

Sosial elmlərdə də tədqiqatçılar müxtəlif əhali qrupları arasında insan davranışının və sosial qarşılıqlı əlaqələrin ümumi modelini axtarmaq üçün sorğular, anket sualları, müşahidələr, davranış testləri və digər vasitələrdən istifadə edirlər. Tədqiqatlar daha böyük bir qrupu təmsil etmək üçün nəzərdə tutulmuş insanların alt qrupu üzərində (respondentlərlə) aparılır.

Bu baxımdan, çatbotlar insan hərəkətlərini təqlid etmək üçün müşayiət məktublarından tutmuş marketinq mətnlərinə və kompüter kodlarına qədər geniş istifadə olunur. Bəzi sosioloqlar hətta Sİ-nin insan davranışındakı əsas məsələlərə yeni yanaşmalar təklif edə, bununla da eksperimentlərin vaxtını və xərclərini azaltmağa kömək edə biləcəklərini araşdırırlar. Həmçinin, sosioloqlar insan qərarlarının qəbulu, əxlaqı və insan olmağın nə demək olduğunu göstərən bir sıra digər mürəkkəb atributlarla bağlı məsələləri həll etmək üçün geniş dil modellərindən (GDM; LLM) necə istifadə edə biləcəyi üzərində çalışır. Burada əsas metod tədqiq edilən insan iştirakçılar əvəzinə Sİ əsaslı geniş dil modellərindən istifadə edilməsidir. Mətn, dil, nitq və s. insanın təməl sosial-psixoloji keyfiyyətləri olduğu üşün generativ Sİ-nin əsasını təşkil edən geniş dil modellərinin müəyyən dərəcədə insanları nümunə olaraq əvəz edə biləcəyi nəzərə alınır [17].

Xüsusilə də ictimai rəyin öyrənilməsi proseslərində geniş dil modellərinin təlim alətləri ilə daha məhdud sayda anket-sorğu vərəqələri və s. ənənəvi sosial elm metodları ilə toplanan məlumatlardan daha çox insanın perspektivlərini əks etdirən cavablar yarada biləcəyinə ümid edirlər. Artıq bu sahədə alimlər gender və ya irqi əsaslı qərəzli münasibət, ayrı-seçkilik kimi rəylərin, eləcə də zaman gedişində mədəniyyətdə individualizmin - fərdiyyətçiliyin və kollektivizmin necə dəyişdiyini aşkara çıxarmaq üçün mətnlərdəki söz birləşmələrini - assosiasiyaları təhlil etməyə nail olublar. Nəticədə, tədqiqatçılar ChatGPT-nin mühakimələrinin nə qədər insan mühakimələrinə olduqca bənzər olmasını aşkara çıxarıb. Faktiki olaraq istənilən sorğuya ardıcıl (lakin həmişə dəqiq deyil) cavab verən ChatGPT və istənilən obrazı təsəvvür etməyə imkan verən Dall-E kimi proqramlar sayəsində generativ Sİ alətləri son aylarda heyrətə gəlmiş humanitar və sosial elmi ictimaiyyət tərəfindən də maraqla öyrənilir, tətbiq edilir.

ABŞ-ın Şimali Karolina Universitetinin psixologiya və nevrologiya üzrə professoru, sosial elmlərdə ictimai rəy və ChatGPT ilə bağlı tədqiqatın həmmüəllifi Kurt Qrey qeyd edir: "Əvvəlcə təcrübələrin məhdudiyyətsiz olacağını düşünürdüm. Lakin ChatGPT API sisteminə 16 mənəvi-əxlaqi, dəyər ssenarilərini daxil edib, sonra onun cavablarını 464 digər ssenari üzrə qiymətləndirərkən, Sİ sisteminin cavablarının 95% insan cavabları ilə korrelyasiya olunduğunu

müəyyən etdim. Yekun olaraq, tədqiqatçı öz həmkarlarına ritorik olmayan belə bir maraqlı sual ünvanlayır: “Əgər siz GPT-yə istədiyiniz sualları verə bilirsinizsə və sonucda insanların sizə verdiyini ala bilirsinizsə, o zaman bu sualları insanlara da vermək lazımdırmı, buna ehtiyac varmı? Siz cəmiyyəti təmsil edən hər bir insan kimi mürəkkəb modellərin miqyasını genişləndirə və ondan istifadə edə bilərsiniz". Göründüyü kimi, ictimai rəyin öyrənilməsi, cəmiyyətdə davranış və münasibətlər aspektində Sİ sistemlərinin təhlil edlməli olduqca çox ssenari və variantlar təqdim edə bilir. Yeni araşdırmaların müəllifləri hesab edirlər ki, bu, ən azı simulyasiya edilmiş iştirakçılardan istifadə edən tədqiqatlarda hipoteza-fərziyyə irəli sürmək üçün istifadə edilə, daha sonra ictimai birlik və insan qruplarında təkrar tətbiq edilə/təsdiqlənə bilər".

Sİ və onun sosial elmlərdə tətbiqi ilə bağlı gəlinən əsas qənaətlər bundan ibarətdir:

1. Geniş dil modelləri (GDM-LLM) potensial olaraq məlumatların toplanılması üçün respondentləri - insan iştirakçılarını əvəz edə bilər, çünki onlar istehlakçı davranışı kimi sahələrdə real sorğu cavabları yaratmaq qabiliyyətini artıq nümayiş etdirib.

2. Sosial elmlərdə Sİ-nin tətbiqi sosial qruplarla bağlı sonradan təsdiq oluna bilən fərziyyələr yaratmaq üçün yeni yollar açır.

3. GDM-lər böyük potensial təklif etsə də, çox vaxt sosial qruplarda mövcud olan stereotipləri istisna edir və onları öyrənən tədqiqatçılar üçün əhəmiyyətli problem yaradır.

### 7. Süni intellektin cəmiyyətdə iqtisadi proseslərə təsiri

Şübhəsiz ki, Sİ texnologiyalarının tətbiqinin sosial nəticələri dedikdə ağıla gələn ilk sahə iqtisadi münasibətlərdir. Sİ-nin bizim işimizi əlimizdən alacağı ilə bağlı onlarla məqalə var. Sİ-nin asanlıqla 4 günlük iş həftəsinə gətirib çıxaracağını proqnozlaşdıran iqtisadçıların Sİ-nin üstünlük təşkil etdiyi iqtisadiyyatın mənzərəsi ilə bağlı maraqlı baxışları var.

Xəbər başlıqlarında ən çox yer alan da “Sİ iş yerlərinizi əlinizdən alacaq, məşğulluğa, əmək bazarına mənfi təsir edəcək, onlarla peşə ləğv olunacaq, ilk növbədə qadınların çalışdığı peşələr Sİ-nin təsirinə məruz qalacaq və s.” məlumatlardır desək, yanılmarıq. Gerçəklikdə isə Sİ-nin geniş mənada əmək bazarına necə təsir edəcəyi barədə həqiqət çox mürəkkəbdir. Məsələn, Sİ-nin iqtisadi sahədə sosial nəticələrinin nə dərəcədə güclü və potensial dağıdıcı ola biləcəyi ilə bağlı real postulatların müəyyən edilməsidir [14].

Hələlik, dünyanın ən qabaqcıl texnoloji, iqtisadi və s. profilli şirkətlərində Sİ ilə bağlı “alqı-satqı bumu”nun baş verməsinə şahidlik edilir. Sİ-də liderlik yarışı yeni korporativ satınalmalar və investisiyalar dalğasına təkan verir, çünki texnoloji şirkətlər müştərilərə qızğın texnologiyalara münasibətlə ayıq-sayıq olduqlarını göstərməyə çalışırlar. Hər bir qurum Sİ strategiyasına malik olduğunu sübut etmək üçün bu sahənin startaplarına milyardlarla vəsait xərcləyir.

“Silikon vadisi”ndə intensiv Sİ ilə “silahlanma yarışına” təkan verilib. Bir neçə həftə ərzində “Microsoft” və “Alphabet”ə məxsus “Google” iqtisadiyyatın yeni infrastruktur mühərriki olacağına inandıqları Sİ-yə nəzarəti ələ keçirmək üçün bütün korporativ strategiyalarını dəyişdilər. “Microsoft” ChatGPT və Dall-E-nin yaradıcısı “OpenAI”-a 10 milyard dollar sərmayə qoyub və generativ Sİ-nin Office proqram təminatı və axtarış sistemi “Bing”-ə inteqrasiya etmək planlarını açıqlayıb. “Google” ChatGPT-nin uğuruna cavab olaraq qurumda "qırmı-

zı kod" korporativ fövqəladə vəziyyət elan etdi və axtarış yönümlü "Bard" adlı chat-botunu bazara çıxardı. 2023-cü il fevralın 7-də "Microsoft"un baş direktoru Satya Nadella "Google"a meydan oxuyaraq, "Bu gündən yarış başlayır. Hərəkət edəcəyik və sürətlə hərəkət edəcəyik!" deyə açıqlama verib [4].

Məşhur "Thomson Reuters" şirkəti özünün hüquq üzrə Sİ köməkçisi "Casetext" startapına 650 milyon dollar ödəyib. Salesforce Ventures generativ Sİ fondunun həcmini iki dəfə - 500 milyon dollar artırdığını bildirib. "Google", "Microsoft" və digər şirkətlərin vençur bölmələri Sİ ilə startaplara fəal şəkildə sərmayə qoyur. Maraqlı olan konsaltinq və texnologiyadankənar şirkətlər də Sİ-yə investisiyalarını artırırlar. Enerji, kimya, metallar, mədənçıxarma və əczaçılıq sənayelərində Sİ xidmətləri təklif etmək fəaliyyəti görünməmiş miqyasa çatıb. Ölkəmizdə də yaxşı tanınan PwC şirkəti növbəti üç il ərzində Sİ layihələrinə və 65.000 nəfərlik işçi qüvvəsinin ixtisasının artırılmasına 1 milyard dollar sərmayə qoymağı planlaşdırdığını açıqlayıb. PwC-nin proqnozçuları Sİ-nin 2030-cu ilə qədər qlobal iqtisadiyyatı 15 trilyon dollardan çox artıra biləcəyini proqnozlaşdırırlar. Tədqiqatçılar hesab edirlər ki, bu, yalnız başlanğıcdır: generativ Sİ bütün iş dünyasını şəkilləndirəcək, yaradıcılığa və elmi kəşflərə yol açacaq, bəşəriyyətə əvvəllər olmayan ağılasığmaz nailiyyətlər, iqtisadi fayda əldə etməyə imkan verəcək.

Hazırda mütəxəssislərin fikrincə, Sİ-nin potensial hesablama gücü hər altı aydan bir-iki dəfə artır. Bu şəraitdə Sİ-nin hətta gələn il nə edə biləcəyini dəqiq proqnozlaşdırmaq çətinləşir. Artıq "OpenAI" şirkətinin ChatGPT sistemi tarixdə ən sürətlə böyüyən istehlakçı proqramı kimi salnaməyə düşüb. İşə salındıqdan cəmi iki ay sonra 100 milyon aktiv istifadəçiyə çatması ilə ümumilikdə Sİ-nin dünya iqtisadiyyatını görünməmiş şəkildə yenidən formalaşdıracağı, transformasiyaya uğradacağı labüddür. "Goldman Sachs" analitik şirkətinin hesabatına görə, Sİ-nin avtomatlaşdırılması qlobal miqyasda 300 milyon iş yerinə təsir göstərə və qlobal ÜDM-i ildə 7% və ya 7 trilyon dollar artıra bilər. MkKinsey hesabatında qeyd edilib ki, "hazırkı generativ süni intellekt və digər texnologiyalar bu gün işçilərin vaxtının 60-70%-ni əhatə edən iş fəaliyyətlərini avtomatlaşdırmaq potensialına malikdir" [13].

PwC-nin hesabatında Çində iş yerlərinin 26%-ni, Böyük Britaniyada isə 20%-ni yaxın iyirmi il ərzində Sİ-nin əvəzləyəcəyi bildirilir. Müstəqil maliyyə analitiklərinə görə, Sİ yaxın zamanda iş yerlərinin təxminən 80%-ni köhnəldə, sıradan çıxara bilər [12].

MkKinsey şirkətinin əhatəli hesabatına görə, Sİ-dən əldə olunan gəlirin 75%-i dörd sənaye sahəsindən - müştəri əməliyyatları, marketinq və satış, proqram təminatının inkişafı və elmi tədqiqatdan gələcək. Şirkət neyron şəbəkələrdən istifadənin 63 variantını nəzərdən keçirib. Onların arasında Sİ-nin müştərilərlə qarşılıqlı əlaqəni saxlamaq, satış məzmunu yaratmaq və istifadəçilərin istəyi ilə proqramlar yazmaq qabiliyyəti var. Həmçinin, generativ Sİ iqtisadiyyatın bütün sektorlarına əhəmiyyətli dərəcədə təsir göstərəcək. Məsələn, bank işində Sİ-nin gücündən tam istifadə olunarsa, texnologiya ildə 200-340 milyard dollar arasında gəlir gətirə bilər. Pərakəndə satışda Sİ hər il əlavə 400-660 milyard dollar qazana bilir. Neyroşəbəkələr həmçinin işçilərin iş vaxtının 70%-ni ala bilən rutin tapşırıqları avtomatlaşdıraraq onları azad edir. MkKinsey hesab edir ki, texnologiya inkişaf etdikcə və təkmilləşdikcə neyron şəbəkələr vasitəsilə iş axınının transformasiyası sürətlənəcək. Bunun hesabına 2040-cı ilə qədər əmək məhsuldarlığının

ümumi artımı ildə 0,1-0,6% artacaqdır. Digər avtomatlaşdırma texnologiyaları ilə birlikdə işçilərin səmərəliliyi növbəti iki onillikdə 0,2-3,3% arta bilər [20].

## NƏTİCƏ

**Təbii və süni zəka: əməkdaşlıq, yoxsa qarşılıqlı özünüməhvə aparan yolun seçimi sosial elmlərin ortaq səylərindən çox asılıdır**

Generativ Sİ və yeni nəsil çatbotların (ChatGPT və s.) kəşfi bütün dünyada sensasiyaya çevrildi. Bu güclü texnologiyaların onların necə tətbiq olunacağına qərar verilməsi ictimai müzakirələr keçirilmədən cəmiyyətin bütün sahələrində tətbiq edilməsi təhlükəli bir tendensiyadır.

2022-ci ilin noyabr ayından "OpenAI" tərəfindən ChatGPT botunun buraxılması ilə ilk növbədə ali məktəblərdə tələbələrin yazdığı akademik yazıların ənənə olaraq tarixə qovuşması qeyd edildi. Bot şifahi dildə suallara cavab verə, kompüter kodlarının yazılması, rəsm çəkilməsi, dietik menyuların tərtib edilməsi və s. təsəvvürəgəlməz digər tapşırıqları yerinə yetirə bilməsini sübut etdi. Hazırladığı cavabların çox ardıcıl və inandırıcı olmasına baxmayaraq, bəzən səhvlərə yol verməsi, saxta faktlar yaratması kimi halları Sİ tədqiqatçıları "hallüsinasiya" fenomeni adlandırdı. Saxta bağlantılarla bağlı narahatlıqlar son vaxtlar bir sıra elmi jurnalların akademik məqalələrdə ChatGPT və oxşar vasitələrin istifadəsini qadağan və ya ciddi şəkildə məhdudlaşdırmasına səbəb oldu.

Getdikcə yeni texnologiyanın real və virtual dünyada sonsuz cinayətlərə yol aça biləcəyi, onlayn fırıldaqçılıqdan tutmuş zərərli proqramların yazılmasına qədər müxtəlif qeyri-qanuni sxemlər üçün tətbiq ediləcəyi ilə bağlı narahatlıqlar müzakirəyə çıxarıldı. Bu, təsadüfi sayıla bilməz. Çünki cəmi bir neçə on il əvvəl sosial şəbəkələr də əvvəlcə demokratiyanı gücləndirəcək bir yenilik kimi təqdim olunmuşdu, lakin onlar dezinformasiya yayaraq onu xaos yarada biləcək siyasi texnologiyalara transformasiya etdi. Şəbəkə - Feysbuk, Tvitter inqilabları baş verdi. Sİ-nin oxşar şəkildə istifadə ediləcəyini güman etmək reallıqdır.

Yeni texnologiyalar şəxsi məlumatların sui-istifadəsi, ümumilikdə məxfiliyin məhv edilməsi yönündə əlavə risklər yaradır. ABŞ-ın sabiq dövlət katibi Henri A.Kissincerin fikrincə, Sİ texnologiyaları insan yaradıcılığını, təfəkkürünü sarsıtmaq potensialına malik olmaqla, həm də dərin psixoloji effektə malikdir. Çünki informasiya rasional ağılı, təbii müdrikliyi "repressiyaya uğradır".

Bəzi təhlillərdə Sİ-nin bəşəriyyətin yox olmasına səbəb olacağı ilə bağlı qorxular aydın şəkildə əsaslandırılıb. Reallıq bundan ibarətdir ki, bu qədər yüksək stavkaların ortaya qoyulduğu texnologiyanın gələcəyini sadəcə Sİ üzrə mütəxəssislərin, hətta texnoloji şirkət rəhbərlərinin də öhdəsinə buraxmaq olmaz. Onun başgicəlləndirici inkişaf templərinə adekvat olaraq, təcili hüquqi tənzimləmə yollarının müəyyən edilməsi, mövcud "məsuliyyət daşıyan yoxdur" kimi vakuumun aradan qaldırılması vacibdir. Bu proses heç bir sahə ilə müqayisə oluna bilməyən qlobal iştirak tələb edir.

Sİ-yə qlobal iş dünyasının qeyri-adi marağı, birbaşa investisiyaların düşünmədən yatırılması onun ziyanlı sosial nəticələrini də gücləndirə bilər. Artıq indidən Sİ startap şirkətləri satın almaqla, özəlləşdirməklə, işçi qüvvəsini kütləvi ixtisar etməklə, yeni sahəyə yüksək dividendlər ödəməklə fantastik məbləğdə sərvətlər əldə etmək olar. Digər tərəfdən, ChatGPT və digər Sİ texnologiyaları cəmiyyətdə və iş yerində total

nəzarəti, daha sərt iş şəraitini, çevik iş saatlarını və s. təşkil etməklə insanlara sosial təzyiqi maksimum dərəcədə artırmağı daha da asanlaşdıracaq.

Sual oluna bilər ki, texnologiyalar tarix boyu həmişə olub. Yeni tətbiqlər texnoloji sıçrayışlar və əsasən müsbət nəticələr verib. XXI əsrin iqtisadi mühiti tamamilə fərqlidir. Sİ texnologiyaları bazara yeni gələnlər üçün əhəmiyyətli bir “giriş maneəsi” yaradır və bazarın konsentrasiyasına meyillidir. Bu potensial inhisarlaşma (sui-istifadə təhlükəsi ilə birlikdə) o deməkdir ki, dünya ölkələri, elmi ictimaiyyət təcili olaraq bu texnoloji sıçrayışın mümkün nəticələri barədə düşünməlidir. Texnokrat-milyarder iş adamı Elon Mask “Google” və “Deep Mind” şirkətlərinin bu sahədə monopoliya yaratması ilə bağlı təhlükələri gördükdən sonra Sİ ilə bağlı tədqiqat aparan şirkət yaratmaq qərarına gəlib.

Sİ savaşına qoşulan, milyardlarla sərmayə qoyan və bu prosesə qoşulmayan ölkələr var. Potensial inhisarlaşma – imkanlardan sui-istifadə təhlükəsi ilə birlikdə bu o deməkdir ki, xüsusilə prosesə qoşulmayan ölkələr bu texnoloji sıçrayışın mümkün nəticələri barədə təcili düşünməlidir.

Təbii intellekti, insanları əvəz etmək üçün istifadə oluna biləcək istənilən texnologiya təkcə iş yerləri üçün deyil, həm istehlakçılar, həm investorlar, bütövlükdə bəşəriyyət üçün total risk və təhdidlər yaradır.

Bu məqalə çərçivəsində Sİ tərəfindən yaradılan risklərin və rəqabətin sosial nəticələrinin kiçik bir qisminə toxunuldu. Proseslərin hərbi-siyasi, aşkar geosiyasi təsirləri, informasiya müharibəsində, seçki texnologiyalarında tətbiqləri, ictimai rəyin manipulyasiyası, rejimdəyişdirici siyasi texnologiyalarda tətbiqləri və s. hər bir ölkəni potensial hədəfə çevirə bilər.

Tədqiqatın yekunu olaraq bəzi qənaətlərə gəldikdə:

❖ Dünya elmi ictimaiyyəti Sİ texnologiyalarının inkişafında insan mərkəzli, insana xidmət edən prinsipləri rəhbər tutulmasını təmin etmək üçün indiki vaxtda hərəkətə keçməsə, sonra çox gec ola bilər.

❖ İlk olaraq, çıxış yolu qismində bəşəriyyətin maraqlarının maddi-texnoloji maraqlardan önə keçməsi, müxtəlif məqsədli tətbiqlərin ziyanlı sosial nəticələrinin aradan qaldırılması, hüquqi tənzimlənməsi üçün ortaq qlobal qurumlar təsis edilə bilər. Həmin qurumların lokal təmsilçilikləri yaradıla, birgə fəaliyyət əlaqələndirilə bilər.

❖ Xüsusilə ictimai maraqların qorunması istiqamətində Sİ-nin sosial nəticələrinin müəyyən edilməsi üçün qanunvericilik sahəsində nəzərə alınmalı olan üç “ictimai” mexanizm qeyd edilə bilər. Bunlar:

1. Sİ-nin sosial nəticələri ilə bağlı hesabatlılığın artırılması üçün ictimai nəzarət mexanizmləri, o cümlədən ictimai rəylə əks əlaqəni təmin etmək yolu ilə davamlı qiymətləndirmələr;

2. Sİ-nin cəmiyyətə təsiri ilə bağlı elmi tədqiqat əsaslı (evidence-based) araşdırmaların aparılması, məlumatın toplanılması və yayılmasını təmin etmək üçün ictimai monitorinq mexanizmləri;

3. şəxsiyyət, institutlar və cəmiyyət səviyyəsində təsirlərlə bağlı məlumatların əldə edilməsi, şəffaflıqla bağlı ictimai qərarların qəbulu.

Qeyd edilən məqamlar hazırda Sİ-nin sosial nəticələrinin tənzimlənməsi ilə bağlı həyata keçirilən yeni qanunvericiliklərdə Sİ hüququ və Sİ idarəçiliyi kimi yeni sahələrin adekvat inkişaf etdirilməsi ilə sıx bağlıdır.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

**İngilis dilində:**

1. AI researchers call upon new German government to back autonomous weapons treaty. November 1, 2021. // https://autonomousweapons.org/ai-researchers-call-upon-new-german-government-to-back-autonomous-weapons-treaty/?utm_source=ActiveCampaign&utm_medium=email&utm_content=FLI+November+ 2021+Newsletter &utm_campaign=FLI+November+2021+Newsletter

2. AI Revolution: Simulating Human Behavior for Groundbreaking Social Science. // https://neurosciencenews.com/ai-social-science-research-23488/

3. An Overview of National AI Strategies. // https://medium.com/politics-ai/an-overview-of-national-ai-strategies-2a70ec6edfd

4. Artificial Intelligence May Be Coming For Your Job. // https://www.forbes.com/sites/jackkelly/2023/05/24/artificial-intelligence-may-be-coming-for-your-job/?sh=3a7c1b9878b6

5. Bayamlıoğlu, E., & Leenes, R. (2018). The 'rule of law' implications of data-driven decision-making: A techno-regulatory perspective. Law, Innovation and Technology, 10(2), 295-313. - https://doi.org/10.1080/17579961.2018.1527475

6. ChatGPT probably beat you at the philosophy baccalaureate… and he wasn't even all the way. // https://www.gearrice.com/update/chatgpt-probably-beat-you-at-the-philosophy-baccalaureate-and-he-wasnt-even-all-the-way/

7. Council Europe. (2019). Terms of reference for the Ad hoc Committee on Artificial Intelligence (CAHAI). // https://www.coe.int/en/web/artificial-intelligence/cahai

8. Deepfake AI (deep fake). // https://www.techtarget.com/whatis/definition/deepfake

9. European Commission (2020c). White Paper on Artificial Intelligence—A European approach to excellence and trust (White Paper COM(2020) 65 final).

10. Henry A. Kissinger, Eric Schmidt, and Daniel Huttenlocher, The Age of AI: And Our Human Future, Little, Brown and Company, 2021, 272 p.

11. https://www.aspenideas.org/?utm_source=newsletter&utm_medium=email&utm_campaign=newsletter_axiosam&stream=top

12. https://www.businesstoday.in/technology/news/story/ai-could-probably-make-80-of-jobs-obsolete-ai-guru-ben-goertzels-revelation-380911-2023-05-11

13. Is AI coming for your job? These are the workers who will be replaced first, according to experts. // https://www.thestar.com/business/is-ai-coming-for-your-job-these-are-the-workers-who-will-be-replaced-first/article_240fe68b-854e-53b7-b0f9-9c1ca2319b0c.html?

14. Is AI Coming for Your Job? // https://hbswk.hbs.edu/item/is-ai-coming-for-your-job//

15. Smuha, N. A. (2021). Beyond the individual: governing AI's societal harm. Internet Policy Review, 10(3). - https://doi.org/10.14763/2021.3.1574

16. Social media and everyday politics, re-examined. // http://culturedigitally.org/2017/04/social-media-and-everyday-politics-re-examined/

17. Social scientists look to AI models to study human behavior. // https://www.axios.com/2023/06/24/social-scientists-look-to-ai-models-to-study-human-behavior?utm_source=newsletter&utm_medium=email&utm_campaign=news letter_axioslogin&stream=top

18. Taylor V. Intuitive Surgical Inc. (Majority and Dissent). // https://law.justia.com/cases/washington/supreme-court/2017/92210-1.html?utm_source=newsletter&utm_medium=email&utm_campaign=newsletter_axioslogin

19. The 2024 presidential race is the AI election. // https://www.axios.com/2023/06/27/artificial-intelligence-ai-2024-election-biden?utm_source=newsletter&utm_medium=email&utm_campaign=newsletter_axiosam&stream=top

20. The economic potential of generative AI: The next productivity frontier. June 14, 2023 | Report. // https://www.mckinsey.com/capabilities/mckinsey-digital/our-insights/the-economic-potential-of-generative-AI-the-next-productivity-frontier#industry-impacts

21. Turing, Alan."Computing Machinery and Intelligence". Mind, 1950, pp. 433-460.

22. Who were the Luddites? // https://www.history.com/news/who-were-the-luddites

23. Zuiderveen Borgesius, F. J. Discrimination, artificial intelligence, and algorithmic decision-making [Study.2018]. Council of Europe, Directorate General of Democracy. // https://rm.coe.int/discrimination-artificial-intelligence-and-algorithmic-decision making/1680925d73

**Rus dilində:**

24. Искусственный интеллект: спасет или уничтожит человечество. // https://radiokp.ru/podcast/dialogi/679569

**Tahira Allahyarova**

## SOCIAL IMPLICATIONS OF THE DEVELOPMENT AND APPLICATION OF ARTIFICIAL INTELLIGENCE TECHNOLOGIES

### Abstract

The article discusses the social effects and consequences of the implications of artificial intelligence technologies, Generative Artificial Intelligence, as one of its latest forms and a new generation of chat bots.

The author characterizes Artificial Intelligence as the engine of the 4th industrial revolution, the global technological revolution and a new challenge to humanity. It is noted that the results of the AI will affect the radical reconfiguration of the global division of labor, the restructuring of technological chains and, as a result, the reshaping of world economic and political power.

The use of new generation Aİ technologies in all regions of the world and the use of their capabilities for various purposes can lead to very serious social consequences, disruption of political and international stability, the emergence of new migration waves, the spread of extremist ideologies, the growth of international terrorism and organized crime.

The article deals with the study of the social consequences of artificial intelligence. The results of the use of Artificial Intelligence in political, economic, media and journalism, education, health and social sciences are analyzed. It is also emphasized that social networks were initially presented as an innovation that strengthens democracy, but later transformed into political technologies capable of creating disinformation and chaos.

In the final part, the author presents his conclusions regarding the socio-political consequences of the processes, their use in the information conflict, electoral technologies, manipulation of public opinion, threats and ways and mechanisms to prevent their possible use for political purposes.

**Keywords:** Artificial intelligence (AI), Generative Artificial Intelligence, Society, Social Impact and Consequences, ChatGPT, New Generation of Chat Bots, AI and social sciences, AI and economic processes, AI law, AI governance

**Тахира Аллахьярова**

**СОЦИАЛЬНЫЕ ПОСЛЕДСТВИЯ РАЗРАБОТКИ И ПРИМЕНЕНИЯ ТЕХНОЛОГИЙ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА**

**Резюме**

В статье рассматриваются социальные эффекты и последствия внедрения технологий искусственного интеллекта, генеративного искусственного интеллекта, одной из его новейших форм и нового поколения чат-ботов.

Автор характеризует искусственный интеллект как двигатель 4-й промышленной революции, глобальной технологической революции и нового вызова человечеству. Отмечается, что результаты СИ повлияют на коренную перенастройку глобального разделения труда, перестройку технологических цепочек и, как следствие, на переформирование мировой экономической и политической власти.

Применение ИТ-технологий нового поколения во всех регионах мира и использование их возможностей в различных целях может привести к весьма серьезным социальным последствиям, нарушению политической и международной стабильности, возникновению новых миграционных волн, распространению экстремистских идеологий, росту международного терроризма и организованной преступности.

В статье рассматривается исследование социальных последствий искусственного интеллекта. Анализируются результаты применения искусственного интеллекта в политической, экономической, медиа- и журналистике, образовании, медико-санитарных и социальных науках. Также подчеркивается, что социальные сети изначально преподносились как нововведение, укрепляющее демократию, но позже трансформировались в политические технологии, способные создавать дезинформацию и хаос.

В заключительной части автор представляет свои выводы относительно социально-политических последствий процессов, их использования в информационном конфликте, избирательных технологий, манипулирования общественным мнением, угроз и способов и механизмов предотвращения их возможного использования в политических целях.

**Ключевые слова:** искусственный интеллект (ИИ), генеративный искусственный интеллект, социальное воздействие и последствия, ChatGPT, чат-боты нового поколения, общество, ИИ и социальные науки, ИИ и экономические процессы, право ИИ, управление ИИ

# YENİ NƏSİL GENERATİV SÜNİ İNTELLEKT TEXNOLOGİYALARI (ChatGPT) VƏ İNSAN HÜQUQLARI: TƏNZİMLƏNMƏSİ İLƏ BAĞLI İLK CƏHDLƏR

**Lalə ƏKBƏROVA**
*ABŞ-ın Lindenvud Universitetinin məzunu, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin doktorantı, Milli Məclisin İnsan Hüquqları Komitəsinin eksperti*

*E-mail: l.akbarova88@gmail.com*
*ORCID: 0009-0003-0400-958X*

**Xülasə.** Məqalədə yeni nəsil generativ süni intellekt (Sİ) texnologiyaları və insan hüquqları mövzusu, bu sahədə tənzimlənmə ilə bağlı mövcud ilkin təcrübələr tədqiq edilir. Qeyd edilir ki, texnologiyaların sürətli inkişafı həm qlobal, beynəlxalq, həm də milli-hüquqi çərçivələrdə hüquqi tənzimlənmələri olduqca aktual məsələyə çevirib. Müəllif yeni nəsil Sİ-nin ən son nümunələrinin insan hüquqları sahəsində müsbət təsirlərinə və perspektivlərinə nəzər salır.

Daha sonra Sİ tətbiqlərinin insan hüquqları üçün yaratdığı mümkün təhlükələr baş verən real presedentlərlə izah edilir. Müəllifə görə, insan hüquqları sahəsində Sİ-nin tətbiq əhatəsi nə qədər genişlənirsə, onun yaratdığı problemlərin dairəsi də o qədər çoxalır.

Məqalədə Sİ-nin hüquqi tənzimlənməsi ilə bağlı səylərin əsasən ABŞ və Avropada (xüsusilə Böyük Britaniyada) gündəmdə olduğu qeyd edilir. Avropa Birliyinin qanunvericilərinin Sİ ilə bağlı qəbul etdiyi, dünyada ilk sayılacaq mühüm tənzimlənmə - Avropa Birliyinin Süni İntellekt Aktı (AB Sİ Aktı) təhlil edilir. Avropa Birliyinin Süni İntellekt Aktında Sİ-nin tətbiqlərini 3 risk kateqoriyasına ayırması vurğulanır.

Tədqiqatda həmçinin ABŞ Konqresinin Sİ və insan haqları yönündə fəaliyyəti də araşdırılır. Senatın İnsan Hüquqları Alt Komitəsinin Sİ-nin insan hüquqlarına təsirlərini araşdırmaq üçün keçirdiyi ikitərəfli dinləmələr, onun nəticəsində alınan qərarlar və təkliflərə münasibət bildirilir.

"Nəticə" hissəsində müəllif yeni nəsil Sİ və insan hüquqları yönündə müzakirə və qərarların hələlik yalnız Qərb ölkələrində aparıldığını vurğulayır.

**Açar sözlər:** Yeni nəsil generativ süni intellekt (Sİ), insan hüquqları, süni intellekt əsaslı kibercinayətkarlıq, süni intellektin potensial təhdidləri, ChatGPT, Avropa Birliyinin Sİ Aktı, ABŞ, Böyük Britaniya, Sİ əsaslı səs klonlaması, hüquqi tənzimlənmə, Sİ qanunvericiliyi, yeni nəsil çatbotlar, Sİ və hüquqi aktlar, Sİ hüququ üzrə mütəxəssislər

## Giriş

Müxtəlif zamanlarda baş verən elmi kəşflər müvafiq olaraq bütün sahələrdə, o cümlədən hüquqi-qanunvericilik istiqamətində dəyişikliklərə səbəb olub. İnformasiya və rəqəmsallaşma dövrünü yaşayan hazırkı vaxtda yeni nəsil süni intellekt texnologiyalarının sürətli inkişafı həm qlobal, beynəlxalq, həm də lokal, milli-hüquqi çərçivələrdə hüquqi tənzimlənmələri olduqca aktual məsələyə çevirib.

"Süni intellekt" (Sİ) və "Maşın öyrənməsi" (Machine learning) adlanan, ötən bir neçə onillikdə yaradılan və inkişaf edən texnologiyalar çoxsaylı elmlər tərəfindən öyrənilir. Son bir ilə yaxın müddətdə ortaya çıxan, Generativ Süni İntellekt ChatGPT (Generative Pre-trained Transformer - Generativ Əvvəlcədən Öyrədilmiş Transformer (çevirici)) adlanan yeni nəsil Sİ qeyri-adi xüsusiyyətləri və imkanları ilə dünyada böyük əks-səda doğurub. Geniş mənada tərifə görə, "Ümumi olaraq GPT kimi tanınan generativ - Generativ Əvvəlcədən Öyrədilmiş Transformerlər (çeviricilər) - transformer arxitekturasından istifadə edən neyron şəbəkə modellər ailəsinə aid olub, ChatGPT generativ tətbiqlərini dəstəkləyən yeni nəsil Sİ kimi böyük sıçrayış hesab edilir. GPT modelləri proqramlar insan kimi mətnlər, məzmun, şəkillər, musiqi və s. yaratmağa, suallara danışıq tərzində cavab verməyə imkan verir. Hazırda bütün sahələrdə qurumlar sual-cavab botları, dataların analizi, mətnlərin hazırlanması, məzmun yaradılması və axtarış əməliyyatları üçün GPT modellərindən və generativ süni intellektdən istifadə edir" [16].

Bununla yanaşı, indiki mərhələdə Sİ-nin ümumi qəbul edilmiş vahid elmi tərifi yoxdur. Qısa mənada tərifə görə, yeni nəsil Sİ dedikdə olduqca geniş əhatədə maşınların və intellektual sistemlərin (yəni kompüterlərin) insan intellektinə bənzər hərəkətləri yerinə yetirmək qabiliyyətini daha da təkmilləşdirməyə imkan verən müxtəlif texnologiyaların məcmusu başa düşülür. Sİ və ya maşın öyrənməsinin mahiyyəti ondan ibarətdir ki, bu texnologiyalar daim öz fəaliyyət dairəsini genişləndirir, bu prosesdə əvvəllər yalnız insana xas olan, onun imtiyazı kimi görünən fəaliyyət növlərinə yiyələnirlər. Söhbət həm də müxtəlif cür təsnif edilə bilən mürəkkəb problemlərin həllindən gedir. Məsələn, düşüncə qabiliyyətini tələb edən, həmçinin kəmiyyət təhlili və proqnozlaşdırma xarakterli məsələləri həll edə bilən sistemlər son dövrdə olduqca sürətli inkişaf edir. Sİ texnologiyaları təxminən belə işləyir:

- Sİ sistemləri nəhəng həcmdə məlumat toplayır, bu məlumatlar sanki Sİ-nin "içərisində dövr etdiyi data-kosmos"u təşkil edir. Sİ məhz və yalnız həmin nəhəng data-kosmos sisteminə əsaslanaraq tapşırıqları icra edə bilir.
- Sİ-nin iş mexanizmi insanların beyinlərindəki neyron şəbəkələrinə bənzəyir, baş verənlərə dair şüur və anlayışların formalaşmasına bənzər proseslər gedir. Bu mənada Sİ-nin işi insan zəkasına çox yaxınlaşmaqdadır.
- Bu gün üçün Sİ məqalələr, xəbərlər və ya şeirlər yazmaqdan tutmuş videolar, podkastlar, şəkillərin redaktə edilməsi, üztanıma əməliyyatlarına qədər saysız-hesabsız fəaliyyətlər icra edir. Son bir ildə həmin fəaliyyətlərin dairəsi təsəvvürəgəlməz dərəcədə artmaqdadır.
- Bütün sahələri optimallaşdırmağa imkan verən Sİ-nin tətbiq dairəsi çox genişdir. İlk növbədə, bu Sİ-nin əvvəllər yalnız bir insana tabe olan bir işi ondan daha sürətli, hətta daha dəqiq yerinə yetirə bilməsi ilə əlaqədardır. Başlayan rəqəmsal əsrdə cəmiyyətdə Sİ-nin tətbiq edildiyi sahələrin sayı durmadan artacaq.

Bu baxımdan, tədqiqatçılara görə, hazırda Sİ-nin nəinki tətbiq edildiyi, əksinə hələlik istifadə olunmadığı sahələri sadalamaq daha asan olar.

## 1. Yeni nəsil süni intellektin insan hüquqları sahəsində müsbət təzahürləri və perspektivləri

Qeyd edildiyi kimi, Sİ-nin sürətli inkişafı yeni nəsil texnologiyaların yaranmasına təkan verib. Son illərdə ortaya çıxan ən son 10 Sİ texnologiyaları aşağıdakılardır [14]:

| Ən son Sİ texnologiyaları / Top 10 Artificial Intelligence Technologies | |
|---|---|
| 1. Təbii dil nəsli<br>2. Nitqin tanınması<br>3. Virtual agentlər<br>4. Qərar qəbulunun idarə edilməsi<br>5. Biometrika<br>6. Maşın öyrənməsi<br>7. Robot proseslərinin avtomatlaşdırılması<br>8. Peer-to-peer (serversiz) şəbəkə texnologiyası<br>9. Dərin öyrənmə platformaları<br>10. AL-optimallaşdırılmış aparat | 1. Natural language generation<br>2. Speech recognition<br>3. Virtual agents<br>4. Decision management<br>5. Biometrics<br>6. Machine learning<br>7. Robotic process automation<br>8. Peer-to-peer network<br>9. Deep learning platforms<br>10. AL-optimized hardware |

Yeni nəsil çatbotlar "cəsarətli yeni dünya" da adlandırılır. Sİ ilə təchiz edilmiş yeni chatbotlar texnologiyanın internetin iqtisadiyyatını yüksəldə, bugünkü güc mərkəzlərini arxada qoya biləcəyini və sənayenin növbəti nəhənglərini yarada biləcəyini müəyyən etmək üçün əsl savaşa təkan verib. Həmin çatbotlar əsasən aşağıdakılardır:

**ChatGPT** - yuxarıda qeyd edildiyi kimi, "OpenAI" tədqiqat laboratoriyasının Sİ dili modeli ChatGPT mürəkkəb suallara cavab vermək, şeir, reseptlər yazmaq, kodlaşdırmaq, tətil planlaşdırmaq, dilləri tərcümə etmək qabiliyyətinə görə dəyişməz xəbər başlıqlarına çevrilib. Mart ayının ortalarında təqdim edilən ən son versiya olan GPT-4 hətta şəkillərə cavab verə, "Uniform Bar" imtahanını da keçə bilər.

**Bing** - ChatGPT-nin debütündən iki ay sonra, "OpenAI"-un əsas investoru və tərəfdaşı olan "Microsoft" "Bing" internet axtarış sisteminə faktiki olaraq istənilən mövzuda açıq mətnli söhbətlər apara bilən oxşar chatbot əlavə etdi. Lakin buraxıldıqdan sonra botun hərdən qeyri-dəqiq, aldadıcı və qəribə cavabları da diqqəti cəlb etdi.

**Bard** - Google-un "Bard" adlı chatbotu mart ayında ABŞ və Britaniyada məhdud sayda istifadəçi üçün istifadəyə verilib. Əvvəlcə e-məktublar və şeirlər hazırlamaq üçün nəzərdə tutulmuş yaradıcı bir vasitə kimi düşünülmüş, ideyalar yarada, bloq yazıları yaza, suallara konkret faktlar və ya rəylərlə cavab verə bilər.

**Ernie** - axtarış nəhəngi BAİdu mart ayında Çinin ChatGPT-yə ilk böyük rəqibini təqdim etdi. Ernienin bilik inteqrasiyası vasitəsilə təkmilləşdirilmiş və qısaldılmış debütü, botun vəd edilmiş "canlı" nümayişinin qeydə alınması aşkar edildikdən sonra uğursuz sayıldı [17].

Qeyd edilən bu və digər yeni texnologiyalar cəmiyyət həyatının əksər sahələrinə tətbiq edilə bilməsi ilə fərqlənir. Bu baxımdan onların həm müsbət-mütərəqqi, həm də mənfi mahiyyətli nəticələrə səbəb olması, daha dəqiq deyilsə, tətbiq edənlərin məqsədlərindən asılı olaraq fərqli təsirlərə malik olması reallıqdır.

Tədqiqatımızın mövzusu insan hüquqları olduğu üçün, əvvəlcə yeni nəsil generativ Sİ-nin bu sahəyə müsbət təsirləri ilə bağlı bir neçə məqamı qeyd edək.

Yeni nəsil Sİ-nin insan hüquqları müdafiəçilərinin fəaliyyətinə bir çox formada kömək edə biləcəyi məlum olub. Məsələn, Generativ Sİ hüquq müdafiəçilərinə prosessual sənədlər yazmağa, tərtib etməyə yardım edə bilər. Son bir ildə məşhurlaşan "OpenAI" şirkətinin məhsulu olan ilk çoxfunksiyalı ChatGPT söhbət çatbotu istənilən belə sənədin sözün əsl mənasında ilk nümunəsini - "skeletini" yaratmağa imkan verir. ChatGPT əvvəllər, məsələn, referentlərin gördüyü bütün işləri görə bilir. Bir tərəfdən bu, işçilərin ixtisar edilməsinə, bir sıra peşələrin yox olmasına səbəb olsa da, Sİ hüquq müdafiəçilərinin də fəaliyyətinə yarayır.

Məlumdur ki, insan haqları təşkilatları öz hesabatlarında əksər hallarda təsvirlərdən/fotoşəkillərdən istifadə edirlər. Generativ Sİ sistemi diqqəti cəlb edən qeyri-adi şəkillər yaratmağa (generasiya etməyə) qadirdir. O, həmçinin hüquqların müdafiəsi ilə bağlı ictimai kampaniyalar təşkil etmək üçün təbliğat və təşviqat materiallarının yaradılmasına və digər mənbələrdən məlumatların toplanmasına ciddi kömək edir.

Hüquqların müdafiəsində sənədlərin tərcüməsi məsələsi də getdikcə genişlənən sahədir. Məsələn, bir çox ölkələrdə hüquqşünaslar və jurnalistlərin əl ilə sürətli və keyfiyyətli tərcüməyə sahib olması üçün çox vaxt lazım olur. Bu işin asanlaşdırılması üçün "DeepL" (DeepL Translator) sistemi ortaya çıxıb. Bu texnologiya da "Google Translate" kimi süni intellektdən istifadə edir, sadəcə bu yeni sistem təkmilləşmiş Sİ ilə sənədləri daha yaxşı tərcümə edir.

"Sİ texnologiyalara yaxın" ("technologies close to AI") adlanan yeni sahə də var. Bu sahədə kəmiyyət təhlili, sentiment təhlili, OSINT (Open-source intelligence) və s. ilə əlaqəli bütün fəaliyyətlərdə Sİ tətbiq edillir. Üztanıma sistemlərindən istifadə etməklə, müxtəlif şəkil versiyalarına uyğun data-verilənlər bazası əsasında cinayət törətmiş bəzi şəxslərin tapılması və tanınmasında Sİ-dən istifadə də müsbət təsirlərə aiddir.

Hüquq sahəsində, cinayət axtarış sistemində, polisin fəaliyyətində yeni nəsil Sİ tətbiqləri artıq tam sürətlə genişlənməkdədir. Məsələn, ABŞ-da Nyu-York şəhərinin hüquq-mühafizə orqanları Sİ sistemi vasitəsilə narkotik alverçisini yaxalayıblar. Buna insanların sürücülük üslublarını analiz edən süni zəka sistemi vasitəsilə nail olunub. Məlumatda qeyd edilib ki, Devid Zayas adlı şəxs Nyu-York ştatının şimalında yerləşən Skarsdeyl adlı kiçik şəhərdə avtomobili idarə edən zaman polislər tərəfindən saxlanılıb. Avtomobilin yoxlanılması zamanı onun daxilində narkotik vasitələr, odlu silah və 34.000 ABŞ dolları nağd pul aşkar edilib. Daha sonra Devid Zayas narkotik alverçiliyi üzrə günahını boynuna alıb [13].

Hüquq-mühafizə orqanlarının əməkdaşlıq etdiyi, regionda yol hərəkətinin intellektual idarəsi platforması olan "Rekor" adlı şirkətin monitorinqləri çərçivəsində şirkətin süni zəka əsaslı alqoritmi Devid Zayası şübhəli şəxs kimi müəyyən edib. Şirkətin süni zəka əsaslı sistemi Zayasın günlərlə hərəkət etdiyi marşrutları analiz edərkən, onun narkotik alverçilərinin mütəmadi şəkildə istifadə etdikləri marşrutlarla eyni olduğunu təsdiqləyib və nəticədə sistem onu narkotik alverçisi kimi təyin edib. Yeni nəsil Sİ tətbiq edən şirkətlər ABŞ-ın polis departamentləri və digər dövlət müəssisələri ilə əməkdaşlıq edir.

Son Sİ texnologiyalarının hüquq sahəsində tətbiqinin müsbət nəticələri ilə bağlı ən maraqlı, həm də paradoksal

məqam diqqəti cəlb edir. Bu, Sİ-nin yeni qanunvericiliklərin hazırlanmasında kömək etməsidir [1]. Bu cür hazırlanan qanun layihələrində onların Sİ tərəfindən tərtib edilməsi, mütəxəssislərin isə sonda sənədin doğruluğunu yoxlayıb təsdiqləməsi qeyd edilir.

Sİ-nin yaranmasından bəri onun insan hüquqlarına təsiri ilə bağlı tədqiqatlar xaricdə və ölkəmizdə az sayda olsa da mövcud olub [5]. Bununla yanaşı, əsas fərq odur ki, yeni nəsil generativ Sİ-nin insan hüquqlarına təsiri ilə bağlı araşdırmalar hələlik yoxdur. Səbəb həm bu texnologiyaların olduqca sürətli inkişafı və hüquq-qanunvericilik sistemlərinin onunla ayaqlaşa bilməməsi, həm də yeni nəsil texnologiyaların tətbiqinin olduqca nəhəng sahələri əhatə etməsidir. Digər mühüm səbəb dünya ölkələrinin bu sahədə hələlik milli qanunvericiliklər hazırlamaqla bağlı təklifləri səslənsə də, beynəlxalq/universal qanunvericiliyin hazırlanmasının "sıfır" vəziyyətdə olmasıdır. Bu vəziyyət olduqca böyük təhdidlərə səbəb ola bilər. Yeni nəsil Sİ texnologiyalarının insan hüquqları sahəsində pozuntuları cəzasız qala, ümumilikdə cəzasızlıq mühiti formalaşa bilər.

İnsan hüquqları sahəsində Sİ-nin inkişafı perspektivlərinə gəldikdə, məsələn, yaxın gələcəkdə Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) kimi böyük strukturlarda qərarların verilməsi üçün avtomatlaşdırılmış sistemlər inkişaf etdirilə bilər. Məlumdur ki, burada görüləsi işlər və bürokratik prosedurlar olduqca çoxdur, növbələr illərlə uzanır. AİHM-də bir çox hüquqi prosedurların illərlə yaxşı sənədləşdirilməsi mövcuddur ki, bu da ümumiyyətlə bu sahədə Sİ-dən istifadə üçün ilkin şərtlər yaradır.

Digər mümkün perspektivli istiqamət Sİ-nin insan haqlarına mənfi təsirləri ilə mübarizə üçün elə Sİ-nin özünün istifadə edilməsi məsələsidir. Yəni burada bəzi alqoritmik əks təsir vasitələri, məsələn, sifətin və siqnalın tanınması, botlarla mübarizə və s. nəzərdə tutulur.

Daha bir istiqamət artıq baş verənlər, məsələn, bütün qanunvericiliyi araşdırmaq üçün getdikcə aktuallaşan məlumatların təhlilindən istifadə etmək imkanlarıdır. Misal üçün, Sİ sahəsinə də aid olan maşın öyrənməsindən istifadə edən "Light Alqoritmi" 500.000 məhkəmə qərarını təhlil edib. Bu, heç bir insanın/tədqiqatçının belə qısa müddətdə və ümumiyyətlə, öz həyatında edə bilmədiyi bir işdir. Çox güman ki, sadəcə analitik məlumatlarla işləyən hüquq müdafiəçiləri bu üsullardan mütləq istifadə edəcək. Onlar getdikcə daha çox bu kimi ofis alətlərindən istifadə edəcək, yüzlərlə məktublara cavab yazacaq. Ümumiyyətlə, insan hüquqlarına aid bütün sahələr gələcəkdə sadəcə olaraq yeni nəsil texnologiyalarla davamlı təkmilləşdirmənin aparılacağı tətbiq sahələridir.

## 2. Süni intellekt və hüquq sahəsi: əvvəlki və indiki texnologiyaların mahiyyət fərqləri

Ümumilikdə əvvəlki Sİ texnologiyaları ilə yeni yaradılan generativ Sİ-nin insan hüquqları ilə əlaqəsi mövzusunda nəzərə alınacaq daha bir vacib məqam mövcuddur. 30 il bundan əvvəl Sİ-nin tətbiqi üçün kompüter savadlılığına malik olmaq insan həyatının bir hissəsinə çevrildi. Əvvəllər daxil edilən məlumatlarla işləmək, sürətli yaza bilmək, saytlar açmaq, axtarışdan istifadə etmək, elektron məktublar yazmaq zəruri idi.

Hazırkı yeni nəsil generativ Sİ ilə işləmək üçün hüquq sahəsində çalışanlara lazım olan təkcə kompüter savadlılığı kifayət deyil. Ən vacib bacarıq interaktiv dialoq interfeysləri ilə işləyə bilməkdir. Eyni zamanda, bu yeni bacarığın necə işlədiyini, hansı məhdudiyyətlərə ma-

lik olduğunu, bizə nə verə biləcəyini və harada təhdid yarada biləyəcəyini başa düşmək əsas şərtlərdən biridir. Bir məsələ aydındır ki, özlərinə məxsus dəstək və hüquqi məsləhət sistemi olan hüquq müdafiəçiləri üçün bu cür sistemləri mənimsəmək mütləq şərtdir. Çünki belə şəraitdə hüquqi məsləhət almaq istəyənlərin sayı təsəvvürəgəlməz dərəcədə artmış olur.

Beləliklə, 2023-cü ildən başlayaraq, hüquq sistemi Sİ ilə işləmək üçün sadəcə kompüter savadlılığı deyil, interaktiv dialoq interfeysləri ilə işləmək bacarıqları istənilən formada məsləhət istəyən insanlar üçün günün tələbinə çevrilir. Məlumdur ki, insan hüquqları sahəsində bütün işlər mütləq olaraq məhkəmələrə çatmır və çoxsaylı məsələlər hələ sual-cavab rejimində həll oluna bilir, bu isə generativ Sİ-nin bacardığı istənilən dəstək sisteminə olduqca çox bənzəyir. Dialoq interfeysləri hüquqşünasların işlərini xeyli sürətləndirir, səmərəliliyini dəfələrlə artırır.

### 3. Son nəsil Sİ texnologiyaları və insan hüquqları üçün təhlükələr, mövcud presedentlər

Sİ verilənlər bazasına əsaslanan, əsasən həmin bazaya daxil edilmiş alqoritmlərin gücləndirilməsi ilə işlədiyindən ciddi yan təsirlərə də malik ola bilir. Belə ki, Sİ artıq mövcud olan dil modellərindən istifadə etdiyi üçün ədalətli məhkəmə qərarlarının çıxarılması zamanı insan nitqinə xas olan qərəz, qeyri-obyektivlik, ayrı-seçkilik və bərabərsizliyi dəfələrlə gücləndirə bilər. Artıq bununla bağlı konkret hallar məlumdur. Sİ-yə qərəzliliyin mümkünlüyü haqqında söhbət demək olar ki, texnologiyanın yaradılmasının əvvəlindən gedir. 2016-cı ildə ABŞ-ın bəzi ştatlarında məhkəmə hakimləri tərəfindən istifadə edilən COMPAS (Correctional Offender Management Profiling for Alternative Sanctions - “Alternativ sanksiyalar üçün müttəhimlərin profilinin tənzimlənməsi”) adlı proqramın yaratdığı qalmaqaldan sonra bu, xüsusilə diqqəti cəlb etdi [2]. Belə ki, proqramın alqoritmlərinin irqçi, ayrı-seçkiliyə malik qərarlar çıxarması ortaya çıxdı. COMPAS maşın öyrənməsindən və tarixi məlumatların arxivindən istifadə edərək, bir dəfə zorakılıq cinayəti törətmiş cinayətkarların onu yenidən törədə bilməsi (residivist olması) ehtimalını proqnozlaşdırıb. Hesab edib ki, qara və ya dəri rəngi tünd olan insanlar ağdərili insanlardan daha çox təkrar cinayətlər törədirlər. Xüsusilə vurğulayaq ki, Sİ-nin bu təcrübələri ilk növbədə Qərb cəmiyyətində, daha sonra isə dünyanın digər hissələrində mövcud olan sivilizasion, etnik-milli aspektli ənənə və struktur problemlərini üzə çıxartdı. Tədqiqatçılar bunu “alqoritmik diskriminasiya” adlandırdılar [2].

Digər misallar da maraqlı olmaqla yanaşı, Sİ-nin insan hüquqları üçün yaratdığı təhlükələrlə bağlı təsəvvür yaradır. Məsələn, “Amazon” iş axtaranların tərcümeyi-hallarını təhlil etmək üçün Sİ tətbiq edib. Məlum olub ki, Sİ alqoritmi qadınların CV-lərini rədd edib və əvəzində lazımi bacarıqları olmasa belə xarakterik kişi nitqinə malik faylların olduğu CV-ləri seçərək, işə götürməyi təklif edib, gender ayrı-seçkiliyini nümayiş etdirib. Bu və ya digər hallar texnologiyanı yaradanları belə qərəz və təhriflər etməmək üçün metodoloji səviyyədə işlər aparmağa sövq edir. Məlumatların necə və hansı əsaslarla toplandığını, nəyə görə belə qərarlar alındığını anlamağa çalışırlar. Səbəbləri aradan qaldırmaq, bu cür məlumatların ümumiyyətlə görünməsinə səbəb olan qeyri-bərabərliyə əsas verən struktur sistemlərin yenilənməsi üçün səylər göstərilir.

### 4. İnsan hüquqları sahəsində Sİ-nin tətbiq əhatəsi nə qədər genişlənirsə, onun yaratdığı problemlərin dairəsi bir o qədər çoxalır

Hazırda ən böyük problemlər sözügedən üztanıma texnologiyalarının, alqoritmlərin qeyri-obyektiv məlumatlarla istifadəsi, həmçinin Sİ sistemlərinin enerji sərfiyyatı, ən başlıcası, onların inkişafı ilə bağlı sahələrin tamamilə qeyri-şəffaflığıdır. Yeni texnologiyaların insanlara total nəzarət və izləmə alətinə çevrilməsi, biznes hüququnu da məsuliyyət dairəsinə daxil edir.

Alqoritmlərin istənilən halda cəmiyyətdə mövcud olan ziddiyyətləri, insan nitqinə xas olan qərəzliliyi gücləndirmək ehtimalı yüksəkdir. Bu problemləri isə ən azı alqoritmlərin şəffaflığını tələb etməklə həll etmək olar. Əks təqdirdə, alqoritmlər yalnız total nəzarət və izləməni monopoliyaya ala bilər ki, bu da geniş geosiyasi kontekstdə milli təhlükəsizliyə təhdidlər yarada, Sİ sahəsində liderlik edən ölkələr üçün onu çox güclü silaha çevirə bilər.

Digər daha qlobal bir problem bu alqoritmlərin qeyri-şəffaflığı fonunda onları yoxlamaq imkanının olmamasıdır. Yəni bu modellər nə qədər nəhəngdirsə, bir o qədər mürəkkəbdir və buna görə də insan anlayışından kənara çıxır, yoxlanılması qeyri-mümkün olur. Hədsiz enerji sərfiyyatı isə qlobal iqlim problemi kontekstində olduqca böyük məsələdir. Bu sistemlər fantastik dərəcədə çox enerji tələb etdiyi halda, heç də bütün şirkətlər karbon-CO2 neytrallığına investisiya qoymağı düşünmür, yaxud da bunu ən axırıncı məsələ hesab edir.

### 5. Generativ süni intellekt texnologiyaları və insan hüquqları: tənzimlənmə mümkündürmü?

İlk olaraq ortaya çıxan suallar belədir: Qanun Sİ-yə qadağa qoya bilərmi, yaxud onu necə tənzimləmək olar? Mahiyyətcə transmilli xarakter daşıyan bir fenomenlə bağlı milli, regional və qlobal səviyyəli qanunvericilik sistemləri necə uzlaşdırıla bilər? Bu sahədə beynəlxalq əməkdaşlıqla bağlı səylər niyə olduqca ləngiyir?

İlkin əsas kimi Avropada mövcud olan qanunvericilikdə “Ümumi məlumatların mühafizəsi qaydası”nın (GDPR - General Data Protection Regulation) olması məlumdur. Bu qayda Avropa Birliyi tərəfindən hazırlanıb, üzv dövlətlər və təşkilatlar tərəfindən fərdi məlumatların emalı və onların şəffaflığının təmin edilməsi prosedurunu müəyyən edir. Eləcə də son illərdə Avropa Şurası “Şəbəkə və informasiya təhlükəsizliyi direktivi”ni (NIS2 — Network and Information Security) qəbul edib. Direktiv AB-yə üzv dövlətlərdə kibertəhlükəsizlik tədbirlərinin uyğunlaşdırılmasına, tənzimləyici baza və müvafiq orqanlar arasında əməkdaşlıq mexanizmlərinə tələblərin müəyyən edilməsinə çağırır [11].

Ümumilikdə xüsusi vurğulayaq ki, bu günə qədər Sİ-nin tənzimlənməsinin əsas yolları onun tətbiqinin etik əsaslarının yayılmasına yönəlib. Bunlar Sİ-li maşın və robotların insanlara zərər və ya fayda vermək üçün necə istifadə oluna biləcəyinə dair mənəvi məsələləri nəzərdə tutur. Qəfil səhvlər və onlar üçün məsuliyyət daşınması, yuxarıda təsvir edilən qərəzlilik və nəticələrin şərh edilməsi, dipfeyk (deepfakes) və generativ modelləri tənzimləmək yollarının tapılması, əqli mülkiyyət qanunları (əsərin müəllifinin kimə məxsus olması) və s. halların tənzimlənməsi kimi etik prinsiplər buna misal ola bilər.

Sİ-nin hüquqi tənzimlənməsi ilə bağlı səylərin əsasən ABŞ və Avropada (xüsusilə Böyük Britaniyada) gündəmdə olduğunu qeyd etmək lazımdır.

## 6. Avropa Birliyinin Süni İntellekt Aktı

Avropa Birliyinin qanunvericiləri Sİ ilə bağlı dünyada ilk sayılacaq mühüm tənzimləməni qəbul edib. "Avropa Birliyinin Süni İntellekt Aktı" (EU Aİ ACT) Sİ sənayesi üçün ilk əhatəli tənzimləmə toplusudur. Qanun ChatGPT kimi generativ Sİ sistemlərinin kommersiya istifadəsi üçün buraxılmamışdan əvvəl nəzərdən keçirilməsini tələb etməyi təklif edir. O, həmçinin real vaxt rejimində üz tanınmasını qadağan etməyi nəzərdə tutur [6].

AB Sİ Aktı qlobal miqyasda ölkələrin texnologiyanı idarə etmək, fəaliyyət təhlükəsizliyi və siyasi dürüstlük (toxunulmazlıq) də daxil olmaqla, cəmiyyət üçün bir çox riskləri məhdudlaşdırmaq üçün yarışdığı bir vaxtda qəbul edilib. Generativ Sİ-nin inkişafı üçün maliyyələşmənin azalması və bahalaşmadan əziyyət çəkən Avropa texnologiya bazarında bu Aktla parlaq nümunə hesab edilib. Bütövlükdə, Avropa Parlamenti bu Aktla Sİ üçün mühüm qaydalarını təsdiqləyərək, Qərb məkanında Sİ-nin ilk rəsmi tənzimlənməsinin qanuna çevrilməsi üçün əsas maneələri aradan qaldırıb.

Qaydalar qlobal texnoloji savaşın əsas döyüş meydanına çevrilən, data əsasında yeni məzmun yarada bilən, lakin eyni zamanda həm də iş yerlərinin ixtisarı, saxta xəbərlər, dezinformasiya və qərəzliliklə bağlı narahatlıqlara səbəb olan generativ Sİ-ni tənzimləyən ilk hərtərəfli sənəddir.

2023-cü ilin iyunun 14-də keçirilən kritik səsvermədə Avropa Parlamenti 499 lehinə, 28 əleyhinə və 93 bitərəf səslə Süni İntellekt Aktını qəbul etdi. Tənzimləmə qanun adlandırılmaqdan uzaqdır, lakin bu, qlobal miqyasda texnologiya üçün ilk rəsmi qaydalardan biri kimi dəyərlidir.

Avropa Parlamentinin üzvləri ChatGPT kimi generativ Sİ vasitələrini daha böyük məhdudiyyətlər altında gətirməyə razılaşıblar. Generativ Sİ-ni yaradanlardan onu tətbiq etməmişdən əvvəl şəffaf təqdimat və müzakirələr tələb edilir. Parlament həmçinin real vaxt rejimində biometrik identifikasiya sistemlərinə, eləcə də mübahisəli total nəzarət tətbiq edən "sosial qiymətləndirmə" (sosial kredit, məsələn, Çində) sistemlərinə qadağa qoyulması ilə bağlı qərar qəbul edib.

Qanunvericilər bütün ictimai yerlərdə biometrik nəzarəti qadağan etməklə bağlı razılığa gəliblər. Qanunların "Microsoft" tərəfindən dəstəklənən OpenAI və onun məhsulu olan ChatGPT, həmçinin Google-un "Bard" kimi generativ Sİ modellərini istehsal edən şirkətlər üçün böyük təsiri var.

Avropanın yeni qanun layihəsinin son versiyasına əsasən, generativ Sİ yeni və sərt şəffaflıq tələbləri ilə üzləşəcək. Buraya sistemin öyrədilməsi üçün istifadə edilən müəllif hüquqları, əqli mülkiyyət qanunu ilə qorunan materialın xülasələrinin dərci daxildir. Bu təklif nəşriyyat sənayesi tərəfindən dəstəklənir, lakin texniki cəhətdən mümkünsüz olduğu üçün texnoloji tərtibatçılar ona qarşı çıxır. Generativ Sİ sistemləri həmçinin onların qeyri-qanuni məzmun yaratmasının qarşısını almaq üçün mühafizə tədbirləri həyata keçirməli olacaqlar [6].

Londonda eyni Sİ qanunları üzrə təkliflər üzərində işləyən "Ada Lovelace İnstitutu"nun direktoru vəzifəsini icra edən Fransin Bennett bildirib ki, Avropa Birliyinin Sİ haqqında yeni qanun layihəsi "əlamətdar hadisə hesab edilir". Sürətli hərəkət edən və sürətlə istifadə edilə bilən texnologiyanı tənzimləmək, əlbəttə ki, çətindir. Belə ki, texnologiyanı yaradan şirkətlər belə hadisələrin necə nəticələnəcəyi barədə tam aydın

fikrə sahib deyillər. Ancaq heç bir adekvat tənzimləmə olmadan fəaliyyətimizi davam etdirmək bizim hamımız üçün daha pis olardı” [15].

Avropa qanun layihəsi Sİ-ni tənzimləmək üçün "risk əsaslı" bir yanaşma tətbiq edir, diqqəti insan zərəri üçün ən böyük potensiala malik tətbiqlərə yönəldir. Buraya Sİ sistemlərinin su və ya enerji kimi kritik infrastrukturu idarə etmək üçün hüquq sisteminə, ictimai xidmətlərə və hökumət imtiyazlarına çıxışı yönündə tətbiqlər nəzərdə tutulur. Texnologiya istehsalçıları Sİ ilə düzəldilən yeni dərmanların təsdiqləmə prosesinə bənzər texnologiyanı gündəlik istifadəyə verməmişdən əvvəl risk qiymətləndirmələri aparmalı olacaqlar.

Təbii olaraq, AB-nin Sİ profilli şirkətləri bu qanundan tamamilə razı qala bilməzdi. “Texnologiya Sənayesi Qrupu, Kompüter və Rabitə Sənayesi Assosiasiyası” Avropa Birliyinin innovasiyaya mane olan həddən artıq geniş və sərt qaydalardan qaçmalı olduğunu bildirib: “Avropa Birliyi süni intellektin tənzimlənməsində lider olmağa hazırlaşır, lakin Sİ innovasiyasına öncül ola biləcəkmi? Bu sualın cavabı zamanla bəlli olacaq”, - bunu qrupun Avropa siyasəti üzrə meneceri Bonifasi de Şampri qeyd edib. “Avropanın yeni Sİ qaydaları aydın şəkildə müəyyən edilmiş riskləri effektiv şəkildə həll etməlidir, eyni zamanda developerlərə (tərtibçilərə) avroplalılara yararlana biləcəkləri, faydalı Sİ tətbiqləri təqdim etmək üçün kifayət qədər əlverişli şəraitlər və güzəştlər də yaradılmalıdır, çünki tətbiqlər bütün avropalıların xeyrinədir və onların liderlərdən asılılığını aradan qaldırmaq üçündür” [17].

Əsas müzakirə mövzularından biri üztanıma texnologiyası ilə bağlıdır. Avropa Parlamenti canlı üztanımadan istifadənin qadağan edilməsinə səs verib, lakin milli təhlükəsizlik və digər hüquq-mühafizə məqsədləri üçün istisnalara icazə verilib-verilməməsi ilə bağlı suallar açıq qalmaqdadır.

Başqa bir maddə ilə databazalar yaratmaq üçün sosial mediadan biometrik dataların silinməsi şirkətlərə qadağan edilir. Bu, üztanıma şirkəti olan “Klirvyu”nun (Clearview) Sİ-dən istifadə etdikdən sonra diqqəti cəlb edən bir təcrübəsi ilə bağlı idi.

Texnologiyanın inkişafında maraqlı olan liderlər, qeyd edildiyi kimi, Sİ sahəsindəki bu debatlara təsir göstərməyə çalışıb. ChatGPT-un yaradıcısı olan OpenAI-un baş icraçı direktoru Sem Altman Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen də daxil olmaqla Cənubi Amerika, Avropa, Afrika və Asiyada ən azı 100 amerikalı qanunverici və s. qlobal siyasətçi ilə Avropaya səfər edib. S.Altman Sİ-nin tənzimlənməsini məqbul hesab edir, eyni zamanda Avropa Birliyinin Aktına əməl etməyin olduqca çətin ola biləcəyini söyləyib. Parlamentdə keçirilən sonuncu səsvermədən sonra qanunun yekun variantı Avropa Birliyinin üç qolunun - Avropa Parlamenti, Avropa Komissiyası və Avropa Şurasının nümayəndələri tərəfindən müzakirə olunacaq. Rəsmilər ilin sonuna qədər yekun razılığa gəlməyə ümid edir [12].

Avropa Birliyinin Süni İntellekt Aktı (qanun layihəsi) - Sİ-nin tətbiqlərini 3 risk kateqoriyasına ayırır. Birincisi, qəbuledilməz risk yaradan tətbiqlər və sistemlər, məsələn, Çində istifadə edilən növdə hökumət tərəfindən idarə olunan sosial kredit (total nəzarət) qadağandır. İkincisi, yüksək riskli proqramlar, məsələn, işə müraciət edənləri seçən CV-lərin skan edilməsi texnologiyası xüsusi qanuni tələblərə tabe olmalıdır. Nəhayət, açıq şəkildə qadağan olunmayan və ya yüksək riskli kimi qeyd olunmayan proqramlar əsasən yenə də tənzimlənməmiş qalır.

Yeri gəlmişkən, 2021-ci il sentyabrın sonlarında Braziliya Konqresi Sİ üçün hüquqi baza yaradan qanun layihəsini qəbul etsə də, hələ də ölkənin Senatı tərəfindən təsdiqlənməyib. Bu Sİ-nin inkişafında maraqlı olan tərəflərin lobbiçiliyinin güclü olmasına işarə edir.

Mütəxəssislərin fikrinə görə, sözügedən Sİ Aktında bir sıra boşluqlar və istisnalar var. Bu çatışmazlıqlar qanunun Sİ-nin həyatınızda yaxşı bir qüvvə olaraq qalmasını təmin etmək imkanlarını məhdudlaşdırır. Bundan əlavə, qanun çevik (flexible) deyil. Əgər zaman gedişatı ilə daha yeni bir tətbiq və gözlənilməz bir sektorda təhlükəli Sİ tətbiqi istifadə olunarsa, qanun onu “yüksək riskli” adlandırmaq üçün hər hansı mexanizm təmin etmir. Sadə dildə deyilsə, bu Akta əsasən Sİ yaradan OpenAI yeni qaydalara görə Avropanı tərk etməlidir. Bu mənada müxtəlif rəylərdə “Parlamentin Sİ ilə bağlı insan hüquqlarının qorunmasını təmin etməklə yanaşı, sənaye lobbiçiliyinə, dövlətin həddən artıq geniş tətbiqinə qarşı xətt tutmalı və qalan boşluqları bağlamağa çalışmalı olduğu” tövsiyə edilir. Eləcə də texnologiyaların çoxu ABŞ-dakı məlumat mərkəzlərində yerləşdiyi üçün tənzimləmələrdə modifikasiya məsələsinin vacibliyi vurğulanır.

### 7. Generativ Sİ əsaslı kibercinayətlər insan hüquqlarının pozulmasında yeni istiqaməti kimi

Generativ Sİ səs fırıldaqlarına inanmağı asanlaşdırır. Yeni Sİ modeli ilə kibercinayətkarlar yeni saxta Sİ səs klonlama alətlərini mənimsədilər və yeni bir fırıldaq növü yaratdılar. Kiçik bir audio nümunəsi ilə onlar demək olar ki, hər kəsin səsini klonlaya və səsli poçt və ya səsli mesajlaşma mətnləri ilə saxta mesajlar göndərə bilərlər.

Sİ səs klonlama hücumlarının artması: Bu yaxınlarda aparılan qlobal araşdırma göstərdi ki, “sorğuda iştirak edən 7000 nəfərdən hər dörddə biri Sİ ilə səs klonlaşdırma fırıldaqçılığı ilə qarşılaşdıqlarını və ya belə bir fırıldaqçıya sahib olan birini tanıdıqlarını söyləyib. İnsan səsinin kiçik bir nümunəsi və kibercinayətkar tərəfindən hazırlanmış ssenari ilə bu səs klon mesajları inandırıcı səslənir, dünya miqyasında aparılan sorğuda insanların 70%-i klonlanmış səslə real səs arasındakı fərqi ayırd edə biləcəklərinə əmin olmadıqlarını söyləyiblər. Əlavə olaraq sorğu onu göstərib ki, insanlar artıq bununla bağlı hadisələrdən əhəmiyyətli maliyyə itirirlər. McAfee Texnoloji Laboratoriyasının tədqiqat qrupu kibercinayətkarların bu fırıldaqları nə qədər asanlıqla ələ keçirə biləcəyini aşkarlayıb. Bu yaxınlarda keçirdiyi sorğuda süni intellektlə işləyən fırıldaqçı zənglərin qurbanlarının 77%-i pul itirdiklərini bildirib, onların üçdə birindən çoxu 1000 dollardan çox pul itirib” [7].

Fırıldaq telefon zəngləri, adətən, özünü tibb işçisi, Daxili Gəlir Xidməti və ya kiminsə avtomobil zəmanətini uzatmaq istəyən şirkət kimi görünən kütləvi robot zəngləri formasını alır. Generativ Sİ artıq kiminsə səsini klonlaşdırmaq və ondan öz sxemlərində istifadə etmək istəyən kibercinayətkarlar üçün işləri çox asanlaşdırıb. Ancaq indi generativ Sİ-dən istifadə edərək fırıldaqçılar zəngləri ən yaxın və doğmalardan - uşağınızdan və ya başqa qohumdan gələn kimi göstərə bilərlər. Qanuni alətlər fırıldaqçıya səs klonlama proqramlarında cümlələr yazarkən qurbanlarına real vaxt rejimində cavab verməyə imkan verir. Bəzi fırıldaqçılar zəngi daha inandırıcı etmək üçün qurbanın qohumu haqqında şəxsi məlumatları araşdırmağa qədər gedirlər.

Mütəxəssislər insanların qanuni olduğundan əmin olmaq üçün fövqəladə

hallarda zənglər zamanı yaxınları ilə istifadə etmək üçün kod sözləri qəbul etməyi təklif edir. Xəttin o biri ucunda olan şəxsin kimliyini təsdiq etməyin başqa asan yolu telefon danışığını dayandırıb dərhal ona zəng etməkdir və bu da problemlər yaradır.

## 8. Amerika Birləşmiş Ştatlarında Sİ və insan haqları yönündə fəaliyyət

Современная трансформация роли и качества текста в общественном сетевом дискурсе была подготовлена историческими процессами первых двух десятилетий прошлого века. Перемещение народов, освобождение многих государств от традиционных устоев, научно-технический прогресс. Эти явления запустили процессы интенсификации межкультурных коммуникаций, приведших к всему спектру глобализационных процессов, в том числе, к появлению самой сети Интернет. Новые возможности вызвали к жизни новые правила. Традиционные тексты, особенно в своей способности фиксировать социальный опыт, утратили прежнее значение. Наиболее существенными характеристиками современной коммуникативной среды – “могильщиками” текста, стали полигональность, триггерность, контентность. Наблюдаемые трансформации в области текстовой деятельности помимо очевидных угроз несут, пожалуй, основания для качественного преображения общественного сознания и способов организации мышления в человеческом сообществе.

## СПИСОК ИСПОЛЬЗОВАННОЙ ЛИТЕРАТУРЫ:

1. *Вацлавик П., Бивин Д., Джексон Д.* Прагматика человеческих коммуникаций. – М.: ЭКСМО-Пресс, 2000, -320 с.

2. *Витгенштейн Л.* Избранные работы / Пер. с нем. и англ. В.Руднева. М.: Изд. дом "Территория будущего", 2005, - 440 с.

3. *Выготский Л.С., Лурия А.Р.* Этюды по истории поведения: Обезьяна. Примитив. Ребенок. – М.: Педагогика-Пресс, 1993, - 224 с.

4. *Голикова Т.А.* Основные тенденции формирования современной русской политической картины мира. // Междунар. науч. жур. “Язык и текст”. Т.6, № 3, 2019, с. 43-50.

5. *Грицкевич Н.Н.* Понятие "нарратив" в современной лингвистике. Нарратив как особая разновидность текста. Статья. Эл. ресурс: https://superinf.ru/view_helpstud.php?id=4564. (Дата обращения: 14.02.2021).

6. *Джемаль Г.Д.* Дауд vs Джалут (Давид против Голиафа). – М.: Изд-во “Социально-политическая мысль”, 2010, - 388 с.

7. *Дридзе Т.М.* Язык и социальная психология. М.: “Высшая Школа”, 1980, -224 с.

8. *Мамедов А.К., Писарева Л.К.* "Метаморфозы цифрового общества: трудности роста и риски". // Жур. “Социология”, № 3, 2020, с. 4-17.

9. Психологический словарь сайта azps.ru Эл. ресурс: http://azps.ru/handbook/cmmn/relizer.html. (Дата обращения: 15.02.21).

10. *Семенков В., Исаков А.* Философское творчество: между Сциллой традиции и Харибдой авангарда. Статья. // "Вопросы философии", № 4, 2004, - с. 47-53.

11. *Терентьева И.Н.* Сетевые коммуникации: новая реальность управления. // Вестник НГТУ им. Р.Е. Алексеева. "Управление в социальных системах. Коммуникативные технологии", № 4, 2016, с. 23-27.

12. *Шейгал Е.И.* Семиотика политического дискурса. – М.: Гнозис, 2004, - 324 с.

13. *Boucher G.* The Charmed Circle of Ideology: A Critique of Laclau and Mouffe, Butler and Žižek. − Re.Press, 2009, -275 p.

14. Critical Art Ensemble. The Electronic Disturbance. − N.Y., 1994. E-book. Эл. ресурс: http://www.critical-art.net/books/ted/ (Дата обращения: 15.02.2021).

15. *Korkiya E.D., Mamedov A. K., Vasiliev A.V.* The problem of truth in social knowledge: the modern discourse // EurAsian Journal of BioSciences, издательство Foundation for Enviromental Protection and Research (Turkey), том 14, № 2, 2020, с. 5103-5108

**Ağamalı Məmmədov, Ariz Gözəlov**

## POSTMODERN CƏMİYYƏTDƏ MƏTNİN DEKONSTRUKSİYASI
## (Sosial-fəlsəfi təhlil)

### Xülasə

Məqalədə postmodern cəmiyyətdə mətnin dekonstruksiyası mövzusu tədqiq edilir. Müəlliflər mətnin "ölümünün" onun dekonstruksiyası, fraqmentlərə parçalanması (fraqmentasiyası), sadələşdirilməsi prosesi kimi başa düşülməsinə, mətnin artıq mesaj əvəzinə siqnala çevrilməsinə əsaslanaraq, onun rolunun və sistemli təşkilinin - mürəkkəbləşərək hipermətnə keçməsi nəticəsində simvolik "ölümünə" gətirib çıxaran ən müasir transformasiyalarını nəzərdən keçirirlər.

İnformasiya, xəbər mətninin narrativlərə və intertekstual münasibətlərin iştirakçısına çevrilməsinin səbəbləri təhlil edilir. İnformasiya mübadiləsinin bir çox sahələrdə (insanlararası kommunikasiya, reklam, jurnalistika, didaktika) birdəfəlik praqmatik aspektə təslim olması vurğulanır. Belə ki, şəbəkə rabitə formalarının hökmranlıq etdiyi rituallaşdırılmış akt, "ölüm" baş vermədən onu şəbəkənin kontentinə - məzmunu məkanına daxil etmək mümkün deyil.

Müəlliflərin fikrincə, indi mətn dərc edildikdən sonra onun, ümumiyyətlə, yalnız iki yolu var: ya mətn elə şərh olunur və təkrar ötürülür ki, bu, istər-istəməz məzmun inflyasiyasına gətirib çıxaracaq, ya da arxivləşdirilir ki, bu da onun "dəfn edilməsinə" bərabərdir.

Nəticə etibarilə müəlliflər belə qənaətə gəlirlər ki, istənilən variantlarda bu, taleyini təhlil etdikləri orijinal müəllif mətninin "ölümüdür". "Mətnin ölümü" haqqında danışarkən müəlliflər müasir mətn fəaliyyətinin funksionallığını müəyyən edən çox ümumi konsepsiyanın (kommunikativ niyyət) transformasiyasını nəzərdə tuturlar.

Əlaqə vahidi kimi müvafiq informasiyanın aparıcı xüsusiyyətləri onun tətikləyici

(təşviq) potensialı və şəbəkə kontenti/məzmunu (likvidlik) kimi çıxış etmək qabiliyyətidir. Ənənəvi mənada mətni səciyyələndirən əlamətlər - uyğunluq, bütövlük, yəni "sistemin" keyfiyyətlərini nümayiş etdirmək bacarığı tədricən sosial praktikada öz əhəmiyyətini itirir.

**Açar sözlər:** mətn, mesaj, hipermətn, intertekstuallıq, praqmatika, şəbəkə kommunikasiyaları, məlumat, dekonstruksiya, şəbəkə mətni, mətn fəaliyyəti

**Agamali Mamedov, Ariz Gozalov**

**TEXT DECONSTRUCTION IN POSTMODERN SOCIETY (Socio-Philosophical Analysis)**

## Abstract

In the article, the topic of text deconstruction in postmodern society is analyzed in the socio-philosophical aspect. The authors, starting from the understanding of the "death" of a text as a process of its deconstruction, fragmentation, simplification, when the text instead of a message becomes a signal, consider more modern transformations of its role and systemic organization, leading to symbolic "death" through complication and transition to hypertext.

The reasons for the transformation of the message text into a narrative and into a participant in intertextual relations are analyzed. The final departure to the pragmatic aspect of information exchange in various fields (interpersonal communication, advertising, journalism, didactics) is emphasized. Since, without death, a ritualized act, with the dominance of network forms of communication, it is impossible to include it in the space of network content.

According to the authors, now after the publication of the text, it has, by and large, only two ways: either it is interpreted and retransmitted in such a way that it inevitably leads to content inflation, or it is archived, which is tantamount to a "burial".

As a result, the authors come to the conclusion that in any of the options it is the "death" of the original author's text, the fate of which they analyze.

Speaking about the "death of the text", the authors mean the transformation of the very general concept (communicative intention), which determines the functionality of modern textual activity. The leading characteristics of relevant information as a unit of communication are its trigger (incentive) potential and the ability to act as network content (liquidity). Signs that characterize the text in the traditional sense: coherence, integrity, i.e. the ability to demonstrate the qualities of the "system", are gradually losing their importance in social practice.

**Keywords:** text, message, hypertext, intertextuality, pragmatics, network communications, information, deconstruction, network text, text activity

# CHALLENGES OF THE INFORMATION SOCIETY AT UNIVERSITIES IN TURKIC REPUBLICS: CURRENT CONDITIONS

**Ebulfez SULEYMANLI**
*Prof. Dr., Turkic Academy/ Üsküdar University, Faculty of Humanities and Social Sciences, Department of Sociology (Türkiye)*
*E-mail: ebulfez.suleymanli@uskudar.edu.tr*
*ORCID: 0000-0003-1894-5232*

**Gokhan ACHIKEL**
*Lec.,Yıldız Technical University, Faculty of Economics and Administrative Sciences, Department of Political Science and International Relations (Türkiye)*
*E-mail: gacikel@yildiz.edu.tr*
*ORCID: 0000-0001-7619-3513*

**Abstract.** The current state and issues facing universities in the Turkic Republics were assessed in this study using empirical data based on the connection between the information society and higher education. The research used a "case study" format, which is a type of qualitative research technique. A numerical analysis of the current state was also conducted using the "document analysis" method.

When we examine higher education in the Turkic Republics as a whole, we discover that academic standards are not updated in line with education for the information society, academic research is not conducted in line with the philosophy of knowledge creation, academicians fail to guide university students in line with education for the information society, and graduate programs are unable to integrate information sector skills. Additionally, it is evident that universities in the concerned countries are unable to fulfill their obligations in accordance with the needs of the information society when factors like the inability to update university curricula to meet those needs, a lack of academic study sharing, and a fall in the share of national income given to universities are added to the current situation.

The statistics are also negatively impacted by this situation. No university from the Turkic Republics is listed among the top 100 universities in the world, according to the Times Higher Education (THE) 2020 report, which is known as one of the most trustworthy university rankings in the world.

In the twenty-first century, modern society is moving towards a post-information society. During such a period, the Turkic Republics must not fall behind the times and must maintain a steady pace of development. To do this, they need to adapt to a new knowledge-based economic and social order, engage in the process of rapid technological change, and develop a new human model based on ideals that make continual learning a way of life based on the concept of "information person."

**Keywords:** Information society, university, challenges,Turkic Republics, student mobility, lifelong education,distant education

## Introduction

Knowledge production has become the most essential form of production in the economic competition between nations as a result of the fact that it is the cornerstone of today's social, political, and economic system, also known as globalization, the information age, or the knowledge-based economy, and that it is highly valued. Universities have been given significant roles to fill in order to meet this need [5].

Universities are diverse, intellectually stimulating institutions that work to advance the economic, social, and political well-being of the nations to which they belong. They also carry out scientific research to increase societal welfare. In this context, universities offer public services in many different ways by enhancing social welfare, quality of life, and a variety of other social, economic, and cultural aspects [1]. They are now more than just educational and research institutions; they are also institutions that develop innovative models and guide people who may influence social, political, and economic developments [11].

When considering universities' social and cultural roles, there are differing perspectives on the services they provide or should provide to the general public. In his study "Transforming the University to Serve the Digital Age," Duderstadt classifies the main drivers of change in higher education as economic, social, and technological advances [3].

Duderstadt claims that in the near future, the most important challenge for higher education institutions will be to build the capacity for change, remove the obstacles that slow down quick responses to requests, get rid of pointless administrative structures and processes, challenge the viability of current structures and laws, and excite and encourage all members of the academia while challenging those who obstruct the process. He emphasizes in his writing on higher education in the digital age that the educational paradigm based on conditions and needs from the industrial age is insufficient to meet the needs and demands of the 21st century student [10].

Universities are a source of both the greatest potential for both developed and developing economies: educated and skilled individuals as well as new ideas. As a result, worries about the state of the world's future and the economy's rapid change naturally attract attention to universities. Stanford University, the Massachusetts Institute of Technology (MIT), and Harvard University, which consistently rank highly internationally, have licensing and patenting businesses, and are centers of technological innovation, are just a few institutions that have successfully undergone transformation [2]. The economic development of the entire world as well as that of their own countries can be influenced by these universities.

In the context of the evolving higher education system from the past to the present, universities today are changing. Traditional university structures have been under increasing pressure to change since the 1980s as a result of economic, social, and intellectual factors (the external environment), which has resulted in a gradual abandoning of conventional models [14]and the rise of new market-oriented management models [9]. The level of development produced by today's rapidly evolving science and technology highlights the significance of universities as knowledge production hubs that distinguish communities through education and

knowledge production [12].

Given that many of the Turkic Republics are developing nations with sizable populations of young people, their situation is critical in this regard. In actuality, the Turkic Republics have displayed an economic growth trend that is more dependent on resources of nature during this time, with the exception of Türkiye, which enjoyed thirty years of independence following the collapse of the USSR. For the first stage of the process of independence, referred to as the transition phase, such an economic development model can be accepted; however, in order for this process to be feasible, it is important to embrace a development model in line with the features of the information society. In light of this, universities in the Turkic Republics must stay current with technological advancements and the information society, as well as help bring about societal change. For these reasons, solving learning issues in higher education is crucial to establishing an information society and meeting the new demands of the age.

This study will use empirical findings to assess the current state and issues facing universities in the Turkic Republics, starting with the relationship between the information society and higher education. The study used the "document analysis" method and adhered to the "case study" pattern, one of the qualitative research techniques.

## The Place of Universities in Turkic Republics in the World University Ranking

We all know that universities are international organizations that carry out both educational and scientific research. Universities are important in this context because ongoing education is the central tenet of the information society. Universities are crucial because they serve as hubs for the flourishing, blending, and dissemination of scientific thought for the benefit of sizable populations [6]. However, with the available teaching staff and resources, universities can fulfill their expected role. Developed nations spend a lot of money on publications and research at universities.

Regarding this, despite the rising number of universities in these nations, the inadequate academic networks, the insufficient standards and quantity of teaching staff, the low expenses on higher education, the extremely low number of entrepreneurial universities, and the unsatisfactory level of student mobility, the lack of informatics, poor technology, hardware, and software, a lack of university independence at the level desired by information society education, a lack of scientific publications, curriculums that are not tailored to the needs of the business world, newly founded universities that are not in line with the goals of the information society, a dearth of research universities, and a lack of theme universities all serve as impediments to the development of the information society.

The statistics are also negatively impacted by this situation. In fact, no university from the relevant countries has been listed among the top 100 universities in the world, according to the findings of the Times Higher Education (THE) 2020 report, which is regarded as one of the most trustworthy university rankings in the world with its conclusions since its first publication in 2010. Al Farabi National University, the only institution from Kazakhstan, came in at number 207, and Gumilev Eurasian National University, also from Kazakhstan, came in at number 408 [8].

Çankaya University, Koç University, and Sabancı University, all of which

were ranked between 401 and 500, were considered to be the top three universities in Türkiye. Middle East Technical University (METU) was positioned between positions 501 and 600. Three Turkish universities existed between 601 and 800: Istanbul Technical University (ITU), Hacettepe University, and Bahçeşehir University. There were six universities between 801 and 1000: Bilkent, Bogazici, Duzce, Fırat, Istanbul Medeniyet, and Ozyegin [4].

The efficient use of resources is another important consideration when making investments in science and education. The media in the relevant countries has expressed concerns about the inefficient use of the resources created in this context, despite the fact that the amount of resources given to education has risen in recent years. Even though it is well known that investments in higher education have a significant economic payoff, the inability of the relevant nations to reach the needed level of science and education spending continues to be a source of paradox in the education community. However, the information at hand suggests that Kazakhstan will benefit more from the procedure. In this nation, it is easier for academics to access research funding, more foreign visiting faculty members are invited each year, and a lot of master's and doctoral scholarships are provided by the government to motivate more qualified young people to engage in scientific pursuits, research, and internships abroad. These facts are obvious indicators of this fruitful procedure. The higher positions of Kazakhstani universities in international rankings and an increase in the quantity of academic publications by Kazakh authors in journals indexed by Web of Science (WoS) and Scopus can be seen in this context as beneficial results of such investments [12].

## Conclusions

One of the most significant, if not the first, organizations in the information society are universities. Universities, like all other institutions, are fundamentally impacted by information technology because they are the primary institutions responsible for producing and disseminating knowledge, which is the "raw material" of the knowledge economy [13]. In fact, it is noted that rather than remaining a science-based, single-disciplinary institution, universities in the 21st century have experienced an enormous change and are moving toward becoming a worldwide information hub. As the world transitions to fourth and fifth generation universities, universities are changing structurally and evolving into institutions that not only generate knowledge but also transfer it and create commercial value. Countries whose universities are unable to keep up with changes in the production, packaging, and circulation of information and are unable to follow the path of restructuring will not be able to take the desired position in the information society, it has been observed in this process.

Turkic Republics should convert their universities into institutions that can be considered centers of data generation in order to avoid being left behind in the shift to the information society. The university, in particular during this process, ought to be able to meet expectations on a personal and social level and support efforts to address problems and needs. The adoption of contemporary educational initiatives and the provision of high-quality education are crucial for performing these tasks. The objectives and educational contexts of higher education programs, as well as the parameters of their testing contexts, must therefore be examined and developed.

The education system and educational establishments in the Turkic Republics are primarily responsible for developing the human model needed by the information society, responding to its unique needs, and adapting to them in terms of their current structure and practice.

To put it another way, the Turkic Republics must realize the mission of establishing a university that will enable them to participate in the rapid technological transformation process while our modern world is moving in the direction of an information society and even a post-information society.

## Bibliography


1. *Charles, D. (2003).* Universities and territorial development: Reshaping the regional role of UK. Universities. Local Economy, 18 (1), (7-20).

2. *Çetin, M. (2007).* "Bölgesel Kalkınma ve Girişimci Üniversiteler". Ege Akademik Bakış, 7(1), 217-238.

3. *Duderstadt, J.J. (1998).* Transforming the university to serve the digital age. Cause/Effect, 20(4), 21-32.

4. *Euronews 2022,* Dünyanın en iyi üniversiteleri açıklandı: İlk 500'de Türkiye'den sadece 3 üniversite var, https://tr.euronews.com/2022/10/12/dunyanin-en-iyi-universiteleri-aciklandi-ilk-500de-turkiyeden-sadece-1-universite-var

5. *Göransson, B., & Brundenius, C. (Eds.) (2011).* Universities in transition: The changing role and challenges for academic institutions. In International Development Research Centre (Ed.), Insight and innovation in international development (pp. 3-10). New York: Springer, akt.

6. *Gündüz, A.Y. (2017). "*Ülke kalkınmasında üniversitelerin rolü: Doğu ve Güneydoğu Anadolu üniversiteleri örneği". Sakarya İktisat Dergisi, 6(1), 56-69.

7. *Kuzu Ö. H. (2020).* "Dünya çapında üniversiteler" bağlamında misyon-vizyon üzerine karşılaştırmalı bir çalışma. Yükseköğretim ve Bilim Dergisi/Journal of Higher Education and Science, 10(1), 8-23.

8. *Nonews (2021)* Reyting luchshikh universitetov stran SNG (Türkçesi: BDT ülkelerindeki en iyi üniversitelerin sıralaması ) https://nonews.co/directory/lists/companies/university-rus %20DFA_ru_final%20%281%29.pdf, p.35.

9. *Öncel, Mesut.* Üniversitelerin Başarı Sıralamalarında Metodolojik Problemler: Metodolojik Eleştirilere Yönelik Bir Literatür Taraması, Alanya Academic Review Journal Yıl:2017, C:1, S:1, s. 14-26 Year:2017, Vol:1, No:1, pp. 14-26.

10. *Saykili, A. (2019).* Higher education in the digital age: The impact of digital connective technologies. Journal of Educational Technology & Online Learning, 2(1), 1-15.

11. *Suleymanov, A. "*The Way to the Modern University", Sociology of science and technology, Vol 1 (3), 51-57, Sankt-Peterburg, 2011.

12. *Süleymanlı, E. (2022).* Türk Cumhuriyetlerinin Eğitim Sistemlerinin Uluslararası Kriterler Bağlamında Değerlendirilmesi, Ege Üniversitesi Türk Dünyası Araştırmaları Enstitüsü'nün Kuruluşunun 30.Yıl Anısına Uluslararası Türk Dünyası Sosyal Bilimler Sempozyumu 2-3 Aralık 2022 İzmir Bildiri Tam Metin Kitabı, Ed.Bilal Yıldırım, pp.83-9.

13. *Tonta, Yaşar (1999).* "Bilgi toplumu ve bilgi teknolojisi" Türk Kütüphaneciliği 13(4): 363-375, Aralık 1999.http://yunus.hun.edu.tr/~tonta/yayinlar/biltop99a.htm

14. *Yamaç, K. (2009],* Bilgi Toplumu ve Üniversiteler, Eflatun Yayınevi, Ankara, p. 165.

**Əbülfəz Süleymanlı, Gökhan Açıkəl**

## TÜRK DÖVLƏTLƏRİ UNİVERSİTETLƏRİNDƏ İNFORMASİYA CƏMİYYƏTİNİN PROBLEMLƏRİ: MÖVCUD ŞƏRTLƏR

### Xülasə

Bu tədqiqatda informasiya cəmiyyəti ilə ali təhsil arasındakı əlaqəyə əsaslanan empirik məlumatlardan istifadə edilməklə, türk dövlətləri universitetlərinin hazırkı vəziyyəti və üzləşdiyi problemlər araşdırılmışdır. Tədqiqatda keyfiyyətli tədqiqat texnikasının bir növü olan "case study" formatından istifadə edilmişdir. "Sənəd təhlili" üsulu ilə də mövcud vəziyyətin təhlili aparılmışdır.

Türk dövlətləriindəki ali təhsili bütövlükdə araşdırdıqda, akademik standartların informasiya cəmiyyəti üçün təhsilə uyğun yenilənmədiyini, akademik araşdırmaların biliklərin yaradılması fəlsəfəsinə uyğun aparılmadığını, professor-müəllim heyətinin universitet tələbələrinə istiqamət verə bilmədiklərini görürük. Magistr proqramları informasiya təhlükəsizliyi sahəsində bacarıqları birləşdirə bilmir. Bundan əlavə, aydındır ki, universitet kurikulumlarının bu ehtiyacları ödəmək üçün yenilənə bilməməsi, akademik işlərin bölüşdürülməməsi və s. mövcud vəziyyətə universitetlərə verilən milli gəlir payı əlavə edilir.

Statistikaya da bu vəziyyət mənfi təsir göstərir. Dünyanın ən etibarlı universitet reytinqlərindən biri kimi tanınan Times Higher Education-nin (THE) 2020-ci il üzrə hesabatına görə, türk dövlətlərindən heç bir universitet dünyanın ən yaxşı 100 universiteti arasında yer almayıb.

XXI əsrdə müasir cəmiyyətlər hətta artıq postinformasiya cəmiyyətinə də keçid alır. Belə bir dövrdə türk dövlətləri zamandan geri qalmamalı, sabit inkişaf tempini qorumalıdır. Bunun üçün onlar biliyə əsaslanan yeni iqtisadi və sosial nizama uyğunlaşmalı, sürətli texnoloji dəyişiklik prosesində iştirak etməli və davamlı öyrənməni həyat tərzinə çevirən ideallara əsaslanan yeni insan modelinin yetişdirilməsinə çalışmalıdırlar.

**Açar sözlər:** informasiya cəmiyyəti, universitet, problemlər, türk dövlətləri, tələbə mobilliyi, ömür boyu təhsil, distant təhsil

**Абульфаз Сулейманлы, Гекхан Ачикель**

## АНАЛИЗ СОВРЕМЕННОГО СОСТОЯНИЯ И ПРОБЛЕМ УНИВЕРСИТЕТОВ В ТЮРСКИХ РЕСПУБЛИКАХ НА ПУТИ К ИНФОРМАЦИОННОМУ ОБЩЕСТВУ

### Резюме

В данном исследовании с использованием эмпирических данных, основанных на связи между информационным обществом и высшим образованием, оценивались современное состояние и проблемы, стоящие перед университетами тюркских республик. В исследовании использовался формат "кейс-стади", который является типом метода качественного исследования. Также был проведен численный анализ текущего состояния методом "документного анализа".

Когда мы рассматриваем высшее образование в тюркских республиках в целом, мы обнаруживаем, что академические стандарты не обновляются в соответствии с образованием для информационного общества, академические исследования не проводятся в соответствии с философией создания знаний, академики не могут направлять студентов университетов. в соответствии с образованием для информационного общества, и программы выпускников не могут интегрировать навыки информационного сектора. Кроме того, очевидно, что университеты в соответствующих странах не в состоянии выполнять свои обязательства в соответствии с потребностями информационного общества, когда такие факторы, как неспособность обновить университетские учебные программы для удовлетворения этих потребностей, отсутствие обмена академическими исследованиями и падение доли национального дохода, приходящейся на университеты, добавляются к текущей ситуации.

Такая ситуация негативно сказывается и на статистике. Согласно отчету Times Higher Education (THE) 2020, который известен как один из самых надежных рейтингов университетов в мире, ни один университет из тюркских республик не входит в число 100 лучших университетов мира.

В двадцать первом веке  современное общество переходит уже к постинформационному обществу. В такой период тюркские республики не должны отставать от времени и должны поддерживать устойчивый темп развития. Для этого им необходимо адаптироваться к новому экономическому и социальному порядку, основанному на знаниях, участвовать в процессе быстрых технологических изменений и разработать новую человеческую модель, основанную на идеалах, которые делают непрерывное обучение образом жизни, основанным на концепции "информационное лицо".

**Ключевые слова:** информационное общество, университет, вызовы, тюркские республики, студенческая мобильность, непрерывное образование, дистанционное образование

# HEYDƏR HÜSEYNOVUN AZƏRBAYCAN FƏLSƏFƏSİNƏ DAİR MONOQRAFİYASINDA ZAMANIN "İZLƏRİ": MƏTNLƏR VƏ TƏFSİRLƏR

**Arzu HACIYEVA**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun*
*Azərbaycan fəlsəfə tarixi şöbəsinin müdiri, fəlsəfə elmləri doktoru*
*Bakı, Azərbaycan*

*E-mail: arzuhaciyeva@mail.ru*
*ORCID: 0000-0001-9078-0327*

**Xülasə.** Görkəmli Azərbaycan filosofu, akademik Heydər Hüseynovun məşhur fundamental "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" (1949) adlı monoqrafiyası elm tariximizə taleyüklü epoxal əsər kimi daxil olmuşdur. Keçmiş sovet məkanında milli fəlsəfəyə həsr olunmuş bu ilk kitabın qəribə, faciəvi taleyinin kökündə onun ərsəyə gəldiyi totalitar cəmiyyətdə milli ideyanın ideoloji örtüklər altında belə qəbuledilməzliyi dururdu.

Bununla belə, həmin epoxanın özəlliyinin başa düşülməməsi və nəzərə alınmaması çağdaş dövrümüzdə də əsərə münasibətdə bəzən xeyli subyektiv, birtərəfli tənqidi münasibətə səbəb olur. Zaman fərqinin doğurduğu özgələşməni aradan qaldırmaq məqsədilə məqalədə Heydər Hüseynovun fundamental tədqiqatı ilk dəfə olaraq intertekstuallıq və hermenevtikanın qarşılıqlı əlaqəsinin yeni baxış bucağından nəzərdən keçirilir.

Əsərdə mətn, iqtibas seçimi meyarları və onlardan istifadənin özəllikləri, şərh-təfsirlərin məzmunu və ona təsir edən amillər, bu təfsirlərin başqa müəlliflərin mətnləri ilə dialoq və münaqişəsinin səbəbləri zamanın mətndə daşlaşmış izlərinin aşkara çıxarılması kontekstində təhlil edilir. Müəllifin fikrincə, mətnlərə həkk olmuş "izlər"in arxasında bu izləri qoyanların, yəni bir tərəfdən dövrün ruhunun, digər tərəfdən yaradıcının əsas ideya və intensiyalarının, gizli düşüncələrinin üzə çıxarılması keçmiş irsin dərkində hermenevtikanın vacibliyini və labüdlüyünü şərtləndirir.

**Açar sözlər:** Azərbaycanda ictimai fikir tarixi, Heydər Hüseynov, Azərbaycan fəlsəfəsi, zamanın "izləri", mətn, şərh, intertekstuallıq, hermenevtika, həqiqət

## Giriş

Mədəni-tarixi irsin daşıyıcısı kimi hər bir mətni biliklərdən, fikirlərdən əlaqəli-ardıcıllıqla hörülmüş çoxqatlı, mürəkkəb, qapalı və müstəqil reallıq kimi nəzərdən keçirmək olar. Onun dildə və hərflərdə hifz etdiyi yalnız insan ağlının nəticələri, müxtəlif informasiyalar deyil. Hər bir mətnin, müəllifi anonim olmasa belə, aşkar görünməyən öz yaradanı vardır, burada dövrün ruhu, mənəvi təcrübəsi, cəmiyyətin siyasi, ideoloji prioritet və stereotipləri ilə bahəm, yaradıcının dünya haqqında təsəvvürləri, psixologiyası, duyğuları, inamları, mənəvi kredosu, intuisiyası öz inikasını tapır. Digər tərəfdən, hər bir mətndə başqa mətnə və yaxud mətnlərə müraciət, çox sayda aşkar və gizli istinadlar var. O (mətn), bu yad mətnlərə münasibət bildirir, onlarla dialoq aparır, yaxud da münaqişəyə girir. “Humanitar fikrin yad fikirlərdən, istəklərdən, manifestasiyalardan, ifadələrdən, işarələrdən...” [16] törədiyini deyən V.Baxtin ümumiyyətlə mətnin mövcudluq üsulunu bunda görürdü: “Mətn yalnız başqa mətnə (kontekstə) təmas etməklə yaşayır. Məhz bu təmas nöqtəsində işıq alışıb arxanı da, önü də işıqlandırır, həmin mətni dialoqa qoşur” [15, 384]. Bütün mətnlərə xas olan bu, – əslində əvvəllər də sezilən, lakin Baxtinin ilk dəfə qabardıb konseptuallaşdırdığı, – dialoji məqam-əlamət sonradan postsrukturalizm nəzəriyyəçisi Yuliya Kristevanın sayəsində intertekst(uallıq) adı altında (1967) elmi dövriyyəyə daxil edilmişdir.

*İntertekst* — dilimizə “mətn içində mətn”, yaxud “mətnlər arasında mətn”, hətta daha yığcam şəkildə “beynəlmətn” kimi tərcümə edilə bilər. Qeyd etmək lazımdır ki, intertekstuallığı çox vaxt bədii ədəbiyyat, incəsənət əsərlərinə aid edirlər. Lakin sirr deyil ki, ayrı-ayrılıqda hər bir mətn intertekstdir. Deməli, elmi, fəlsəfi mətnlər bu “qanunauyğunluqdan” kənarda deyil, hətta fikir tarixinə dair tədqiqatların mənbəyi və əsas şərh obyekti elə bilavasitə yad (yəni müxtəlif fəlsəfi məktəblərin, filosof və mütəfəkkirlərin fikirlərinin toplandığı) mətnlərdir. Qədimdən indiyə qədər yaradılmış mətnlərin (burada söhbət yazılı mətnlərdən gedir) gerçəkliyi elədir ki, onların hüdudları, müəyyən çərçivələri, əvvəli və axırı var, yəni sonsuz deyildir, lakin sonsuzluğa açıqdır. Mətni sonsuzluğa qovuşduransa tükənməz təfsirlərdir. Məhz təfsirlər hər bir yeni dövrdə mətni, onda gizlənmiş potensial mənaları aktuallaşdırmaqla müasirimizə çevirir və gələcəyə ötürür. Bu işdə köhnə mətnlər haqqında yeni düşüncənin ifadəsi kimi götürülən, necə deyərlər, hermenevtik yüklü intertekstuallığın ekspressiv və apellyativ finksiyalarının rolunu da danmaq olmaz.

Təqdim etdiyimiz yazıda görkəmli Azərbaycan filosofu, akademik Heydər Hüseynovun məşhur, taleyüklü epoxal əsəri “Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən” (1949) monoqrafiyası [19] bəzi fraqmentlər nümunəsində və yuxarıda təsvir edilən məcrada nəzərdən keçiriləcək, yəni filosofun öz tədqiqatında mətn, iqtibas seçimi və onlardan istifadəsinin özəllikləri, şərh-təfsirlərinin məzmunu və bu məzmuna təsir edən amillər, bu təfsirlərin başqa müəlliflərin (o cümlədən bu sətirlərin müəllifinin) təfsirləri ilə dialoq və münaqişəsinin səbəbləri, ən əsası, zamanın mətndə daşlaşmış "izləri" təhlil ediləcəkdir.

## 1. Heydər Hüseynov və məşhur əsəri müxtəlif zaman kəsiklərində

Biz görsək də, görməsək də hər bir epoxanın təkrarolunmaz ruhu cəmiyyətə diqtə etdiyi qaydaları, tələb və təklifləri ilə özünün digər dövrlər üçün anlaşılmaz, yaxud qəbuledilməz olan

izlərini mətnlərə salır. Bunu bilmək şərhetmədə obyektivliyi saxlamağın ən vacib şərtlərindəndir. Məhz bu "həkk olunmuş izlər"in başa düşülməməsi və nəzərə alınmaması bəzən keçmiş irsə birmənalı subyektiv tənqidi münasibətə gətirib çıxarır. Belə tənqid sovet dövründə yaranan bir çox əsərlər kimi, akademik Heydər Hüseynovun (1908-1950) "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" (1949) monoqrafiyasından da yan keçməmişdir [2, 13-15]. Bu əsər Azərbaycan tarixi məkanında adi, sıradan bir, əhəmiyyəti zamanla ötüb keçən əsərlərdən deyil. Təkcə ona görə yox ki, Azərbaycan fəlsəfi fikir tarixinin ilk sistemli elmi şərhini təmsil edir, onun yeni bir elm sahəsi kimi təşəkkülünün başlanğıcında durur. Həm də ona görə ki, o, azad fikrin boğulduğu totalitar cəmiyyətdə ideoloji pərdələr altında, yad dildə də olsa xalqımızın gizli müstəqillik arzularını ifadə edən, qürurla "Mən varam, mənin qədim tarixim var, mənim müdrik fəlsəfəm var, mənim dahi mütəfəkkirlərim var" deyən milli özünüdərk abidəsidir. Eyni zamanda kataklizmli siyasi hadisələrlə, ideoloji paradokslarla dolu, son dərəcə mürəkkəb dövrün — "Stalin epoxası"nın təzadlarını özündə sanki fokusdakı kimi birləşdirməsi onu özünəməxsus faciə rəmzinə çevirmişdir.

Cəmiyyətin siyasi-ideoloji ab-havası dəyişdikcə, bu kitaba münasibət də dəyişmişdir. 1949-cu ildə işıq üzü görən 734 səhifəlik (46 ç. v. həcmində) foliant sovet məkanında böyük maraqla qarşılanmış, məşhur alimlərin mərkəzi və yerli mətbuatda dərc olunan resenziyalarında yüksək dəyərləndirilmiş, Dövlət (Stalin) mükafatına layiq görülmüşdü. Lakin uğurun ömrü uzun olmadı, H.Hüseynova qarşı "Şeyx Şamilin şəxsiyyətinə və hərəkatına düzgün qiymət verməmisən" (= müsbət dəyərləndirmisən) deyə, dövlət səviyyəsində təşkil olunmuş ittihamlar başladı, Stalin mükafatı geri alındı, əsərə müsbət rəy vermiş Azərbaycan alimləri məhşər ayağına çəkildilər, özü isə bütün vəzifələrindən uzaqlaşdırıldı. İşi o yerə çatdırdılar ki, alim 1950-ci ilin avqustunda bağ evində iztirablara tab gətirməyib canına qıymaqdan savayı bir çarə tapmadı.

Maraqlıdır ki, kitab ətrafında cərəyan edən hadisələr, hay-küylü ittiham kampaniyaları, dərc edilən "ifşaedici" yazılar, xüsusilə M.C.Bağırovun çıxış və məqalələri [14] sovet tarixşünaslığında növbəti paradiqma dəyişikliyinə gətirib çıxardı. Belə ki, əgər sovet hakimiyyətinin ilk onilliklərində Çar Rusiyasının digər xalqları və ərazilərinin işğalı hadisəsi elə "istila", "fəth" adlandırılaraq "mütləq şər" konsepsiyasından şərh edilirdisə, 30-cu illərin ortalarından "ən kiçik şər" adlanan konsepsiya (H.Hüseynov da məhz bu konsepsiyadan çıxış etmişdi) qüvvədə idi və artıq sonuncu da səhv sayılıb, öz yerini "mütləq yaxşılığa" verdi: yəni Çar Rusiyasının işğalları "böyük qardaşın" əsarət altına aldığı xalqlara müstəsna xeyirxahlığı kimi mütərəqqi, istilaya qarşı mübarizəyə qalxan milli azadlıq hərəkatları mürtəce hadisə elan olundu.

Stalinin ölümündən sonra, siyasi-ideoloji mühitdə mülayimləşmə Heydər Hüseynovun xatirəsinə münasibətdə də özünü göstərdi. Onun 50 illik yubileyi ilə əlaqədar, 1958-ci ildə "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" kitabı ikinci dəfə müəyyən ixtisarla (ixtisarlarda əsərin birinci nəşrindən keçən müddətdə ölkənin siyasətində və siyasi elitasının tərkibindəki dəyişikliklərin təsiri aşkar görünür, belə ki, burada M.C.Bağırov və V.Molotovdan artıq bir sitat belə qalmamış, Lenin və Stalindən iqtibaslar yarıbayarı azaldılmış, Cənubi Azərbaycan haqqında hissə bütünlüklə çıxarılmışdı və s.) çap olundu [20], barəsində kitabça və məqalələr

dərc edilməyə başladı. 100 illik yubileyi ərəfəsində isə əsərin Azərbaycan dilində iki (rus dilində 1949 və 1958-ci il nəşrləri üzrə edilən) tərcümə variantının nəşri gerçəkləşdi [3; 4]. Kitabın 2-ci nəşrindən tərcümədə mən də iştirak etmişdim, 2015-ci ildə isə AMEA-nın 70 illiyi ilə əlaqədar yazdığım və filosof alim haqqında ilk böyük həcmli "Akademik Heydər Hüseynov" adlı monoqrafiyam [2] işıq üzü gördü.

Qeyd etmək lazımdır ki, məhz H.Hüseynovun 100 illiyi ilə əlaqədar tədbirlər, məşhur əsərinin Azərbaycan dilinə tərcümələri ilə tanış olmaq imkanı alimə marağı artırmaqla bahəm, xüsusən bəzi gənclər arasında onu kəskin və birtərəfli, hətta radikal tənqid obyektinə çevirdi. Artıq fəaliyyəti dayandırılmış ANS kanalında "Dahilərin divanı" verilişində "divan" tutulması bir yana qalsın, hətta onun adını Azərbaycan fəlsəfi fikir tarixindən silməyi tələb edən absurd fikirlər səsləndi [9]. "Əlibəy Hüseynzadə niyə bu kitaba daxil edilməyib" tipli iradlar əslində tənqidçilərin əsərlə düz-əməlli tanış olmadığından xəbər verirdi. Əks halda, H.Hüseynovun kitabının bir yerində Əlibəy Hüseynzadəni nəinki xatırladığını, hətta onu "qəddar pantürkist" adlandırıb, "Molla Nəsrəddin" jurnalında dərc edilən (№23, 1913) bir məqalədən (nədənsə məqalənin müəllifi Firudin bəy Köçərlinin adını çəkmədən) gətirdiyi "Kaş o alicənab İstanbulda oturub bizim bu şümbəxt Qafqaza gəlməyəydi..." sözləri ilə başlayan iqtibas vasitəsilə tənqid etdiyini [19, 702; 20, 415; 3, 513] görər və tənqid üçün daha "tutarlı dəlili" əldən buraxmazdı. Lakin dövrün ideoloji tələblərinə edilən bu və bu kimi güzəşt məqamlarında konkret tarixi kontekst əks olunmuşdu, birtərəfli tendensiyalı tənqidə rəvac verən də elə bu tarixi kontekstin nəzərə alınmaması idi. Halbuki əsərin yazıldığı dövrü təsəvvür etməyən, onun təzadlarından xəbərsiz müasirlərimizdən bir çoxuna qəribə, ədalətsiz görünən bütün bu güzəştlər onun öz zəmanəsi üçün yetərli olmadı, gənc akademikin Əlibəyə vurduğu "pantürkist" damğası özünə qayıtdı, kitabını da elə həmin "pantürkizmdə", "panislamizmdə" günahkar bildilər. Zira əsərdə aşılanan əsas ideya – milli ideya mahiyyətcə imperiya dövləti olan SSRİ-də qəbuledilməz idi...

Qeyd etmək lazımdır ki, H.Hüseynovun monoqrafiyasının əsas məziyyətlərindən biri onun geniş mənbə əsasında yazılmasındsa idi. O, ilk dəfə olaraq Azərbaycan tarixini, o cümlədən XIX əsr Azərbaycanının sosial-iqtisadi vəziyyətini, mədəni həyatını əks etdirən arxiv materiallarını toplayıb şərh etmiş, əlyazmaları fondunda saxlanılan, lakin o vaxta kimi, hələ heç yerdə dərc edilməmiş çoxlu mühüm sənəd və materiallardan istifadə edərək, onları ilk dəfə olaraq elmi tədqiqat arealına daxil etmişdi. Burada H.Hüseynovun intertekstində tədqiqat obyektinə yanaşma tərzinin özəlliklərini üzə çıxarmaq məqsədilə təfsir üçün seçdiyim mətnlər — əsərin "Giriş" hissəsində Füzuliyə həsr olunmuş hissədən, Həsənbəy Zərdabi və Mirzə Kazımbəy fəsillərindən fraqmentlər məhz bu dövr üçün yeni materiallar qismindəndir.

## 2. Heydər Hüseynov və Füzuli mətnlərinin görüşü: dialoq və münaqişə

Heydər Hüseynov Məhəmməd Füzulinin fəlsəfi görüşləri haqqında yığcam şərhində müstəsna olaraq onun "Mətləül-etiqad" traktatına əsaslanır. "Mətləül-etiqad" sovet elmi ictimaiyyətinə yalnız 1929-cu ildən, yəni M.S.Vereşaginin Füzuli külliyyatının gözəl bir nüsxəsini Asiya muzeyinə hədiyyə etdiyi zamandan məlum olmuşdur [18, 51-52]. Şairin külliyyata daxil olan digər çox dəyərli, nadir əsərləri arasında ərəb dilində nəsr-

lə yazdığı "Mətləül-etiqad" fəlsəfi traktatı da var idi. Sonralar həmin əlyazmanın fotosurəti çıxarılaraq Nizami adına Ədəbiyyat İnstitutunun əlyazmaları fonduna verilmiş və Azərbaycan SSR EA Fəlsəfə İnstitutunda Azərbaycan və rus dillərinə tərcümə edilmişdi. Əsərin əsli ilk dəfə 1958-ci ildə işıq üzü görmüş, H.Zərrinəzadənin Azərbaycan dilinə tərcüməsi isə Füzulinin beşcildlik "Əsərləri"nin V cildində (1985) [7] yer almışdır. Bu, onu göstərir ki, Heydər Hüseynov araşdırmasında ya "Mətləül-etiqad"ın orijinalı, ya da onun fondda əlyazma şəklində saxlanılan tərcüməsindən istifadə etmişdi.

"Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" (1949) kitabının "Giriş"ini dilimizə çevirərkən, mən dürüst tərcüməyə nail olmaq üçün buradakı rusca iqtibasları H.Zərrinəzadənin azərbaycancaya tərcümə variantı ilə tutuşdurmağa başladım və müəllifin mənbədən istifadədə xeyli sərbəstliyini üzə çıxaran maraqlı müşahidələr etdim. Məsələn, Füzulinin traktatının "Biliyin yolları (üsulları) haqqındadır" adlanan I fəslinin IV paraqrafında (I rüknün IV babı) [7, 86-87] tədqiqatçıların bilik (mərifət) əldə etməyin yolları haqqındakı fikirlərindəki mövcud fərqlər qruplaşdırılır. H.Hüseynovun mətnində isə bu hissə çox qısa şəkildə xülasə edilib, cəmi iki fərqli baxışa müncər edilmiş və nədənsə iqtibas şəklində dırnaq içində verilmişdir: "bəziləri deyirlər ki, həqiqət yalnız ağıl vasitəsilə əldə edilir; başqaları isə deyirlər ki, bu yol *(həqiqətə aparan yol* – **A.H.**) nəfsi ehtirasların ram edilməsidir, daxilən təmizlənmə yoludur, çünki ağıla əsaslanan heç də həmişə həqiqət olmur". Bunun ardınca alim idrak məsələsində Füzulinin tərəddüd etdiyini və "insanların fəaliyyətinin də nəzərə alınmasının vacibliyi barədə yazdığını" bildirir [19, 25-26]. Halbuki, mətndə mütəfəkkirin tərəddüdünü görmürük, əksinə, o, əsla münasibət bildirmədən, tərəfgirlik etməyən obyektivliklə orta əsr islam bölgəsində yaranmış təlimlərin (mütəkəllimlər, məşşailər, işraqilər, sufilər, şəriətçilər və i.a.) konkret məsələdə, yəni idrak üsullarına münasibətdə özünəməxsusluğunu, özəl mövqelərini izah edir. Eyni zamanda burada onun idrak məsələsində "insanların fəaliyyətinin də nəzərə alınmasının vacibliyi" haqqında hər halda aşkar deyilmiş bir fikrinə də rast gəlmirik. Ola bilsin ki, Füzulinin şərhində insanın idrak prosesindəki (rasional, irrasional, mistik xarakter daşımasından asılı olmayaraq) şəxsi səyləri akademikin diqqətini cəlb etmiş, bu məqamı qabartmaq istəmişdi. Axı dərketmənin özü də insani fəaliyyətdir. Əgər belədirsə də, müəllif niyyətini aydın ifadə etməmişdir.

Ümumiyyətlə, Heydər Hüseynov orta əsrlər şair-mütəfəkkiri Füzulini müasirləşdirərək, dövrün və sovet cəmiyyətinin gözündə ucaltmaq üçün onun fəlsəfi görüşlərində hakim marksist ideologiyasına uyğunluq, paralellər axtarır. Bu istək onun daha əvvəl, 1946-cı ildə yazdığı bir məqaləsində aşkar duyulur. Burada o, "ədəbiyyatımızda irəli sürülən fəlsəfi fikirlər, elmi prinsiplər, ümumbəşəri ideallar"in təsadüfi olmadığını sübut etmək üçün məhz Füzuli irsinə müraciət edir. "Mətləül-etiqad"da Kainatın yaranışına dair söylənilən bəzi mülahizələrə istinadən belə bir nəticəyə gəlir: "Çox maraqlıdır ki, Füzuli aləm və kainat haqqında olan müxtəlif fəlsəfi nəzəriyyələrin əsas etibarilə bir-birinə zidd olan iki cərəyandan ibarət olduğunu hələ XVI əsrdə sezə bilmişdi" [5, 8]. Başqa sözlə, o, ad çəkmədən fəlsəfənin əsas məsələsinin həlli tərzindən asılı olaraq filosofların materializm və idealizm olmaqla iki qola ayrılmaları haqqında marksizm klassiklərinin kəşfi sayılan ideyanı Füzulinin onlardan daha qabaq anladığına eyham vurur. Əslində totalitar rejimlərdə bu cür müqayisələrin özü

də təhlükəli idi.

H.Hüseynovun universitet müəllimi görkəmli rus və Azərbaycan filosofu A.O.Makovelskinin başına gələnlər bu mənada xeyli ibrətamizdir. 1947-ci ildə G.F.Aleksandrovun "Qərbi Avropa fəlsəfəsinin tarixi" kitabının ümumittifaq müzakirəsi zamanı prof. M.P.Baskin gözlənilmədən A.O.Makovelskinin üzərinə hücuma keçib, onu "Qədim yunan atomistləri" (Bakı, 1946) əsərində qədim yunan filosofu Demokriti guya tarixi materialist kimi təqdim etdiyinə görə ittiham etməyə başlayır. Başqa sözlə, Makovelskinin "günahı" Demokritin materializmi ictimai hadisələrin anlanmasına tətbiq etdiyini deməklə, K.Marks və F.Engelsin işləyib hazırladığı təlimi Demokritin adına çıxmasında idi. Doğrudan da, kitabın bir yerində Makovelski insan cəmiyyətinin ümumi qanunauyğunluğu ideyasının Demokritdən gəldiyini və onun bu inkişafı "hər bir addımında ehtiyac üzündən baş verən ləng, tədrici təkamül kimi" başa düşdüyünü göstərir. Eyni zamanda Demokritin "ehtiyac hər şeydə müəllim idi" fikrini onun ideya və elmlərin inkişafının belə iqtisadi tələbatlardan asılılığını qəbul etməsi kimi şərh edir. Lakin qədim yunan atomistinin "cəmiyyətin inkişafında iqtisadiyyatın aparıcı rolunu anlasa belə" tarixi məhdudluq ucbatından cəmiyyət həyatının tarixi-materialist anlayışına çata bilmədiyini vurğulayır [21, 121]. Beləliklə, Makovelski diskussiyadakı çıxışının bir hissəsini ittihama cavab üçün ayırmalı oldu. O, Baskinin rəylərini "savadsız" və "öz uydurması" adlandırıb, kitabında söhbətin Baskinin iddia etdiyi kimi materializmin ictimai hadisələr üzərinə keçirilməsindən deyil, yalnız Demokritin ilk dəfə olaraq inkişaf ideyasını insan cəmiyyətinin anlamına daxil etdiyindən getdiyini, bu inkişafın isə Levkippin təbiəti mexanistik izahı konsepsiyasına uyğun mexanistik inkişaf olduğunu bildirir. Göstərir ki, o, Demokriti ictimai hadisələrin izahında idealist kimi təqdim etmişdir, çünki Demokrit ictimai həyatda dəyişikliklərin əsas səbəbini kütlələrin psixologiyasının dəyişməsində görürdü, cəmiyyət haqqında təlimində ictimai şüurdan ictimai varlığa doğru gedirdi. Makovelski Baskinə cavabını zalda gülüş və canlanma yaradan "Platonu tənqid edərkən Aristotel demişdi: "Platon mənim dostumdur, lakin həqiqət ondan da böyük dostumdur", amma ki, həqiqət yoldaş Baskinin dostu deyil" sözləri ilə bitirir. Nədənsə alim həmin vaxt vəziyyətdən nisbətən yaxşı çıxır, təhlükədən qurtula bilir. Lakin daha bir il sonra, yenidən "əsilsiz kosmopolitizm" əleyhinə ölkədə başladılan yeni kampaniyanın qurbanına çevrilir. Bu dəfə "Qədim yunan atomistləri"ndə Levkipp və Demokritin atomların ilkin hərəkətinin onların ağırlığından asılı olmaması haqqında fikrin ən erkən müdafiəçiləri kimi "burjua alimi" Ditrix Tidemanla "elmi sosializmin dahisi" K.Marksın adlarını yanaşı çəkdiyinə görə [22, 6]. Onun artıq özünü müdafiə şansı yox idi. "Qəbahəti" daha böyük idi.

Görünür, H.Hüseynov müəlliminin bu acı təcrübələrindən nəticə çıxarmışdı. Çünki Füzuli və marksizm klassiklərinin mülahizələri arasında tipoloji oxşarlıq haqqında məqaləsində qeyd etdiyi fikri monoqrafiyasına daxil etməmişdi. Əvəzində "Mətləüd-etiqad"dan bəzi ixtisarlarla iqtibas gətirdiyi böyük bir fraqment vasitəsilə Füzulinin insanlar arasında sosial bərabərsizliyin mövcudluğuna etiraz səsini ucaldan bir demokrat, inqilabçı obrazında canlandırmağa çalışır. Həmin fraqmentdə deyilir: "Bəziləri yoxsulluq əzabları, digərləri isə cismani həzlər içərisində dünyadan köçürlər. Əgər yoxsul pis, varlı isə yaxşı adam idisə, onlardan hər biri əməlinə görə, yəni yoxsul bəd əməlinə görə əzabı,

varlı yaxşı işlərinə görə həzləri əvəz olaraq almışdır. Əgər bütün bunlar əksinə olarsa, kasıb və xeyirxah insan yoxsulluq aləminə əvəz olaraq mütləq mükafat almalıdır… Şəhvət və qəzəb qüvvələri insan təbiətinə hökm edəndə bir məzlumu qarət etməsinə və yaxud onu zülm ilə öldürməsinə səbəb olur. Əgər bunun əvəzində cəza verilməzsə, ədalət pozulmuş olar…”.

Maraqlıdır ki, Füzulinin bu sözlərin ardınca “Tanrı mükafatı da, cəzanı da ancaq ölümdən sonra verməlidir” deyə ədalətin bərpasını məhşərə saxladığı (təsadüfi deyil ki, iqtibasın götürüldüyü paraqraf “Məhşər haqqında”dır) barədə cavabını, yəni bir cümləni Heydər Hüseynov sanki unudaraq, dərhal başqa problemin üzərinə keçir. Əslində bu bir cümlə əsrlərin ayırdığı iki müəllifin zəmanənin təzyiqi altında əks istiqamətdə hərəkət edərkən bir nöqtəyə gəlib çıxmalarının özünəməxsus rəmzinə çevrilir. H.Hüseynov yaşadığı Stalin dövrünə güzəştə gedir və bir cümləni ixtisar etməklə Füzulinin mülahizələrindəki mübariz ruhu sonadək saxlamağa müvəffəq olur. Füzuli də öz dövrünə güzəştə gedir, bəlkə, həmin bir cümlə ilə müdafiə olunaraq, ləyaqətli insanların əzab-əziyyət, ləyaqətsizlərin kef çəkdikləri, dininsə ədalətin bərpasını axirətə saxladığı feodal cəmiyyətində hökm sürən zülmə, yoxsulluğa, haqsızlığa qarşı qəlbində baş qaldıran narazılığı, etirazı açıq şəkildə ifadə edir.

Füzuli və H.Hüseynov mətnlərinin müqayisəsi daha bir, həm də ciddi (hətta “kobud” deyərdim) yanlışlığı üzə çıxardı. Bu yanlışlıq alimin “Mətləül- etiqad”dan seçdiyi, qədim yunan filosofu miletli Falesin aləmin mənşəyi haqqında baxışları ilə tanış etdiyi iqtibasdadır. Burada deyilir: “Miletli Fales üçün ilk ünsür sudur, çünki o, hər cür şəklə düşə bilir. Onun sıxlaşmasından torpaq, saflaşmasından od və hava, odun tüstüsündən göy əmələ gəlmişdir… *Onun (Falesin – H.H.*) (kursiv – **A.H.**) taxtı suyun üzərində idi” [19, 26; 4, 24]. Doğrusu, müəllifin mötərizədəki izahı “Onun” sözünü Falesə aid etməsi məni xeyli təəccübləndirmişdi. Axı, antik yunan filosofu Fales qədim Yunanıstanda yeddi müdrikdən biri və birincisi sayılsa da, hər halda hökmdar deyildi ki, onun taxtı, özü də suyun üzərində duran qeyri-adi, fövqəltəbii bir taxtı olaydı?!

Həmin parçanı Zərrinəzadənin tərcüməsində oxuyunca mətləb aydın olur. Burada deyilir: “Rəvayətə görə, Fales demişdir: “İlk ünsür sudan ibarətdir, suyun hər bir şəklə düşmək qabiliyyəti olduğuna görə onun sıxlaşıb bərkiməsindən yer, durulmasından (incələşməsindən) od və hava əmələ gəlmişdir. Göy isə odun tüstüsündən törəmişdir”. Bu (fikir) isə Tanrının dediyi “Onun ərşi su üzərində idi” sözünə uyğundur” [7, 88]. Deməli, “Onun” sözü Falesə yox, Allaha aiddir. Belə ki, “Onun ərşi su üzərində idi” sözləri Quranın Hud surəsinin 7-ci ayəsindəndir. Əslində yuxarıdakı iqtibasda Füzuli dünyanın başlanğıcının su olduğunu deyən Falesin görüşləri barədə rəvayəti danışdıqdan sonra, öz şəxsi mülahizəsini bildirib, Falesin bu görüşləri ilə Allahın sözü arasında uyğunluğu nəzərə çarpdırmaq istəmişdir. Yeri gəlmişkən, bu çox məntiqli analogiyadır. Bizi maraqlandıran həmin ayənin birinci cümləsini tam şəkildə oxuyaq: *“Ərşi su üzərində ikən* hansınızın daha gözəl əməl (itaət) sahibi olacağınızı sınayıb bilmək üçün *göyləri və yeri altı günə yaradan Odur. …”* (kursiv – **A.H.**) [11, 283]. Yəni su Allahın altı günə yaratdığı göylərdən və yerdən əvvəl mövcud olmuşdur, çünki Allahın ərşi, yəni taxtı suyun üzərində idi.

Qeyd etmək lazımdır ki, suya yaradıcı ilk başlanğıc kimi baxılması qədim Şərq xalqlarının (Misir, Çin, Hind, Finikiya, uqarit və b.) mifologiyasına, fəlsəfə-

sinə də xasdır. Məlum olduğu kimi, su xalis formada ($H2O$) rəngsiz, iysiz və tamsızdır, axardır, onu tutub saxlamaq mümkün deyil, formadan məhrumdur, yəni bir növ özündə yoxluq əlamətlərini daşıyır, bununla belə, hər bir şeyə daxilən xasdır. Görünür, qədim müdrikləri suyun qeyri-adi əlamətləri cəlb edirdi, su deyərkən, bəlkə də, bizim anladığımız adi krandan gələn, vannadakı, ya arxda axan suyu deyil, su keyfiyyətlərinə malik bir simvolu nəzərdə tuturmuşlar. "Brihandaranyaka-upanişad"da dünyanın əvvəli barədə deyilir: “Əvvəlcə bu su idi. Bu su gerçəyi, gerçək Brahmanı, Brahman Pracapatini, Pracapati tanrıları yaratdı” (Br.Up. 5:5,1) [17]. Yaxud uqarit əsatirinə görə, quş yumurtaların üstündə oturub bala çıxaran kimi, Tanrı suyun üstündə oturub, həyatı çıxardı [13, 21-22] və i.a. misalların sayını artırmaq olar.

Quranın, o cümlədən "Hud" surəsinin bizi maraqlandıran hissəsinin müxtəlif dillərə tərcümələrində müəyyən fərqlər olsa da, yuxarıda istinad etdiyim Z.Bünyadov və V.Məmmədəliyevin tərcüməsinə mənaca yaxındır. Lakin bəzi tərcümələrdə suyun yaradıcı gücü daha qabarıq nəzərə çatdırılır. Abdulbaki Gölpınarlı həmin parçanı türkcəyə belə tərcümə etmişdir: “Öyle bir mabuttur ki hanginiz daha iyi hareket edecek, bunu size bildirmek ve sizi sınamak için gökleri ve yeryüzünü altı günde yarattı, *daha önce emri ve saltanatı, yarattığı suya cariydi* (kursiv – **A.H.**)”. Yaxud Mahmut Kısanın tərcüməsində bu yer belə səslənir: “O Allah ki, gökleri ve yeri altı günde yarattı. Bütün kainat yaratılmadan önce O’nun Arş’ı su üzerinde idi. *Allah, bütün canlı varlıklara su ile hayat verdi* (kursiv – **A.H.**)”. Yaxud Mustafa Çavdarın tərcüməsinə görə: “Gökleri ve yeri altı aşamada yaratan O’dur. O, hanginiz daha güzel amel yapacak diye *sizi sınamak için hükümranlığının en büyük göstergesi olan hayatı su ile başlatmış idi”* (kursiv – **A.H.**) [12].

Füzuli də elə bunu demək istəyirdi. Bəs Heydər Hüseynov nədən belə bir səhvə yol vermişdi? Əlbəttə, ərəb mətnlərində durğu işarələrinin (iki nöqtə, dırnaq və i.a.) yoxluğu ucbatından tərcüməçinin ayrı-ayrı şəxslərin sözlərini bir-birinə qarışdırması mümkündür. Bu üzdən mexaniki səhv və ya diqqətsizliyin nəticəsi ola bilər. Amma ola bilsin ki, o, yanlışlığa şüurlu surətdə yol vermişdi, çünki kortəbii materialist, Aristotelin “bütün mövcudatın ilkin maddi başlanğıcı problemini ilk dəfə dürüst ifadə edə bilən birinci filosof” adlandırdığı Falesin fikirlərinin Quran ayəsi ilə təsdiq edilməsi dinlə daim mübarizə aparan ateist dövlətində Füzulinin özünün xeyrinə deyildi. Akademikin “Mətləül-etiqad”dan gətirdiyi sözügedən parçada “Tanrının dediyi kimi” sözlərini üç nöqtə qoyub ixtisar etməsi də bu versiyanın daha ağlabatan olduğuna dəlalət edir.

Qəribədir ki, bu səhvə “Azərbaycanda XIX əsr ictimai və fəlsəfə fikir tarixindən” kitabının redaktoru prof. A.O.Makovelski də əhəmiyyət verməmişdir. A.O.Makovelski antik dövrün, qədim yunan filosoflarının dünyada ən dərin bilicilərindən biri kimi tanınır və “Falesin taxtı”nın olmadığını hamıdan yaxşı, əlbəttə, o bilirdi. Bu faktı o, H.Hüseynovun kitabı haqqında “İnqilab və mədəniyyət” jurnalında (1949) dərc etdirdiyi böyük həcmli müsbət resenziya-məqaləsində də qeyd etməmişdi. Halbuki kitabda rastlaşdığı bəzi nöqsanları, əsasən xronoloji yanlışlıqları göstərib, “onların tənqidə və təshihə ehtiyacı” olduğunu bildirib [8, 162]. Artıq bu qeydlər öz növbəsində Makovelskinin redaktoru olduğu monoqrafiya ilə yalnız onun çap edilməsindən sonra tanış olduğundan xəbər verir. Əks halda bəzi konkret nöqsanları əvvəlcədən, həm də rahatlıqla düzəltmək olardı. Məsələn, Brounun Babilər hərəkatının tədqiqində Mirzə Kazımbəyin sələfi ol-

ması barədə (mako.) mötərizə arasında verilən yanlışlığın [8, 163] təshihi üçün sadəcə bir sözü dəyişib mötərizəni silmək kifayət edirdi. Göründüyü kimi, H.Hüseynov kitabını nəşr etdirməyə tələsirdi. Yaradıcılıq sərbəstliyini boğan mühit, gənc akademikin bu kitabı yazmaq üçün rəsmi icazə almadığı, Mərkəzi Komitədə əleyhdarları olduğunu xatırlayınca, onun nədən belə tələsdiyini anlamaq mümkündür. Kitabını M.C.Bağırova bağışlamağa gedərkən dediyi: “Bu kitab ya məni göylərə ucaldacaq, ya da yerə vuracaq” [10, 83] sözlərində bu daxili təlaş, narahatlıq aşkar duyulur. Haqlı çıxdı da. Hətta söylədiyi alternativlərdən hər ikisi qismətinə yazıldı.

Fales barədə səhvə gəlincə, “Azərbaycanda XIX əsr ictimai və fəlsəfə fikir tarixindən” monoqrafiyasının artıq siyasi, ideoloji ab-havanın mülayimləşdiyi 1958-ci ildə çıxan ikinci nəşrində də olduğu kimi qalırdı. 2007-ci ildə əsərin mənə həvalə edilmiş hissələrinin tərcümələrini redaktora təhvil verərkən iqtibasdakı yanlışlıq barədə ona məlumat verib, mətnin içərisində bu xüsusda etdiyim qeydi nəzərinə çatdırmışdım. Təəssüf ki, kitabın az qala 60 ildən sonra nəşr edilən Azərbaycan variantı da işıq üzünə yenidən həmin səhv barədə qeydsiz çıxdı. Əsərin Azərbaycan dilinə tərcüməsi, təbiidir ki, tərcümə kimi mürəkkəb fəaliyyət sahəsində əyər-əskik olsa belə, mühüm elmi hadisə oldu. Bununla belə, burada artıq yeni dövrün tam əks ideoloji prioritetlərinin təsirini sezmək olur. Əsərin bir sıra yerlərində, xüsusilə M.F.Axundzadəyə həsr edilmiş fəsildə, Heydər Hüseynovun mütəfəkkirin irsində onun mübariz ateizmi, islam dini və peyğəmbəri haqqında söylədiyi tənqidi fikirlərini təhlil etdiyi xeyli hissə ixtisara salınmışdır. İxtisarların səbəbinin kiminsə islam təəssübkeşliyi, ya M.F.Axundzadəni və H.Hüseynovu “təmizə çıxarmaq” istəyi iləmi, yaxud tamamilə başqa bir məsələ ilə bağlı olduğunu deyə bilmərik. Məsələnin acınacaqlı tərəfi ondadır ki, azərbaycanlı oxucu öz xalqının fəlsəfəsi barədə yazılan əsərdən rusdilli oxucunun aldığı dürüst məlumatı ala bilmir.

### 3. Zərdabinin Tolstoya məktubu: həqiqətin dostu, yaxud müxtəlif həqiqətlər

Təəssüf ki, həmin nəşrdə alimin Həsən bəy Zərdabinin 1903-cü ilin oktyabrında Lev Tolstoya yazdığı böyük həcmli məktubundan gətirdiyi iqtibasın da böyük bir hissəsi ixtisara düşüb. Halbuki bu məktub Zərdabinin dinə münasibətinə işıq salmaq cəhətindən çox mühüm və unikal sənəddir.

Məsələ burasındadır ki, dini-fəlsəfi baxışlarına görə Tolstoyun kilsədən xaric edilməsi haqqında Sinodun 1901-ci ilin fevralında verdiyi qərar, ardınca yazıçının Sinoda cavab yazaraq onun “qanunsuz və qərəzli şəkildə ikimənalı”, böhtançı qərarını ifşa etməsi cəmiyyətdə geniş rezonans doğurmuşdu. Zərdabi Tolstoyun yeni dini-fəlsəfi təliminin mahiyyətini izah etməsi üçün elə onun özünə məktubla müraciət etmək qərarına gəlir. İnsafən, dahi yazıçı bu xahişə biganə qalmır, cavab göndərir. Zərdabi artıq ona yazdığı ikinci məktubu (hazırda arxivdə saxlanılır) Tolstoyun dini təsəvvürlərinin, daha dəqiq desək, “insanın ruhunun Allahın cüzvü” olması haqqında fikirlərinin tənqidi təhlilinə həsr edilmişdir. Bu fikirləri o, əvvəla, xristianlıqdan (Troisa) rişələnən bidət hadisəsi, hətta daha aşağı məqamda durub, Xaliqlə məxluqu eyniləşdirən materializmə meyilli panteizm kimi təfsir edir. Zərdabi yazır: Troisada “... tək bir Allah simasında üç müxtəlif Allah qəbul edilir. Sizin məfhumunuza görə isə bir neçə milyon Allah qəbul edilir, yəni hər bir insan özözlüyündə bir Allahdır...”. Etiqad və bilik

arasındakı fərqi izah edərək Tolstoyun dini təliminin qüsurunu onun rasional xarakterində görüb, bir növ mistiklərin görüşlərindən fərqləndirir. Hətta inciyə biləcəyindən çəkinmədən sərt şəkildə "... sadə dildə deyəcək olsaq, Siz İsa peyğəmbəri taxtından salıb, özünüz onun yerini tutursunuz" deyə bir növ Tolstoyu peyğəmbərlik iddiasında günahlandırır. Halbuki Zərdabidən üç il sonra Əli bəy Hüseynzadə "Tolstoyluq nədir?" (1906) məqaləsində Tolstoyun "nə peyğəmbərlik, nə də kitab sahibi olmaq iddiasında" olmadığını qeyd edib, yalnız ziddiyyətli bir məzhəb ortaya atdığından danışırdı [6].

Heydər Hüseynov isə məktubun yuxarıdakı parçasına istinadla, Zərdabinin L.N.Tolstoyun dini-fəlsəfi görüşləri əleyhinə ateizm mövqeyindən çıxış etmədiyi və onun dünyagörüşünün teoloji qalıqdan xali olmadığı nəticəsinə gəlir, onun mövqeyini "konkret tarixi yanaşma" kimi dəyərləndirir. Lakin məktubun tam mətnini oxuyanda görürsən ki, burada nəinki ateizmi xatırlamağın yeri var, heç "teoloji qalıq"dan danışmağa da dəyməz, çünki Zərdabi qarşımızda bir islam ilahiyyatçısı, hətta Tolstoyu islama təşviq etməyə çalışan fəal missioner obrazında canlanır.

Burada o, Tolstoyla Məhəmməd peyğəmbəri, onların dini görüşlərini müqayisə edib, peyğəmbərə üstünlük verir. Tolstoyun etiqadının ağıla əsaslandığı üçün ziddiyyətli olduğunu, bu səbəbdən onun iman gətirdiyi Allahla rabitəsini özü belə izah etməkdə çətinlik çəkdiyini vurğulayır. Peyğəmbər isə "Allahın fəzilətini o qədər aydın və doğru təsvir edir ki, ağıllar buna heyran qalır…" və insanlar kor-koranə onun ardınca gedirlər. Zərdabi islam dininin cahanşümul əhəmiyyətini qeyd edir, "dünyada bütün elmlər və dinlər Quranın ehkamı qarşısında dənizdə bir damcı timsalındadır" deyə islam dinini bütün dinlərdən, Quranın müqəddəs kitablardan — Bibliya və İncildən üstünlüyünü əsaslandırmağa çalışır. İslamın "Allahdan başqa Allah yoxdur və Məhəmməd onun qulu, peyğəmbəri və rəsuludur" kəlamında ifadə olunmuş din rəmzinin mahiyyətini izah etdikdən sonra fikirlərinə yekun vuraraq yazır: "...1300 ildən artıq bir vaxt keçməsinə rəğmən Əl-Quran toxunulmaz qalmışdır, həmçinin heç kəs özünü peyğəmbər adlandırmağa cürət etməmişdir. İndi deyə bilərik: "Siz, dünya alimləri Məhəmməd peyğəmbərə inanmırsınızsa, Əl-Qurana bərabər bir kitab yazın ki, Sizin etiqadınıza heç kəs etiraz edə bilməsin, və Sizin kitabınız özündə dövrün bütün insanlarının ehtiyaclarını ehtiva etsin, belə olarsa həmin insana hamıdan əvvəl mən inanaram..." Yeri gəlmişkən, islamın ilk əsrlərindən başlayaraq Qurana bənzər bir surə, hətta kiçik bir ayə belə yaratmağın mümkünsüzlüyü barədə fikir (Quran, 2, 22; 17, 87-88) Quranın Allahın həqiqi və yeganə sözü, əbədi möcüzə olması, Məhəmmədin həqiqi peyğəmbərliyinin sübutu kimi əsas dəlillərdən sayılırdı [11; 23, 404]. Zərdabinin fikrincə, "islama tapınmayanlar onun və peyğəmbərinin təlimini bilməyənlərdir, Allah haqqında mühüm anlayışa düşüncəsiz yanaşanlardır. "Bilmək üçün isə peyğəmbəri tanımaq və onun təliminə nüfuz etmək və can yandırmaq lazımdır: Quran təlimini tərcümələrdən anlamaq mümkün deyil, ərəb dilini öz doğma dilin kimi bilmək tələb olunur". Lakin bu yerdə, bəlkə də, islamı və ərəb dilini gözəl bilən həmyerlisi, xristianlığı qəbul etmiş Mirzə Kazımbəyi xatırlayıb, əlavə edir: "Quranın tələblərini yalnız o insan anlaya bilər ki, peyğəmbərə inansın, əsas mətləb də bundadır, çünki ixtilaf inamsızlıqdan yaranır".

Zərdabi tənqidinin sərtliyinin, ifadələrinin, necə deyərlər, "nəzakətli təhqiramiz"liyinin (məsələn, dünyanın ən dahi

insanlarından biri olan Tolstoya elm və etiqad arasındakı fərqi sadə şəkildə izah etməsi, üstəlik bunu elə Tolstoyun özünün və onun Sinoda yazdığı məktubunun nümunəsində etməsi) xoş gəlməyəcəyini yaxşı anlayırdı. Sanki adresatını bir qədər yumşaltmaq üçün məktubunu aşağıdakı sözlərlə bitirir: "Əgər Sizə həqarət etmiş olursam üzr istəyir və məni bağışlamağınızı xahiş edirəm, çünki həqiqət açıq söyləməyi tələb edir; həqiqətin dostu yoxdur. İndi Sizi özümə hakəm seçirəm. Bu iki mübəlliğdən *(Tolstoy və Məhəmməd peyğəmbər* – **A.H**.) hansı biri ilə razı olmalı olduğumu Siz özünüz kəsdiriniz. Mən, Allaha şükür, sağ və salamətəm. Sizin də uzun illər ömür sürmənizi arzu edirəm. Qoca əllərinizi uzadınız ki, bərk-bərk sıxım və onu hərarətlə öpüm".

Düzü, düşünmürəm ki, özü demişkən bu cür "həqarət"dən sonra Tolstoy "qoca əllərini" ona uzatmaq istəyəydi. Heydər Hüseynova gəlincə, ateist dövlətində xristianlığı tənqid edib islam dinini, Quranı mədh edən məktub haqqında məlumat verib, yığcam da olsa fikir bildirməsi arxivdə aşkar etdiyi nadir sənədi görməzdən gəlmək istəməyən əsl alim həvəsi və cəsarətinin ifadəsi idi. O, dövrə güzəştə gedərək, böyük məktubdan seçdiyi üç iqtibas, onlarda etdiyi ixtisarlar vasitəsilə Zərdabinin ümumilikdə dinə qarşı çıxması görüntüsü yaratmaqla bilərəkdən əsl mətləbi oxucudan gizlədir. Bununla belə, tədqiqatçıların diqqətini bu qiymətli tarixi sənədə yönəldərək, sanki onları müstəqil araşdırmağa sövq etmək istəyir.

Deyilənlərdən belə bir nəticəyə gəlmək olar: eyni məsələ barədə "düşünüb", bir-birilə söhbətləşən, bir-birini inkar edən mətnlər göstərir ki, həqiqətin özündən başqa dostu olmaması postulatı bir-birilə dostluq etməyən müxtəlif (Tolstoyun, Zərdabinin, H.Hüseynovun, tədqiqatçının, oxucunun və b.) həqiqətlərin (= təfsirlərin) mövcudluğunu aradan qaldırmır.

## 4. Mirzə Kazımbəyin "Bərəkallahı": Yozumlar

Artıq qeyd etdiyim kimi, eyni mətni qavramada dövrün spesifikasından, eyni zamanda tədqiqatçının dünyagörüşündən, düşüncə tərzinin özəlliklərindən doğan fərqlər labüddür. Bu cəhətdən H.Hüseynovun Mirzə Kazımbəyin M.F.Axundzadənin yaradıcılığına münasibətindən bəhs etdiyi fraqment və onun fərqli yozumları diqqətəlayiqdir. O yazır: "...professor M.Kazımbəy din və mövhumatın tənqidi məsələlərində Mirzə Fətəli Axundovun fəlsəfi əsərlərini çox yüksək qiymətləndirirdi. Axundovun məşhur fəlsəfi traktatını oxuyarkən, biz onun Kəmalüddövlənin dili ilə bütün dinlərin uydurulduğunu, elmin dinə zidd olduğunu, alimin dindar olmasının qeyri-mümkünlüyünü qətiyyətlə söylədiyi yerdə professor M.Kazımbəyin kitabın kənarında azərbaycanca etdiyi qeydi görürük: "Bərəkallah, Kəmalüddövlə", yəni "Əhsən Kəmalüddövlə"" [20, 146-147]. Qeyd edim ki, "Kəmalüddövlə məktubları"nın fars dilindəki əlyazmasındakı "Bərəkallah"ın qarşılığı Azərbaycan dilində "Afərin sənə", rusca "Bravo" kimi verilir.

Maraqlıdır ki, Makovelski kitabın ikinci, 1958-ci il nəşrində redaktor adından yazdığı müqəddimədə H.Hüseynovun bəzi digər "köhnəlmiş" fikirlərilə bahəm, yuxarıda gətirdiyimiz fikrinə də irad bildirir. Mirzə Kazımbəyi "sosial-siyasi baxışlarına görə mühafizəkar və din tərəfdarı" adlandırıb, bunu şərqşünas alimin "Xristos işığını qaranlıqda azmış oxucular arasında yaymağa yardımçı olmaq" məqsədilə pravoslav ibadət kitablarını və İncili təmənnasız olaraq tatar dilinə çevirmək arzusunu ifadə etdiyi bir iqtibasla əsaslandırır. Göstərir

ki, Mirzə Kazımbəyin Kəmalüddövlənin bütün dinləri puç və əfsanə hesab etdiyi yerdə etdiyi kiçik qeyd ("Bərəkallah, Kəmalüddövlə") tamamilə başqa məna daşıyır. O, sözünə davam edərək yazır: "Bu "bravo"nun haradan götürüldüyünü və nə demək olduğunu nəzərə almaq lazımdır. Məsələ burasındadır ki, M.F.Axundovun fəlsəfi traktatının "İran şahzadəsi Cəlalüddövlənin cavabı" adlandırılan sonuncu hissəsində bu mürtəce iranlı Kəmalüddövlənin ideyalarında sərsəm sayıqlamaları görür ("Əfsus, əfsus Kəmalüddövlə!... Sənin artıq beynin xarab olub?"). Həmin Cəlalüddövlə Kəmalüddövlənin baxışlarına istehza edərək buna kinayəli bir "Bərəkallah" əlavə edir ("Bərəkallah, Kəmalüddövlə, bərəkallah, Babür şahin nəvəsi", rus dilində tərcüməsində səh. 144. "Bərəkallah, Kəmalüddövlə! Mən bilmirdim ki, sən belə filosofsanmış", səh. 146). M.Kazımbəy əlyazmanın kənarında həmin bu kinayəli "Bərəkallah"ı yalnız təkrar edir və beləliklə, Cəlalüddövlə ilə birlikdə M.F.Axundovun bu fikrinə rişxənd edir" [20, 7-8].

Makovelskinin mülahizəsi sanki məntiqli görünür. Amma doğrudurmu?! Bu barədə bir qədər düşünmək lazım gəlir.

Əlbəttə, orası doğrudur ki, Mirzə Kazımbəy H.Hüseynovun dediyi kimi, "bütün dinlərin uydurulduğunu, elmin dinə zidd olduğunu, alimin dindar olmasının qeyri-mümkünlüyü" mülahizəsi ilə razılaşa bilməzdi, çünki özü iman, etiqad sahibi olan alimlərdən olub, xristianlığın ən böyük təəssübkeşlərindən idi (hər halda əsərlərindən bu fikir hasil olur). Digər tərəfdən, onun mövhumatın demirəm, amma ümumiyyətlə dinin tənqidçisi kimi təqdim edilməsi də doğru görünmür. Çünki o, islam dini, onun tarixi, təlimi, ehkamları haqqında çoxsaylı dəyərli elmi araşdırmaların müəllifi olmasına rəğmən, islam dininin tənqidçisi idi, xristianlığın yox. Üstəlik H.Hüseynov Mirzə Kazımbəyin həyatını təsvir etdiyi hissədə belə onun din dəyişib, xristianlığı qəbul etməsi faktını bir kəlmə ilə də yad etmir, onun ingilis missionerləri ilə münasibətini isə sadəcə onlara Şərq dillərini öyrətməsi, müəllimliyi barədə məlumata müncər edir. (Halbuki Mirzə Kazımbəyin kitabda yer alan portretində boğazından asdığı xaç aydın görünür). Bu mühüm fakt barədə susmasının səbəbi, mənim düşüncəmə görə, təkcə görkəmli şərqşünasın dindarlığını qabartmaq istəməməsi ilə deyil, eyni zamanda Azərbaycanda hər nə qədər ateizm ideologiyası hökmfərma idisə də, xalqın qəlbindəki islama gizli rəğbət və hörmətin nəzərə alınması ilə bağlı idi.

Bütün bunlara baxmayaq, rişxənd etmək, Mirzə Kazımbəyin ağlının ucundan da keçmirdi. Əvvəla ona görə ki, işinə ciddi yanaşırdı. Əgər Cəlalüddövlənin leksikonundan istifadə etmək istəsəydi, əlyazmada "bəyənmədiyi" yerin kənarında "Əhsən sənə" yox, "əfsus sənə", (Əfsus, əfsus səndən ey Kəmalüddövlə, Ali-kürəkənin yadigarı"), "Heyf sənə, heyf", yaxud "cızığından çıxma," sözlərini qeyd edərdi. Hər halda niyyətini sonradan yozmağa ehtiyac qalmazdı.

İkincisi, məlum olduğu kimi, kitabı mütaliə istiqaməti başdan axıra doğrudur, tərsinə deyil. Olur ki, oxucu əsəri oxuduqca qarşısına çıxan və diqqətini cəlb edən maraqlı fikirlərin kənarında dərhal qələmlə qeydlər edir. Mirzə Fətəlinin traktatında Cəlalüddövlənin məktubu Kəmalüddövlənin üç məktubundan sonra gəlir. Odur ki, Mirzə Kazımbəyin əsərin sonuna çatanda, Cəlalüddövlənin "bərəkallahı"nı görüb, Cəlalüddövlə ilə birlikdə Axundzadə-Kəmalüddövləyə gülmək xatirinə, əlyazmanın əvvəlinə qayıdıb kənarında "Bərəkallah, Kəmalüddövlə" deyə yazması heç ağlabatan görünmür.

Üçüncüsü, bu qeydin tarixçəsi də

Makovelskinin yozumunun doğru olmadığını sübut edir. Mirzə Kazımbəy Londona elmi ezamiyyətə gedərkən yolüstü Fransada, İran səfirliyində, İran səfiri Mirzə Yusif xanın mənzilində qonaq qalmışdı. Mirzə Yusif xan bu barədə dostu M.F.Axundzadəyə yazırdı: "Cənab Mirzə Kazımbəy Peterburqdan Parisə gəlmişdi. Sizi onunla qiyabi tanış etdim. Əlifbanızı ona verdim, apardı və vəd etdi ki, çox yaxşı bir məqalə yazacaq. Səfarətxanada mənzil etdiyi bir gecə və gündüz ərzində "Kəmalüddövlə"ni oxudu və çox bəyəndi *(kursiv* — **A.H**.). Lakin işin aqibətini mülahizə nöqteyi-nəzərindən bəzi dəyişikliklər aparmağı lazım bildi ki, əgər sizin icazənizlə dəyişikliklər icra olunarsa, sözsüz çap etmək olar və artıq bir şəxsin gileyinə belə yer qalmaz. Onun nüsxəsini də sizə göndərəcəyəm ki, görəsiniz" [s. 286]. Burada söhbət əsərin əlyazmasının məhz həmin nüsxəsindən gedir. Göründüyü kimi, Mirzə Yusif xan Mirzə Kazımbəyin traktatı açıq-aydın "çox bəyəndiyini" söyləyir. Kazımbəyin "işin aqibətini mülahizə" ilə təklif etdiyi "bəzi dəyişikliklərin" arasında, yəqin ki, bütün dinləri puç və əfsanə hesab edilməsi haqqında fikir də var idi. Belə dəyişikliklərə isə Mirzə Fətəli heç vaxt razı olmamışdı. Mirzə Kazımbəyin "Bərəkəllahını" isə əsərinə verilən yüksək dəyər kimi qiymətləndirib əbədiləşdirmişdir. Belə ki, "Kəmalüddövlə məktubları"nın mövcud əlyazmalarından birini məhz bu sözlərlə başlayır: "Məşhur fazil, Şərq və Qərb dillərinin alimi və çoxlu faydalı əsərlərin müəllifi olan mərhum Mirzə Kazımbəy miladi 1870-ci ildə Kəmalüddövlə məktublarını dostlarının birinin yanında əvvəldən axıra qədər oxuyub və həmin nüsxənin bir səhifəsində öz xətti ilə bu sözləri yazmışdır: Bərəkallah Kəmalüddövlə, bərəkallah Kəmalüddövlə!".

Daha bir, bu dəfə psixoloji məqama diqqət yetirmək istərdim. İnsanlar bəzən öz düşüncələrinə, hətta əqidələrinə zidd fikirlərdə, hərəkətlərdə belə böyük cəsarət, yenilik, hətta həqiqət gördükləri zaman rişxəndlə, kinayə ilə deyil, heyrətlə və alqışla ürəkdən "əhsən", "bravo" deyirlər. Belə nəticəyə gələ bilərik ki, Heydər Hüseynov hər halda Mirzə Kazımbəyin "Bərəkallah"ının Mirzə Fətəlinin əsərinə verilən müsbət rəy, tərif olduğunu anlamış və bu mənada onu müəllimi A.O.Makovelskidən daha doğru təfsir etmişdir.

## Nəticə

Akademik Heydər Hüseynovun "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" (1949) monoqrafiyasını bu gün də oxuyarkən, onun vətənimizin Əbülhəsən Bəhmənyar, Nizami Gəncəvi, Mahmud Şəbüstəri, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, ayrıca fəsillərdə araşdırdığı Abbasqulu ağa Bakıxanov, Mirzə Şəfi Vazeh, Mirzə Kazımbəy, Mirzə Fətəli Axundzadə, Həsənbəy Zərdabi kimi böyük dühalarına böyük sevgi və rəğbətini, onlar üçün duyduğu fəxr və qürur hisslərini hiss etməmək mümkün deyildir. Bu, bir azərbaycanlı filosof alimin milli qüruru idi. Bu qürur boş yerdə yaranmamışdı: mütəfəkkirlərin zəngin irsinin tədqiqinə əsaslanır, həm də onlar haqqında arxivlərdə yeni aşkar edilən və ya aşkar edilib üzə çıxarılmayan çoxlu ilkin mənbələrin təsirindən doğmuşdu. Bu sənəd-materiallar (mətnlər) fikir adamlarımızın ictimai, siyasi, dini və fəlsəfi dünyagörüşünü aşkar etməyə kömək edən qiymətli mənbələrdir, lakin sovet dövrünün, xüsusilə onun ən qaranlıq Stalin dönəminin siyasi və ideoloji gerçəkliyinə qətiyyən uyğun gəlmirdi. Elə Füzulinin "Mətləül-etiqad"ı, H.Zərdabinin Tolstoya yazdığı, islamı bütün dinlərdən, Quranı bütün müqəddəs kitablardan üstünlüyünü əsaslandırmağa çalışdığı məktubu, dinindən dönən

Mirzə Kazımbəyin Şeyx Şamilə, müridizmə, Babiliyə münasibəti, A.Bakıxanovun həyatı və əsərləri və i.a. barədə sənədləri oxucuya çatdırmağın özü riskə bağlı idi. Amma o da məlumdur ki, biləndə gizlətmək olmur, bildiyinlə bölüşmək istəyi qorxunu üstələyir.

Vəziyyətdən iki yolla çıxmaq olardı: həmin materiallar əsasında ya fikir tariximizdəki "mühafizəkarlıq", ümumiyyətlə, "zəif yerlər" gərək ya amansız "bolşevik" tənqidinə tutulaydı, bu halda Azərbaycan fəlsəfəsiz qalmaq təhlükəsi ilə üzləşə bilərdi, ya da mənbələrin seçim və təqdimatının texniki yollarını tapmaq lazım idi, başqa sözlə, metodoloji çeviklik tələb olunurdu. H.Hüseynov bu ikinci yolla getdi.

Əvvəla, "kiçik şər" haqqında rəsmi qəbul olunmuş konsepsiyasını əlində bayraq etdi, çünki bu, Çar Rusiyasını müəyyən qədər ifşa etməyə imkan verirdi (nə biləydi ki, məhz onun əsəri bu konsepsiyanın ləğvinə səbəb olacaqdır). İdeoloji fon (rus xalqının tarixi xidmətləri, sovet ideoloji elitasının nümayəndələrindən iqtibaslar və s.) isə ona bir növ fikirlərində nisbi sərbəstliyə zəmanət verirdi. Maraqlıdır ki, o, Azərbaycan mütəfəkkirləri haqqında söylədiyi "marksist-leninçi" tənqidini belə emosiyanın qarışmadığı "quruluğu", şüarçı neytrallığı ilə bir növ yumşaldır. Digər tərəfdən, alim araşdırdığı ədəbiyyat və mənbələrdən ideoloji baxımdan daha əlverişli mətnləri seçir, onları "yeganə düzgün" marksist ideologiyası və metodologiyasının tələblərinə uyğunlaşdırmağa, bunlarda materializm meyli, dialektika ünsürləri və i.a. tapmağa çalışır, bəzən gətirdiyi iqtibaslarda mütəfəkkirlərin obrazına sovet reallığının gözündə xələl gətirə biləcək hissələri ixtisara salaraq kontekstdən ayırır, bəzən faktları, fikirləri şərhsiz-təhlilsiz sadəcə qeyd etməklə (yəni "bunu mən demirəm, onun fikridir") kifayətlənir, hətta təfsirlərində şüurlu yanlışlığa da yol verir. Onun böyük fikir xəzinəsindən seçib istifadə etdiyi mətnlərlə öz təfsirlərinin bəzən münaqişəyə girməsinin əsas səbəbi məhz dövrə etdiyi bu güzəştlərdir. Dövrün bu gün anlaşılmazlıqla qarşılanan bu izləri mətnlərdə aşkar verilməyib, onları dərin tədqiqat prosesində hələ aşkara çıxarmaq lazımdır.

Düşüncə tarixini araşdıran tədqiqatçının qarşısında duran əsas vəzifələrdən biri mədəni-tarixi irsdə dövrün ruhunu intertekstual aspektlərdə çağdaş oxuculara anlatmağa, zamanlar arasındakı tarixi məsafə baryerini dəf edib yaradıcı və şərhçini, müəllif və oxucunu bir-birinə yadlaşdıran anlaşılmazlıq səddini aradan götürməyə, onlar arasında mənəvi körpü yaratmağa nail olmaqdır. Bütün bunlar isə öz növbəsində hermenevtikanın vacibliyini və labüdlüyünü şərtləndirir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

**Azərbaycan dilində:**

1. *Mirzə Fətəli Axundov.* Əsərləri. III cild. Bakı: Elm, 1988, - 388 s.
2. *Hacıyeva A.Ə.* Akademik Heydər Hüseynov. Bakı: Elm, 2015, - 240 s.
3. *Hüseynov H.* XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən. (Redaktor Q.Əzizxanlı). Bakı: "Zəkioğlu" nəşr., 2006, - 544 s.
4. *Hüseynov H.* Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən. (Redaktor Y.Rüstəmov). Bakı: Şərq-Qərb, 2007, - 400 s.
5. *Hüseynov H.* Ədəbiyyatımız xalqımızın iftixarıdır. // H.Hüseynov. Ədəbi qeydlər. Bakı: Azərnəşr, 1945, s. 3-20.
6. *Hüseynzadə Ə.* Tolstoyluq nədir // "Füyuzat", 1906, №1, 2.
7. *Füzuli M.* Mətləül-etiqad //Məhəmməd Füzuli. Əsərləri. Altı clddə, V cild. Bakı: Şərq-Qərb, 2005.
8. *Makovelski A.O.* H.Hüseynovun "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" kitabı haqqında. // "İnqilab və mədəniyyət" jurnalı, 1949, №11, s. 152-164.
9. *Məmmədov A.* Heydər Hüseynov mübahisəsinə davam. // "525-ci qəzet", 19 iyun 2009-cu il.
10. *Seyidov İ.* Akademik H.Hüseynovun həyatının son ili haqqında. / Sabir Əsədov. Heydər Hüseynov. Bakı: "Azərbaycan" nəşriyyatı. 1998.
11. *Qurani-Kərim* / Tərcümə edənlər: Z.Bünyadov, V.Məmmədəliyev. Bakı: Azərnəşr, 1991.

**Türk dilində:**

12. Türkce Kuram meallari. Hûd Suresi 7. Ayet. - https://www.kuranmeali.com/AyetKarsilastirma.php?sure=11&ayet=7 (19.04.2018)

**Rus dilində:**

13. *Адамчик В.В.* Словарь символов и знаков. — М.: АСТ; Мн.: Харвест, 2006, - 240 с.
14. *Багиров М.Д.* К вопросу о характере движения мюридизма и Шамиля // Журнал "Большевик", 1950, № 13, июль.
15. *Бахтин М.М.* К методологии гуманитарных наук. / М.М.Бахтин. Эстетика словесного творчества. Изд. 2-е. М.: Искусство, 1986, с.381-393.
16. *Бахтин М.М.* Проблема текста в лингвистике, филологии и других гуманитарных науках. Опыт философского анализа. - http://www.infoliolib.info/philol/bahtin/probltext.html (15.12.2022)
17. Брихадараньяка упанишада. - https://www.advayta.org/binaries/file/news/f_336.pdf (22.07.2019) 5:5,1.
18. *Гусейнов Г.* О философском трактате Физули "Матлаул-этигад" // Статьи по истории развития философской и общественной мысли в Азербайджане. Баку, Изд.-во АН Азербайджанской ССР, 1948, с. 51-60.
19. *Гусейнов Г.* Из истории общественной и философской мысли Азербайджана XIX века. Баку, 1949.

20. *Гусейнов Г.* Из истории общественной и философской мысли в Азербайджане XIX века. Издание 2-е, Баку: АГИ, 1958.

21. *Маковельский А.О.* Древнегреческие атомисты. Баку.: Издательство АН Азербайджанской ССР, 1946, - 401 с.

22. Против низкопоклонства перед иностранщиной в области древней истории. // “Вестник древней истории”, 1948, №1 (23). М. - Л., Изд-во АН СССР. с. 3-11.

**Fransız dilində:**

23. Mirza Alexander Kazem-Beg. Observations sur le Chapitre inconnu du Coran, publié et traduit par M. Garcin de Tassy. Paris, Journal Asiatique, série 4, tome 2, 1843, 373 – 429.

**Arzu Hajiyeva**

## “TRACES” OF TIME IN HEYDAR HUSEYNOV’S MONOGRAPH ON AZERBAIJANI PHILOSOPHY: TEXTS AND INTERPRETATIONS

### Abstract

The famous fundamental monograph named "From the history of social and philosophical thought of Azerbaijan in the 19th century" (1949) of the of the outstanding Azerbaijani philosopher, academician Heydar Huseynov entered the history of our science as a fateful epoch-making work. The root of the strange, tragic fate of this first book on national philosophy in the post-Soviet space was the inadmissibility of the national idea even under ideological veils in the totalitarian society where it was created.

Meanwhile, misunderstanding and ignoring the specifics of that era sometimes leads to a very subjective, one-sidedly critical attitude towards the work nowadays. In order to overcome this alienation caused by temporal separation, in the article, for the first time, the fundamental research of H. Huseynov is considered from a new angle of the relationship between intertextuality and hermeneutics.

The criteria for selecting texts, quotations for a work, the features of their use, the content of their interpretations and the factors influencing it, the reasons for the dialogue and conflict of these interpretations with the texts of other authors are analyzed in the context of identifying the “traces” of time petrified in the texts. According to the author, the identification and disclosure of the "traces" imprinted in the texts that left them, i.e., on the one hand, the spirit of the time, on the other, the main ideas and intentions, the secret thoughts of the creator determines the importance and inevitability of hermeneutics for understanding the heritage of the past.

**Keywords:** history of social thought in Azerbaijan, Heydar Huseynov, Azerbaijani philosophy, “traces” of time, text, interpretation, intertextuality, hermeneutics, truth

**Арзу Гаджиева**

# "СЛЕДЫ" ВРЕМЕНИ В МОНОГРАФИИ ГЕЙДАРА ГУСЕЙНОВА ОБ АЗЕРБАЙДЖАНСКОЙ ФИЛОСОФИИ: ТЕКСТЫ И ИНТЕРПРЕТАЦИИ

## Резюме

Знаменитая фундаментальная монография выдающегося Азербайджанского философа, академика Гейдара Гусейнова "Из истории общественной и философской мысли Азербайджана XIX века" (1949) вошла в историю нашей науки как судьбоносное эпохальное произведение. Корень странной, трагической судьбы этой первой книги, посвященной национальной философии на постсоветском пространстве, заключался в недопустимости национальной идеи даже под идеологическими покровами в тоталитарном обществе, где она создавалась.

Между тем, непонимание и игнорирование специфики той эпохи иногда приводит к весьма субъективному, однобоко-критическому отношению к произведению и в наше время. В целях преодоления этого отчуждения, вызванного временным отстоянием, в статье фундаментальное исследование Г. Гусейнова впервые рассматривается под новом углом зрения взаимосвязи интертекстуальности с герменевтикой.

Критерии отбора текстов, цитат для произведения, особенности их использования, содержание их интерпретаций и факторы, влияющие на него, причины диалога и конфликта этих интерпретаций с текстами других авторов анализируются в контексте выявления окаменевших в текстах "следов" времени. По мнению автора, выявление и раскрытие за отпечатанными в текстах "следами", оставивших их, т.е., с одной стороны, духа времени, с другой, основных идей и интенций, тайных мыслей творца обуславливает важность и неминуемость герменевтики для понимания наследия прошлого.

**Ключевые слова:** истории общественной мысли Азербайджана, Гейдар Гусейнов, азербайджанская философия, "следы" времени, текст, интерпретация, интертекстуальность, герменевтика, истина

# "CƏMİYYƏT-AİLƏ-TƏHSİL-KİV" SİSTEMİNİN UŞAQ/YENİYETMƏ CİNAYƏTKARLIĞINA TƏSİRİ VƏ ROLU

**Yaqut ƏLİYEVA**
*Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin Sosiologiya kafedrasının dosenti, sosiologiya üzrə fəlsəfə doktoru*
*Bakı, Azərbaycan*

*E-mail: yagut.aliyeva@gmail.com*

*ORCID: 0000-0003-2051-8416*

**Xülasə.** Tədqiqat işində müasir dövrdə Azərbaycanda uşaq/yeniyetmə cinayətkarlığının vəziyyəti, səbəbləri və onların hüquqazidd davranışlarının sosioloji, sosial-psixoloji və hüquqi aspektləri təhlil edilir. Cəmiyyətin transformasiyası şəraitində, sosial və təbii bərabərsizlik, qloballaşma prosesində yaranan yeni norma və dəyərlər, müasir mədəniyyət, fərqli submədəniyyətlər bəzi yetkinlik yaşına çatmayan uşaqlar arasında asosial və hüquqazidd davranışın yaranmasına gətirib çıxarır. Həmçinin, yetkinlik yaşına çatmayan nəzarətdənkənar uşaqların problemləri, onların sosiallaşması, cinayətkar qruplara meyilliliyi və bunun səbəbləri, həmin uşaqlara qarşı kobud və sərt davranışlar, törədilən cinayətlər və s. kimi məsələlərin müqayisəli-sistemli təhlili aparılır.

**Açar sözlər:** uşaq/yeniyetmə cinayətkarlığı, cəmiyyət, ailə, təhsil, KİV, nəzarətdənkənar (baxımsız, sahibsiz) uşaqlar, sosial və təbii bərabərsizlik, sosial yetimlik

## Giriş

Uşaqlar hər bir millətin gələcəyi olaraq cəmiyyətin inkişaf perspektivlərini özündə əks etdirir. Bəşəriyyətin gələcəyi müəyyən dərəcədə onlardan asılıdır. Belə ki, bugünkü uşaqlar gələcəkdə cəmiyyəti maraqlandıran yeni ixtiralara imza atmalı və sosial mühitin proqressiv dəyişikliklərinə təkan verməlidirlər. Uşaqlara, yeniyetmələrə, gənclərə erkən yaşdan qayğı göstərmək, xüsusilə tərbiyə və təhsil sistemində optimal şəraitin yaradılmasına, həmçinin, cinayətkar davranışın profilaktikasına diqqət yetirmək lazımdır [12, 20-22; 13, 13-15; 5, 174; 17, 61-71].

Xalq hikmətində deyilir: "Uşaqlar həyatın çiçəkləridir". Çiçəyə ətraf mühit necə təsir edirsə, uşaqlara da cəmiyyətdə baş verən sosial dəyişikliklər və proseslər o dərəcədə öz təsirini göstərir. Uşaqlar demək olar ki, cəmiyyətin vəziyyətinin ölçü vahididir. Bu baxımdan hər bir ölkənin sosial-iqtisadi vəziyyətini müəyyən dərəcədə uşaq və yeniyetmə cinayətkarlığının göstəriciləri ilə də qiymətləndirmək olar.

Azərbaycan Respublikasında gənclərin 14-18 yaş dövrü yeniyetməlik dövrü hesab olunur. Həmin yaş dövrü fərdin bir sıra fizioloji, psixoloji və sosial xüsusiyyətləri ilə xarakterizə olunur ki, bu da onların sonrakı həyatına bu və ya digər dərəcədə öz təsirini göstərir. Yeniyetməlik dövründə insan onu əhatə edən sosial mühitin və cəmiyyətdə baş verən müxtəlif proseslərin təsirinə daha çox həssas olur. Məhz buna görə də yeniyetmənin sosiallaşması üçün optimal şəraitin təmin edilməsi zəruridir. Yeniyetmlərin bəziləri bu yaş dövründə cəmiyyətin mövcud norma və dəyərlərini təhrif edərək qeyri-münbit şəraitə cəlb edilərək hüquqazidd hərəkətlər edirlər.

Bir çox tədqiqatçılar yeniyetmələr arasında cinayətkar davranışın təzahürünü uşaqlıqdan yeniyetməliyə keçid dövrü ilə əlaqələndirirlər. Jan-Jak-Russo keçid yaş dövrünü "ikinci doğuluş" adlandırırdı. Uşaqlar bu keçid yaş dövründə daha kəskin qıcıqlanma, əsəbilik, narazılıq və s. hisslər keçirirlər. Bütün bu hisslər yeniyetmənin davranışında onu əhatə edən gerçəkliklərə qarşı özünəməxsus şəkildə büruzə verir. Keçid yaş dövründə uşaqlara xeyirxah münasibət göstərilməsi zəruridir. Yeniyetmə inadkarlıq etdiyi zaman ona qarşı bəzən sərt, bəzən laqeyd və s. münasibət göstərilməsi onun davranışında neqativ şəkildə öz əksni tapır. Cinayətkar davranışın əsasında emosiyalar və hisslər əsas yer tutur: onlar ya həyacanlanmalar, ya da psixi pozulmalar formasında təzahür edir. Hər halda cinayətin motivasiya elementləri şəxsiyyətin daxili xüsusiyyətləri ilə səciyyələnir və cəmiyyət üçün təhlükə doğurur [11, 19].

**Tədqiqatın metod və metodologiyası, nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın müxtəlif mərhələlərində elmi idrakın əsas metodlarından, o cümlədən induksiya, deduksiya, sistemli-müqayisəli təhlil və sintez metodlarından istifadə edilmişdir. Tədqiqat işi Azərbaycanda müəllif tərəfindən 2012-2015, 2016-2017, 2018-2022-ci illərdə aparılan və aparılması daha sonra da nəzərdə tutulan çoxpilləli tədqiqatın nəticələrinin təhlilinə əsaslanır. Tədqiqatın gedişində müxtəlif problemləri araşdırmaq məqsədilə sosioloji metodlardan - erkspert sorğusu, anket sorğusu, müsahibə, müşahidə, sənədlərin təhlili və s. istifadə edilmişdir.

Mövzu ilə bağlı ədəbiyyat, statistik materialların və sosioloji tədqiqatların nəticələrinin sistemli təhlili, əsaslı təkliflər konkret istiqamətlər üzrə fəaliyyət göstərən, uşaq/yeniyetmə cinayətkarlığı problemi ilə məşğul olan qurumların işi üçün faydalı ola bilər.

## Əsas hissə

Müasir cəmiyyətin qüsurları arasında uşaq/yeniyetmə cinayətkarlığı problemi xüsusi yer tutur. Müasir sosioloji elmin əsas vəzifəsi bu sosial problemi yaradan sosial determinantları və faktorlar kompleksini müəyyən etməkdir. Bununla yanaşı, psixologiyada olduğu kimi, kriminologiyada da uşaqların və yeniyetmələrin problemlərinə maraq xeyli artmışdır. Belə ki, alimlər asosial davranışın əsas səbəblərini mikromühitin qüsurları və çatışmazlığı ilə yanaşı, obyektiv və subyektiv amillər və s. ilə əlaqələndirirlər. Kriminoloji mənbələrdə çox vaxt "bilavasitə" və "vasitəli" səbəblər; "birinci", "ikinci" və hətta "üçüncü" qəbildən olan səbəblər haqqında müddəalara rast gəlmək olar. Qeyd etmək lazımdır ki, səbəblər öz nəticələrilə, yəni cinayətkarlıqla ikihalqalı "səbəbiyyət zənciri" təşkil edir. Əgər onun üstü ilə tərs (geri) istiqamətdə hərəkət edilsə, o zaman cinayətkarlıq öz növbəsində onu yaradan (şəraitin köməyi ilə) sosial hadisələrin nəticəsi kimi qiymətləndirilir. Kriminoloqların nöqteyi-nəzərinə görə, yalnız ən yaxın (bilavasitə) nəticənin səbəbi imkan verir ki, onu cinayətkarlığın "səbəbi" adlandırsınlar. Məhz belə cinayətin bilavasitə səbəbini subyektiv amil - fərdlərin, sosial icmaların psixologiyasındakı qüsurlar təşkil edir. Qalan "keçmiş səbəblər"in hazırkı səbəbləri vasitəlidir və bu, cinayətkarlığın səbəbi yox, onun səbəblərinin şəraiti kimi çıxış edir. Bir sıra kriminoloji-psixoloji tədqiqatların nəticələri belə bir faktı təsdiq edir ki, hüquqazidd davranışın yaranması və bilavasitə səbəbləri həmişə cinayət etmiş insanın şəxsiyyətindən asılı olur. Başqa sözlə, heç bir xarici səbəblər, əgər onlar insan fəaliyyətinin daxili determinantlarına çevrilməyiblərsə, hüquqazidd davranışın müəyyənedici səbəbləri ola bilməzlər [10; 11,17; 20, 67-77].

Nəzərə alsaq ki, hüquqazidd davranışın ən pik nöqtəsi yeniyetməlik dövrünə təsadüf edirsə, o zaman ən kriminogen qrupa 15-17 yaşlı yeniyetmələr aiddir. Yetkinlik yaşına çatmayanların cinayətkarlığı gənclərin ən kriminogen qrupu kimi təkcə Azərbaycanda deyil, bütün dünyada ictimai narahatlıq doğurur. Belə ki, Birləşmiş Millətlər Təşkilatının (BMT) məlumatına görə, gənclərin 30%-i hüquq zidd davranır, lakin 5%-i ciddi hüquq pozuntusuna yol verir. Statistik məlumatlar göstərir ki, qrup halında zorakılıq törədən həddi-büllüğa çatmayan gənclərin, həmçinin xüsusi amansızlıqla çinayət törədənlərin xüsusi çəkisi artır. Hazırda dünyada yetkinlik yaşına çatmayanların hər beşinci cinayəti zorakılıq xarakteri daşıyır, üstəlik onların yarısı qruplar halında törədilir [27; 31].

Azərbaycanda yeniyetmə cinayətkarlığı problemi Rusiya, Qərb və digər ölkələrdəki kimi o qədər də kəskin şəkildə müşahidə edilmir. Qeyd edək ki, Rusiya Federasiyası Dövlət Statistika Federal Xidmətinin rəsmi göstəricilərinə görə, hər 9-cu cinayət yeniyetmələr tərəfindən, yaxud onların iştirakı ilə törədilir. Belə ictimai xəstəliyi "müalicə" etmək zəruridir və elə müalicə etmək lazımdır ki, residiv (təkrar etmə) ehtimalı istisna edilsin [31].

Ekspertlərin fikrincə, Azərbaycanda 2016-cı ilin son 9 ayında 272 cinayətin yetkinlik yaşına çatmayanlar tərəfindən törədilməsi faktı aşkar edilib (2009-cu ilin analoji dövründə - 251 fakt), yəni əvvəlki illərə nisbətən baş verən cinayətlərdə cüzi artım müşahidə olunur. Bununla belə, bu cinayətlərin 60%-ni oğurluq və s. təşkil edir. Qalanları şəxsə qarşı (xuliqanlıq və bədənə xəsarət yetirmək) olan cinayətlərə aid edilir. 2016-cı ildə 20 cinayətin qızlar tərəfindən törədilməsi faktı aşkar edilib (2009-cu ildə - 24 cinayət faktı). Qeyd edək ki, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin həddi-büllüğa çatmayanlar arasında profilaktikanın təşkili şöbəsinin məlumatına

əsasən, Azərbaycanda uşaq/yeniyetmə cinayətlərinin səviyyəsi aşağıdır və ümumilikdə götürdükdə törədilmiş cinayətlərin 2,6%-ni təşkil edir [34].

Müxtəlif ölkələrin, həmçinin Azərbaycanın statistik göstəricilərinə görə, yetkinlik yaşına çatmayanlar arasında ən çox yayılmış cinayət növü oğurluqdur. Başqasının əmlakına sahib olmaq istəyi sosial bərabərsizlik problemi prizmasından izah edilə bilər. Həddi-büllüğa çatmayanlar özlərini cəmiyyətin sosial strukturunun iyerarxiyasının aşağı pilləsində olmasını daha həssas və ağır keçirir ki, bu da bəzən maddi rifahın daha asan yolla əldə edilməsi məqsədilə hüquqazidd hərəkətlərin törədilməsinə təkan verir.

Yetkinlik yaşına çatmayanların hüquqpozma motivasiyası və cinayətləri böyüklərdən fərqli olaraq daha özünəməxsusdur. Bu, müəyyən dərəcədə gənclərin psixikasının daha həssas və inadkar olması ilə səciyyələnir. Ona görə də, təsadüfi deyil ki, yetkinlik yaşına çatmayanların törətdikləri cinayətlərin strukturunda oğurluq və bu kimi hallar çoxluq təşkil edir.

Bəzi hallarda cinayət əməllərinə hazırlaşarkən konkret olaraq yeniyetmənin psixofizioloji və psixoemosional xüsusiyyətlərinin və fiziki hazırlığının da rolu olur. Yaxşı fiziki hazırlıq yeniyetmələrdə özünəinamı artırır, başqasının üzərində öz gücünü yoxlamaq arzusunu yaradır. Beləcə də yalnız zorakılıqdan istifadə etməklə onlar öz məqsədinə çatmağa can atırlar. Bununla yanaşı, insan gənc yaşlarında kənar müdaxilələrə daha həssas olur və bəzən televiziyada, bədii filmlərdə və digər kütləvi informasiya vasitələrində gördüyü adamlara bənzəməyə can atır. Gənclər nə qədər tez-tez kütləvi mədəniyyət məhsullarını qəbul edirsə, onlarda personajların xüsusiyyətlərini mənimsəmə riski də bir o qədər güclü olur. Qərb mədəniyyəti də yeniyetmə cinayətkarlığının artmasına öz təsirini göstərir. Kütləvi mədəniyyət məhsulları içərisində eyni zamanda zorakılıq, kriminal və əxlaq qaydalarına zidd davranış səhnələrini də görmək olar.

Mətbuat, televiziya, kino kimi sosial institutlar faktiki olaraq əxlaq qaydalarına zidd və cinayətkar davranışı reklam edərək, cinayətin törədilməsi qaydalarını nümayiş etdirir və beləliklə, elə bir fikri təlqin edirlər ki, guya cinayətkarlıq özünütəsdiqin və münaqişələrin həllinin adi üsuludur.

Eləcə də videooyunlar sənayesi cinayətkarlığın təlqin edilməsində xüsusi yer tutur. Bu vidooyunlarda əksər halda insan, heyvan və s. üzərində virtual zorakılığın törədilməsi üçün şərait (və yaxud zərurət) var. Bununla belə, bəzi videooyunlarda zorakılıq prosesi ən xırda təfərrüatı ilə təsvir edilir və müvafiq səslə müşayiət olunur. Bir çox hallarda bu prosesin gedişi qətl törətmədən mümkün olmur.

Nəzərə alsaq ki, bu gün Azərbaycanda yetkinlik yaşına çatmayanların internetə daxil olmaq imkanı 80%-ə yaxındır, bu halda onların internet təhlükəsizliyini təmin etmək zəruridir. Azərbaycanda uşaq və yeniyetmələrin internet təhlükəsizliyini təmin etmək üçün artıq indidən internetə girişə dair internet-klublarda, məktəblərdə və evdə tövsiyə xarakterli addımlar atmaq çox vacibdir. Heç kimə sirr deyildir ki, informasiya texnologiyalarının inkişafının internet istifadəçilərinə müsbət təsirilə yanaşı, mənfi təsirləri də vardır. Tədqiqatlar göstrir ki, dünyada internet istifadəçilərinin 50%-i 8-15 yaşında olan uşaq və yeniyetmələrdir. Bununla belə, onların beşdə biri (1/5) cinayətkarların qurbanına çevrilir və ona görə də bu sahədə aparılan maarifləndirmə işlərini gücləndirmək olduqca zəruridir [34].

Bununla yanaşı, uşaqların internet asılılığı vətənpərvərlik, mənəviyyat, real-

lıq, canlı ünsiyyət və s. kimi məfhumları arxa plana keçirərək, onların ailədə və məktəbdə sosiallaşması, sosiuma adaptasiyası proseslərində problemlər yaradır. Ona görə də bu sahədəki ən mühüm vəzifələrdən biri maarifləndirmə işlərinin həm evdə, həm məktəbdə, həm də KİV vasitəsilə aparılmasıdır.

Eyni zamanda, uşaqlar və yeniyetmələr yeni nəsil mobil telefonlara xüsusi maraq göstərirlər. Uşaqlar internetdə daha çox məşhur insanların şəxsi həyatı ilə əlaqəli informasiyanı izləyir və kompüterlə olduğu kimi telefonu da tanışlıq, virtual ünsiyyət, videooyunlar, bir-birinə pornoqrafik materiallar və kompüter oyunlarının ötürülməsi və s. üçün istifadə edirlər. Ona görə də uşaqların və yeniyetmələrin evdə, məktəbdə, internet-klublarda və digər ictimai yerlərdə internetə girişini məhdudlaşdırmaq məqsədilə telefon və kompüterlər üçün filtr-proqramların yaradılması zəruridir.

Beləliklə, mətbuat və elektron KİV-lər, kinematoqrafiya, musiqi əksər hallarda yeniyetmələrin deviant və cinayətkar davranışının formalaşmasına kifayət qədər ciddi təsir göstərərə bilər. Profilaktika ölçülərini müəyyən etmək üçün yeniyetmənin cəmiyyətin kriminogen mühitə qoşulmasına meyilliliyini və səbəbini başa düşmək zəruridir. Potensial cinayətkarın əmələ gəlməsinə təsir edən hadisələrin üzə çıxarılması və təhlil edilməsi vacibdir, çünki bu halda hüquqazidd davranışın sosial aspektlərini açıqlamaq mümkün olar.

Qeyri-qanuni davranış fərdlərin və ya qrupların şüur və ya iradəsi, həmçinin şəxsi maraq, nifrət, aqressivlik motivləri ilə idarə olunan, cəmiyyətdə mövcud hüquq normalarını pozan və hüquqi nəticələrə səbəb olan ictimai təhlükəli davranışdır [4].

Hüquqazidd davranış – fərdlər və qrupların şüuraltısı, yaxud iradəsi, eləcə də şəxsi maraq, nifrət, aqressivlik motivləri ilə idarə olunan, cəmiyyətdə mövcud hüquq normalarını pozan və hüquqi nəticələrə gətirib çıxaran sosial təhlükəli davranışdır [8]. Göründüyü kimi, cinayətkarlar sosial normaları təhrif edirlər ki, bu da sonradan cəmiyyət üçün təhlükəli əməllərə cevrilir. Sosial norma müəyyən bir cəmiyyətdə tarixən inkişaf etmiş insanların, sosial qrupların, sosial təşkilatların fəaliyyətinin icazə verilən (və yaxud məcburi) davranışının sərhədini, ölçüsünü, intervalını müəyyən edir. Fiziki və bioloji proseslərin təbii normalarından fərqli olaraq, sosial normalar cəmiyyətin fəaliyyətinin obyektiv qanunlarının insanların şüurunda və hərəkətlərində adekvat və ya təhrif olunmuş şəkildə əks olunması nəticəsində formalaşır. Buna görə də onlar ya “təbii” olmaqla cəmiyyətin inkişaf qanunlarına uyğun gəlir, ya onlara kifayət qədər adekvatdır, ya da obyektiv qanunların təhrif olunmuş, məhdud, dini əks etdirməsi səbəbindən konflikt təşkil edir. Bu zaman “norma” anormal olur, normadan kənaraçıxmalar isə “normal” [33].

Yetkinlik yaşına çatmayanların cinayətkarlığının səviyyəsi cəmiyyət həyatının ciddi göstəricisidir və sosial institutların fəaliyyətinin səmərəsizliyindən xəbər verir. Bunun nəticəsində yeni problemlər yaranır və sosial mühitin mövcud problemləri daha da kəskinləşir.

Ailə sosial institut kimi cəmiyyət üçün ağrılı nəticələrlə səciyyələnən çoxsaylı uğursuzluqlara da malikdir. Məsələn, sosial yetimlik, sahibsizlik, baxımsızlıq, nəzarətsizlik, alkoqolizm, narkomaniya nəticədə deviant və delinkvent davranışlara gətirib çıxarır [12, 20-22; 13,13-15].

Hal-hazırda cəmiyyətdə deviant davranış probleminə yüksək maraq müşahidə olunur. Deviant davranış problemi deviant davranışın bütün növləri üçün birləşdirici konsepsiya kimi cəmiyyətin problemidir, onun həlli cəmiyyətin və dövlətin uğurlu mənəvi və əxlaqi inkişa-

fına kömək edir. Deviant davranış növlərindən biri kimi yeniyetmələrin bilavasitə cinayətkar davranışı problemlərinin müzakirəsinin sosial əhəmiyyəti indi xüsusilə aydın görünür: cinayətkar davranışın təzahür formalarında dəyişiklik baş verir, bu yaş qrupu arasında cinayətkarlıq artır, gənclər tərəfindən cinayət törətmə yaşı azalır, onlar tərəfindən törədilən ağır cinayətlərin sayı artır.

Gənc nəsil arasında delinkvent* davranışın yayılmasına şərait yaradan səbəblərin öyrənilməsi və aradan qaldırılması, riskli davranışın qarşısının alınması üçün yeni, zamana uyğun sosial texnologiyaların tətbiqi hazırda aktual zərurətə çevrilir. Delinkvent davranış uşaq və yeniyetmələrin hüquq normalarını pozan, lakin məhdud təhlükəyə görə cinayət məsuliyyətinə cəlb edilməyən və ya cinayət məsuliyyəti yaşına çatmadığına görə müəyyən bir stereotipə çevrilən qeyri-adi davranışıdır. Yetkinlik yaşına çatdıqda delinkvent avtomatik olaraq cinayətkar şəxsiyyətə çevrilir. Belə ki, A.İ. Dolgova belə qənaətə gəlib ki, yetkinlik yaşına çatmamış cinayət törədənlərin yalnız 10%-ə yaxını gələcəkdə özünü qanuni aparır [21, 9]. A.A.Taybakovun tədqiqat materiallarına görə, peşəkar cinayətkarların yarıdan çoxu (53%) ilk cinayətini 14-16 yaşlarında, 39%-i 17-18 yaşlarında törətmişdir [29, 86].

Что касается детей-сирот, то тут следует отметить следующее: согласно Закону Азербайджанской Республики "О социальной защите детей, потерявших родителей и лишенных родительской опеки" дети-сироты - это лица в возрасте до 18 лет, потерявшие обоих родителей [3]. С 2020-го года при Министерстве труда и социальной защиты населения (МТСЗН) Азербайджана функционирует Агентство социальных услуг. В Агентство со стороны Sputnik Азербайджан был направлен запрос, основным содержанием которого было получение достоверной информации об условиях, в которых проживают выпускники школ-интернатов в Азербайджане. По данным Агентства социальных услуг, с 2015 года 660 выпускников школ-интернатов получили квартиры [7]. В соответствии с законодательством осуществляется улучшение социально-бытовых условий выпускников школ-интернатов, потерявших своих родителей или оставшихся без их попечения.

С 2015 года в Абшеронском районе Азербайджана претворяется в

жизнь проект предприятия социального обслуживания "Дом выпускника". К 2022-му году в "Доме выпускника" Агентства социальных услуг выпускникам школ-интернатов предоставлено более 360 квартир. Это большая забота государства о тех, кто потерял родителей. Президент Азербайджана Ильхам Алиев уделяет особое внимание работе по обеспечению жильем осиротевших и лишенных родительской опеки детей, которые воспитываются в государственных детских учреждениях и покидают их по достижении 18-летнего возраста. Эта работа была начата по инициативе президента Фонда Гейдара Алиева, первого вице-президента Мехрибан Алиевой [7].

В нашей стране существует специфическая социальная прослойка – дети-сироты при живых родителях. Среди главных причин появления такой проблемы можно выделить следующие: неблагополучная морально-психологическая атмосфера в семье, тяжелое материальное положение родителей, рождение детей вне брака. Таким образом, сиротство начинает приобретать искусственный характер.

## 7. Виды насилия по отношению к детям

В социальной поддержке нуждаются также дети, по отношению к которым взрослые проявляют жестокость и агрессию. Жестокость по отношению к детям выражается в различных вариациях. Например, побои и насилие (физическая или брутальная жестокость); создание барьеров в получении образования, в общении с ровесниками, противодействие нормальному социальному функционированию и развитию ребенка (социальная жестокость); насмешки, угрозы, запугивания, буллинг, травля, безразличное пренебрежительное отношение, психологическая холодность, унижение, клевета, изоляция (морально-психологическая жестокость); абьюз (термин "абьюз" происходит от английского слова "abuse", что означает "плохо обращаться", "оскорблять"), надругательство, изнасилование (сексуальное насилие над ребенком). При работе с этой категорией детей профессиональный социальный работник должен создать такие условия, которые полностью и в достаточно короткий срок исключат вероятность жестокого и агрессивного отношения с ребенком. Для практического решения этой задачи используются следующие базовые направления социальной защиты детей, по отношению к которым была проявлена жестокость:

1) фиксация фактов жестокого обращения с ребенком;

2) ограждение ребенка от жестокости и насилия (при этом допускается изъятие ребенка из семьи, детского коллектива, класса);

3) предоставление ребенку надлежащей медицинской, психологический и юридической помощи;

4) рассмотрение и решение вопроса о надобности дальнейшего пребывания ребенка в той социальной среде, где он был подвергнут агрессивному и жестокому обращению.

Еще одна категория детей, которым необходима социальная поддержка и помощь со стороны общественных организаций и государства - дети с особенностями развития и специфическими потребностями. Эту прослойку общества составляют дети, капасити и потребности кото-

рых по объективным причинам отличаются от идентичных характеристик большинства детей в обществе [15]. Отметим, что в Азербайджане к 2022-му году насчитывается больше 62 тыс. несовершеннолетних граждан с ограниченными возможностями здоровья [8].

## 8. Принципы, на которые опираются социальные работники при работе с детьми

Профессиональная и качественная социальная работа с детьми обязывает специалистов опираться на ряд базовых принципов. Среди из этих принципов наиболее важными являются следующие:

1) На первом месте должны находиться права и интересы детей;

2) Решение социальных и личностных проблем детей должно быть максимально оперативным;

3) Решение социальных и личностных проблем детей должно осуществляться с позиции индивидуального подхода;

4) Независимо от того, какими личностными и социальными характеристиками обладают дети, интересы и права всех детей равны;

5) При разрешении социальных проблем ребенка необходимо придерживаться принципа непрерывности и последовательности;

6) Принцип гуманизма [13].

Специалист по социальной работе в своей деятельности широко использует все группы методов социальной работы, но основными являются социально - психологические и социально - педагогические методы. Наиболее распространенными социально-психологическими методами являются методы психодиагностики и психокоррекции. При помощи метода психодиагностики специалисты могут получить качественную информацию о проблеме клиента. К примеру, для диагностики ситуации развития ребенка, у которого наблюдается слабоумие, применяются такие методы работы, как наблюдение, беседа, метод экспертных оценок, биографический метод, тестирование, анкетирование. Исправления дефекта ребенка осуществляются при помощи методов психокоррекции. Наиболее популярными среди методов психокоррекции являются методы игротерапии и арттерапии.

Социально-педагогические методы можно дифференцировать следующим образом:

1) методы формирования сознания детей (рассказ, беседа, работа с книгой, иллюстрация, демонстрация и др.);

2) методы организации познавательной, практической деятельности (поручения, задания, упражнения, приучения). В практике социальной работы с умственно отсталыми людьми специалисты применяют метод моделирования воспитывающих ситуаций. Детям предлагается несколько вариантов выхода из конкретной ситуации. При этом для детей создаются такие условия, когда они становятся перед необходимостью выбирать определённое решение из нескольких возможных вариантов;

3) методы стимулирования мотивации и активности детей (поощрение, соревнование, наказание, порицание) [9].

## Заключение

1. Дети - это своеобразное "зеркало" семьи, характеристика изучаемой семейной ситуации. Я полагаю, что профессиональный социальный работник должен уметь быть в состоянии хронической готовности при оказании помощи детям и подросткам.

2. Если ребенок или подросток живет с родителями, то компетентная помощь, оказываемая детям специалистами в сфере социального дела, в итоге может благотворно отразиться и на общей морально-психологической атмосфере родительской семьи.

3. Если у ребенка или подростка нет родителей или опекунов, то социальная работа с этой категорией населения должна вестись более интенсивно с привлечением сотрудников органов опеки и попечительства.

4. Социальная работа с детьми и подростками тесно переплетается с основами социальной работы с семьями. Поэтому для плодотворной работы с этой возрастной когортой необходимо воспользоваться услугами специалистов в области социальной работы с различными категориями населения, профессионалов в сфере семьеведения, социологии семьи, гендерологии.

5. При претворении в жизнь практических мероприятий в сфере социальной работы с детьми и подростками специалист обязательно должен учитывать пол и особенности физического и психологического развития этих людей.

6. При осуществлении действенных шагов в области социальной работы с детьми желательно, чтобы отечественные специалисты воспользовались передовым опытом зарубежных коллег в этой сфере.

7. Социальный работник, оказывающий услуги детям и подросткам, должен обладать компетентными организаторскими и прогностическими способностями.

## СПИСОК ИСПОЛЬЗОВАННОЙ ЛИТЕРАТУРЫ:

1. Азербайджан и UNICEF договорились о сотрудничестве в сфере защиты детей в 2016-2017гг. /15.02.2023/ - http://interfax.az/view/672582

2. В Азербайджане создана первая “фостерная” семья. /15.02.2023/ -https://1news.az/news/20081117123354401-V-Azerbaidzhane-sozdana-pervaya-fosternaya-semya

3. Закон Азербайджанской Республики О социальной защите детей, потерявших родителей и лишенных родительской опеки. /24.03.2023/ https://base.spinform.ru/show_doc.fwx?rgn=2730

4. Зарубежный опыт социальной работы - УП - Корнюшина - 2004 - 84.pdf. /19.03.2023/- https://studfile.net/preview/3497424/page:9

5. Имплементация зарубежного опыта жизнеустройства детей-сирот и детей, оставшихся без попечения родителей, в отечественную социальную практику. /18.02.2023/- https://nauchkor.ru/uploads/documents/5b8878387966e1073081b290.pdf

6. Как адаптировать детей с улиц к нормальной жизни?. /19.03.2023/ - https://

az.sputniknews.ru/20210513/deti-besprizorniki-prijut-adaptacija-426947827.html

7. Как в Азербайджане решаются жилищные проблемы сирот. /29.03.2023/- https://az.sputniknews.ru/20220712/kak-v-azerbaydzhane-reshayutsya-zhilischnye-problemy-sirot-443912474.html

8. Как и кому будет назначаться инвалидность в Азербайджане? /27.03.2023/- https://az.sputniknews.ru/20220518/kak-i-komu-budet-naznachatsya-invalidnost-v-azerbaydzhane-442029609.html

9. Методы и формы социальной работы с детьми, имеющими отклонения в умственном развитии. /15.02.2023/ - https://findout.su/6x30270.html

10. Программы и технологии социальной работы с девиантными подростками в Голландии /20.02.2023/ - https://studfile.net/preview/9778635/page:38/

11. Службы помощи для несовершеннолетних с отклоняющимся поведением в Германии. /20.02.2023/ - https://studfile.net/preview/6321345/page:25/

12. Социальная работа в современном мире: взаимодействие науки, образования и практики: материалы VI Международ. науч.- практ. конф. / под ред. М.С. Жирова, О.А. Волковой, Е.И. Мозговой. - Белгород: ИД “Белгород” НИУ “БелГУ”, 2014. - 384 с.

13. Социальная работа с детьми. /22.02.2023/ - https://studfile.net/preview/9313571/page:5/

14. Социальная работа с несовершеннолетними правонарушителями и подростками “группы риска” в США. /22.02.2023/ https://studfile.net/preview/9778635/page:39/

15. Технологии социальной работы с детьми и подростками. /06.03.2023/ - https://studfile.net/preview/3096265/page:20/

**Rəna Məmmədova**

**AZƏRBAYCANDA VƏ XARİCDƏ UŞAQLARLA SOSİAL İŞİN XÜSUSİYYƏTLƏRİ**

**Xülasə**

Uşaqlar əhalinin ən həssas və yardıma ehtiyacı olan kateqoriyalarından biridir. Bu məqalənin əsas məqsədi Azərbaycanda və bəzi xarici ölkələrdə uşaqlarla sosial iş sahəsində vəziyyətlə elmi ictimaiyyəti tanış etməkdir.

*Orijinallıq.* Məqalədə ailənin xüsusi növü kimi çıxış edən foster ailə haqqında konkret informasiya təhlil edilib. Uşaq və yeniyetmələrlə sosial işin forma və metodları haqqında məzmunlu məlumat təqdim olunub.

*Elmi yenilik.* Uşaq və yeniyetmələrin müdafiəsi sahəsində xarici təcrübəyə dair ən son məlumatlar təqdim edilib. Xüsusilə Niderland, ABŞ, Almaniya və s. kimi ölkələrdə çətin tərbiyə olunan yetkinlik yaşına çatmayanlarla iş təcrübəsi öyrənilib.

*Praktik əhəmiyyəti.* Məqalədə təqdim olunan məlumatlar müxtəlif təlim kurslarında köməkçi material kimi istifadə edilə bilər. Məsələn, “Sosial işə giriş”, “Sosial xidmət siyasəti”, “Əhalinin müxtəlif qrupları ilə sosial iş” və s.

**Açar sözlər:** uşaqlar, gənc nəsil, foster ailə, bullinq, psixokorreksiya

**Rana Mammadova**

# FEATURES OF SOCIAL WORK WITH CHILDREN IN AZERBAIJAN AND ABROAD

## Abstract

Children are one of the most vulnerable and needy categories of the population. The main purpose of this article is to familiarize the scientific community with the situation in the field of social work with children in Azerbaijan and some foreign countries.

*Originality*. The article analyzes specific information about such a specific type of family as a foster family. Provided meaningful information about the forms and methods of social work with children and adolescents.

*Scientific novelty.* Presented the latest information on foreign experience in the field of protection of children and adolescents. In particular, the experience of working with difficult-to-educate minors in such countries as Holland, the USA, Germany, etc. has been studied.

*Practical significance.* The information presented in this article can be used as support material in various training courses. For example, "Introduction to social work", "Social service policy", "Social work with various groups of the population", etc.

**Keywords:** children, younger generation, foster family, bullying, psychocorrection

# AZƏRBAYCANDA YAŞLI ƏHALİ QRUPUNUN SOSİAL XİDMƏT ALMAQ EHTİYACLARINA BAXIŞ

**Eliza İSMAYILOVA,**
*Bakı Dövlət Universitetinin Sosial iş kafedrasının baş müəllimi, fəlsəfə üzrə fəlsəfə doktoru*
*Bakı, Azərbaycan*

*E-mail: eliza_ismayilova@yahoo.com*
*UOT 316*

**Xülasə.** Azərbaycanda qədim dövrdən günümüzədək ahıl, yaşlı insanlara qarşı xüsusi diqqət, qayğı və hörmət hissi olmuşdur. Bu, xalqımızın zəngin milli-mənəvi dəyərlər sistemində illərlə möhkəmlənmiş və nəsildən-nəslə ötürülmüşdür. Müstəqil Azərbaycan Respublikası xalqın mədəni və mənəvi irsini, insan hüquqlarının qorunmasını, insanmərkəzli humanist, mərhəmətli və ədalətli bir rifah dövləti yolunu seçməklə, əhalinin sosial vəziyyətini yaxşılaşdırmağa, onların daha layiqli həyat tərzi ilə təmin olunmasına nail olmağa calışır. Əhalinin həssas təbəqəsinə daxil olan yaşlıların əmək qabiliyyətinin azalması və sosial münasibətlərin zəifləməsi səbəbindən bir çox icbari məsələlər meydana çıxır ki, bunların da həll olunması üçün sosial xidmət subyektlərinin fəaliyyətinin genişləndirilməsinə, yeni yanaşmalara ehtiyac vardır.

Ahılların sosial müdafiəsinin təşkil olunması onların ömrünün uzanması, sosial müdafiə ehtiyaclarının artırılması və digər “sosial sərmayə”lərinin təhlilinə, eləcə də təminatların ödənilməsinə xüsusi qayğını, diqqəti və xidməti zəruri edir. Müasir sosial xidmət sahəsində “sosial sərmayə” cəmiyyətdə yaşlıların sosial münasibətlər sisteminə daxil olan bütün mənbələrinin – ailə quruluşu, qohumluq əlaqələri, qonşuluq və dostluq münasibətləri, sosial şəbəkələr, yaşlıların üzərinə düşən öhdəliklər və gözləntilərinin olması anlamına gəlir. Bununla yanaşı, ahıl şəxslərin dərnək və könüllülük proqramlarında iştirakçılıq səviyyəsi, ictimai-siyasi qərar qəbuletmə mexanizmində yeri və rolu haqqında məlumat bazasının olması ahılların aktiv həyat tərzi ilə yanaşı onların sosial rifahının yaxşılaşması istiqamətində görülən iş və xidmətlərin göstəricisi kimi də dəyərləndirilə bilər.

Əhalinin sosial-demoqrafik strukturunda “demoqrafik yaşlanma” prosesinin sürətlənməsi və vəziyyətə hazırlıqlı olmayan cəmiyyətlərdə bu anlayışın gerçəkləşdirdiyi bir çox məsələlər mövcuddur. Bu məsələlərlə bağlı bir çox tədqiqatların dəqiqləşdirilməsinə və aydınlaşdırılmasına da ehtiyac vardır. Bu baxımdan inkişaf etmiş ölkələrdə əhalinin həssas təbəqəsi olan yaşlılarla bağlı sosial xidmət növlərinin forma və istiqamətləri artıq onların təkcə maddi ehtiyaclarının ödənilməsi ilə deyil, həm də mədəni və mənəvi ehtiyaclarının yüksəldilməsinə yönələn xidmətin səviyyəsi ilə müəyyənləşir.

**Açar sözlər:** insan, rifah, sosial xidmət, ləyaqətli həyat, sosial sərmayə, yaşlılıq, yalnızlıq və ahıllıq

## Giriş

Əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması, vətəndaşlara bərabər imkanların yaradılması, onların sosial problemlərinin aradan qaldırılması dövlətin sosial siyasətinin prioritet vəzifələri sırasındadır. Bu da cəmiyyətin sosial rifahının yüksəldilməsinə xidmət edir. Əhalinin həssas qrupu kateqoriyasına aid olan yaşlıların həyat tərzinin müxtəlif sahələrini əhatə edən bir çox sosial xidmət və fəaliyyət növü vardır. Bunlardan biri də humanizmə və insanseverliyə əsaslanan zəngin və qədim xeyriyyəçilik ənənələridir ki, bu da sosial sferada daha çox həssas əhali kateqoriyasına şamil olunur.

**Tədqiqatın məqsədi.** Məqalədə ahıl şəxslərin yaşlılıq dövründə tənha və köməksiz qalmağa məhkum olunduğunu nəzərə alan və onların sosial müdafəsinin təmin olunmasına, eləcə də ahıl yaşına uyğun olan layiqli həyat tərzinin dəstəklənməsinə, onların sosial təhlükəsizliyinin təmin olunmasına və dövlətin bununla bağlı apardığı işlərə nəzər yetirilir və müqayisəli təhlilinə yer verilir.

**Tətbiq edilən metodlar.** Məqalədə sistemli yanaşma, statistik məlumatlar və müqayisəli təhlil metodundan istifadə edilmişdir.

**Xeyriyyəçilik sosial işin tarixi nümunəsi kimi.** Dünyada sosial xidmət, sosiallaşmaq, paylaşmaq, əl tutmaq kimi xeyriyyəçilik tarixin bütün dövrlərində müxtəlif formalarda mövcud olmuşdur. Azərbaycan xalqının zəngin mədəni xüsusiyyətlərindən biri də məhz onun yoxsul insanlara əl tutmaq, çətin şəraitdə, xeyirdə-şərdə bir-birinə dəstək olmaq, dayaq durmaq olub. Humanizm tarixən insanlığın ən ali, bəşəri keyfiyyəti kimi səciyyələnib. Bəs, xeyriyyəçilik sosial işin tarixi nümünəsi kimi necə izah oluna bilər?

Xeyriyyəçilik (filantropiya) sosial bir əməl olub, imkansızlara, çətin həyat şəraitində yaşayan yoxsul insanlara imkanlı, nəcib və bacarıqlı şəxslər tərəfindən təmənnasız və ictimai mənafelərin üstün tutulması naminə göstərilən humanist bir yardım formasıdır. Əhalinin sosial baxımdan zəif təbəqələrini təmsil edən insanlara – fiziki və əqli çatışmazlığı olan şəxslərə, valideyn himayəsindən məhrum uşaqlara, qocalara və bu qəbildən olan insanlara bu və ya digər şəkildə kömək göstərilməsini özündə təzahür etdirən bir əməldir. İnsanların şüurunda adətən şəfqət, başqasının halına yanma, ehtiyacı olanlara könüllü və təmənnasız kömək etmək istəyinin göstəricisi kimi başa düşülür. Xeyriyyəçiliyə cəmiyyətin sosial siyasətində hansısa bir əlavə yardımlaşma fəaliyyəti və yalnız dövlətin sosial yüklərinin, qayğılarının azaldılması kimi baxmaq olmaz. O, mənəviyyatın ən ali qanunlarından sayılan, daha çox ehtiyacı olan fərdlərin, sosial qrupların və ailələrin xeyrinə sosial ədalətin bərqərar olunmasını, mənəvi-əxlaqi motivlərin və ümumbəşəri dəyərin göstəricisi kimi qiymətləndirilmişdir.

**Milli burjuaziyanın sosial fəaliyyətinin mənəvi dəyərlər sistemində yeri və rolu.** Qədim dövrdən günümüzə kimi Azərbaycanda filantropiyanın bir növü olan messenatlıq geniş vüsət almış, xeyriyyəçi sahibkarlar kimi tanınmış insanlar cəmiyyətin rifahı naminə əhalinin sosial müdafiəsinə, maarif və təhsilinin, mədəniyyət və incəsənətinin inkişafına külli miqdarda vəsait sərf etmişlər. Azərbaycanda öz dövrünün sosial xidmət sahəsini əhatə edən xeyriyyəçiliyin bünövrəsini qoyan əsilzadə milyonçu Hacı Hacıağa və Şıxalı Dadaşov qardaşları olmuşdur. Hacı Hacıağa 1870-ci ildə Çar Rusiyası Dumasında olduqca təsirli çıxışı ilə Bakıda kimsəsiz və sahibsiz qocalar üçün "Ahıllar evi"nin tikilməsinə icazə istəyir. O, çıxışında deyir: "Məmləkətin imkanlı şəxsləri razı olmamalıdır ki, onun qoca, kimsəsiz ahıl adamları küçələrdə qalsın. Mən bütün xərcləri öz üzərimə götürərək

qocalar evinin açılmasını təklif edirəm”.

Hacı Hacıağa özünün 10 hektardan çox torpaq sahəsində yerləşən mülkünü “Ahıllar evi” kimi kimsəsizlərin ixtiyarına verir. Daha sonra orada qocalar üçün ikimərtəbəli pansionat tikdirir və bütün xərclərini öz üzərinə götürür. Hal-hazırda isə həmin müəssisədə müasir dövrün tələblərinə uyğun olaraq ahıl şəxslərin sosial rifahının yaxşılaşdırılması məqdəsilə beşmərtəbəli 170 yerlik ikinci korpus inşa edilmişdir.

Göründüyü kimi, ömrünün ahıl çağını yaşayan insanlara diqqət, qayğı, hörmət xalqımızım milli mənəvi dəyərləri kimi tarixin demək olar ki, bütün dövrlərində müxtəlif formalarda göstərilmişdir. Konstitusiymızda da yaşlılara qayğı, hörmət və himayədarlıq qanunla təsbit olunmuşdur. Belə ki, yetkinlik yaşına çatmış hər bir övladın yaşlı valideynlərinin qayğısına qalma öhdəliyi vardır. Müasir Azərbaycanda ahıllarla bağlı, yaşlılıqdan dolayı meydana gələn problemlərin aradan qaldırılmasına köməklik göstərilməsi artıq təkcə mərhəmət hissi, humanist prinsiplər əsasında deyil, əhalinin sosial rifahının yaxşılaşdırılmasına hesablanan, sosial rifah dövləti xətti tutmuş dövlətin sosial siyasətinin tərkib hissəsi kimi tez-tez təkmilləşən, beynəlxalq standartlarla şərtlənən yeni islahatların qəbul olunması ilə tənzimlənir.

## Əsas mətn

"Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlər sırasında bu gün inkişaf etmiş ölkələrdə yaşlı cəmiyyətlər üçün diqqətə alınan, ahılların sosial həyat tərzində zəruri hesab olunan “sosial sərmayə” və ya “sosial imkanlar” nəzərdə tutulmuşdur. “Sosial sərmayə” və ya başqa ifadə tərzində “sosial imkanlar” kimi başa düşülən bu sosial xidmət forması yaşlı insanları əhatə edən gündəlik ictimai-siyası, sosial-məişət həyat tərzi və müasir informasiya texnologiyalarını da nəzərə alsaq, virtual yaşam imkanlarını özündə ehtiva edən aktiv fəaliyyət forması kimi dərk oluna bilər. Sosioloqlar tərəfindən “sosial sərmayə” anlayışı müxtəlif formalarda izah edilmir. Belə ki, ingilis sosioloqu Vermon Kolmənə (Vermon Coleman) görə, “sosial sərmayə” cəmiyyətdə yaşlıların sosial münasibətlər sistemınə daxil olan bütün mənbələrini – ailə qurluşu, qohumluq əlaqələri, sosial şəbəkələr, qonsuluq və dostluq münasibətləri, yaşlıların üzərlərinə düşən öhdəliklər və gözləntilərinin olması anlamına gəlir [7]. Burada biz hər bir cəmiyyətin adət-ənənsindən, milli düşüncə tərzindən irəli gələn bəzi xüsusiyyətləri də nəzərə almaqla ona xas olan xarakterik halları diqqətə almalıyıq.

**Mövzunun işlənmə dərəcəsi.** Məqalədə qeyd olunan ədəbiyyat siyahısında adı çəkilən müəlliflər müxtəlif vaxtlarda, öznəməxsus şəkildə bu məsələləri tədqiq ediblər. Əhalinin sosial rifahının yaxşılaşdırılması, eləcə də cəmiyyətlərin davamlı dinamik inkişafı sosial sferada yeni yanaşmaları və xidmət sahələrində yeni forma və modelleri formalaşdırır. Azərbaycan cəmiyyəti üçün yaşlıların ailədə və qohumluq münasibətlərində diqqətə alınan əsas məqamlar onların ailə insitutlarının möhkəmliyi ilə müəyyən olundugundan, qonşular və digər ictimai işlərə münasibət isə sosial əlaqələr kimi dəyərləndirilir. Digər tərəfdən V.Kolmən yaşlıların həyat tərzində “sosial sərmayə” anlayışını rasional seçim üzərinə uygunlaşdırmışdır. Belə olan halda yaşlıların bir başqasi ilə hər hansı bir iş birliyini qurmaq seçimi, onların öz mənafeləri üçün üzərlərinə düşən öhdəliyin yerinə yetirilməsinə hesablanmışdır. Demək, yaşlılar həyat tərzində və seçimlərində rasionaldırlar. Təbii ki, bu rasionallıq bizim cəmiyyətimizdə bütün yaşlılar kateqoriyasına aid olan ahıllara şamil oluna bilməz.

Bu, daha cox intellektual səviyyəsi daha yuxarı olan və yaşam tərzində daha cox müstəqilliyi və maddi imkanı olan yaşlılar üçün nəzərə alınmalıdır.

Ahılların həyat tərzinə və sosial sərmaya anlayışına daxil olan, sosial əlaqələri zəif olan tənhalıq və yalnızlıq kimi problem də vardır. Amsterdam Universitetinin professoru Cenni Gervald (Jenni De Jong Gierveld) tənhalığı sosial əlaqələrin zəif olması ilə izah edərkən, digərləri tənhalıq və yalnızlığı şəxsin digərlərinə qarşı inamsızlığı və dostluq qura bilməməsi ilə əlaqələndirirlər. Bu mövzuda bir cox türk tədqiqatçılarının da maraqlı fikirləri vardır. Hacettepe Universitetinin sosial elmlər bölümünun əməkdaşı Edip Aygülərin "Tək yaşayan yaşlıların yaşlanma qavrayışları: həyat təcrübələri və ehtiyacları" adlı tədqiqatında yaşlıların tənhalıq və yoxsulluq vəziyyətinə görə sosial xidmətin göstərilməsi məsələsi yer almışdır [4]. Araşdırmanın əsas məqsədi ahılların yoxsulluq və tənhalıq problemini ortaya çıxarmaq və bu problemlərin aradan qaldırılması yollarını göstərməkdir.

Aylin Görgün Baran "Sosial sərmayə, güvən və tənhalıq baxımından yaşlıların yaşam tərzinə bir baxış" (2020) adlı araşdırmasında sosial sərmayə münasibətləri nöqteyi-nəzərindən yaşlıların kimlərlə daha cox münasibətdə olmaqdan xoşlandıqlarını, kimlərlə daha çox vaxt keçirmək istədiklərini öyrənməyə çalışmışdır [5]. Göründüyü kimi, "sosial sərmayə" ifadəsi bizim mühit üçün sosial münasibətlər sisteminə daxil olan yeni bir anlayış kimi ahılların, yaşlıların və əmək qabiliyyəti zəif olan şəxslərin sosiallaşma prosesində yeni məna və çalarlar verən və onun parametlərini müəyyən edən ölçü kimi başa düşülür.

Cəmiyyətin sosial-demoqrafik strukturunda "demoqrafik yaşlanma", yəni umumi əhali sayında yaşlı əhali qrupunun artması qlobal və ya dunyəvi bir prosess olub, dünya dövlətlərində hər bir cəmiyyətin inkişaf səviyyəsindən asılı olaraq dəyişir. İnkişaf etmiş ölkələrdə demoqrafik yaşlanma 100 illik zaman üzrə hesablanarkən, inkişaf etməkdə olan ölkələr üzrə bu müddət 15-20 il müddətinə azalmaqdadır. Bu baxımdan "demoqrafik yaşlanma" anlayışına hazırlıqlı olmayan cəmiyyətlərdə bu anlayışın gercəkləşdirdiyi bir çox məsələlər var. Onlarla bağlı bir çox tədqiqatların dəqiqləşdirilməsinə və aydınlaşdırılmasına ehtiyac duyulur [6].

**Ahıl və yaşlı şəxslərin sosial müdafiəsinin təşkilində dövlətin rolu.** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin verdiyi məlumata əsasən, 2022-ci ilin əvvəlinə ölkə əhalisin umumi sayı 10119.1 min nəfər olmuşdur. Ondan 65-69 yaş qrupunda olanların sayı 318.7 min nəfər, 70 və daha yuxarı yaş qrupunda olan şəxsləri sayı isə 437.7 min nəfərdir. Bu isə Azərbaycanda əhalinin sosial-demoqrafik strukturunda əhalinin say nisbətinə görə "demoqrafik yaşlanma" prosesinin sürətlə artdığını göstərir. BMT-nin Əhali Fondu tərəfindən açıqlanan məlumatda əhalinin umumi sayının 7%-i 65 və daha yuxarı yaş qrupu ilə əhatə olunduqda yaşlı cəmiyyət, 10%-dən cox olduqda isə çox yaşlı cəmiyyət kimi qəbul olunmuşdur. Bununla yanaşı, 70 və daha yuxarı yaş qrupunda olan şəxslərin say göstəricisi 65-69 yaş qruna görə çoxluq təşkil etdiyinə görə "demoqrafik yaşlanma" prosesinin öz içərisində də yaşlanmanın oldugunu göstərir. 2022-ci ilin əvvəlinə Dövlət Statistika Komitəsinin verdiyi məlumata əsasən, yaşa görə müavinət alanların 396.9 min nəfərini də bura daxil etsək, ölkə əhalisinin 10%-ni yaşlı, ahıl insanların təşkil etdiyini görərik. Bu da o deməkdir ki, ahıl yaşda olanların sayı sürətlə artmaqdadır [8].

Mövcud vəziyyət əhalinin ahıl yaş kateqoriyasi üzrə dövlətin sosial xidmət sahəsinə daxil olan digər sosial, iqtisadi və mədəni münasibətlərin tənzimlənmə prosesinə yeni baxış zərurətini meydana

çıxarır. Statistik göstəricilərə əsasən əhalinin yaşadığı məkan üzrə bölgüdə şəhərdə yaşayanlar umumi əhalinin 53%-ni, kənd yerlərində yaşayanlar isə 47%-ni təşkil etməsinə baxmayaraq, yaşlı əhalı qruplarına daxil olan insanların çoxu bölgələrdə və kənd yerlərində məskunlaşıblar [8]. Bölgələrdə sosial-iqtisadi vəziyyətin təhlili onu göstərir ki, bu yaş qrupunda olan insanların sosial, iqtisadi və mədəni imkanlarının hərtərəfli araşdırılmasına, xüsusilə tənha və hərəkət imkanları məhdud olan insanlara yönəlik sosial tədbirlərin genişləndirilməsinə ehtiyac vardır.

Azərbaycan Respublikasının "Sosial xidmət haqqında" Qanununa əsasən, yaşı 70-ə çatmış şəxslər ahıl şəxs hesab olunur. Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra 1991-ci ilin dekabrın 16-da ahıl şəxslərə münasibətdə nəzərdə tutulan prinsiplərə, eləcə də 1992-ci ildə ahılların müdafiəsi ilə bağlı qəbul olunan Qətnamənin prinsiplərinə əsasən hər il oktyabr ayının 1-i Beynəlxalq Ahıllar Günü kimi qeyd olunur. Ahıllara, yaşlılara göstərilən sosial xidmətlər hər bir dövlətin sosial-iqtisadi siyasətinə əsaslanan və cəmiyyətin həyat tərzinə uyğun olaraq müəyyənləşən prinsiplər üzərində qurulur [11].

Azərbaycanda ahillarla bağlı yuxarıda qeyd olunan istər humanist prinsiplər, istərsə də qanunvericilik bazasına əsaslanan çoxsaylı sosial xidmətlər nəzərdə tutulmuşdur. Ahıl şəxslərin yaşlılıq dövründə tənha və köməksiz qalmağa məhkum olunduğunun nəzərə alınması və onların sosial müdafəsinin təmin olunması, eləcə də ahıl yaşına uyğun olan layiqli həyat tərzinin dəstəklənməsi, onların sosial təhlükəsizliyinin təmin olunması dövlət tərəfindən kompleks şəkildə yerinə yetirilir. BMT Baş Assambleyasının əhalinin qocalma problemləri üzrə Beynəlxalq Fəaliyyət Planında (Madrid, 2002) nəzərdə tutulmuş proqrama əsasən, hər bir ölkənin iqtisadi, sosial və demoqrafik proseslərinin inkişaf xüsusiyyətlərinə uygun olaraq ahıl, yaşlı insanların sosial müdafiəsi və təhlükəsizliyinın təmin olunması nəzərdə tutulmuşdur. Ahıl şəxslərin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması məqsədilə 2004-cü ildə "Azərbaycanda demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı", 2006-cı ilin aprelin 17-də isə "Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı" təsdiq edilmişdir [10]. Bu Dövlət Proqramına əsaslanan bir çox tədbirlərin həyata keçırılməsi nəzərdə tutulmuşdur. Onlardan bəzilərini tədqiqat çərçivəsində nəzərdən keçirək:

**Tənha və başqalarının köməyinə ehtiyacı olan ahıllar üzrə ərazi informasiya bazasının yaradılması.** Yaşlı əhali qrupunun sosial rifahının yaxşılaşdırılması məqsədilə nəzərdə tutulan bu informasiya bazasının yaradılması barədə heç bir mənbəyə rast gəlmədik. Bu informasiya bazasının yaradılması Dövlət Sosial Müdafiə Fondunun rayon şöbələrinə verilən səlahiyyətlər çərçivəsində başqalarının köməyinə ehtiyacı olan tənha ahılların və əmək qabiliyyəti olmayanların (əlillərin) aşkar edilməsini, sosial məişət xidmətinə götürülməsini, onların sosial müdafiəsi üzrə tədbirlərin həyata keçirilməsini və onlar barədə məlumatın vahid informasiya bazasına yerləşdirilməsini nəzərdə tutur. Tənha ahılların üzərində himayəçi və qəyyumların təyin olunması və onların sosial xidmət üzrə fəaliyyətlərinin monitorinqinin aparılması bu gün sosial xidmət sahəsinin ən aktual problemi olaraq qalmaqdadır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ahıllarla bağlı verdiyi son məlumatdan görunur ki, Dövlət Sosial Müdafiə Fondunun rayon (şəhər) şöbələrinin sosial işçiləri tərəfindən tənha ahıllara və əmək qabiliyyəti olmayan (əlillərə) 10.448 nəfərə evlərində sosial xidmət göstərilmişdir ki, bunun da 80%-ni, yəni 8358 nəfərini ahıl, yaşlı insanlar təşkil etmişdir.

2022-ci ilin əvvəlinə umumi əhalinin sayına görə yaşlı və ahıl şəxslərin say göstəricisi 756.4 min nəfər təşkil etdiyi təqdirdə bu xidmətin nə qədər aşağı göstərici olduğunu aydın görmək olur [9].

Deməli, Dövlət Sosial Müdafiə Fondunun rayon (şəhər) şöbələrinin sosial işçiləri tərəfindən göstərilən xidmət yalnız onlara olunan müraciətlər əsasında baş tutmuşdur. Müraciət imkanları məhdud olan, eləcə də bu xidmətlərin göstərilməsi haqqında məlumatı olmayan digər ahıl və yaşlı insanların sosial rifahı naminə dövlət tərəfindən göstərilən xidmətlərin əlçatanlığı və ehtiyacı olan insanların bu xidmətlərdən yararlanmasının təmin olunması sosial işlərin aparılmasını zəruri edir.

2022-ci ilin əvvəlinə ölkədə pensiyaçıların ümumi sayı 1,229 min nəfər olub ki, bunun da 13,0%-ni işləyən pensiyaçılar, yerdə qalan 77,0%-ni isə işləməyən və ya əmək qabiliyyəti daha zəif olanlar təşkil edib. 2022-ci ilin əvvəlinə əhaliyə ödənilən pensiyaların orta aylıq məbləğinin 302,2 manat olduğunu nəzərə alsaq, bu qrupa daxil olan şəxslərin sosial-iqtisadi vəziyyəti əhalinin orta aylıq nominal əmək haqqının yarısını, yəni 42,7%-ni təşkil edib. Bu isə o deməkdir ki, əhalinin əmək qabiliyyəti zəif olan təbəqəsinin – pensiyaçıların iqtisadi vəziyyətinə uyğun olaraq, onlara göstərilən sosial xidmətlərin səviyyəsinin yüksəldilməsi və vahid informasiya bazasının yaradılması diqqət mərkəzində saxlanılmalıdır [8].

**Ahıl vətəndaşlara evlərində, həmçinin ictimai yerlərdə qayğı və xidmət göstərilməsi işinin təşkili.** Ahıl vətəndaşlara evlərində həmçinin ictimai yerlərdə qayğı və xidmət göstərilməsi işinin təşkili qanunvericilikdə nəzərdə tutulan səlahiyyət əsasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dövlət Sosial Müdafiə Fondu və son zamanlar yaradıan Sosial Xidmətlər Agentliyi tərəfindən həyata keçirilir. Eyni zamanda qeyri-hökumət təşkilatları və yerli icra strukturları, bələdiyyələr və imkanlı şəxslər tərəfindən də ahıl şəxslərin evlərində (səyyar) sosial-məişət, sosial-hüquqi xidmətlər göstərilir. Lakin yuxarıda qeyd olunduğu kimi, ahıllara və yaşlı insanlara dövlət tərəfindən göstərilən xidmətin say göstəricisinin aşağı olmasını nəzərə alaraq, bu işin təşkilinə fərqli yanaşmanın vacib olduğunu görürük.

Belə ki, ahıl və yaşlı şəxslərə göstərilən sosial xidmət təkcə onların gündəlik məişət həyatlarının təmin olunması ilə deyil, həmçinin sosial rifanının yaxşılaşdırılmasına təsir edən mədəni-mənəvi münasibətlərin qurulması ilə də müəyyənləşir. Belə ki, “Avropa Aktiv Yaşlanma İndeksi”nın izahına görə, “sosial sərmayə” ahıl şəxsin, fərdin cəmiyyətə qatilma parametrləri ilə səciyyələndirilir [1]. Bu, onunla bağlıdır ki, ahıl şəxsin cəmiyyətə qatılma payı və onu genişləndirmə imkanları dörd əsas elementlə şərtləndirilir:

• yaşlıların uşaq və nəvələrinin qayğısına qalması;

• yaşlıların böyük şəxslərə baxması;

• yaşlıların könüllülük fəaliyyətlərinə qoşulması;

• yaşlıların ictimai-siyasi qərar qəbul etmə mexanizmində yeri və rolu.

Yaşlıların cəmiyyətdə sosial həyat tərzinin yaxşılaşdırılmasına təsir edən bu dörd elementin hər birinin ayrı-ayrılıqda təhlili cəmiyyətimizdə yaşlıların uşaq və nəvələrin qayğısına qalma göstəriciləri iqtisadi vəziyyətindən asılı olmayaraq əksər göstəriciləri üstələyir. Bu da ahıl şəxsin əhval-ruhiyyəsində ailəyə faydalı olduğu anlamında nəvə-övlad sevinc hissi ilə onun mənəvi ehtiyaclarının təbii ödənilməsini təmin etmiş olur.

Ahıllar üçün “sosial sərmayə” adlandırdığımız aşağıda qeyd edəcəyimiz amillərin hər biri ailədə və cəmiyyətdə onların vəziyyətinin xüsusi çəkisinə təsir edir:

- Ailə və qohumlarla əlaqələri necədir?

- Dostluq və qonşuluq münasibətləri, eləcə də bu bağların etibarlılıq səviyyəsi

necədir?

- Dərnək və könüllülük proqramlarında iştirakçılığın səviyyəsi necədir?
- Sosial-mədəni fəaliyyətlərdə iştirakın səviyyəsi necədir?
- Ahil şəxslərin böyüklərə, uşaqlara və nəvələrə qayğıları hansı səviyyədədir?
- Hansı sosial müdafiə dəstəkləri vardır?
- Hansı gəlir qaynaqları vardır?
- Güzaranlarını necə keçirirlər?
- Hobbiləri nədir?
- Hansi ixtisas sahibidirlər?

Ahılların sosial həyat tərzinin və fəaliyyət imkanlarının öyrənilməsinə dair qoyulan bu sualların cavabından asılı olaraq, alınan nəticələrin dəyərləndirilməsi müasir sosial xidmət formalarının tətbiqi ilə yanaşı həm də ahılların sosial aktivliyini və yaşam səviyyəsini müəyyən etmək məqsədi daşıyır. Bundan əlavə, ahılların iqtisadi, mədəni və sosial vəziyyətlərinin göstəriciləri, onların hansı sahədə daha çox ehtiyaclarının olduğunu müəyyən edərək sosial xidmətin səmərəliliyini artırmaq olar.

## Nəticə

Tədqiqatda verilən nümunələr üzərində aparılan təhlildən belə nəticəyə gəlmək olar ki, ölkə ərazisində əhalinin demoqrafik yaşlılıqla bağlı və yeni yaranmış yaşlı cəmiyyət statusunun yaratdığı bir cox problemlər vardır ki, bunlardan biri də pensiya təminatında yaş həddinin 65 yaş müəyyən olunmasından yaranmışdır. Regionlarda geniş əhali kütləsinin natamam məşğulluğunu nəzərə alsaq, bu problemlərin həlli istiqamətində görülən işlər aztəminatlı və yoxsul ailələrdə olan yaşlı və ahıl şəxslərin ictimai, sosial və mədəni həyatına yeni yanaşmaları zəruri edir. Belə ki, ahıl, tənha və yoxsul insanların sosial rifahının yaxşılaşdırılması, onların ahıl yaşlarında daha layiqlı yaşam tərzinin təmin olunmasına görə müvafiq səlahiyyətli qurumların sosial xidmət növü və formalarının genişləndirilməsinə ehtiyac vardır. Dövlət Sosial Müdafiə Fondunun rayon (şəhər) şöbələrinə verilən səlahiyyətlər çərçivəsində tənha yaşayan qocalardan ibarət birnəfərlik ailə təsərrüfatlarının müəyyən edilməsi, xüsusi qayğıya ehtiyacı olan ahıllar üçün məlumat bazası və ya proqram təminatının hazırlanması tövsiyə olunur. Səlahiyyətli qurumlar tərəfindən istifadə ediləcək bu məlumat bazası vasitəsilə tənha yaşayan yaşlılara və ahıllara sosial xidmət mərkəzləri, eləcə də digər xeyriyyə təşkilatları fəaliyyətlərini daha səmərəli təşkil edəcəklər. Ahılların yaşadığı ərazidən asılı olmayaraq onların sosial müdafiəsinə və təhlükəsizliyinin təminatına, xidmətlərin əlçatanlığına və ədalətli sosial təminatına şərait yaranacaqdır. Ölkəmizdə yaradılmış innovativ sosial xidmət mərkəzi olan DOST agentliyinin yaşlılara cavabdeh olan əməkdaşları və könüllüləri vasitəsilə tənha yaşayan ahıllara ildə dörd dəfədən az olmayaraq baş çəkmək və sosial ehtiyaclarına dəstək olmaqla onların qarşılaşa biləcəkləri risklərə qarşı özlərini daha təhlükəsiz hiss etmələrini təmin etmiş olar. Bununla da yoxsul, tənha yaşlıların ehtiyaclarının qarşılanmasına yönələn ünvanlı yardım və xidmətlərin əhatə dairəsinin genişləndirilməsinə nail olmaq olar. Bu isə əhalinin həssas təbəqəsi sayılan ahıllara göstərilən sosial xidmətlərin daha effektiv və ədalətli olmasını, onların sosial müdafiəsinin gücləndirilməsini və ahıl yaşlarında daha layiqli səviyyədə həyat yaşamalarını təmin edəcəkdir. Xüsusilə regionların inkişaf hədəflərində əhalinin davamlı sosial rifahı, həyat keyfiyyəti göstəricilərinin yaxşılaşdırılması, yaşlı, tənha və yoxsul ahılların qayğısına qalmaq bizim cəmiyyət üçün həmişə aktual olmuş, onlara qarşı diqqət və qayğı vacib sayılmışdır.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:


**Türk dilində:**

1. *Büyükilikmen, A.Y. (2015).* Sosyal sermaye ve ölçülmesi. // Selçuk Üniversitesi Sosyal ve Teknik Araştırmalar Dergisi (10), 45-52.

2. *Danış, M.Z. (2009).* Türkiye'de yaşlı nüfusun yalnızlık ve yoksulluk durumları ve sosyal hizmet uygulamaları açısından bazı çıkarımlar. // Toplum ve Sosyal Hizmet, 20(1), 67-84

3. *Erkuran, H. (2020).* Yaşlanma korkusu. // Sağlık ve Toplum, 20(1), 26-29.

4. *Edip Aygüler.* Yalnız Yaşayan Yaşlıların Yaşlılık Algıları, Yaşam Deneyimleri ve Gereksinimleri. - https://www.google.com/url?esrc=s&q=&rct=j&sa=U&url=http://www.openaccess.hacettepe.edu.tr:8080/xmlui/bitstream/handle/11655/26350/Edip%2520Ayg%25C3%25BCler%2520Tez%252020220615.pdf%3Fsequence%3D1&ved=2ahUKEwjcjvWaq_X-AhXiR_EDHZqJAxAQFnoECAYQAg&usg=AOvVaw27dGYHkGviYHeBRH1mWLPY

5. *Görgun Baran. A, Erdem M.T. (2018).* Feminist Gerontoloji və Yaşlı Ayrımçılığı. // İzmir Dokuz Eylül Unversitesi Mulltidisipiliner İİ Kadın Kongresi, e-book Özet Kitabı İzmir.

6. *Gerşil, G. ve Keskin, R. (2018).* Sosyal sermayenin güven unsurunun değerlendirilmesi: Manisa Celal Bayar Üniversitesi İktisadi Ve İdari Bilimler Fakültesi öğrencilerine yönelik bir uygulama. // Yüzüncü Yıl Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi(42), 155-178.

**İnglis dilində:**

7. *Vernon Coleman.* Old man in a chair. İndependently Published. /6 oct. 2020, -359 p.

**İnternet resursları:**

8. https://www.stat.gov.az/source/healthcare/
9. https://www.sosial.gov.az/post_531157
10. https://stm.az/storage/common/1659363494.Qaygi.pdf
11. https://e-qanun.az/framework/23195


**Eliza Ismayilova**

## REVIEW OF THE NEEDS TO USE SOCIAL SERVICES OF THE ELDER POPULATION GROUP IN AZERBAIJAN


### Abstract

There has been a special attention, care and respect for the elderly people in Azerbaijan since ancient times. This has strengthened for years in the rich national and moral values system of our nation and has been intergenerationally transferred. The independent Republic of Azerbaijan endeavors to improve the cultural and spiritual heritage of the nation, human rights and its protection, gracious and fair welfare statehood, to improve the social status of population, and to provide them with more decent lifestyle. Due to the decrease of able-bodied of the elderly in the sensitive layer of the population, and the weakening of social relations, which is needed to expand the activities of social service subjects to resolve them, many compulsory issues and new approaches are formed. The organization of social protection of the elderly is necessary for their life by increasing their life capacity and social protection needs, also, other "social investments" and the payment of providence are necessary. In the field of modern social services, the "Social Investment" means all the sources in the social relations system of elderly people - family setup, kinship, neighborhood and friendly relations, social networks, commitments and expectations.

At the same time, the level of participation in the association and volunteering programs, along with having data base relating the place and role of the elderly in the socio-political decision-making mechanism, as well as an active lifestyle might be valued as an indicator of the work and services in order to improve their social well-being. It can be also clearly identified by the quality of life standards for the elderly group of the population as one of the

forms of social protection, and their hobbies as one of the forms of modern social service. There are many issues arising out of the realization of this phenomenon in the societies that is unprepared in which "demographic aging" process accelerates and the socio-demographic structure of the population has many issues related to this situation and there is a need for its clarification. In this regard, the types of social services related to the elderly population in developed countries, its forms and directions are already determined by the level of service aimed at not only by increasing the financial needs of the elderly, but also to improve their cultural and moral needs.

**Keywords:** human, welfare, social serves, dignified life, social investments, alone people, elderly peopleand

**Элиза Исмаилова**

**ОБЗОР ПОТРЕБНОСТИ ПОЖИЛОГО НАСЕЛЕНИЯ В ПОЛУЧЕНИИ СОЦИАЛЬНЫХ УСЛУГ В АЗЕРБАЙДЖАНЕ**

**Резюме**

В Азербайджане с незапамятных времен и до наших дней к пожилым людям относились с особым вниманием, заботой и уважением. Выбирая путь гуманистического, милосердного и справедливого государства всеобщего благосостояния, независимая Азербайджанская Республика стремится улучшить социальное положение населения, обеспечить его более достойным образом жизни. В связи со снижением трудоспособности и ослаблением социальных отношений пожилых людей, входящих в уязвимые слои населения, возникает множество обязательных вопросов, для решения которых необходимо расширение деятельности субъектов социального обслуживания, новые подходы. Организация социальной защиты пожилых людей требует особой заботы, внимания и обслуживания для продления их жизни, увеличения потребностей в социальной защите и анализа других “социальных инвестиций”, а также выплаты пособий. В современной сфере социального обслуживания под” социальным инвестированием " понимается наличие в обществе всех ресурсов пожилых людей, входящих в систему социальных отношений – семейных, родственных, добрососедских и дружеских отношений, социальных сетей, обязательств и ожиданий пожилых людей. При этом уровень участия пожилых людей в ассоциативных и волонтерских программах, наличие базы данных о месте и роли пожилых людей в механизме принятия социально-политических решений могут оцениваться как показатель работы и услуг, выполняемых в направлении улучшения их социального благополучия наряду с активным образом жизни пожилых людей. Также определение того, какие виды социальной защиты оказывают пожилые люди, источники доходов и льготы, увлечения, может дать четкое определение качественного показателя уровня жизни по старшей группе населения как одной из современных форм социального обслуживания. В условиях ускорения процесса “демографического старения” населения в социально-демографической структуре и неподготовленности к ситуации в обществах существует множество проблем, реализуемых этим понятием, в связи с чем существует также необходимость уточнения и уточнения многих исследований. В связи с этим в развитых странах формы и направления видов социального обслуживания пожилых людей, являющихся уязвимыми слоями населения, уже определяются уровнем обслуживания, направленного не только на удовлетворение их материальных потребностей, но и на повышение их культурных и духовных потребностей.

**Ключевые слова:** человек, благополучие, социальная служба, достойная жизнь, социальные инвестиции, старость, одиночество и престарелость

# MODERN "XOŞBƏXTLİK DİSKURSU" VƏ ONUN TOTALİTAR PREZUMPSİYALARI

**Sübhan PADAROV**
*Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi*
*Bakı, Azərbaycan*

*E-mail: subhanpadarov@gmail.com*
*ORCID: 0009-0005-8241-4446*

**Xülasə.** Son iki onillikdə neoliberal cəmiyyətlərin sərt "xoşbəxtlik dönüşü"nə şahidlik edirik. Xoşbəxtlik sosial sferanın bütün qatlarında - əyləncə sənayesi, təhsil sistemləri, səhiyyə institutları, korporasiyalar, ictimai və özəl təşkilatlar, pop-ədəbiyyat, media, siyasət və s. mövcud olan, hər yerə nüfuz edən reallığa çevrilib. Bu anlayış artıq Qərb mənşəli, təhsilli, demokratik, zəngin və sənayeləşmiş xarakterə deyil, kultural keçmişi, iqtisadi statusu, sosial stratası, cinsi və təhsil səviyyəsindən asılı olmayaraq, bütün insani varlıqlara şamil edilən psixoloji haldır. Daha mühümü, xoşbəxtlik neoliberal cəmiyyətlərdə nəyin yaxşı, arzuolunan və doğru olduğunun normasını müəyyən edən bir diskursa transformasiya edilib. Pozitiv psixoloqlar və xoşbəxtlik iqtisadçıları ilə birgə xoşbəxtlik tədqiqatçıları bu diskursun möhkəmlənməsinə yardım edirlər. Məqalədə bu məsələlər ətraflı təhlil edilmişdir.

**Açar sözlər:** "xoşbəxtlik" anlayışı, xoşbəxtlik diskursu, neoliberalizm, pozitiv psixologiya, Qərb kultural strukturu

## Giriş

Həyatımızda *per diem* və *ad nauseam* mövcud olmaqla "xoşbəxtlik" bizim kultural təxəyyülümüzü elə zəbt edib ki, nadir hallarda onu eşitmədən və ya oxumadan bir gün keçiririk. İnternet üzərindən kiçik bir axtarış etsək, "xoşbəxtlik" sözü ilə bağlı yüz minlərlə nəticə ilə qarşılaşa bilərik. Əsrin əvvəllərində "Amazon" şirkəti "xoşbəxtlik" sözünü ehtiva edən 300 kitabın siyahısını tərtib etmişdisə, bu gün bu rəqəm 2 mindən çoxdur. Eyni artım insanların gündəlik olaraq paylaşdığı İnstaqram və Feysbuk postları, eləcə də tvitlərdə müşahidə edilir. Bu fenomen "öz"ünü və dünyanı dərkimizin fundamental parçasına çevrilib.

Son onilliklərdə radikal şəkildə dəyişən sadəcə xoşbəxtliyin özünü göstərdiyi tezlik və nüfuzedicilik deyil. Bu anlayışı dərk etdiyimiz tərz də radikal transformasiyaya uğrayıb. Biz artıq xoşbəxtliyin insanın taleyi və içində olduğu yaşam şərtləri, həyatın bütövlüyünün dəyərləndirilməsi, psixoloji və fizioloji narahatlığın yoxluğu ilə bağlı olduğuna inanmırıq. Xoşbəxtlik indi iradə gücü vasitəsilə idarə oluna və düzənlənə bilən bir zehniyyət kimi görünür; autentik "özmənliyimiz" və daxili gücümüzü praktikaya tətbiqinin nəticəsi; həyatı dəyərli edən yeganə məqsəd, bioqrafiyalarımızın dəyərini ölçməli olduğumuz standart; uğurlar və uğursuzluqlarımızın ölçüsü; psixi və emosional inkişafımızın maqnitudası. Hər şeydən daha mühümü, xoşbəxtlik (post)modern vətəndaşın ideal obrazının epitomu və inkarnasiyası olaraq təqdim edilir.

Əsası 1998-ci ildə qoyulan və ABŞ fondları tərəfindən maliyyələşdirilən "xoşbəxtlik elmi" və "pozitiv psixologiya" sadəcə amerikalılar üçün deyil, bütün dünya üçün xoşbəxtlik axtarışının aksiomatik olmalı olduğunu izah etmək vəzifəsini üzərinə götürüb. Bu psixoloqlara görə, bütün fərdlər doğuluşdan gələn xoşbəxt olmaq impulsu ilə akt göstərdikləri üçün xoşbəxtlik axtarışı insani varlıqlar olaraq onların realizasiyasının sadəcə təbii deyil, ən ali ekspressiyası kimi dərk edilməlidir [9]. Bununla pozitiv psixologiya indiyədək heç kəsin nail ola bilmədiyini reallaşdırdı və "xoşbəxtliyi" akademik prioritetlərin, o cümlədən də əksər dövlətlərin sosial, siyasi və iqtisadi agendasının ən üst komponentinə çevirdi.

## 1. "Xoşbəxtlik elmi"nin paradoksları

Həqiqətənmi həyatımızda uğrunda çalışmalı olduğumuz ən ali məqsəd xoşbəxtlikdir? Yəqin ki, bu, belədir. Lakin "xoşbəxtlik ekspertləri"nin diskursuna diqqət yetirdiyimiz zaman bu məsələyə tənqidi mövqedən yanaşmalı oluruq. Bu məqalə xoşbəxtliyə qarşı deyil, xoşbəxtlik sənayesinin moizə oxuduğu "doğru həyat"ın reduksiyonist baxışlarına qarşıdır. Xoşbəxtlik elminin təmsil etdiyi bu baxış ziddiyyətli iddialar, kəskin məhdudiyyətlər və patogenik nəticələr ilə zəngindir.

Mənim xoşbəxtlik haqqında düşüncələrim dörd başlıca tənqidi xüsus üzərində köklənir: epistemoloji, sosioloji, fenomenoloji və əxlaqi. Epistemoloji qayğının bir elm olaraq vəzifəsi "xoşbəxtlik elmi"nin legitimliyini, onun xoşbəxtlik konseptinin elmiliyi və obyektivliyini təhlil etməkdir. Qısa və dəqiq şəkildə söyləməliyik ki, "xoşbəxtlik elmi", eləcə də bu hərəkatın təlqin etdiyi insani xoşbəxtliyin arxasında dayanan "rasionallıq" onun yalnız qüsurlu ola biləcəyini ortaya qoyur. Çarlz Pirs qeyd edir ki, xoşbəxtlik elmi əsassız fərziyyələrə, nəzəri uyğunsuzluqlara, metodoloji məhdudiyyətlərə, sübut edilməmiş nəticələrə və şişirdilmiş ümumiləşdirmələrə

əsaslanır [18].

İkinci tənqidi xüsus isə sosiolojidir. Xoşbəxtlik elminin bir elm kimi pis və ya yaxşı olmasından asılı olmayaraq hansı sosial aktorların xoşbəxtlik anlayışını faydalı hesab etdikləri, bu fenomenin kimin maraqları və ideoloji fərziyyələrinə xidmət etdiyi, onun geniş sosial icraatının hansı iqtisadi-siyasi nəticələr doğurduğunu tədqiq etmək essensial əhəmiyyətə malikdir. Xoşbəxtlik və onun ətrafında meydana çıxan xoşbəxtlik sənayesi maddi rifah və yoxsulluğun, uğur və uğursuzluğun, sağlamlıq və xəstəliyin yalnız öz əlimizdə olduğu prezumpsiyasının legitimləşdirilməsinə səbəb olur. Bu yanaşma həm də heç bir struktural problemin olmadığı, yalnız psixoloji çatışmazlıqların mövcud olduğu inancına da legitimlik qazandırır. Qısacası, M.Tetçerin Fridrix Hayekdən ilham alaraq bildirdiyi kimi: "Cəmiyyət deyə bir şey yoxdur, var olan sadəcə fərdlərdir". Xoşbəxtlik ekspertləri tərəfindən sosial olaraq formullaşdırılan xoşbəxtlik anlayışı neoliberal və Çikaqo məktəbinin iqtisadçıları tərəfindən formulyasiya edilən radikal dünya inqilabını doğuran fantazmal dəyərlərə əsaslanır. Onlar 1950-ci illərdən etibarən bildirirlər ki, xoşbəxtlik uğrunda fərdi axtarış "ümumi xeyir" axtarışının yeganə realist əvəzlənməsidir. "Sunday Times" qəzetinə 1981-ci ildə verdiyi müsahibəsində M.Tetçer qeyd edir ki, son 30 ildə siyasətin yön aldığı istiqamətdə məni ən çox qəzəbləndirən onun kollektivist cəmiyyətə doğru meyilidir. İnsanlar öz şəxsi cəmiyyətlərini unudublar. İqtisadiyyatların strukturunu dəyişdirmək bu yanaşmanı dəyişdirmək vasitəsidir. İqtisadiyyat sadəcə bir metoddur. Onun qayəsi insan ürəyi və ruhunu dəyişdirməkdir [21]. Bu perspektivdən, iddia edə bilərik ki xoşbəxtlik ekspertləri tərəfindən formullaşdırılan "xoşbəxtlik axtarışı" hamımızın uğrunda cəhd etməli olduğu ali xeyiri deyil, şəxsi, terapevtik, fərdiyyətçi və atomlaşmış cəmiyyətin kollektivist cəmiyyət üzərində zəfərini təmsil edir.

Üçüncü təndiqi xüsus fenomenoloji olaraq adlandırıla bilər. Fenomenoloji olaraq modern xoşbəxtlik elminin arzuolunmaz və paradoksal nəticələri ortaya çıxardığı inkaredilməz bir reallıqdır. Ona görə də, bu psevdo-elm özünün rifah və şəxsi təkmilləşmə prezumpsiyalarının aradan qaldırmağa söz verdiyi, lakin aradan qaldıra bilmədiyi qeyri-autentikliyin, yetərsizliyin və öz-özünü reallaşdıra bilməmənin terapevtik narrativlərinə əsaslanır. Aydın sonu olmayan, hüdudsuz bir mühərrik hədəf kimi yaradılan imperativ olmaqla xoşbəxtlik "xoşbəxtlik axtarışları"nın yeni variasiyalarını, eləcə də daxili "Mən"lərinə köklənən, daimi olaraq psixoloji qüsurlarını düzəltməyə çalışan, konstant şəkildə şəxsi transformasiyası üzərində qayğılanan "həppixondriakları" ortaya çıxarıb. Bu da xoşbəxtliyi mental və fiziki sağlamlığımız ilə obsessiyanı normallaşdırmağa çalışan bazarlar üçün mükəmməl bir əmtəəyə çevirir. Habelə, Fukonun "Seksuallığın tarixi" adlı kitabına müraciət edərək qeyd etməliyik ki, mental sağlamlıq metaforalarına daxil edilən "özmənlik qayğısı" paradoksal şəkildə davamlı korreksiya və transformasiyaya ehtiyac duyan mental olaraq xəstə özbaxışını formalaşdırdı [19].

Dördüncü tənqidi xüsus isə əxlaqi olmaqla xoşbəxtlik və qeyri-xoşbəxtlik arasındakı münasibəti özündə ehtiva edir. Xoşbəxtlik və pozitivliyi produktivlik, funksionallıq və hətta normallıq ilə identifikasiya etməklə (qeyri-xoşbəxtliyi isə bunun tam şəkildə əksi ilə) xoşbəxtlik elmi bizi əzab və maddi-mental rifah arasındakı seçimin kəsişmələrində yerləşdirir. Bu perspektivdən, bir-birinə zidd diametral qütblər olmaqla pozitivlik və neqativlik arasında seçim imkanına insan həmişə sahibdir. Dolayısilə, insan əzabı və ya qeyri-xoşbəxtliyi birdəfəlik

həyatından çıxarmaq mümkünlüyünə sahibdir. Əlbəttə ki, faciələr qaçılmazdır. Lakin xoşbəxtlik elmi xoşbəxtlik və əzabın şəxsi seçim məsələsi olduğu üzərində təkid edir. Uğursuzluq və ya şanssızlığı şəxsi mükəmməlləşmə vasitəsinə çevirə bilməyənlər öz əzablarına layiq olmaqda təqsirləndirilir (spesifik şərtlər nə olursa-olsun).

Neqativlik, çatışmazlıq, qeyri-xoşbəxtlik, tətminsizlik əxlaqi qüsurlar və bundan daha pisi varlığımız, yaxud çılpaq həyatımızda bir deqradasiya olaraq dərk edilir. Bu, Alenka Zupançiçin "bioəxlaq" [17] adlandırdığı fenomenin spektakulyar yüksəlişi, hətta dominantlığıdır. Dolayısilə, misli görünməmiş bir tranformasiyaya məruz qalan "xoşbəxtlik" sadəcə bizim seçdiyimiz bir şeyə deyil, həyatımızın hər bir anında diqqət yetirməli olduğumuz əxlaqi imperativə çevrilib. Reklamlar və həyat tərzi dərgilərindən püskürən bu əmr amansız transmissiya ilə həyatımıza elə nüfuz edir ki, onun haradan qaynaqlandığını, yoxsa daxili dünyamızdanmı meydana çıxdığını bilmirik.

Xoşbəxtlik qlobal iqtisadi elitaların əsas maraq sferasına transfomasiya olub. Müxtəlif degenerat formalarında xoşbəxtlik gəlir əldəetmə biznesinə bir əlavə deyil. Ölçülə, görülə və sübut oluna bilən bir fenomen olmaqla xoşbəxtlik qlobal iqtisadi menecmentin daxili qalasına nüfuz edib. Uğurlu kapitalizmin gələcəyi modern insanın stress, iztirab və xəstəlik ilə mübarizə aparmaq qabiliyyətindən, relaksasiya, xoşbəxtlik və rifahı doğru dəyərləndirə bilməsindən asılıdır. Buna nail olmaq üçün əlçatan olan texnologiyalar, texnikalar və metodlar evlərə, iş yerlərinə və ən əsası insan bədəninə sürətlə nüfuz edə bilir. Bu agendanı dəstəkləyən xoşbəxtlik elmi sürətlə tərəqqi etməkdədir. Xoşbəxtlik və qeyri-xoşbəxtliyin fiziki olaraq beyinə necə həkk edildiyini bildirən nevroloqlar insanın mental xoşbəxtliyi üçün nevroloji əsaslandırmalar irəli sürməyə cəhd göstərirlər. Onlar beynin pozitiv və neqativ emosiyalar doğuran hissələrini aşkar etdiklərini iddia etməklə vurğulayırlar ki, fərdlər smartfon tətbiqatlar və gündəliklər vasitəsilə şəxsiləşmiş "əhval-ruhiyyə datası"nı formalaşdırırlar [16]. Bu sahədə statistiki sübutlar toplandıqca sürətlə böyüyən xoşbəxtlik iqtisadiyyatı bu yeni data vasitəsilə hansı həyat tərzlərinin, işləmə formalarının və istehlak növlərinin daha böyük mental rifaha səbəb olduğunu irəli sürürlər.

Modern insanın ümidləri strateji olaraq obyektiv, ölçülə bilən və administrativ anlamda xoşbəxtlik axtarışına yönləndirilir [3]. Subyektiv olaraq dəyərləndirilən əhval-ruhiyyə (mood) məsələlərinə artıq "obyektiv data"dan istifadə edilməklə cavab verilir. Xoşbəxtlik elmi eyni zamanda iqtisadi və tibbi ekspertiza ilə çulğalaşıb. İnterdisiplinar xarakter alan xoşbəxtlik elmi ağıl, beyin, bədən və iqtisadi fəaliyyəti eyni qəlibə daxil etməklə məsələnin fəlsəfi problemlərini tamamilə diqqətdən kənar saxlayır. Ümumi insani optimallaşmanın vahid indeksi formalaşdırılır.

Xoşbəxtliyə qarşı olmaq mümkündürmü? Aristotel xoşbəxtliyi etik və spiritual anlamda insanın yekun məqsədi olaraq dərk edirdi. F.Nitsşe isə bildirirdi ki, insan xoşbəxtlik üçün çalışmır, bunu edən sadəcə bir ingilisdir [10]. Pozitiv psixologiya və xoşbəxtlik meyarının 1990-cı illərdən bəri həyatımıza daxil olması ilə siyasətçilər və menecerlər tərəfindən bu anlayışların qəbul edildiyi tərz haqqında kəskin ziddiyyətlər özünü göstərməyə başladı. Öz iztirablarına görə fərdləri təqsirləndirən bu elm həmin iztirabı ortaya çıxaran kontekstə heç bir məhəl qoymur. Xoşbəxtlik şəxsi "seçimdir" mantrasını təkrar edən pozitiv psixologiya da modern insanın istehlakçılıq bataqlığına daha çox gömülməsinə səbəb verir.

## 2. Neoliberalizm və xoşbəxtlik

1960-cı illərdən etibarən Qərb ölkələrinin iqtisadiyyatları fərdlərin psixoloji və emosional ruh halından kəskin şəkildə asılı olmağa başladı. Bununla da artıq fərdi kontekstdə nəzərə alınmayan depressiya və psixosomatik xəstəliklər iqtisadi ideallarын realizasiyasına köklənmiş siyasətçilər və menecerlərin problemlərinə transformasiya oldu.

Neoliberalizm siyasi-iqtisadi praktikaların sadəcə bir nəzəriyyəsindən daha geniş və fundamental bir şey olaraq görülməlidir. Neoliberalizm iqtisadi domenin bütün kultural strataya amansız ekspansiyası, siyasi və sosial qərarvermədə texno-elmi kriteriyaya artan tələbat, effektivlik, səmərəlilik və gəlir maksimizasiyasının faydalılıq (utilitarian) prinsiplərinə daha şiddətlə vurğu edilməsi, əmək qeyri-müəyyənliyinin eksponensial artımı, iqtisadi qeyri-stabillik, orqanizasional elastiklik və mərkəzsizləşdirmə, identikliklər, hisslər və həyat tərzlərinin əmtəələşdirilməsi, terapevtik etosun konsolidasiyası və fərdi öz-özünü reallaşdırma ilə xarakterizə olunan kapitalizmin yeni mərhələsi kimi dərk olunmalıdır. Qeyd edilən xarakteristikalardan daha üstün olanı odur ki, neoliberalizmin əsas diqqəti fərdi “özmənlik”dən ibarət olan, əsas antropoloji ideyasını isə “fərdləri cəmiyyət yaratma prosesində öz müqəddəratlarını müəyyən edən və bazar yerində görüşən muxtar, müstəqil aktorlar olaraq düşünməsidir. Buna görə də neoliberalizm sadəcə struktural cəhətləri kontekstində deyil, etik və əxlaqi maksimaları kontekstində dərk olunmalıdır. Bu maksimalara görə, fərdlər öz psixoloji hallarını idarə etməyə qadir olan azad, muxtar və məsuliyyətli varlıqlardır. Fərdiləşmənin və psixolojiləşmənin bu degenerativ kultural prosesi inkişaf etmiş kapitalist cəmiyyətlərində sosio-siyasi strukturları təməlindən transformasiyaya uğradır. Bu inqilab cəmiyyətlərin struktural defisitləri, ziddiyyətlər və paradokslarının psixoloji cəhətlər və fərdi məsuliyyətlilik şərtləri daxilində dərkinə gətirib çıxardı. Bununla da iş şəxsi layihələr, yaradıcılıq və təşəbbüskarlıq məsələsi, təhsil, fərdi bacarıqlar və istedadlar məsələsi, sağlamlıq vərdişlər və həyat tərzi məsələsi, sevgi şəxslərarası uyğunluq və bənzərlik məsələsi, identiklik seçim və şəxsiyyət məsələsi, sosial tərəqqi isə fərdi inkişaf məsələsi olaraq dərk edildi. Nəticə psixoloji reallıq lehinə misli görünməmiş kollapsı, siyasətin isə terapevtik siyasət ilə əvəzlənməsindən ibarət oldu. Habelə vətəndaşlığın neoliberal modelinin müəyyən edilməsində xoşbəxtlik diskursu fərdi diskursu proqressiv şəkildə əvəzlədi. Bu anlamda xoşbəxtlik zərərsiz, xoş niyyətlə formalaşdırılmış bir mücərrədlik olaraq və ya kultural, əxlaqi, yaxud antropoloji iddialarından məhrum boş bir konsept olaraq dərk edilməməlidir. Əks halda, ədalətin, həmrəyliyin və ya loyallığın deyil, məhz xoşbəxtliyin niyə tərəqqi etmiş kapitalist cəmiyyətlərində belə üstün rola malik olduğunu dərk etmək çətin olacaq.

Onu da ifadə edə bilərik ki, neoliberal cəmiyyətlərdə xoşbəxtliyin belə fundamental rol oynamasının səbəbi bu fenomenin fərdiyyətçi dəyərlər ilə zənginləşdirilməsi – fərdi “özmənliyi" nəhəng bir dəyər, qrupları və cəmiyyətləri isə separat və muxtar iradələrin aqqreqatı olaraq müəyyən etməsidir. Qeyd olunan cəmiyyətlərdə xoşbəxtlik fenomeninin dominant rol oynaması həm də onunla izah edilir ki, onun elmin neytral və avtoritar diskursu vasitəsilə qeyri-ideoloji şərtlərdə fərdiyyətçiliyi legitimləşdirmək, yenidən institusionallaşdırmaqda faydalı konsept olduğu sübuta yetirilib. Mişel Fuko və digərlərinin [6] bildirdiyi kimi, birbaşa olaraq əxlaq

və siyasətə müraciət etmək əvəzinə insani varlıqların təbii xarakteristikalarına müraciət edən neytral diskursların inandırıcılıq gücü daha çox, institusionallaşdırılması isə daha asandır. Pozitiv elmin çətiri altında xoşbəxtlik ekspertləri “xoşbəxtlik” anlayışını güclü ideoloji bir silaha çevirməklə yanaşı, insanın öz taleyi üçün şəxsi məsuliyyətliliyinə vurğu edir, iqtisadi və ya psixoloji elm adı altında fərdiyyətçiliyi daha inferiyor şərtlərdə müəyyən edir. Fərdiyyətçilik və xoşbəxtlik arasındakı sıx münasibət Şarl Ginyon və Frank Riçardson kimi sosioloq və psixoloqlar tərəfindən sübuta yetirilib [11]. Digər bir ifadə ilə “xoşbəxtlik” anlayışı məhz təməl fərdiyyətçiliyinə görə belə misli görünməmiş uğur qazana bilib. Fərdiyyətçilik üzərində qeyri-siyasi, universallaşdırıcı və legitim təsirə malik olan xoşbəxtlik fenomeninin diskursu insan həyatını aid olduğu sosio-etno-kultural birlikdən separat şəkildə dərk edərək onun daxili “özmənliyini” bütün davranışlarının səbəbi və mənşəyi olaraq görür. Xoşbəxtlik iqtisadçıları və ekspertləri ilə birlikdə pozitiv psixoloqlar bu baxımdan açar rolunu oynayır.

### 3. Pozitiv psixologiyanın apoteozisi: Bizim üçün ən yaxşısını ekspertlər bilir

“Xoşbəxtlik” və “individualizm” anlayışlarını bir-birinə sıx şəkildə bağlayan, bir-birindən asılı edən və bir-birilə əvəz oluna bilən konseptlərə transformasiya edən məhz pozitiv psixologiya oldu. Əlbəttə ki, fərdiyyətçi meyilliliklər və ehtimallar pozitiv psixologiya və onun “xoşbəxtlik” anlayışı üçün spesifik deyil. Onlar modern, “mainstream” psixologiyanın təməlini təşkil edən xarakteristik səciyyədir. Pozitiv psixologiyanın xoşbəxliyi əxlaqi və konseptual olaraq fərdiyyətçilik ilə əlaqələndirməsi inkarolunmaz reallıqdır. Pozitiv psixologiya əxlaq və ya əxlaqilik baxımından fərdin özündən başqa heç bir normativ istinad tanımır. Bu yeni “elm” deskriptiv və neytraldır. Dolayısilə, onun istənilən iddiasında heç bir əxlaqi mühakimə mümkün deyil. Lakin bu dərin paradoks yaradan bir haldır. Xoşbəxtliyin pozitiv psixoloji əsasını təşkil edən əxlaqi subyektivizm digər əsaslandırmalar qədər əxlaqidir.

Xoşbəxtlik dönüşünün mühüm səbəblərindən biri qeyd edilən neoliberal diskursun sadəcə fərdiyyətçiliyin neoliberal ideologiyası ilə birləşməsi deyil, həmçinin bu ideologiyanı elmi diskurs çərçivəsində, qeyri-ideoloji şərtlərdə legitimləşdirməsi və yenidən canlandırmasıdır. Pozitiv psixoloqlara görə, xoşbəxtliyin elmi tədqiqi göstərir ki, insan xoşbəxtliyinin 90 faizi fərdi psixoloji dəyişkənliklərdən asılıdır. Belə ki, sosio-siyasi və iqtisadi aspektlər tərəfindən oynanılan rol ya ikinci dərəcəlidir, ya da fərdlərin şəxsi rifahının itki-fayda analizində ümumiyyətlə əhəmiyyətsizdir. Onlara görə də insani inkişaf və xoşbəxtliyin elmi tədqiqi tarixi kultural və ya ideoloji təməlli deyil, nəticələri digər məkanlara, hətta bütün məkanlara və zamanlara ekspansiya edilə bilən ümumbəşəri antreprizdir. Təəccüblü deyil ki, xoşbəxtliyə bu kəskin dönüş Jill Lipovetskinin “ikinci fərdiyyətçi inqilab” adlandırdığı fenomenin konsolidasiyasından sonra meydana çıxdı [20]. Bek Gernşayma görə, psixolojiləşmə və fərdiləşmənin pervert kultural prosesi neoliberal cəmiyyətlərdə sosial və siyasi düzəni dərindən transformasiyaya uğradıb [2].

Martin Seliqman pozitiv psixologiyaya doğru yeni oriyentasiyanın “ali keşişi” hesab olunur. Psixologiyanın neqativ dimensiyasını Freydin həyatının depressiv günlərinin mənhus irsi adlandıran Seliqmana görə, bütün insanlığın xoşbəxtlik panaseyaları üçün yalnız pozitiv

dimensiya üzərində fokuslanmaq *sine qua non* şərtdir. Bu, yeni oriyentasiya Bentamın "ən böyük sayın maksimum xoşbəxtliyi" şüarının sadələşdirilmiş versiyası olaraq da adlandırıla bilər.

Konseptualizasiya ilə bağlı olaraq, pozitiv psixoloqlar xoşbəxtlik və fərdiyyətçilik arasındakı güclü assosiasiyanı müdafiə edirlər. Bununla da bir tərəfdən fərdiyyətçilik xoşbəxtliyə nail olmada etik və kultural ön şərtə çevrilir, digər tərəfdən isə xoşbəxtlik individualizm üçün əxlaqi-legitim dəyərə malik "elmi əsaslandırma"nı təşkil edir. İki konsept arasındakı sıx münasibət tavtoloji prinsiplərin dəstəklənməsi ilə nəticələnir. Bu perspektivdən, pozitiv psixoloqlar vurğulayırlar ki, xoşbəxtlik bütün insani varlıqların təbii olaraq (doğuluşdan) axtarışında olduqları bir təbii məqsəd, individualizm və məqsədlərin müstəqil, muxtar axtarışı isə xoşbəxt həyat yaşamanın ən naturalist tərzidir. Pozitiv psixologiyanın irəli sürdüyü "empirik data və sübutlara" əsasən fərdiyyətçilik heç bir siyasi, iqtisadi və sosioloji faktorlara məhəl qoyulmadan konsistent və qüvvətli bir biçimdə xoşbəxtlik ilə əlaqələndirilir (yaxud əksinə). Pozitiv psixoloq Ed Diener vurğulayır ki, digər sosio-iqtisadi və siyasi faktorlara rəğmən fərdiyyətçilik xoşbəxtlik ilə birbaşa bağlıdır [4]. Diner öz fikrini onunla izah edir ki, fərdiyyətçi mədəniyyətlər qeyri-fərdiyyətçi və kollektivist kültürlərə nisbətən həyat standartlarının daha yüksək səviyyədə tətmin edildiyi vətəndaşlar formalaşdırmaq gücündədir. E.Diner və həmkarlarının irəli sürdüyü fikrə əsasən fərdiyyətçi mədəniyyətlərdə fərdlər öz həyat kursunu seçməkdə daha azad olmaqla məqsədlərinin reallaşmasında əldə etdikləri uğuru yalnız özlərinə aid edə bilirlər [5]. Holland sosioloqu və xoşbəxtlik üzərində elmi tədqiqatların pionerlərindən biri olan Ruut Veenhoven bu düşüncəni dəstəkləyərək əlavə edir ki, individualist və modern cəmiyyətlər vətəndaşlarını dəyişən dünyada özlərini reallaşdırmaları və fəaliyyətlərini aktuallaşdırmaları üçün zəruri şərtlər ilə təmin etməklə xoşbəxtliyin daha yüksək səviyyəsinə nail ola bilir [15]. Virciniya Universitetinin psixologiya üzrə professoru Şigehiro Oişi bildirir ki, müstəqillik, muxtarlıq və fərdi özdəyərə vurğu edən bir kultural fenomen olaraq fərdiyyətçilik maddi və mental rifah ilə assosiasiya edilən ən güclü xarakteristikadır [12]. Aaron Ahuvia isə qeyd edir ki, millətlərin iqtisadi inkişafı vətəndaşlarının alıcılıq qabiliyyətlərini və həyat şərtlərini yaxşılaşdırdığı üçün deyil, insanları şəxsi məqsədləri və uğurlarına kökləyən fərdiyyətçi kültürləri yaratdığı üçün yüksək xoşbəxtlik indeksinə nail ola bilir [1].

Xoşbəxtlik hər kəsi eyni terapevtik sxem daxilində yerləşdirə bilir: müəyyən bir problemin etirafı, özünənəzarət üçün sərt tədbirlərin qəbul edilməsi, ehtiyac duyulduğu zaman ekspert texnikalarına müraciət, daha pozitiv prizm vasitəsilə düşüncə və emosiyaları yenidən müəyyən etmək. Emosiyalar üçün pozitiv psixologiya tərəfindən irəli sürülən ümumi çərçivə reduksionistdir. Emosiyalar müxtəlif və bir-birilə əlaqəsi olmayan fenomenləri özündə ehtiva edən (hisslər – bədən və sensoral dəyişikliklər, persepsiyalar, fərqindəlik və subyektiv dəyərləndirmələr, performanslar – kommunikativ və ekspressiv modellər, tarixi və kultural dəyərlər, ümumi anlamlar və narrativlər, sosial strukturlar – oturuşmuş normalar, qanunlar və davranışın sosial qəlibləri) kompleks təcrübələrdir. Lakin emosiyalara naturalist yanaşmaya bağlı olan pozitiv psixologiya onları insanların ümumbəşəri hallarının fiksasiya edilmiş toplusu olaraq dərk edir. Bu asosial və qeyri-tarixi (ahistorikal) yanaşma tarixi, sosioloji və psixoloji yanaşmalarda qeyd edilən emosiyaların

kompleksliliyi və çoxüzlü təbiətini inkar edir.

Pozitiv psixologiya emosiyaların fərdlərin olduğu kimi, qruplar, topluluqlar və cəmiyyətlərin səciyyələri olduğunun da dərkindən uzaqdır. Bu, sadəcə ona görə deyil ki, emosiyaların şəxslərarası funksionallığı (kommunikasiya, inandırma və identifikasiya) var, həm də ona görə ki, istənilən emosiya kultural və sosial mahiyyət kəsb edə, eləcə də sinfi, cinsi və irqi məsələlər ilə bağlı ola bilər. Pozitiv psixoloqların emosiyalara dair yanaşması fərdlərin emosional həyatının seçim və istehlakın dəyişən modelləri, habelə ictimai situasiyalar və iqtidar münasibətləri kimi sosial strukturlar ilə sıx şəkildə bağlı olduğunu nəzərdən qaçırır. Emosiyaların müəyyən əxlaqi düzən daxilində fərdin şəxsi baxışlar və sosial münasibətlərini müəyyənetmə tərzləri olduğu da unudulur.

"Xoşbəxtlik əxlaqı"na vurğu edən saysız tədqiqatlara rəğmən, pozitiv psixoloqlar dərin əxlaqi kontenti minimallaşdıran, neytrallaşdıran, hətta bəzən inkar edən təkamülçü və pozitiv perspektivlər ilə çıxış edirlər. Digər tərəfdən, pozitiv və neqativ emosiyalar arasında kəskin bölgü edilərkən emosiyalar perspektivindən pozitivlik və neqativliyin bir-birindən ayrılmasının mümkün olmadığına diqqət yetirilmir. Həyatımızda baş verən hadisələrin doğurduğu hisslər ambivalent xarakterlidir. Emosiyaları dəqiq müəyyən edilmiş konturlara malik, müəyyən hisslərin kombinasiyası olaraq dərk etmək yanlış olardı. Çünki fərdin yaşadığı hal bir deyil, bir neçə emosiyaların cəmini (qorxu, məyusluq, qəzəb, günahkarlıq və s.) özündə ehtiva edə bilər. Buna görə də birmənalı şəkildə "xoşbəxtlik" adlandıra biləcəyimiz, eyni zamanda yaxşı və pis, pozitiv və neqativ, funksional və disfunksional kimi spesifik hal, yaxud təcrübənin olmadığını söyləyə bilmərik.

Getdikcə əmtəələşdirilən xoşbəxtlik nə qədər tətminedici olub-olmamasından asılı olmayaraq hər kəsin ehtiyac duyduğu fenomen olaraq dərk edilir. Xoşbəxtlik sadəcə neqativin yoxluğu deyil, pozitivliyin daha da pozitivləşdirilməsi olaraq dərk edilir. Beləliklə, modern xoşbəxtlik bir kontinuum olaraq formalaşdırıldı. Dolayısılə o, insan həyatında hər hansı xüsusi və yekun mərhələni təmsil etməyən sonsuz şəxsi mükəmməlləşmə prosesidir. Əsrimizin "Zeitgeist"ına çevrilən "pozitivizm" və "öz-özünü müəkəmməlləşdirmə" (amerikalılarda müşahidə etdiyi qeyri-müəyyən "mükəmməllik" ideyası) haqqında Aleksis de Tokvil "Amerikada demokratiya" adlı kitabının ikinci cildində qeyd edir: "Vətəndaşlar rank, doğuluş və ya ixtisas ilə klassifikasiya olunduqda, hər kəs taleyin onların qarşısında açdığı həyat yolunu izlədikdə qarşılarındakı insan cəhdlərinin məhdudiyyətlərini görə bildiklərini düşünürlər. Aristokratik xalqlara məxsus bu xüsusiyyət insanın öz-özünü inkişaf etdirmə qabiliyyətini inkar etməsi deyil, bu, özünüinkişafın qeyri-məhdud olmadığını düşünməkdir. Onlar dəyişiklik deyil, ameliorasiya – yaxşılaşdırma perspektivindən düşünürlər. Lakin kastalar aradan qalxdıqda, vərdişlər, ənənələr və qanunlar dəyişdikdə, yeni faktlar və yeni "həqiqətlər" kəşf olunduqda, qədim konsepsiyalar yeniləri ilə əvəzləndikdə insan ağlı ideal, amma erratik – fərari mükəmməlliyin mümkünlüyünə inanır və insana qeyri-məhdud öz-özünü inkişaf etdirmə qabiliyyətinin bəxş olunduğu qənaətinə gəlir [14].

Lakin amerikalılardan fərqli olaraq, yaponlar üçün subyektiv rifah özünütənqidi baxış ilə bağlı olmaqla, neqativ səciyyələrə sahibliyi özündə ehtiva edir. Amerikalıların özünüinkişaf tendensiyası özünə qarşı yüksək dəyər ilə düz mütənasibdir. Amerikan fərdləri

üçün "özmənliyin" pozitiv aspektlərini tapmaq və onların gücləndirilməsi, "özmənliyin" neqativ aspektlərinə məhəl qoyulmaması və onlara vurğu edilməməsi ilə birlikdə funksional aktor kimi "özmənlik" ideyasının təməlini təşkil edir. Lakin yapon fərdləri üçün özünütənqid və "özmənliyin" neqativ xarakteristikalarının aşkar edilməsi, eləcə də onun pozitiv aspektlərinə vurğu edilməməsi özünüinkişafın mühüm bir hissəsidir. Neqativ atributlar sosial olaraq ümumi perfeksiya standartlarına müvafiq olaraq korreksiya və ya eliminasiya edilir. Beləcə, funksional, qarşılıqlı olaraq asılı aktor kimi yapon "öz ideyası"-nın təməlini özünütənqid tendensiyası təşkil edir. Şəxsi xoşbəxtlik amerikalılardan fərqli olaraq özünü yüksək qiymətləndirmədən asılı deyil. Subyektiv rifah yapon cəmiyyətinin ümumi kultural standartları daxilində çatışmazlıqlar və defisitlərə aktiv şəkildə cavab verən "özmənliyin" tənqidindən əhəmiyyətli dərəcədə asılıdır. Qarşılıqlı asılı fərdlər kimi yaponlar üçün ümumi xoşbəxtlik özünü yüksək dəyərləndirmədən radikal şəkildə separatdır [8].

Pozitivizmin "öz-özünü aktuallaşdırma" diktumu daxilində fərdlər özləri haqqında nə hiss etdiklərindən asılı olmayaraq xoşbəxtliyin daha ali səviyyələri üçün mübarizə aparmalıdırlar. Xoşbəxtlik axtarışı fərdləri öz-özünü yaratmanın sonsuz prosesinə daxil etməklə yanaşı, onlarda daimi olaraq natamamlıq hissini, hər zaman nə isə çatışmadığı düşüncəsini formalaşdırır. İdeal üfüqlər olaraq tam xoşbəxtliyə və tam şəxsi inkişafa çatmaq qeyri-mümkündür. Xoşbəxtliyin bu qeyri-birmənalı və ziddiyyətli narrativi qeyd olunan fenomenin bazar üçün ideal bir əmtəəyə çevrilməsinə səbəb olur. Xoşbəxtlik tətminsizliyini istehlak patomaniyası ilə birləşdirən məhz bazardır. Bütün bu aspektlər bir əmtəə kimi spesifik varlığını əldə edən xoşbəxtliyin niyə bu günün bazar məkanında essensial rol oynadığını aşkara çıxarır. Bu gün xoşbəxtlik sadəcə insanları boş vədlər və efemeral həzzlər ilə şirnikləndirmək üçün istifadə edilən bir əmtəə deyil. Əksinə, bir məhsula çevrilən xoşbəxtlik fərdlərə xoşbəxtliklərini daimi olaraq yüksəltməyi vəd edən iqtisadi dinamonun özəyini təmsil edir.

XXI əsrin kapitalizmi güclü nəhəng xoşbəxtlik iqtisadiyyatının doğuşuna səbəbiyyət verdi. Bu, bir fiqurativ ekspressiya deyil. Xoşbəxtlik getdikcə daha böyük sürətlə ekspansiya edən qlobal - multimilyardlıq xoşbəxtlik sənayesinin fetiş əmtəəsinə transformasiya edilib. Elmi texnikalar və psixoloji menecment xarakterində həm istehsal, həm də istehlak edilən xidmətlər, terapiyalar və əmtəələr (emoditi) şəxsi transformasiyanın reallaşmasında effektiv rol oynaya bilir. Xoşbəxtliyin ən dəyərli şəxsi investisiya olduğu inancının dominantlığının formalaşması ilə daha xoşbəxt fərdlərin daha sağlam, daha adaptiv və daha produktiv olmaları ilə yanaşı, özlərini daha yaxşı motivasiya edə bildikləri, habelə təməl olaraq daha yaxşı vətəndaşlar olduqları düşünülür.

Xoşbəxtlik fenomeninin bazara insersiyası böyük sosioloji əhəmiyyətə malikdir. Xoşbəxtliyi özünün mərkəzi əmtəələrindən birinə çevirən bazar bu fenomenin ekspansiyası və təsirinin son onillikdə sürətlə genişlənməsində ən güclü faktordur. Fərdin şəxsi, iqtisadi və siyasi dəyərinin müəyyən edilməsində mərkəzi konsept olmaqla xoşbəxtlik istehlakçı kapitalizmə əmtəələşdirmək üçün qiyməti olan, amma dəyəri olmayan, ölçülə bilən, legitim konsept bəxş edib. Bu günün istehlakçı kapitalizmində xoşbəxtliyin niyə belə essensial və effektiv əmtəəyə çevrilməsinin digər izahı ondan ibarətdir ki, hər şeydən əvvəl xoşbəxtlik emoditiləri xoşbəxtlik

özlərini sadəcə qaçış, ümid, sevinc və inandırmanın keçici anlarını təklif etməklə məhdudlaşdırmırlar. Onlar xoşbəxtlik axtarışını bir həyat tərzinə, ağıl və ruhun vərdişinə, nəticədə isə neoliberal cəmiyyətlərin vətəndaşlarını "psitizen"lərə transformasiya edən fərdiyyətçilik (şəxsiyyət) modelinə çevirirlər.

Fərdiyyətçi və istehlakçı subyektivliyə malik olan "psitizen" anlayışı neoliberal cəmiyyətlərin vətəndaşlarına fərdi dəyərə sahib olma və funksionallığın psixoloji vasitələr ilə konstant şəkildə öz-özünü optimallaşdırmaya bağlı olduğu inancını təlqin edir. Şəxsiyyətin və fərdiyyətçiliyin bu modeli emosional öz-özünü idarəetmənin iqtisadi diktumları, autentiklik və kapitalist iqtisadiyyatın xarakteristikası olan davamlı şəkildə öz-özünü mükəmməlləşdirmə ilə uyğunluq təşkil edir. Bununla bərabər, bu növ fərdiyyətçilik psixoloji və emosional dil vasitəsilə öncül iqtisadi tələbatların şəxsiyyət formasında yeni formullaşdırılması və yenidən istehsalına legitimlik qazandırır.

Beləcə, biz xoşbəxtliyi bir emosiya olaraq deyil, emosional və psixoloji şərtlərdə müəyyən edilən, bazar tərəfindən qəlibləşdirilən şəxsiyyətin spesifik və normativ modeli olaraq dərk edə bilərik. Burada irəli sürülən arqument əslində terapevtik mədəniyyətin sosioloji əsaslarının kəskin tənqidi ilə assonans təşkil edir. Bu arqument eyni zamanda xoşbəxtlik və bazar arasındakı münasibətin öncəki tənqidi analizlərini də əks etdirir. Sem Blinki qeyd edir ki, xoşbəxtliyin çağdaş psixoloji diskursu iqtisadi siyasətin məntiqinin şəxsi, emosional və maddi-korporeal praktikanın məntiqinə transformasiyasını asanlaşdırdı. Xoşbəxtliyin daxilimizdə meydana çıxardığı pozitiv emosiya, canlılıq və optimizm neoliberal diskursda təqdis edilən "biznes"in refraksiyasından başqa bir şey deyil. Opportunist şəkildə xoşbəxt həyat axtarışı neoliberalizmin mənfəətçi və kompetitiv davranışlar əmrinin refleksiyasıdır.

İspaniyalı sosioloq Edqar Kabanyas "psitizen"i vətəndaşları xoşbəxtliyi axtarmaq, inkişaf etdirmək və istehlak etməyə sıx bağlı edən fərdlər kimi müştərilərə çevirən subyektivliyin neoliberal və konsyumerist növü adlandırır. Burada xoşbəxtlik insan fəaliyyətinin ümumbəşəri leytmotivi olaraq dərk edilir. "Psitizen"in mövcudiyyət şərtləri yüksək dərəcədə psixoloji və eyni zamanda paradoksaldır. Çünki o, fərdlərin daxili autentikliyi əsasında azad şəkildə seçmək və öz müqəddəratını təyin etmək üçün təbii muxtariyyətinə olan mütləq inancın onların psixoloji əmtəələr və texnikalardan mütləq asılılığının kombinasiyasıdır [18].

"Psitizen" anlayışı ilə vurğulanmaq odur ki, psixolojist meyil, subyektivliyin hiper-fərdiyyətçi forması və konsyumerist rasionallıq (raison d'etre) neoliberal xoşbəxtlik diskursunun təməlini təşkil edir. Pozitiv psixoloqlar və xoşbəxtlik ekonomistləri neoliberal fərdiyyətçiliyi daha da canlandırır və legitimləşdirir.

Pozitiv pxiologiyadan qaynaqlanan xoşbəxtliyin neoliberal diskursu və "psitizen"in üç təməl cəhətini qeyd etməliyik: 1. "Emosional rasionallıq" – öz problemlərinin öhdəsindən gəlmək, prioritetlərini iyerarxiyalaşdırmaq və məqsədlərini effektiv şəkildə reallaşdırmaq üçün fərdlərin öz hisslər, düşüncələr və motivasiyalarına hökm edə bilmək iqtidarı; 2. Autentiklik – fərdlərin yüksək dərəcədə plüral və heterogen bazar opsiyalarının korpusu arasında şəxsiyyət, zövqlər və tərcihlərinə uyğun şəkildə refleksiv, strateji seçim edə bilmək bacarığı; 3. Özünüinkişaf – fərdlərin subyektiv xoşbəxtliyini artırmağa xidmət edən yeni yollar axtarışında pozitiv emosiyalar və düşüncələr üzərində işləməsi.

Bununla da, "ekspert biliyi", pozitiv psixoloji texnikalar və applikasiyalar formasında xoşbəxtlik əmətəələrinin tələb-təklifi ətrafında "xoşbəxtlik sənayesi" meydana çıxır. Bütün bu "psi xidmətlər" xoşbətliklərinin simvolik dəyərini "emosional və iqtisadi avuara çevirməyə yardım edəcək" başlığı altında satılır. Burada xoşbəxtlik inkişaf etmiş kapitalist cəmiyyətlərinə xas, psixoloqlar və fərdlərin tələb-təklif münasibətinə daxil olduğu yeni xidmət forması olaraq görülməlidir. Fərdlər psixoloqların təmin etdiyi repertuarlar və texnikalar vasitəsilə emosional həyatını kapitallaşdırır, eyni zamanda həm istehsal, həm də onu istehlak edir.

Xoşbəxtliyin neoliberal diskursu insan fəaliyyətini rasional və utilitarian özünənəzarət tələbi ilə hərəkətləndirən daxili dinamikaların toplusu olaraq "emosional"ın modern romantik idealını özündə ehtiva edir. Bir tərəfdən, bu coşğular və arzular kimi anlayışlar qeyri-determinat və anlaşıla bilməyən hallar olmaqdan çıxaraq rasionallaşdırıla, lokallaşdırıla və idarə edilə bilən emosiyalara çevrilir. Digər tərəfdən, rasionallıq fəzilət, düzən və aksioloji, etik prinsiplərə bağlılıq məsələsi olmaqdan çıxaraq təbii mental mexanizmlərdə yerləşən psixoloji qabiliyyətə çevrilir. Bu, özünüidarəetmənin klassik liberal və neoliberal etikası arasındakı əsas fərqliliklərdən birini aşkara çıxarır: klassik liberalizm fərdlərin necə davranmasını (təbii olaraq) necə davranmalı olduqlarından (etik anlamda) ayırarkən bu iki sfera arasındakı toqquşmanı qəbul edirdi. İnsan təbiətindən qaynaqlanan neoliberal etika isə fərdlərin təbii olaraq özünüidarəetmənin psixoloji mexanizmi ilə təmin olunduğu hipotezisindən çıxış edir. "Özünü yaradan insan"ın liberal idealının xarakteristikası kimi "özünüidarə tələbi" artıq etik, ideoloji və ya siyasi deyil, tamamilə psixoloji problem olaraq dərk edilə bilər.

Özünüidarəetmə sadəcə bir kultural nəzəriyyə deyil, həm də sosial mühəndislikdir. Pozitiv psixologiyadan da istifadə edilməklə, bu proyekt Qərb kultural strukturunun əsas nizamçarxları (liberal pedaqogikaya əsaslanan təhsil, produktiv və istehlakçı vətəndaşa əsaslanan iş, standartlaşdırılmış, homogenləşdirilmiş və nəzarət edilə bilən vətəndaşa hədəflənmiş sağlamlıq və təhlükəsizlik) inkişaf etdirilib. Heç şübhəsiz, Qərb ölkələri "özünüidarəetmə prinsipi"nə ən bağlı ölkələrdir. Bu ölkələrdə psixoloji tətbiqatların ən modern versiyalarının nailiyyətləri məhz bununla bağlıdır. Nikolas Rouz bildirir ki, tətbiqi psixologiya sadəcə ümumi bir sosial texnologiya deyil, o, "daxili öz"ün bir texnologiyasıdır [13]. Pozitiv psixologiya insan təcrübəsinin əsas fokusunun daxili instansiyada yerləşdirilməsi və bu prinsiplə də refleksiv və özünə nəzarət edən fərdiliyin konstruksiyası üçün istifadə edilməsidir. Fukonun dəsti-xətti ilə N.Rouz bu yeni psixo-siyasi fenomeni "governmentallıq" adlandırır və modern insanın bununla fərdiliyinin yeni psixoloji anlamlarını qazandığını, habelə xoşbəxtlik, muxtariyyət və azadlıq kimi kultural dəyərlərə yiyələnmək üçün bu "psixoloji anlam"lar ilə uyğunluq içində yaşayan, həm də fəaliyyət göstərən aktora çevrildiyini bildirir. Artıq özünü sosio-siyasi aktor olaraq xarakterizə edə bilən "aktiv vətəndaş" deyil, faydalı və itaətkar vətəndaş olaraq konstruksiya edilməyi gözlədən subyektlər – "passiv psitizen"lər dominantdır. Pozitiv psixoloqlar qeyri-tənqidi şəkildə bu konstruksiyada sosial mühəndis rolunu oynayırlar.

Bu perspektivdən, "emosional intellekt" artıq okzimoronik deyil, emosional rasionallıq üçün genişmiqyaslı sosial tələbdir. Bununla emosiyalar fərdi məsuliyyətlilik domeninə daxil olur. Emosiyalar neoliberal cəmiyyətlərin

özünəqayğı terapevtik etosunun özəyini təşkil edir. Onlar sadəcə xoşbəxtlik, sağlamlıq və sosial adaptasiyanın deyil, habelə əzab və sosial uyğunsuzluğun öncül mənbələridir. Buna görə də emosional tənizmləmə və emosiyaların doğru menecmenti əsrimizin “top” sosial tələbidir. Mərakeş əsilli fransız sosioloqu Eva İyuz neoliberal kapitalist cəmiyyətlərində emosional özünənəzarət ilə istehlak məntiqi arasındakı sıx bağlılığın mövcud olduğunu göstərmək üçün “emosional kapitalizm” anlayışını irəli sürür [7].

Xoşbəxtlik əsaslı texnikaların məqsədi psixikanı dərindən və ya struktural olaraq dəyişdirmək deyil. Əksinə, bu texnikalar fərdlər tərəfindən asanlıqla idarə oluna, nəzarət edilə və başa düşülə, həm də dəyişdirilə bilən praktik və pozitiv aspektlər üzərində fokuslanan bir xidmət olaraq təklif edilir. Həqiqətən, bir tərəfdən xoşbəxtlik əsaslı texnikalar fərdləri “psixika” haqqında daha qeyri-texniki və demotik dil ilə təmin edərək onların “öz”lərini dərk etmələrini asanlaşdırır, lakin digər tərəfdən, bu texnikalar “özünənəzarəti” özünütənqid, yaxud mühakiməedici bir şeyə çevirmir. Əksinə, emosional və koqnitiv öz-özünü tənzimləmə fərdlərin nailiyyətlər, pozitiv hisslər və gözləntiləri üzərində fokuslanmalı olduqları bir mülayim proses olaraq təsvir edilir.

Hər zaman natamam olan “xoşbəxt öz”ə sahib fərddən hər bir məqsədində uğur üçün pozitiv emosiyalar, affektlər və intuitiv biliklərin davamlı, sürətli tətbiqi tələb olunur. Fərdlərin davamlı özünüinkişafı üçün “xoşbəxtlik sənayesi” istehlakçıları üçün maddi və qeyri-maddi əmtəələrin geniş şəbəkəsi ilə çıxış edir. Bura gözəllik, dəb, fitness, sağlam qidalanma, evlilik üzərində məsləhət xidmtələri və məhsullar, terapevtik tövsiyə, peşəkar konsultasiya, müxtəlif seminarlar, smartfon tətbiqlər daxildir.

Neoliberalizm və inkişaf etmiş kapitalizm dərin iqtisadi, siyasi və institusional transformasiyalar ilə yanaşı, Markuzenin qeyd etdiyi kimi, infrastruktural səviyyədə dərin dəyişmələrə səbəb oldu. “Hisslərin yeni strukturu” ilə bu ideologiya fərdlərdən müəyyən var olma, düşünmə və aktivlik tərzləri tələb etməklə digərlərini ya qadağan, ya da stiqmatizasiya edir. Bu var olma, düşünmə və akt formaları yüksək dərəcədə fərdiyyətçi və psixolijiləşmiş vətəndaşlıq anlayışlarına müvafiqdir.

Xoşbəxtlik axtarışına cəlb olunmaqla biz özümüzü və ya cəmiyyətimizi daha da yaxşılaşdırmaq üçün deyil, bir konsept, sənaye, biznes və istehlakçı həyat tərzi olaraq xoşbəxtliyin iqtidarı, nüfuzediciliyi və legitimliyi üçün çalışırıq. Bizə adaptasiya olan, hisslərimizin işıqlı və kölgəli rəsminə çevrilən, düşüncələrimizin qeyri-birmənalılığını, yaxud bütöv həyatımızın kompleks teksturasını öz-özlüyündə əks etdirən xoşbəxtlik deyil. Xoşbəxtliyin istehlakçı məntiqinə adaptasiya olmalı, onun tiranik və qapalı ideoloji tələbləri ilə uzlaşmalı, dar, reduksionist və psixolojisist ehkamlarını qəbul etməli olan bizik. Məhz beləcə “xoşbəxtlik elmi” ilə insan həyatı üzərində neoliberalizmin total nəzarəti təsis edilir.

Daxililik həyatımızı qura, təməl sosial dəyişikliyə nail ola biləcəyimiz yer deyil. İnsanın düşüncələri, hissləri və özünüinkişaf gözləntiləri ilə obsessiv şəkildə yaşaması kəskin aberrasiyadır. Neqativ hisslərin stiqmatizasiyası və pozitiv psixologiya tərəfindən insan həyatından çıxarılmağa çalışılması bütövlükdə insanda insaniliyin eliminasiyasına cəhddir. Həzverici bir makinanın real həyatımıza nəzarət etməsinə icazə verə bilərik mi? Cavabımız Robert Nozik üslubunda "xoşbəxtlik və həzz axtarışı reallıq, bilik (özü və ətrafı haqqında tənqidi düşüncə) axtarışını üstələyə

bilməz" olmalıdır. Neoliberalizmin öz-özünü yaradan, öz-özünü idarə edən və öz-özünü müəyyən edən “ideal vətəndaş”ı antik yunan cəmiyyətində (Aristotelin vurğuladığı) vətəndaşlıq fəzilətlərinin – fronesis, dianoetika, harmoniya və eunoya - heç birini özündə ehtiva etməyən, sadəcə bir “həppixondriak” - “xoşbəxt monad”dır.

## Nəticə

“Xoşbəxtlik” anlayışı da təbii, istehlak edilə bilən və elmi kriteriyaya əsaslı standart olaraq yenidən müəyyən edilir. Mediadan bədii məhsullar və pozitiv psixoterapevtik xidmətlərə qədər xoşbəxtliyin belə sürətli əmtəələşməsi qeyd edilən neoliberal ideoloji prezumpsiyalar ilə bağlıdır. “Xoşbəxtlik sənayesi”nin yüksəlişi fərdlərin bir modus vivendi olaraq xoşbxətliyi böyük ölçüdə internalizasiya etməsini izah edən faktordur. Neoliberal cəmiyyətlərin iqtisadi praktikalarından xoşbəxtlik mərkəzi rol oynayır, çünki əmtəələrin iqtisadi dəyəri onların emosional dəyərinə inteqral şəkildə bağlıdır. Bununla, xoşbəxtlik artıq emosiyadan daha çox, emosional, psixoloji şərtlər və praktiklarda müəyyən edilən, emosional rasionallıq, autentiklik və kontinual özünüinkişaf tələbi ilə xarakterizə olunan normativ subyektivlik olaraq başa düşülə bilər.

Xoşbəxtlik artıq uçucu, keçici, müvəqqəti bir hal kimi dəyərləndirilə bilməz. Çünki konstant pozitiv emosiyalar və hisslər yalnız xoşbəxtliyə səbəb ola bilər, lakin xoşbəxtliyin neoliberal diskursunda “öz-özünü yaradan insanlar” olaraq nəzərə alınan fərdlərin “öz”ləri heç vaxt tam deyil və həmişə daha tam, daha yaxşı ola bilər. Bek-Gernşaym vurğulayır ki, “öz”ün fundamental natamamlığı neoliberal kapitalizmin meydana çıxdığı modernizmin ikinci fazasının özəyində dayanır [2]. Bu, qeyri-məhdud özünüinkişaf idealını tətmin edilə bilməyən istehlak və produktivlik prinsipləri ilə birləşdirən qlobal bazar üçün faydalıdır.

“Xoşbəxtlik sənayesi” (və ya xoşbəxtlik elmi) istehlakçıları emosiyaları azad iradələrinin və şəxsiyyətlərinin konstitutivi olan suveren və muxtar varlıqlar olaraq deyil, müxtəlif simulakrumlar və səs effektləri tərəfindən daimi olaraq emosional şəkildə şirnikdirilə bilən “varlıqlar” kimi dərk edir.

Bu gün A.Hakslinin “Cəsur yeni dünya”sının ekvivalenti olan xoşbəxtlik sənayesinin məqsədi insan hissləri və emosiyaları üzərində total nəzarətdir. O, sadəcə olaraq mövcudiyyətimizi formalaşdıran şərtləri dərketmə qabiliyyətimizi aradan qaldırmır, həm də onları keçərsizləşdirir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

**İngilis dilində:**

1. *Ahuvia, Aaron C.,* ‘Individualism/Collectivism and Cultures of Happiness: A Theoretical Conjecture on the Relationship between Consumption Culture and Subjective Well-Being at the National Level’, Journal of Happiness Studies, 3.1 (2002), 23–36

2. *Beck, Ulrich., & Beck-Gernsheim, E. (2002). I*ndividualization. Institutionalized Individualism and Its Social and Political Consequences. London, UK: SAGE Publications.

3. *Davies, William (2015).* The Happiness Industry. How the Government and Big Business Sold Us Well-Being. London, UK and New York, NY: Verso.

*4. Diener, Ed. (2012).* New findings and future directions for subjective well-being research. American Psychologist, 67(8), 590–597

*5. Diener, Ed., Diener, M., & Diener, C. (2009).* Factor predicting the subjective well-being of nations. In E. Diener (Ed.), Culture and well-being. The collected works of Ed Diener (pp. 43–70). Dordrecht, The Netherlands; Heidelberg, Germany; London, UK; New York, NY: Springer

*6. Foucault, Michel.* "The Birth of Biopolitics", Lectures at the Collège de France, 1978-79, Palgrave Macmillan, 2008

*7. Illouz, E. (2007). Cold intimacies: The making of emotional capitalism. Cambridge, UK: Polity Press. Illouz, E. (2008). Saving the modern soul. Therapy, emotions, and the culture of self-help. London, UK: University of California Press*

*8. Kitayama, S. and Matsumoto, H.* "Individual and collective processes in the construction of the self: Self-enhancement in the United States and self-criticism in Japan"., Journal of Personality and Social Psychology, 72, 1245–1267

*9. Layard, Richard (2005).* Happiness: Lessons from a new science, London, UK: Allen

*10. Nietzsche, Friedrich.* Twilight of the Idols and The Anti-Christ, New York: Penguin, 1990, 33

*11. Richardson, Frank C. and Charles Guignon. "*Positive psychology and Philosophy of Social Science", Theory and Psychology, 18.5 (2008), 605-27

*12. Shigehiro, Oishi.* Goals as cornestones of Subjective well-being, in Culture and Subjective Well-Being, American Psychological Association, APA 2000

*13. Tejerina, Jorge Castro.* "Psytizens": The Co-construction of the Professional Identity of Psychology Students in the Postmodern World", Springer Science, 2014, 393-417

*14. Tocqueville, Alexis de.* Democracy in America (Vol. 2). (G. Lawrence, Trans., J.P. Mayer, Ed.). New York: Harper & Row, Perennial Library. (Original work published 1840), 1988

*15. Veenhoven, Ruut.* Quality of Life in Individualistic Society, Veenhoven, "Life if getting better", p.120

*16. Wolf, Gary. '*Measuring Mood: Current Research and New Ideas', quantifiedself.com, 11 February 2009

*17. Zupancic, Alenka.* "The Odd One In – On Comedy", MIT Press, 2008, p.5

**Fransız dilində:**

*18. Cabanas, Edgar Illouz, E.., Happycratie: Comment l'industrie du bonheur a pris le contrôle de nos vies, Premier Parallèle, 2018, Kindle edition*

*19. Foucault, Michel, , "Le Souci de Soi," in "Histoire de la Sexualité: le souci de soi", vol. 3, Paris: Gallimard, 1994*

*20. Lipovetsky, Gilles.* L'ère du vide. Essais sur l'individualisme contemporain. Paris, France: Gallimard, 1983

**İnternet mənbələri:**

21. www.margaretthatcher.org/document/104475

**Subhan Padarov**

## THE MODERN DISCOURSE OF HAPPINESS AND ITS TOTALITARIAN PRESUMPTIONS

### Abstract

In the last two decades, we are witnessing the drastic shift to happiness in neoliberal societies. Happiness has become an omnipresent - existent in all the layers of social sphere – entertainment industry, educational systems, health institutions, public and private organisations, pop-literature, media, politics – and all pervading reality. That phenomenon does no longer express Western-originated, educated, democratic, rich and industrialized character, but is a psychological condition attributed to all human beings without depending on their cultural past, economic status, social strata, sex or level of education. Most importantly, happiness has been already transformed into a discourse which determines the norm of what is good, desirable and right. Together with happiness researchers, positive psychologists and happiness economists contribute to gaining strength of that discourse.

**Keywords:** concept of "happiness", discourse of happiness, neoliberalism, positive psychology, Western cultural structure

**Субхан Падаров**

## СОВРЕМЕННЫЙ ДИСКУРС СЧАСТЬЯ И ЕГО ТОТАЛИТАРНЫЕ ПРЕДПОСЫЛКИ

### Резюме

В последние два десятилетия мы являемся свидетелями резкого перехода к счастью в неолиберальных обществах. Счастье стало вездесущим - существует во всех слоях социальной сферы - индустрии развлечений, образовательных систем, медицинских учреждений, государственных и частных организаций, поп-литературы, СМИ, политики - и всей распространенной реальности. Это явление больше не отражает западное происхождение, образованность, демократичность, богатство и индустриализацию, а является психологическим состоянием, приписываемым всем людям без зависимости от их культурного прошлого, экономического статуса, социальных слоев, пола или уровня образования. Самое главное, что счастье уже превратилось в дискурс, который определяет норму того, что хорошо, желательно и правильно. Вместе с исследователями счастья, позитивными психологами и экономистами счастья способствуют укреплению этого дискурса.

**Ключевые слова:** концепт “счастье” дискурс счастья, неолиберализм, позитивная психология, западная культурная структура

# MÜASİR ŞƏRAİTDƏ PEŞƏ SOSİALLAŞMASININ XÜSUSİYYƏTLƏRİ VƏ PROBLEMLƏRİ

**Südabə HAŞIMOVA**
*Bakı Dövlət Universiteti Sosial elmlər və psixologiya fakültəsinin*
*Sosiologiya kafedrasının müəllimi*
*Bakı, Azərbaycan*

*E-mail: hashimova.sudaba@bk.ru*
*ORCID: 0009-0003-9354-0152*
*UOT- 316.42*

**Xülasə.** Hal-hazırda şəxsiyyətin formalaşması prosesinin və onun sosial mühitlə qarşılıqlı təsirinin öyrənilməsi məsələlərində alimlərin fərdin peşə sosiallaşmasına marağı kifayət qədər artmışdır ki, bu da cəmiyyətdəki və mədəniyyətdəki dəyişikliklərlə şərtlənir. Şəxsiyyətin sosiallaşması, formalaşması və inkişafı bir-biri ilə əlaqəli: ümumi sosiallaşma, peşə-rol sosiallaşması, peşəkarlaşma proseslərindən ibarətdir. "Peşə sosiallaşması" prosesi vasitəsilə insan müəyyən peşə dəyərlərinə qoşulur, peşə şüurunu və mədəniyyətini formalaşdırır, peşə fəaliyyətinə hazırlaşır. Peşə sosiallaşması insanın bütün həyatı boyu davam edir. Peşə sosiallaşmasının sosial aspekti sosial-peşə normalarının mənimsənilməsindən və şəxsiyyətin peşə fəaliyyətinin subyekti kimi formalaşmasından ibarətdir.

*Məqalənin yazılmasında məqsəd* peşə sosiallaşmasının əsas xüsusiyyətlərinin və problemlərinin sosioloji tədqiqi və müasir şəraitdə refleksiyasının öyrənilməsindən ibarətdir. Araşdırmanın aparıcı prinsiplərini struktur funksionalizm, sistemli təhlil, nəzəri ümumiləşdirmə, induksiya, deduksiya, müqayisə metodları təşkil edir.

*Məqalənin elmi yeniliyi* peşə sosiallaşmasının sosial-peşə normalarının mənimsənilməsi və şəxsiyyətin peşə fəaliyyətinin subyekti kimi formalaşması proseslərinin kompleks şəkildə tədqiq edilməsidir.

*Tədqiqatın əsas müddəaları və nəticələri* orta ümumtəhsil məktəblərində, ali məktəblərdə, məşğulluq xidmətlərində peşəyönümü işinin effektivliyinin yüksəldilməsi üzrə proqramların işlənib hazırlanmasında istifadə edilə bilər.

**Açar sözlər:** peşə sosiallaşması, peşəkarlaşma, sosial-peşə mühiti, peşə özünütərbiyəsi, peşə münasibətləri, peşə fəaliyyəti, peşə seçimi

## Giriş

Sosiallaşma problemi sosiologiyada əhəmiyyətli məsələlərdən biridir. Belə ki, o, cəmiyyətin özünüyeniləməsini təmin edir. Bu prosesin uğurundan yeni nəsillərin əvvəlki nəsillərin təcrübəsini, bacarıqlarını, dəyərlərini təhvil ala, ictimai münasibətlər sistemində onların yerini tuta bilmələri asılıdır. Uğurlu sosiallaşma insanın effektli sosial adaptasiyası, həmçinin onun şəxsi inkişafına, özünüreallaşdırmasına, özünütəsdiqləməsinə mane olan cəmiyyətə, həyat situasiyalarına müəyyən dərəcədə qarşı durmaq bacarığıdır.

Müasir dünyada özündə ən yüksək dinamizmi və universal xarakteri birləşdirən əhəmiyyətli dəyişikliklər baş verir. Reallıq göstərir ki, şəxsiyyətin sosial təşəkkülü və inkişafı qanunauyğunluqlarının və ziddiyyətlərinin yalnız məqsədyönlü kompleks öyrənilməsi sosiallaşma və peşəkarlaşma proseslərinin tənzimlənməsi və bu proseslərin idarə edilməsi üzrə tədbirlərin həyata keçirilməsi üçün elmi əsas yaradır. Müasir sosiomədəni şəraitin təhlili peşə sosiallaşması və peşəkarlaşma ilə bağlı miqyasına görə müxtəlif meyilləri fərqlənədirməyə imkan verir. Hal-hazırda şəxsiyyətin formalaşması prosesinin və onun sosial mühitlə qarşılıqlı təsirinin öyrənilməsində alimlərin fərdin peşə sosiallaşmasına marağı kifayət qədər artmışdır ki, bu da cəmiyyətdəki və mədəniyyətdəki dəyişikliklərlə şərtlənir. Sürətlə dəyişən sosial-peşə mühiti şəraitində sosiallaşma sxeminin dəyişilməsi baş verir: ənənəvi köklü formalara oriyentasiya və peşə sosiallaşması üsulları daha az effektli olur və cəmiyyətin təkrar istehsalı prosesini tam təmin edə bilmir. Bununla əlaqədar bu proseslərin konseptual, metodoloji, nəzəri təminatının gələcək inkişafı zərurəti yaranır [12, s.145].

## Əsas mətn

Sosiallaşma proseslərinin uğurunun ən mühüm göstəricisi sosiallaşma subyektinin öz fəallığıdır. Sosiallaşmış insan informasiyanı, dəyərləri, vərdişləri passiv qəbul etmir, onu fəal tətbiq edir və dəyişdirir. Belə ki, əgər cəmiyyət peşə sferasında sosiallaşma prosesində insanı peşəkar kimi yaradırsa, burada sosiallaşan fərd mövcud struktur və münasibətlərin inkişafına yaradıcı təsir edir, cəmiyyətin özünü yeniləyir. Fərd yalnız peşə mədəniyyətini mənimsəmir və qəbul etmir, həm də əmək bazarında baş verən dəyişikliklərlə, xüsusən də yeni peşələrin yaranması ilə əlaqədar olaraq peşə mədəniyyətinin özünün modelinə dəyişikliklər edir. Bu, bir çox tədqiqatlarla təsdiqlənir [9; 10; 12].

Şəxsiyyətin sosiallaşması, formalaşması və inkişafına bir-biri ilə əlaqəli üç proses daxildir, bunlar: ümumi sosiallaşma, peşə-rol sosiallaşması (insanın peşə-rol funksiyalarına, normalarına, münasibətlərinə yiyələnməsi), peşəkarlaşmadır (peşə fəaliyyətinə, ixtisasa, peşə ustalığına yiyələnmənin müəyyən dərəcəsi) [7, s.97-101].

Bəzi tədqiqatçılar ümumi sosiallaşmanı fərdin uşaqlıqda məruz qaldığı ilkin sosiallaşmaya aid edirlər. İkinci sosiallaşma ondan ibarətdir ki, artıq sosiallaşmış fərd obyektiv aləmin yeni sahələrinə qoşulur, bununla əlaqəli olaraq ikinci sosiallaşma “rolların birbaşa və ya dolayısilə əmək bölgüsü ilə əlaqəli olduğu zaman spesifik rol biliyinin qazanılması” kimi çıxış edir [13, s.15].

Bu baxımdan insanın cəmiyyətdəki öz yeri haqqındakı məsələnin həllində gənclərin peşə seçiminə və onun əldə edilməsinə dəyər münasibəti müstəsna olaraq mühüm əhəmiyyət kəsb edir. Çünki şəxsiyyət cəmiyyətin yenidən qurulmasında öz yerini və rolunu yalnız bu və ya digər ixtisasla bağlı olan öz əməyi vasitəsilə müəyyən və təsdiq edə bilər.

Peşəkarlıq - peşə-rol sosiallaşmasının davamı olan sosiallaşmanın pilləsidir. O, təcrübi fəaliyyətdə müəyyən bacarıqlara və peşəkarlığa yiyələnmənin nəticəsini ifadə edir. Konkret insan üçün peşə - cəmiyyət tərəfindən sosial sabitləşdirilmiş onun mümkün əmək fəaliyyətinin sahəsi, dolanışıq mənbəyi və şəxsi özünüreallaşdırma vasitəsidir. Peşə-rol sosiallaşması bu mərhələlərdən ibarətdir [7, s.97-101]:

- peşə oriyentasiyası;
- peşə niyyətlərinin formalaşması;
- peşə seçimi;
- peşə seçiminin möhkəmləndirilməsi;
- peşəyə aktiv və şüurlu yiyələnmə;
- əldə edilmiş peşə üzrə məhsuldar yaradıcı əmək fəaliyyəti;
- əlavə təhsilin əldə edilməsi yolu ilə öz peşə diapazonunun genişləndirilməsi cəhdi;
- peşə ustalığının yüksək səviyyəsinin əldə edilməsinə ustanovka;
- xidməti irəliləməyə can atma;
- qarışıq peşənin mənimsənilməsinə hazırlıq;
- yeni peşənin fəal mənimsənilməsi;
- peşə təcrübəsinin həmkarlara və gənclərə ötürülməsi.

Qeyd etmək lazımdır ki, peşə sosiallaşmasının yuxarıda göstərilən mərhələlərindən hər biri ümumi məqsədlə birləşmiş, bir-biri ilə əlaqəli ünsürlərdən ibarət olduqca mürəkkəb bir sistemdir.

Peşə sosiallaşması prosesi və peşəkarlaşma prosesi mənasına görə yaxın hesab edilir. Peşə sosiallaşması prosesində fərd müəyyən peşə roluna qoşulur və bu rolla bağlı olan sosial statusun daşıyıcısı olur. Peşə sosiallaşması insanın peşədəki şəxsi mənanı, peşə stratifikasiyasında öz yerini tapmağı, peşə düşüncəsinin, peşə identikliyinin formalaşmasını nəzərdə tutur [3, s.345-356]. Peşə sosiallaşması prosesi daha əhatəlidir və müəyyən bilik və bacarıqların əldə edilməsi ilə məhdudlaşmır. O, insanın bütün həyatı boyu davam edir. Peşə sosiallaşmasının sosial aspekti sosial-peşə normalarının mənimsənilməsindən və şəxsiyyətin peşə fəaliyyətinin subyekti kimi formalaşmasından ibarətdir. Peşə sosiallaşmasının uğuru insanın peşə birliyinə və bunun vasitəsilə - bütövlükdə cəmiyyətə inteqrasiyasında özünü göstərir [14] .

Peşəkarlaşma şəxsiyyətin sosiallaşması prosesinin ayrılmaz hissəsidir; bu, prosesin ikinci mərhələsinə - ikinci sosiallaşmaya aiddir. Peşəkarlaşma prosesi nə zaman, nə də təşkilati çərçivələrlə məhdudlaşır. Bu mərhələdə peşəkarlaşmanın əsas forması peşə özünütərbiyəsi (özünütəhsil) olur, yəni ikinci sosiallaşmanın agenti ailə, məktəb, ali təhsil müəssisəsi deyil, peşə fəaliyyətinin subyekti özü olur. Şəxsiyyətin inkişafının bu mərhələsində peşə özünüdərkin formalaşması, fərdin daxili şəxsiyyət strukturlarının inkişafı baş verir. İkinci sosiallaşmanın agentləri kimi həmçinin insanın işlədiyi təşkilatların əmək kollektivləri çıxış edir. Subyektin peşə fəaliyyəti birbaşa təşkilatın daxilində həyata keçirilir, peşə mühitinin təsiri altında subyektin peşə axlaqının formalaşması baş verir.

İstənilən sosial proses kimi peşəkarlaşma cəmiyyətin, bu və ya digər norma və dəyərlərin, sosial-iqtisadi hadisələrin və dəyişikliklərin təsiri olmadan baş verə bilməz. Cəmiyyət müəyyən dəyərləri formalaşdıraraq, təsdiq edərək və möhkəmləndirərək insanların həyat fəaliyyətinin ümumi istiqamətini müəyyən edir.

Peşə sosiallaşmasının mahiyyəti ondan ibarətdir ki, bu prosesdə fərd müəyyən peşə roluna qoşulur və bu rolla əlaqəli sosial statusun daşıyıcısı olur. Peşə sosiallaşması insanın peşədəki şəxsi mənanı, peşə stratifikasiyasında öz yerini tapmasını, peşə düşüncəsinin, peşə identikliyinin formalaşmasını nəzərdə tutur [3, s.345-356]. Peşə sosiallaşmasının uğuru insanın peşə birliyinə və bunun vasitəsilə bütövlükdə cəmiyyətə inteqrasiyasında özünü göstərir. Peşə

təhsilinin sosiallaşdırıcı nəticəsi insanın ətraf aləmə, mənimsədiyi peşəyə, öz özünə sosial dəyər münasibətlərinin sabit sistemi kimi çıxış edir.

Peşə sosiallaşması - müəyyən bilikləri, dəyərləri, ustanovkaları və psixoloji xüsusiyyətləri olan, artıq formalaşmış şəxslərin keçdiyi sosiallaşmanın mərhələsidir. Peşəyə daxil olma mərhələsi həmişə çox çətindir. Yetkin insan şəxsi dəyərlər sistemini təşkilatın, istehsal kollektivinin korporativ mədəniyyətinin əsasını təşkil edən korporativ dəyərlərlə uyğunlaşdırma zərurəti ilə qarşılaşır. Korporativ mədəniyyət təşkilat kollektivinin üzvlərinin əksəriyyəti tərəfindən qəbul edilən və paylaşılan davranış modelləri və nümunələrinin məcmusu kimi müəyyən edilir. Korporativ mədəniyyətin əsasında mənəvi norma və qaydalardan ibarət olan müəyyən kodeks, təşkilatın məqsədlərini, vəzifələrini və inkişaf perspektivlərini müəyyən edən ideologiya dayanır. İdealda təşkilatda işə qəbul edilən şəxs komandaya aid olduğunu və kollektivdə öz mövqeyini hiss etməli, qurulmuş liderlik və kommunikasiya sistemini, peşə davranışı stereotiplərini, mərasimlər və qadağalar sistemini qəbul etməlidir. Müəyyən psixoloji xüsusiyyətləri olan yetkin insanlarda korporativ mədəniyyətin əsaslarının və yeni peşə vəzifələrinin mənimsənilməsi prosesi çətin ola bilər. Yetkin şəxsin psixoloji statusunu xarakterizə edən müstəqillik və tənqidilik ona təşkilat tərəfindən təklif edilən dəyərlərə zidd ola bilər [8, s.109-113]. Menecment nəzəriyyəsinin və təşkilati psixologiya elminin yaradıcısı, amerika alimi Edqar Şeyn fərdin sənaye sosiallaşmasına reaksiyasının üç mümkün tipini fərqləndirir:

- *etiraz* - bütün dəyər və normalardan imtina edilməsi;

- *yaradıcı fərdiyyətçilik* - yalnız əsas dəyər və normaların qəbul edilməsi;

- *konformizm* - yaradıcı potensialı əzən bütün dəyər və normaların qeyd - şərtsiz qəbul edilməsi [18, s.200].

Digər tərəfdən, mütəxəssisin, peşəkarın formalaşması prosesinə korporativ mədəniyyətin müsbət təsirini qeyd etmək olar. O, yeni işə başlayan mütəxəssisə kollektivə tez uyğunlaşmağa imkan verir, ona müsbət imic yaratmağa kömək edir, qarşıya qoyulmuş məqsəd və vəzifələrin yerinə yetirilməsinə həvəsləndirir [8, s.111].

Beləliklə, peşə sosiallaşması - peşə münasibətləri və peşə fəaliyyəti ilə əlaqəli sosial qarşılıqlı təsirlərin daxil olduğu çoxşaxəli sosial hadisədir. O, peşəkar şəxsiyyətin və onun peşə mədəniyyətinin inkişafına yönəlmişdir. Peşə sosiallaşması institusional, qrup və şəxsiyyət səviyyəsində baş verir.

Peşə sosiallaşmasının uğuru əsasən fərdin mənsub olduğu sosial təbəqə ilə müəyyən edilir. Peşə seçimində azadlıq dərəcəsi bundan asılıdır. Bu prosesin uğuru üçün başqa bir meyar kimi şəxsiyyət və cəmiyyət arasında qarşılıqlı təsirin fərdi-dəyər mexanizmi çıxış edə bilər. Müasir cəmiyyətin fərqləndirici xüsusiyyəti gənclərin öz peşə müqəddəratını təyin edə bilməməsidir ki, bu da şəxsiyyətin və onun sosial inkişafının təməlini təşkil edir. Fərdi-şəxsi xüsusiyyətlər, müəyyən bir sosial qrupa mənsubiyyət, eləcə də gender fərqləri öz peşə müqəddəratını müəyyənləşdirmənin müddətinə təsir göstərən amillərdir. Hər bir fərdin sosial böyümə müddəti fərqli olduğundan, müxtəlif şəxslərin peşə müqəddəratını müəyyənləşdirməsi müxtəlif yaşlarda baş verə bilər. Peşə müqəddəratını müəyyən etmədə fərq eyni zamanda müxtəlif sosial təbəqələrdən çıxmış insanlar və ya onların cinsi mənsubiyyətindən asılı olaraq yarana bilər [11, s. 51-53]. Bu gün Azərbaycanın sosial-əmək reallığında gənclərin aldıqları ixtisasa uyğun olaraq əmək bazarında peşə müqəddəratını müəyyənləşdirməsinin dəqiq sisteminin olmaması ən aktual problemlərdən biri olaraq qalmaqdadır. Nəticədə ölkədə gənclərin

böyük əksəriyyəti peşə cəhətdən müəyyənləşərək öz əmək tələbatlarını ali məktəbdə aldıqları ixtisas üzrə deyil, əsasən mütəxəssislərin əməyinin az və ya çox dərəcədə adekvat ödənildiyi dövlət sektorunda təmin edir. Aşağı əməkhaqqı, lazımi təcrübə və iş bacarıqlarının olmaması və əmək bazarında təklifin defisitliyi - gənclərin ixtisas üzrə işdən imtina etməsinin əsas səbəblərindən biridir ki, bunlar da gənclərimizdə işə düzəlmək üçün alternativ variantların tərbiyə edilməsinə səbəb olur. Lakin bu variant ali məktəbdə əldə olunmuş nəzəri və praktiki biliklərin tələb olunmaması, peşə bacarıqlarının itirilməsi, gənc mütəxəssislərdə seçdikləri peşə çərçivəsində peşə müqəddəratını müəyyənləşdirilməsi prosesinin qırılması kimi problemlərlə müşayiət olunur.

Sosial qrup kimi bu gün gənclərin qarşısında təhsildən peşə fəaliyyətinə keçid məsələsi var. Gənclər sosial-əmək münasibətlərinin tənzimlənməsinin yeni mexanizmini nəzərə almalıdırlar. Bu mexanizmə görə, muzdlu işçi işəgötürənlə birlikdə yalnız sosial-əmək münasibətlərinin obyekti deyil, fəal subyekti olmalıdır. Bu baxımdan, gənc mütəxəssislərin təhsil səviyyəsi ilə ixtisasları arasında uyğunsuzluq problemi var.

Sosial-iqtisadi münasibətlər sferasında subyektivliyin formalaşması amili kimi gənclərin özünüreallaşdırması prosesi mülkiyyət foması, həyat situasiyası ilə müəyyən edilir. Hal-hazırda hər bir ikinci, xüsusilə qeyri-dövlət sahəsində işləyənlər üçün təhsilin faktiki işə uyğunsuzluğu problemi aktualdır. Əksər sahələr və peşə qrupları üçün xarakterik vəziyyət hələ də davam edir, bu zaman əməyin mükafatlandırılması yerinə yetirilən peşə funksiyalarının mürəkkəbliyinə uyğun gəlmir. Gənclər üçün bu uyğunsuzluq həm də gənc işçilərin yaş diskriminasiyasına əsaslanır. Yaş fərdlərin əmək fəaliyyətinin bütün dövrlərini (sosial-əmək münasibətlərinə başlayandan sonrakı peşə sosiallaşması, əmək karyerası və nəhayət, təqaüdə çıxanadək) öncədən müəyyən etdiyindən o, peşə davranışının xüsusiyyətlərini şərtləndirir ki, bu da müxtəlif yaş qruplarının müxtəlif tələbatlara, sosial-əmək və dəyərlər istiqamətinə malik olmasında özünü göstərir. Yaş sağlamlıq vəziyyətində, asudə vaxtın keçirilməsində fərqləri müəyyənləşdirir. O, həmçinin cəmiyyətdə fərdlərin yaş qruplarında ixtisas, hakimiyyət-vəzifə, gəlir və digər resursların müxtəlif həcmindən irəli gələn sosial çəkisini müəyyənləşdirir. Müxtəlif yaş qrupları ilə çox vaxt müxtəlif sosial sferalarda, xüsusən əmək bazarında meydana çıxan bərabərsizlik sistemi assosiasiya olunur [16, s. 87].

Qeyd edək ki, gənclərin sosial qrup kimi peşəkarlaşması prosesinin ümumi xarakterini nəzərə alaraq onlara fərdi yanaşmaq lazımdır. Belə ki, məsələn, infantizm və sosial yetkinsizlik hadisələri insanda onun əmək həyatının sonuna qədər davam edə bilər. Belə bir şəraitdə gənc mütəxəssislərə işçi və əmək kollektivinin üzvü kimi yeni rola uyğunlaşmağa imkan verən müəssisənin kadr siyasəti çərçivəsində xüsusi proqramların işlənib hazırlanması problemi zəruridir. Digər tərəfdən isə gənclər peşə seçimini əmək bazarında real vəziyyətin təhlili nəticəsində deyil, gələcək arzu edilən iş haqqında ideal təsəvvürlər əsasında həyata keçirirlər. Gənclərin maddi razılığı seçdikləri peşə sahəsinin onların mənəvi inkişafına dəstək olması ilə tamamlanır, peşəni seçərkən daha çox özünüifadə, özünütəsdiq, sosial və digər səbəblər prioritet təşkil edir, lakin bu sahədə qalıb işlədikdən sonra maddiyyət, uyğunsuzluq və perspektivsizlik peşə dəyişməsinin əsas səbəbləri arasında ön plana çıxır. Deməli, peşə seçimində dəyişikliklər daha çox şəxsi motivlərlə izah olunur və bu zaman peşənin aktuallığı, gəlirliliyi, gərəkliliyi və s. elə də rol oynamır. Bu isə belə fikrə gəlməyə əsas verir ki, ölkədə əmək birjası-

nın işi hələ ki, lazımi səviyyədə qurulmamışdır və bu istiqamətdə fəaliyyət daha da yaxşılaşdırılmalıdır.

Beləliklə, gənclərin peşə seçimi peşəkarlaşma işində problemlər üzündən çox vaxt ali məktəbdə təhsil vaxtı əldə olunan peşə oriyentasiyası və bacarıqlarının reallaşdırılması prosesi kimi peşə müqəddəratını müəyyənləşdirmənin praktiki tərəfindən kənarda qalır. Aydındır ki, əldə olunmuş peşəyə uyğun olaraq, əmək və peşə planında özünüreallaşdırma istəyinə baxmayaraq, ixtisas üzrə işədüzəlmə zəmanətinin olmaması, həyati cəhətdən mühüm amil kimi peşə müqəddəratını müəyyənləşdirmənin əhəmiyyətinin itirilməsinə gətirib çıxarır və ona situativ xarakter verir, yəni peşə müqəddəratını müəyyənləşdirmə strateji deyil, şəxsiyyətin həyat yolunu müəyyənləşdirən taktiki xarakter daşımağa başlayır.

Peşə yetkinliyinin mühüm meyarı sosial-peşə mobilliyidir. Bu, bir tərəfdən xarici şəraitlə şərtlənən mövqe dəyişikliklərində özünü göstərir (regionda iş yerlərinin olmaması, aşağı əməkhaqqı, məişət pozğunluğu və s.). Bu halda mobillik real həyat vəziyyətlərinə uyğunlaşma ehtiyacı ilə diktə olunur. Digər tərəfdən, sosial-peşə mobilliyi sabit dəyərlərə və fərdin özünü inkişaf etdirməsi tələbatlarına əsaslanan şəxsiyyətin daxili özünü təkmilləşdirməsi kimi başa düşülür. Bu cür tələbat möhkəm idraki əsas: təhsil və peşə səriştəsini, özünütanımağı, özünütənqidi, özünüdərki, özünütəhsili, özünüinkişafı bacaran sosial-peşəkar yetkin şəxsiyyət kimi özünə münasibəti tələb edir [4, s.109-114 ].

Deməli, sosiallaşmanın əvəzsiz şərti şəxsiyyətin mədəni özünü reallaşdırması, özünün sosial təkmilləşdirməsi üzrə onun fəal işidir. Sosiallaşmanın şərtləri nə qədər əlverişli olursa-olsun, onun nəticələri daha çox şəxsiyyətin özünün fəallığından asılıdır.

Beləliklə, uğurlu peşə sosiallaşması şəxsiyyətin fəallığı ilə müəyyən edilir, çünki cəmiyyətdə qarşılıqlı təsir, sosial əlaqələr və münasibətlər sisteminə təsir konkret qərarların qəbul edilməsini və məqsədin təyin edilməsi, fəaliyyət subyektinin səfərbər edilməsi, fəaliyyət strategiyasının qurulması və s. vasitəsilə reallaşdırılmasını tələb edir. Sonuncu, öz növbəsində, peşə haqqında biliklərin, fikirlərin təkmilləşdirilməsini, iddialar, motivasiya səviyyəsinin dəyişdirilməsini zəruri edir. Buna əsaslanaraq əminliklə demək olar ki, formalaşmış "Mən" konsepsiyası ("mənlik" anlayışı) və inkişaf etmiş motivasiya - koqnitiv xarakteristikalı şəxsiyyət peşə sosiallaşmasını müvəffəqiyyətlə mənimsəyə biləcək. Deyə bilərik ki, hər bir ayrıca insanın sosiallaşma ölçüsü fərdidir, onun sosial fəallığı, yaradıcılığa və öz qabiliyyətlərinin inkişafına tələbat nə qədər yüksəkdirsə, bu hədd bir o qədər yüksəkdir [12, s.150].

Sosial və peşə səriştəliliyi həyati əhəmiyyətli proseslərdə daha uğurlu istiqamətlənməyə, rəqabətqabiliyyətli olmağa, müasir əmək bazarında uğur qazanmaq üçün zəruri hazırlığa malik olmağa, sosial mühitin təsirinə adekvat reaksiya göstərməyə və bununla da onun aqressiv və digər neqativ təsirlərindən qorunmağa imkan verən peşə biliklərinin, sosial və peşə əhəmiyyətli keyfiyyətlərin inkişafının, qabiliyyət və bacarıqların artırılmasının və dərinləşməsinin vacibliyini göstərir.

Fikrimizcə, konkret tarixi kontekstə malik olan uğurlu peşə sosiallaşması son dərəcə mürəkkəb və çoxistiqamətli sosial-iqtisadi və sosial-mədəni proses kimi şəxsiyyətin sosial-peşə yetkinliyinin formalaşmasını nəzərdə tutur və bunlarla xarkterizə olunur:

- peşə normalarının, dəyərlərinin mənimsənilməsi; onların öz şəxsi oriyentasiya və ustanovkalarına çevrilməsi;
- peşə sferasında müəyyən rolların

həyata keçirilməsi ustanovkalarının formalaşması;

- sosial-peşə mobilliyi, rəqabətqabiliyyəti və peşə səriştəsi kimi keyfiyyətlərin formalaşması;

- özünütəhsil və özünütəkmilləşdirmə arzusu;

- sosiallaşma prosesində fəal iştirak;

- cəmiyyət üzvlərinin peşə mədəniyyətinə qoşulması [12, s. 145-155].

Nəzərə alsaq ki, fərdin sosial və peşə yetkinliyi daimi nizamlı hərəkətdədir (inkişafdadır), onda fərdin sosial və peşə sosiallaşması səviyyələrinin də müntəzəm yaş və şəxsiyyət xarakterli bəzi dəyişikliklərə məruz qaldığını güman etmək olar.

Peşə sosiallaşması səviyyələrinin müəyyən edilməsi özünü inkişaf etdirmə ilə sıx bağlıdır və sosiallaşmanın "miqyası və dərinliyini" göstərən təsirlərdən biridir (sosiallaşmanın effektlərindən biridir) [2, s.145-167].

Sosiallaşma prosesinin, o cümlədən peşə sosiallaşmasının effektivliyini göstərmək üçün uğurlu sosiallaşma, sosial yetkinlik kimi terminlərdən istifadə edilir. Əslində, bütün bu terminlər eynidir və fərdin müəyyən ideal modelini ifadə edir [12].

## Nəticə

Beləliklə, sosiallaşma prosesinin xüsusi təzahürlərindən biri kimi peşə sosiallaşması problemi haqqında müxtəlif fikirlərin təhlili bu qənaətə gəlməyə əsas verir ki, problemin öyrənilməsinə vahid yanaşma olmasa da, sosiallaşma səviyyələri və onun peşə forması ilə bağlı araşdırmalarda çoxlu ümumi cəhətlər vardır. Xarici və yerli alimlərin araşdırmalarında peşə sosiallaşması - ən intensiv inkişafı gənc yaşlarda baş verən, fasiləsiz proses kimi nəzərdən keçirilir. Gənc nəslin peşə sosiallaşmasını nəzərdən keçirərkən ən vacib dövr öz peşə müqəddəratını təyinetmə və əmək fəaliyyətinə peşə hazırlığıdır. Peşə sosiallaşması peşə münasibətləri və peşə fəaliyyəti ilə bağlı sosial qarşılıqlı əlaqələri özündə cəmləşdirən çoxşaxəli sosial hadisə olub, peşəkar şəxsiyyətin və onun peşə mədəniyyətinin inkişafına yönəlmişdir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

1. *Ананченкова, П.И., Фокина, П.В.* Социально-педагогические условия обеспечения комплексной социализации студентов высших учебных заведений.- Бишкек, 2007, с. 41.

2. *Ананьев, Б.Г.* О психологических эффектах социализации. // Человек и общество. - Вып. IX. - Л., 1971, с. 145-167.

3. *Зеер, Э.Ф.* Понятийно-терминологическое обеспечение компетентностного подхода в профессиональном образовании // Понятийный аппарат педагогики и образования. - М.: ВЛАДОС, 2007, с. 345-356.

4. *Ковалева, А.И.* Концепция социализации молодежи: нормы, отклонения, со-циализационная траектория. // Социологические исследования, 2003, № 1, с. 109-114.

5. *Ковалева, А.И., Перинская, Н.А.* Профессиональная социализация личности в процессе вузовского образования. // Вестник Университета Российской академии образования, 2010, № 2, с.77-80.

6. *Климов, Е.А.* Введение в психологию труда: Учебник для вузов. -М.: Культура и спорт, ЮНИТИ, 1998, - 350 с.

7. *Кустов, Ю.А., Стацук, С.В.* Профессиональная социализация молодежи как педагогическая проблема. // Вестник Волжского Университета им. В.Т.Татищева, 2013, №1 (12), - с. 97-101.

8. *Королева, Е.Г.* Профессиональная социализация в условиях продуктивного обучения. // Человек и образование. Санкт-Петербург, 2018, №1 (54), - с.109-113.

9. *Кон, И.С.* Ребенок и общество. Учебное пособие для студентов высших заведений. - М.: Академия, - 2003. - 336 с.

10. *Краснокутская, С.Н.* Социальная компетентность как качественная характеристика процесса социализации студентов. // Сб. науч. тр. СевКавГТУ. Серия "Гуманитарные науки", 2005, №1 (13), - с.77-79.

11. *Кутугина, В.И.* Факторы профессионального самоопределения личности в современных условиях // – Москва: Современные проблемы науки и образования, 2007, № 1, - с. 51-53.

12. *Макарова, С.Н.* Успешная профессиональная социализация: основные подходы к исследованию. // Вестник Челябинского Государственного Университета. Челябинский Государственный Университет (Челябинск), 2007, №17, - с.145-155.

13. *Мудрик, А.В.* Социальная педагогика: учеб. для студ. пед. вузов / под ред. В.А. Сластенина. - М.: Академия, 1999, - 184 с.

14. *Леонтьев, А.Н.* Деятельность. Сознание. Личность. (Текст) 2-е изд. - М.: Политиздат, 1977, - 304 с.

15. *Сластенин, В.А.* Педагогика: учеб. пособие для студентов высш. пед. учеб. за-ведений / В. А. Сластенин, И. Ф. Исаев, Е. Н. Шиянов; под ред. В. А. Сластенина. - М.: Издат. центр "Академия", 2002. - 576 с.

16. *Симончук, Е.В.* Профессиональная структура современной Украины. // Социология: теория, методы, маркетинг, – Киев, 2009, № 3, – с. 62-99.

17. Теория и практика воспитательных систем: в 2 кн. / под ред. Л.И.Новиковой и др. - Кн. 2. - М.: Изд-во ИТП и МИО РАО, 1993, - с. 153,157.

18. *Шейн, Э.Х.* Организационная культура и лидерство: пер. с англ. / под ред. В. А.Спивака. - СПб.: Питер, 2002, - 330 с.

**Sudaba Hashimova**

## FEATURES AND PROBLEMS OF PROFESSIONAL SOCIALIZATION IN MODERN CONDITIONS

### Abstract

At present, in studies of the process of personality formation and its interaction with the social environment, the attention of scientists to the professional socialization of the individual has noticeably increased, driven by changes in society and culture. Socialization, formation and development of the personality includes three interrelated processes: general socialization, professional - role socialization, professionalization. Through "professional socialization" a person joins certain professional values, forms a professional consciousness and culture, and prepares for professional activities. The main purpose of writing the article consists of a sociological study of the main features and problems of professional socialization and

the study of reflection in modern conditions. The leading principles of the research are structural functionalism, system analysis, theoretical generalization, induction, deduction, methods of comparison. The scientific novelty of the article lies in a comprehensive study of the processes of assimilation by social and professional norms of professional socialization and the formation of a personality as a subject of professional activity. The main provisions and results of the study can be used in the development of programs to improve the efficiency of professional activities in schools, universities, and employment services.

**Keywords:** professional socialization, professionalization, social and professional environment, professional self-education, professional relationship, professional activity, choice of profession

**Судаба Гашимова**

## ОСОБЕННОСТИ И ПРОБЛЕМЫ ПРОФЕССИОНАЛЬНОЙ СОЦИАЛИЗАЦИИ В СОВРЕМЕННЫХ УСЛОВИЯХ

### Резюме

В настоящее время в исследованиях процесса формирования личности и ее взаимодействия с социальной средой заметно возросло внимание ученых к профессиональной социализации индивида, что обусловлено изменениями в обществе и культуре. Социализация, становление и развитие личности включает три взаимосвязанных процесса: общую социализацию, профессионально-ролевую социализацию, профессионализацию. Посредством "профессиональной социализации" человек приобщается к определенным профессиональным ценностям, формирует профессиональное сознание и культуру, готовится к профессиональной деятельности. Социальный аспект профессиональной социализации заключается в усвоении социально-профессиональных норм и становления личности как субъекта профессиональной деятельности. Основная цель написания статьи состоит из социологического исследования основных особенностей и проблем профессиональной социализации и изучения рефлексии в современных условиях. Ведущими принципами исследования являются структурный функционализм, системный анализ, теоретическое обобщение, индукция, дедукция, методы сравнения. Научная новизна статьи заключается во всестороннем изучении процессов усвоения социально-профессиональными нормами профессиональной социализации и формирования личности как субъекта профессиональной деятельности. Основные положения и результаты исследования могут быть использованы при разработке программ повышения эффективности профессиональной деятельности в школах, вузах, службах занятости.

**Ключевые слова:** профессиональная социализация, профессионализация, социально-профессиональная среда, профессиональное самообразование, профессиональные отношения, профессиональная деятельность, выбор профессии

# İCTİMAİ RƏY
# SOSİOLOJİ SORĞULAR

# PUBLIC OPINION
# SOCIOLOGICAL SURVEYS

# AZƏRBAYCANDA ELEKTROMOBİL VƏ HİBRİD NƏQLİYYAT VASİTƏLƏRİNİN TƏŞVİQİNDƏ VƏZİYYƏT VƏ İSTİFADƏÇİ MƏMNUNLUĞU

**Vüsalə RÜSTƏMOVA,**
*Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri*
*Bakı, Azərbaycan*

*E-mail: vusu82@gmail.com*
*ORCID: 0009-0003-0624-3468*

**Xülasə.** Bu gün dünya ölkələrinin, beynəlxalq təşkilatların qarşısında duran əsas vəzifələrdən biri sənaye müəssisələri və nəqliyyat vasitələri tərəfindən atmosferə atılan karbon (CO2) emissiyasının azaldılmasıdır. Bu istiqamətdə çağırışlar, hədəflər yenilənir, müxtəlif fəaliyyət planları qəbul edilir.

Nəticədə dizel və benzinlə işləyən nəqliyyat vasitələrini qadağan edən ölkələrin sayı ildən-ilə artır. Beynəlxalq Enerji Agentliyinin məlumatına görə, 2021-ci ildə elektrik mühərrikli avtomobil satışları 6,6 milyon ədəd olmaqla rekord həddə çatıb. İstehsal olunan bütün növ elektrik mühərrikli avtomobillərin (hibrid və elektromobil) ümumi sayı isə 16,5 milyona çatıb.

Son illər Azərbaycanda da elektrik mühərrikli nəqliyyat vasitələrinin istifadəsinin təşviqinə dair dövlət tərəfindən bəzi addımlar atılmağa başlanılıb. Azərbaycan hökuməti "yaşıl enerji"yə keçidi təmin etmək üçün bir sıra strateji sənədlərdə, milli prioritetlərdə və dövlət proqramlarında bu istiqamətdə müəyyən hədəflər müəyyənləşdirib.

"Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019–2023-cü illər üçün Dövlət Proqramı", "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" kimi sənədlərdə ekoloji cəhətdən təmiz, elektrik mühərrikli nəqliyyat vasitələrindən istifadənin stimullaşdırılması məqsədilə bu növ nəqliyyat vasitələrinin istehsalı, idxalı, ixracı, dövriyyəsi və istismarı üçün güzəştlər və imtiyazlar müəyyən edilməklə müvafiq normativ hüquqi bazanın formalaşdırılması nəzərdə tutulur. Hətta 2022-ci ilin dövlət büdcəsində təklif olunan yeni təşəbbüslərdə bütün növ elektrik mühərrikli avtomobillərlə bağlı vergi güzəştlərinin tətbiqi planlaşdırılır.

Məqalədə Sosial Tədqiqatlar Mərkəzi tərəfindən "Elektrik mühərrikli və hibrid nəqliyyat vasitələri istifadəçilərinin məmnunluğu"na dair aparılan sosioloji sorğunun təhlili yer alıb. Tədqiqatda hökumət tərəfindən elektrik mühərrikli nəqliyyat vasitələrinə keçidi təşviq edən faktorlarla bağlı ictimai rəy təhlil edilib.

**Açar sözlər:** iqlim, hədəf, hibrid, elektrik mühərrikli, avtomobil, nəqliyyat vasitələri, güzəşt, sorğu, dövlət, təşviq

## Giriş

Qlobal iqlim dəyişikliyi fonunda dünya ölkələrinin, beynəlxalq təşkilatların qarşısında duran əsas hədəflərdən biri sənaye müəssisələri və nəqliyyat vasitələri tərəfindən atmosferə atılan karbon ($CO_2$) emissiyasının azaldılmasıdır. Xüsusilə, müharibələr nəticəsində yaşanan enerji böhranı dünyanı "yaşıl enerji, o cümlədən elektriklə işləyən nəqliyyat vasitələrinin istehsalı ilə bağlı çağırışları daha da sürətləndirir.

Bu baxımdan dizel və benzinlə işləyən nəqliyyat vasitələrini qadağan edən ölkələrin sayı da ildən-ilə artır. Bu istiqamətdə bir çox ölkələr 2030-2050-ci illər arasında nəqliyyat parkının tamamillə elektrik mühərrikli nəqliyyat vasitələrinə keçidi üçün hədəflər müəyyənləşdiriblər.

2015-ci ildə qəbul edilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Paris Razılaşmasında da elektriklə çalışan bütün növ avtomobillərin istifadəsinin genişləndirilməsi ən mühüm məsələlərdən biri kimi qarşıya qoyulub [10]. Azərbaycan da həmin sazişə qoşulan 171 ölkədən biridir.

Beynəlxalq Enerji Agentliyinin məlumatına görə, COVID-19 pandemiyasına baxmayaraq, elektrik mühərrikli avtomobil satışları 2021-ci ildə rekord həddə çatıb. 2020-ci illə müqayisədə satışlar təxminən iki dəfə artaraq 6,6 milyon (satış payı təxminən 9%) ədəd olub. İstehsal olunan elektrik mühərrikli avtomobillərin ümumi sayı 16,5 milyona çatıb. Elektrik mühərrikli avtomobillərin satış payı 2021-ci ildə 4% artıb. Agentliyin proqnozlarına görə, 2030-cu ildə yeni avtomobil satışlarının 60%-ni elektrik mühərrikli avtomobillər təşkil edəcək [6].

Qeyd edək ki, dünyada elektrik mühərrikli avtomobillərin (beynəlxalq abreviatura - EV) 3 növü var:

1. Yalnız elektriklə işləyən avtomobillər ( beynəlxalq abreviatura - BEV)
2. Həm enerji dolduran, həm benzin, həm də daxili yanacaq mühərrikindən alınan enerji ilə işləyən üçmühərrikli Hibrid-Plug (beynəlxalq abreviatura - PHEV).
3. Benzin və ondan alınan elektriklə işləyən ikimühərrikli hibrid avtomobillər (beynəlxalq abreviatura - HEV).

## 1. Dünya ölkələrinin hədəfləri

İngiltərə ildə 2,7 milyon nəqliyyat vasitəsinin satışını həyata keçirən dünyanın ən böyük avtomobil bazarıdır. London 2035-cı ilə kimi ekoloji tarazlığı bərpa etmək üçün benzin və dizellə işləyən nəqliyyat vasitələrini qadağan etməyi planlaşdırır. 2050-ci ilə qədər isə yollarda olan bütün nəqliyyat vasitələri sıfır emissiyalı olacaq.

Eyni zamanda, Almaniya və Kanada da 2035-ci ilə kimi elektrik mühərrikli nəqliyyat vasitələrinə keçməyi hədəfləyib.

Bundan başqa, Fransa və İspaniya da qlobal istiləşməyə qarşı mübarizə məqsədilə 2040-cı ilə kimi yanacaqla çalışan nəqliyyat vasitələrinin satışını məhdudlaşdırmağa hazırlaşır. 2040-cı ildən sonra hər iki ölkə yalnız elektrik enerjisi ilə işləyən, hibrid və digər təmiz yanacaqla çalışan nəqliyyat vasitələrinin satışına icazə verəcək.

Skandinaviya ölkələrində də 2030-cu ilə qədər nəqliyyat parkı yalnız elektrik mühərriki ilə işləyən vasitələr olacaq.

Avropa ölkələri ilə yanaşı, Hindistan və Çin də qarşısına böyük hədəflər qoyub. Çin 2025-ci ilə qədər hər il 7 milyon "yeni enerjili avtomobil" satmağı hədəfləyir ki, bu da onun ümumi avtomobil bazarının təxminən 20 faizini təşkil edir [6]. Çin Avtomobil İstehsalçıları Assosiasiyasının məlumatına görə, elektrik mühərrikli avtomobillərin satışları artıq

***Diaqram 1.***




18 faizə yaxınlaşdığı üçün bu məqsədə çatmaq olar. Bundan əlavə, 2020-ci ilin oktyabrında Çin 2035-ci ilə qədər satılan bütün yeni avtomobillərin "ekoloji cəhətdən təmiz" olacağı planını açıqlayıb [8].

ABŞ-da isə 2021-ci il noyabrın 15-də Prezident C.Bayden tərəfindən 1,2 trilyon dollarlıq "İnfrastruktur investisiyaları və iş haqında" Qanun (IIJA) imzalanıb [9]. Hüquqi akt çərçivəsində elektrik mühərrikli avtomobillərin təşviqi üçün ABŞ Nəqliyyat Departamenti tərəfindən EV enerjidoldurma infrastrukturunun qurulması və əlavə maliyyə ilə təmin edilməsi üçün 7,5 milyard dollarlıq qrant layihəsi nəzərdə tutulub. Qanun layihəsi çərçivəsində xüsusilə elektrik mühərrikli və sıfır emissiyalı orta və ağır yük daşıyan avtomobillərin maliyyələşdirilməsi hədəflənib.

Bayden Administrasiyası həmçinin 2021-ci il dekabrın 13-də elektrik mühərrikli avtomobillərin inkişafı üzrə Fəaliyyət Planını açıqlayıb. Plana əsasən, ABŞ-da 2030-cu ilə qədər EV-in satış payının 50%-ə çatdırılması proqnozlaşdırılır.

## 2. Azərbaycanda vəziyyət və keçirilən sosioloji sorğuların nəticələri

Son illər Azərbaycanda da elektrik mühərrikli nəqliyyat vasitələrinin idxalı sürətlə artır. Hələ ki, ölkəmizə idxal olunan EV-lər arasında hibrid və yalnız elektriklə işləyən avtomobillər (bundan sonra - elektromobil) üstünlük təşkil edir. Bu nəqliyyat vasitəsi daha çox taksı xidmətlərində istifadə edilir. Azərbaycan hökuməti "yaşıl enerji"yə keçidi təmin etmək üçün bir sıra strateji sənədlərdə, milli prioritetlərdə və dövlət proqramlarında bu istiqamətdə müəyyən hədəflər müəyyənləşdirib. Belə ki, 2016-cı ildə "Kommunal xidmətlərin (elektrik və istilik

enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi"ndə 2020-ci ilədək elektrik mühərrikli avtomobillərin istifadəsi üçün tələb olunan infrastrukturun qurulması ilə bağlı qarşıya məqsəd qoyulub.

Bundan əlavə, 2018-ci ildə "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019–2023-cü illər üçün Dövlət Proqramı"nda 2021-ci ilədək ekoloji cəhətdən təmiz, elektrik mühərrikli nəqliyyat vasitələrindən istifadənin stimullaşdırılması məqsədilə bu növ nəqliyyat vasitələrinin istehsalı, idxalı, ixracı, dövriyyəsi və istismarı üçün güzəştlər və imtiyazlar müəyyən edilməklə müvafiq normativ hüquqi bazanın formalaşdırılması nəzərdə tutulur [2]. Dövlət Proqramında digər hədəf ekoloji cəhətdən təmiz, elektrik mühərrikli nəqliyyat vasitələri üçün müvafiq infrastrukturun yaradılması istiqamətində tədbirlərin görülməsidir. Bu baxımdan 2022-ci ilin dövlət büdcəsində təklif olunan yeni təşəbbüslərdə bütün növ elektrik mühərrikli avtomobillərlə bağlı vergi güzəştləri tətbiq edilir. Həmin vergi güzəştləri aşağıdakılardır:

• *elektrik mühərriki ilə işləyən avtomobillərin idxalı ilə yanaşı, satışının da ƏDV-dən azad edilməsi;*

• *istehsal tarixi 3 ildən və mühərrikinin həcmi 2500 kubsantimetrdən çox olmayan hibrid avtomobillərin idxalı və satışının 2022-ci il yanvarın 1-dən 3 il müddətinə ƏDV-dən azad edilməsi;*

• *elektrik mühərriki ilə işləyən avtomobillər üçün ikinci və üçüncü səviyyə elektrik enerji doldurucularının idxalının 2022-ci il yanvarın 1-dən 3 il müddətinə ƏDV-dən azad edilməsi.*

2021-ci ildə qəbul edilən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in istiqamətlərindən biri də "təmiz ətraf mühit və "yaşıl artım"dır. Burada ekoloji təmiz nəqliyyat vasitələrinin təşviqi əsas hədəflərdən biri kimi qeyd olunub [1].

Dövlət tərəfindən qəbul edilən sənədlərdən də görünür ki, hökumət müəyyən təşəbbüslərə qoşulub. Doğrudur, bu təşəbbüslərin daha çevik reallaşması üçün hədəflərin konkretliyi zəifdir, sözügedən istiqamətdə infrasturkturun yaradılmasında gecikmələr özünü göstərir. Sosial Tədqiqatlar Mərkəzi (STM) tərəfindən aparılan "Elektrik mühərrikli və hibrid nəqliyyat vasitələri istifadəçilərinin məmnunluğu üzrə sosioloji tədqiqat" zamanı hökumət tərəfindən elektrik mühərrikli nəqliyyat vasitələrinə keçidi təşviq edən faktorların yetərli olmadığı məlum olub.

Qeyd edək ki, 2022-ci ilin birinci yarısında respublika ərazisində 16 hibrid, 28 elektromobil markası istifadədə olub. Hibrid nəqliyyat vasitələri arasında ən çox istifadə olunan marka "Toyota"dır - 88,4%. Rəsmi statistikaya görə, ən çox istifadə olunan elektromobil markası 21,4%-lə "Tesla"dır. Ümumiyyətlə, 2020-ci ildən etibarən ölkəyə idxal olunan EV-lərin artımında sıçrayış müşahidə olunur. Dövlət Gömrük Komitəsinin məlumatına görə, sözügedən dövr ərzində ölkəyə idxal olunan hibrid nəqliyyat vasitələrinin sayı 5080 ədəd olubsa, 2022-ci ilin sentyabr ayı üçün 9000 ədədə yüksəlib. Yalnız elektrik mühərriki ilə işləyən nəqliyyat vasitələrinin sayı 2020-ci ildə 160 ədəd olubsa, 2022-ci ilin sentyabr ayı üçün 300 ədəddən çox olub [4].

Avtomobil sahibləri, sahibkarlar tərəfindən bu sahəyə marağın artması sevindirici haldır. STM tərəfindən həyata keçirilən, ümumilikdə, 488 respondenti əhatə edən sorğuda elektrik mühərrikli avtomobillərə üstünlük verilməsinin əsas səbəblərindən biri kimi yanacağa qənaət göstərilib. Respondentlərin 86,2%-i avtomobil seçimində daha çox yanacaq xərclərini nəzərə alıb. Sorğu iştirakçılarının 45,1%-i funksionallıq və komforta, 40,4%-i ekoloji amillərə, 36,5%-i isə istifadəyə davamlılığına görə hibrid və elektromobili seçiblər.

Bundan başqa, sosioloji sorğunun

nəticələrindən aydın olur ki, hər iki qrup avtomobil istifadəçilərinin mütləq əksəriyyəti sözügedən nəqliyyat vasitələrindən məmnundur. Belə ki, elektromobil istifadəçiləri olan respondentlərin 97.2%-i, hibrid avtomobil istifadəçilərinin 97,9%-i məmnunluqlarını ifadə edib. Ümumiyyətlə, qlobal avtomobil bazarında müşahidə edilən tendensiyalara diqqət etdikdə sözügedən nəqliyyat vasitələri seqmentləri üzrə ciddi bir artımın şahidi ola bilərik. Belə ki, pandemiya dövründə dünya avtomobil ticarətinin həcmində satışlar 6% civarında aşağı düşdüyü halda, elektrik mühərrikli avtomobillərdə 41%-lik artım müşahidə edilib [7]. Digər tərəfdən, “Deloitte” şirkətinin 23 qlobal bazarda 24 min avtomobil istifadəçisinin iştirakı ilə keçirilən sorğu əsaslı “Qlobal avtomobil istehlakçı araşdırması- 2021” hesabatında [13] respondentlər arasında bir sonrakı avtomobil seçimi zamanı elektrik mühərrikli və hibrid avtomobilə üstünlüyün veriləcəyi qənaəti üstünlük təşkil edib. Sorğunun nəticələrinə görə, Yaponiyada respondentlərin 7%-i elektromobil, 45%-i hibrid, Türkiyədə 8%-i elektromobil, 34%-i hibrid, Çində 11%-i elektromobil, 29%-i hibrid, Almaniyada 7%-i elektromobil, 25%-i hibrid nəqliyyat vasitəsinə üstünlük verəcəyini qeyd edib. Bu seçimi şərtləndirən əsas faktorlar kimi yanacaq xərclərinin daha aşağı olması, iqlim dəyişikliyi və karbon emissiyalarına qarşı həssaslıq, dövri baxım xərclərinin aşağı olması, dövlət təşviqləri və s. ön plana çıxıb.

STM-in həyata keçirdiyi tədqiqiat çərçivəsində ölkədə bütün növ elektrik mühərrikli avtomobillərin ixtisaslaşmış servis məntəqələri, peşəkar ustalar və ehtiyat hissələrinə əlçatanlığı ilə bağlı da rəy öyrənilib. Sorğunun nəticələrinə əsasən demək olar, Azərbaycanda da bütün növ elektrik mühərrikli avtomobillərin dövri baxım xərcləri münasibdir. Dövri baxım xərcləri elektromobillərdə daha münasib görünür. Belə ki, sorğuda iştirak edən elektromobil istifadəçilərinin (Eİ) 75,7%-i, hibrid avtomobil istifadəçilərinin (HAİ) isə 69,4%-i sözügedən xərcləri aşağı hesab edib [3].

Azərbaycanda elektrik mühərrikli avtomobillərin istifadəsində əsas problemlərdən biri bazar imkanlarının geniş olmaması, yaxşı infrastrukturun yaradılmamasıdır.

Belə respondentlər arasında enerjidoldurma məntəqələrindən daha çox istifadə edən elektromobil istifadəçilərinin 81,4%-i, hibrid avtomobil istifadəçilərinin isə 47,4%-i ölkədə bu istiqamətdə yaxşı infrastrukturun yaradılmadığını qeyd edib [3].

Elektrik mühərrikli avtomobillərlə bağlı dövlət tərəfindən təşviqə dair sualda hibrid avtomobil istifadəçilərinin 55,5%-i, elektromobil istifadəçilərinin 68,6%-i dəstək mexanizminin olmadığını bildirib. Hibrid avtomobil istifadəçilərinin 17,5%-i, elektromobil istifadəçilərinin isə 15,7%-i dövlət tərəfindən təşviq mexanizmlərinin olduğunu qeyd edib [3].

Bu sahədə əsas məsələlərdən biri bazarda sözügedən avtomobillərin park yaşının çox köhnə olmasıdır. Xüsusilə, hibrid avtomobillər parkının yaşı elektromobillə müqayisədə daha köhnədir. Diaqram 2 və 3-də həm elektrik mühərrikli nəqliyyat vasitələri, həm də hibrid nəqliyyat vasitələri üzrə parkın yaş strukturu rəsmi dinamika ilə sorğuda iştirak etmiş respondentlərin sahib olduqları avtomobillərin göstəriciləri müqayisəli şəkildə öz əksini tapmışdır.

Azərbaycanda elektrik mühərrikli nəqliyyat vasitələri parkının yaş strukturu:

- 5 ilədək olanlar (2022-ci il də daxil olmaqla) 68,9%
- 6 ildən 10 ilədək olanlar 21,9%
- 11 ildən 15 ilədək olanlar 8,9%.

Sorğuda iştirak edən elektromobil nəqliyyat vasitələrinin yaş strukturu:

- 5 ilədək olanlar (2022-ci il də daxil olmaqla) 37,1%
- 6 ildən 10 ilədək olanlar 34,3%
- 11 ildən 15 ilədək olanlar 28,6 %.

*Diaqram 2.*

**ELEKTRİK MÜHƏRRİKLİ AVTOMOBİLLƏRİN İSTEHSAL İLİNƏ GÖRƏ BÖLGÜSÜ**




Rəsmi statistikaya görə, Azərbaycanda hibrid nəqliyyat vasitələri parkının yaş

*Diaqram 3.*

**HİBRİD AVTOMOBİLLƏRİN İSTEHSAL İLİNƏ GÖRƏ BÖLGÜSÜ**




strukturu:

• 5 ilədək olanlar (2022-ci il də daxil olmaqla) 3,7%

• 6 ildən 10 ilədək olanlar 5,8%

• 11 ildən 15 ilədək olanlar 52,5%

• 16 ildən yuxarı 38%.

Sorğuda iştirak edən hibrid avtomobil istifadəçilərinin nəqliyyat vasitələrinin yaş strukturu:

• 5 ilədək olanlar (2022-ci il də daxil olmaqla) 9,3%

• 6 ildən 10 ilədək olanlar 12,7%

• 11 ildən 15 ilədək olanlar 59,3%

• 16 ildən yuxarı 18,7%.

STM-in apardığı tədqiqatın nəticələri Azərbaycanda elektromobil və hibrid avtomobillərin istehsal ilinin köhnə olmasını ilkin bazarın imkanlarının geniş olmaması, güzəştli kredit şərtlərinin yaradılmaması və s. faktorlarla bağlı olduğunu göstərir. Bu mənada elektromobil istifadəçiləri həm yeni, həm də işlənmiş bazarın imkanlarını daha aşağı dəyərləndirirlər.

Diaqram 4-dən göründüyü kimi, sorğuda iştirak edən hibrid avtomobil istifadəçilərinin yalnız 40,7%-i, elektromobil istifadəçilərinin cəmi 25,1%-i ilkin avtomobil bazarında seçim imkanlarının geniş olduğunu bildirib.

*Diaqram 4.*




Hibrid avtomobil istifadəçisi olan respondentlər təkrar bazarda seçim imkanlarını yeni bazarla müqayisədə daha yüksək dəyərləndiriblər. Respondentlərin 57,9%-i ikinci əl avtomobil bazarında imkanların geniş olduğunu bildirdiyi halda, 35,2%-i bunun əksini düşünür.

Elektromobil istifadəçiləri arasında həm ilkin, həm də təkrar bazarın imkanları barədə fikirlər dəyişməz olaraq qalır. Rəyi soruşulanların cəmi 25,7%-i ilkin bazarda, 27,1%-i isə ikinci əl avtomobil bazarında seçim imkanlarını geniş dəyərləndirib. Respondentlərin təqribən 70%-i elektromobil bazarının imkanlarını zəif qiymətləndirib.

Respondentlərin 70%-dən çoxu düşünür ki, ilkin bazarda imkanların aşağı olmasının başlıca səbəbləri qiymətlərin münasib olmamasıdır. İkinci faktor olan güzəştlərin mövcud olub-olmaması ilə bağlı rəyə gəlincə, bu istiqamətdə məlumatlılıq səviyyəsinin aşağı olduğu müşahidə edilir. Belə ki, təqribən hər 3-4 respondentdən biri güzəştlərlə bağlı məlumata malik olmadığını bildirib. (29,9% hibrid və 21,4% elektromobil).

Təkrar bazardakı qiymətlərdən məmnunluq səviyyəsi təqribən 50%-dir. Sorğuda iştirak edən hibrid avtomobil istifadəçilərinin 50%-i, elektromobil istifadəçilərinin isə 47,1%-iqiymətlərin münasib olduğunu qeyd edib. Respondentlərin müvafiq olaraq 41,4%-i və 45,7%-i qiymətləri münasib hesab etmir.

Əslində, hər iki bazardakı qiymətlərlə bağlı məmnunluq səviyyəsinin göstəriciləri aşağıdır. Lakin ikinci əl avtomobillərin nisbətən ucuz olması, təbii olaraq, təkrar bazarda tələbatı artırır. Maraqlıdır ki, ikinci əl avtomobillərin kreditlə alışı da yüksək deyil. 45-50% arasında respondent (sorğuda iştirak edən hibrid avtomobil istifadəçilərinin 44,7%-i, elektromobil istifadəçilərinin isə 50%-i) bu sahədə kredit şərtləri ilə bağlı məlumata malik deyil. Hibrid avtomobil istifadəçisi olan respondentlərin 10,8%-i, elektro-

*Diaqram 5.*



*Diaqram 6.*




mobil istifadəçisi olan respondentlərin isə 14,3%-i kredit şərtlərini münasib sayır.

Sorğu nəticələrinin təhlili göstərir ki, hibrid avtomobillərin servis xidmətlərinə əlçatanlığı elektromobillərlə müqayisədə daha rahat və çevikdir. Hibrid avtomobil istifadəçisi olan respondentlərin 58,4%-i bildirib ki, ixtisaslaşmış servis məntəqələrinin sayı kifayət qədərdir. Elektromobil istifadəçisi olan respondentlər arasında isə bu göstərici cəmi 22,9% təşkil edib.

Peşəkar ustaların sayı baxımdan da hibrid nəqliyyat vasitələrində vəziyyət daha yaxşıdır. Onların 64,4%-i peşəkar ustaların sayının kifayət qədər olduğunu deyib. Lakin hibrid avtomobillərdən fərqli olaraq, elektromobil sahiblərinin cəmi 28,6%-i peşəkar ustaların sayının kifayət qədər olduğunu qeyd edib.

Respondentlərə görə, hibrid avtomobillərin ehtiyat hissələri elektromobil ilə müqayisədə daha tez tapılır. Hibrid avtomobil istifadəçilərinin 82,5%-i ehtiyat hissələrini tez tapa bildiyi halda, elektromobil istifadəçiləri arasında bu cəmi 35,7%-dir. Hökumətin qarşısında duran əsas məsələlədən biri elektromobillər üçün peşəkar ustaların, servis məntəqələrinin sayının artırılması, ehtiyat hissələrinə, enerjidoldurma məntəqələrinə daha sürətli və çevik əlçatanlıq istiqamətində təşviqatın artırılmasıdır.

## Nəticə

❖ Respondentlər arasında keçirilən sorğunun nəticələrinə əsasən, hibrid və elektrik mühərrikli avtomobillərin istifadəçiləri arasında məmnunluq səviyyəsi 97%-dir.

❖ Son 4 ildə hibrid avtomobillərə və elektromobillərə maraq xüsusilə artıb. Bu artım daha çox fərdi təşəbbüslərin hesabına baş verib. Dövlət tərəfindən təşəbbüs proqramlarının genişləndirilməsinə ehtiyac var.

❖ Enerjidoldurma aparatlarının quraşdırılmasında da daha çox özəl sektorun aktivliyi müşahidə edilir. Şirkət payı dövlətə məxsus olan SOCAR-ın törəmə şirkəti olan “SOCAR Petroleum” cəmi 2 aparat qoyubsa, “Azpetrol”da belə aparatların sayı 17-dir.

❖ Təəssüf ki, Azərbaycanda hibrid nəqliyyat vasitələri parkının yaşı köhnədir. Rəsmi statistikaya əsasən, hibrid avtomobil parkında buraxılış ili 11 ili keçən avtomobillər 90 faiz təşkil edir.

❖ Həm hibrid, həm də elektrik mühərrikli avtomobillərin parkında təkrar bazarın avtomobilləri üstünlük təşkil edir. Hibrid avtomobil istifadəçisi olan respondentlərinin 92,6%-nin, elektromobil istifadəçisi olan respondentlərin 74,3%-nin nəqliyyat vasitələri işlənmiş avtomobillərdir.

❖ Sorğunun nəticələrinə görə, ilkin bazara əlçatanlıq və oradakı qiymətlər təkrar bazarla müqayisədə çox geridə

qalır. Xüsusilə, elektromobilə sahib olmaq istəyənlər üçün yeni bazarın imkanları daha məhduddur. Respondentlərin 71,4%-i ilkin bazarda seçim imkanlarının geniş olmadığını qeyd edib. Hibrid avtomobil istifadəçilərinin isə 53,1%-i belə düşünür.

❖ Aparılan təhlillərə əsasən demək olar ki, hibrid və elektrik mühərrikli avtomobillərin alınması üçün güzəştli şərtlər yetərli səviyyədə deyil. Bu istiqamətdə maliyyə əlçatanlığını təmin etmək üçün dövlət və qeyri-dövlət maliyyə təşkilatları avtomobil kreditlərində xüsusi kampaniyalar təşkil edə bilərlər.

❖ Banklar tərəfindən təklif olunan avtomobil kreditləri ilə bağlı aparılan kampaniyalar məhdud olduğundan, kredit şərtlərinin münasibliyi ilə bağlı sualda respondentlərin böyük hissəsi məlumatsız görünür.

❖ Ölkənin ictimai nəqliyyat sektorunda elektrik mühərrikli nəqliyyat vasitələrinin sayının artırılması üçün təşəbbüslər irəli sürülməlidir.

❖ Hibrid və elektrik mühərrikli avtomobillərin paytaxtdan regionlara doğru təşviqinə ehtiyac var. Regionlarda mövcud sahədə infrastruktur yetərli səviyyədə qurulmayıb. İstər enerjidoldurma məntəqələri, istər servis məntəqələri, istərsə də peşəkar ustalarla təminolunma məsələləri ilə bağlı işlərin görülməsinə ciddi ehtiyac var.

❖ Elektromobil istifadəçiləri əsasən paytaxtda yerləşir. Regionlar üzrə əhalinin gəlir vəziyyətini nəzərə aldıqda yalnız elektrik mühərrikli avtomobillərin alınmasında əlçatanlıq aşağı ola bilər. Bu səbəbdən dövlət tərəfindən Bakı ilə paralel olaraq bölgələrdə də ən azı ictimai nəqliyyat parkında elektrobusların, elektrik mühərrikli taksilərin payının artırılması üçün hədəflər müəyyənləşdirilməlidir.

❖ Sorğuda iştirak edən respondentlərin cəmi 2,6 faizi qadındır. Onların hamısı hibrid avtomobildən istifadə edir, elektromobil istifadəçisi isə yoxdur. Avtomobil sahibi olan qadınlar arasında hibrid və elektrik mühərrikli avtomobillərə marağın az olması onların arasında maarifləndirmə işinə diqqətin artırılmasını zərur edir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

**Azərbaycan dilində:**

1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. /Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir/ - https://president.az/az/articles/view/50474

2. Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019–2023-cü illər üçün Dövlət Proqramı. / Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 dekabr tarixli 852 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir/ - https://e-qanun.az/framework/41118

3. “Elektrik mühərrikli və hibrdi nəqliyyat vasitəçiləri istifadəçilərinin məmnunluğu” sosioloji sorğu/ Sosial Tədqiqatlar Mərkəzi/, 2022

4. Xarici ticarətin vəziyyəti haqqında arayış. / Dövlət Gömrük Komitəsi, 2020, 2021, 2022/ - https://customs.gov.az/az/faydali/gomruk-statistikasi/xarici-ticaretin-veziyyeti-haqqinda

**İngilis dilində:**

5. Bellon, Tina and Paul. “Exclusive: Global carmakers now target $515 billion for EVs, batteries.” // Reuters, 21 Nov 2021. - https://www.reuters.com/business/autostransportation/exclusive-global-carmakers-now-target-515-billion-evs-batteries-2021-11-10

6. “Electric Vehicles” Report. /International Energy Agency, September, 2022/ -

https://www.iea.org/reports/electric-vehicles

7. “Global EV Outlook 2021” / International Energy Agency, April 2021/. - https://www.iea.org/reports/global-ev-outlook-2021

8. “Global EV Outlook 2022”. Securing supplies for an electric future. / International Energy Agency/ - https://iea.blob.core.windows.net/assets/ad8fb04c-4f75-42fc-973a-6e54c8a4449a/GlobalElectricVehicleOutlook2022.pdf

9. Rachel MacIntosh, Sophie Tolomiczenko, & Grace Van Horn, “Electric Vehicle Market Update” /April, 2022/ - www.sustainability.com

10. The Paris Agreement. /UNFCCC, 12 Dec. 2015/ - https://unfccc.int/process-and-meetings/the-paris-agreement/the-paris-agreement

11. Walton, Robert. Zero-emission vehicles ‘are coming very fast now,’ says author of Congressionally-mandated report. // Utility Dive, 1 Apr. 2021,

12. Zeroing in on Zero-Emission Trucks: The Advanced Technology Truck Index: A U.S. ZET Inventory Report /January 2022, A CALSTART Report By: Baha M. Al-Alawi, Owen MacDonnell, Ross McLane, and Kevin Walkowicz/ - https://calstart.org/wp-content/uploads/2022/02/ZIO-ZETs-Report_Updated-Final-II.pdf

13. 2021 Küresel Otomotiv Tüketici Araştırması. /Deloitte, 2021/ -https://www2.deloitte.com/tr/tr/pages/manufacturing/articles/2021-global-automotive-consumer-study.html

**Vusala Rustamova**

## THE CONDITION IN THE PROMOTION OF ELECTRIC AND HYBRID VEHICLES IN AZERBAIJAN AND THE USER SATISFACTION

### Abstract

Today, one of the main targets facing the countries of the world and international organizations is the reduction of carbon (CO2) emissions released into the atmosphere by industrial enterprises and transport wehicles. In this direction, challenges and targets are being accelerated, various action plans are adopted.

As a result, the number of countries that forbid diesel and gasoline vehicles is increasing every year. According to the International Energy Agency, electric vehicles sales in 2021 hit a record high of 6.6 million units. The total number of all types of electric vehicles (hybrid and electric cars) produced reached 16.5 million.

In recent years, some steps have been taken by the state on the encouragement of the use of electric vehicles in Azerbaijan. In order to ensure the transition to "green energy", the government of Azerbaijan has defined certain targets in this direction within a number of strategic documents, national priorities and the state program.

Among them, on the documents such as "State Program for Road Traffic Safety in the Republic of Azerbaijan for 2019-2023", and "Azerbaijan 2030: National Priorities for Socio-Economic Development", it is envisaged to form a relevant normative legal framework with the aim to stimulate the usage of environmentally friendly, electric vehicles, by determining advantages and privileges for production, import, export, circulation and operation. Even according to the new initiatives proposed in the 2022 state budget the application oftax incentives for all types of electric vehicles is intented for realisation

This article presents an analysis of a sociological survey conducted by the Social Research Center on "Satisfaction of users of electric and hybrid vehicles".

Regarding the factors promoting the transition to electric vehicles by the government, the public opinion was analyzed in the study.

**Keywords:** climate, target, hybrid, electric, car, vehicles, incentive, survey, state, promotion

**Вусала Рустамова**

## СИТУАЦИЯ С ПРОДВИЖЕНИЕМ ЭЛЕКТРИЧЕСКИХ И ГИБРИДНЫХ АВТОМОБИЛЕЙ В АЗЕРБАЙДЖАНЕ И УДОВЛЕТВОРЕННОСТЬ ИХ ПОЛЬЗОВАТЕЛЕЙ

### Резюме

На сегодняшний день одной из основных задач, стоящих перед странами мира и международными организациями, является сокращение выбросов углерода (CO2) в атмосферу, выбрасваемых промышленными предприятиями и транспортными средствами. В этом направлении ускоряются задачи и цели, принимаются различные планы действий.

В результате число стран,в которых ввели запрет на эксплуатацию дизельных и бензиновых автомобилей, увеличивается с каждым годом. По данным Международного Энергетического Агентства, продажи электродвигателей транспортных средств в 2021 году достигли рекордной отметки в 6,6 млн единиц. Общее количество произведенных электродвигателей транспортных средств всех типов (гибридов и электромобилей) достигло 16,5 млн. штук.

В последние годы государством были предприняты некоторые шаги по поощрению использования транспортных средств с электродвигателем в Азербайджане. Для обеспечения перехода на "зеленую энергетику" правительством Азербайджана были выделены определенные цели в этом направлении в рамках стратегических документов, национальных приоритетов и государственной программы.

Среди них такие документы, как "Государственная программа безопасности дорожного движения в Азербайджанской Республике на 2019-2023 годы", "Азербайджан 2030: национальные приоритеты социально-экономического развития". В целях стимулирования использования экологически чистых, электромобилей данными документами предусмотрено формирование соответствующей нормативно-правовой базы путем определения льгот и прерогатив на производство, ввоз, вывоз, обращение и эксплуатацию данных видов транспортных средств. Даже новые инициативы, предложенные в госбюджете на 2022 год, предусматривают введение налоговых льгот для всех видов электрических транспортных.

Статья содержит анализ социологического опроса, проведенного Центром Социальных Исследований на тему "Удовлетворенность пользователей электрических и гибридных автомобилей". В исследовании проанализировано общественное мнение о факторах, способствующих к переходу правительства на электродвигатели транспортных средств.

**Ключевые слова:** климат, цель, гибрид, электромобиль, автомобиль, транспортные средства, концессия, опрос, государство, поощрения

# UŞAQ EVLƏRİNİN MƏZUNLARİ İLƏ BAĞLI APARILAN SOSİAL SİYASƏTİN EMPİRİK TƏDQİQİ

**Natəvan NƏCƏFOVA**
*Bakı Dövlət Universitetinin Sosiologiya kafedrasının müəllimi*
*Bakı, Azərbaycan*

*E-mail: natavannadjafova@rambler.ru*
*UOT 376.5*

**Xülasə.** Valideyn himayəsindən məhrum olmuş uşaqların sosial problemlərinin uğurlu həlli cəmiyyətdə həmrəylik və sosial təhlükəsizliyin təmin edilməsi üçün əhəmiyyətlidir. Bir çox ölkələrdə olduğu kimi, Azərbaycanda da bu kateqoriyadan olan şəxslərlə bağlı tədbirlər dövlətin sosial siyasətinin əsas hədəflərindən sayılır.

Məqalədə valideyn himayəsindən məhrum olmuş uşaqların sosial problemləri təhlil edilir. Uşaq evlərinin məzunlarının bu müəssisələri tərk etdikdən sonra üzləşdikləri problemlər araşdırılır. Bu uşaqlar haqqında cəmiyyətdə formalaşmış ümumi rəy sosioloji tədqiqatla öyrənilir. Əldə olunan məlumatlar valideyn himayəsindən məhrum olmuş uşaqlarla bağlı bir çox kompleks məsələləri təhlil etməyə imkan verir. Belə bir qənaətə gəlinir ki, valideyn himayəsindən məhrum olmuş uşaqlara qayğı göstərilməsinin dövlət və yerli idarəetmə orqanları, uşaq müəssisələri ilə yanaşı ölkəmizdə bu sahədə fəaliyyət göstərən bir sıra təşkilatlar, ictimai birliklər tərəfindən də diqqətdə saxlanılması mühüm əhəmiyyət kəsb edir.

**Açar sözlər:** ailə, uşaq müəssisələri, sosial siyasət, dövlət proqramları, övladlığa götürmə

## Giriş

Uşaqlıq illəri insan həyatının ən rəngarəng, yaddaqalan və xoşbəxt dövrüdür. Məhz bu illərdə insanın gələcək taleyinin, onun fiziki və mənəvi sağlamlığının, vətəndaş mövqeyinin, insani cəhətlərinin əsası qoyulur. Əlbəttə, hər şəxsin formalaşmasında ailənin, ailə mühitinin, ailə tərbiyəsinin rolu əvəzsizdir [1]. Dövlətimiz gələcəyimiz olan uşaqların ailə mühitində böyüməsi və tərbiyə almasına xüsusi önəm verir.

Lakin təəssüflə qeyd etməliyik ki, bəzən uşaqlar ailəsindən ayrı yaşamaq məcburiyyətində qalırlar. Bu uşaqların ailə mühitindən ayrılaraq uşaq müəssisələrinə düşmə səbəbləri müxtəlifdir. Buna gətirib çıxaran səbəblər sırasında uğursuz ailələr, valideynlərin boşanması, valideynlik hüququndan məhrum olunması, pis vərdişlərinin olması, imkansızlıq və s. amilləri qeyd etmək olar [9, s. 307].

## Əsas mətn

Valideyn himayəsindən məhrum olmuş uşaqların uşaq müəssisələrinə düşmələri, orada uzun müddət qalmaları bir problemdirsə, yetkinlik yaşına çatıb uşaq müəssisələrini tərk etdikdən sonrakı yaşantılar, harada qalmaları, hansı işlərlə məşğul olmaları daha böyük problemdir. Belə ki, cəmiyyətdə bu kateqoriyalı insanlara birmənalı yanaşılmır: bir qrup insan onları özlərindən kənarlaşdırır, digərləri isə onları "artıq" adam hesab edir. Düzdür, əksinə fikirləşənlərin, onlara doğmaları kimi qayğı göstərənlərin sayı da xeyli çoxdur. Bu məqamda cəmiyyətdə uşaq müəssisələrinin məzunları haqqında formalaşan rəyin mahiyyətli cəhətlərini düşünməyə dəyər. Problemi araşdırmaq məqsədilə tərəfimizdən sosioloji sorğu keçirilmişdir. Sorğunun əsas aspektlərinə uşaqların uşaq evinə düşməsi səbəbləri və uşaqlarından imtina edən valideynlərə münasibət; uşaq evlərinin kimsəsiz uşaqların bir şəxsiyyət kimi formalaşmasında rolu; uşaq evlərinin məzunlarına dövlətin hansı yardımları göstərməsinin zəruriliyi; valideyn himayəsindən məhrum olmuş uşaqların psixoloji durumları; uşaq evlərinin məzunlarının gələcək həyatları; onlar haqqında cəmiyyətdə formalaşmış ümumi rəy və sosiodemoqrafik göstəricilər daxil edilmişdir. Bu indikatorlar vasitəsilə valideyn himayəsindən məhrum olmuş uşaqların real vəziyyəti və cəmiyyətdə onlara olan münasibət tədqiq edilmişdir. Əldə olunan məlumatlar interpretasiya olunaraq valideyn himayəsindən məhrum olmuş uşaqlarla bağlı bir çox kompleks məsələləri təhlil etməyə imkan vermişdir.

Sorğuda 400 respondent iştirak etmişdir. Sorğunun ünvanlandığı respondentlər Bakı və ətraf qəsəbələrin sakinlərindən ibarət olmuşdur. Anket sorğusunda iştirak edən respondentlərin 47 faizini kişilər, 53 faizini isə qadınlar təşkil etmişdir.

Sorğuda iştirak edən respondentlərin yaş nisbəti 18-60 yaş aralığı olub. Respondentlərin yarıdan çoxunu (55%) məşğul əhali, 20%-ni işsiz respondentlər, 13%-ni tələbə gənclər, 11%-ni təqaüdçülər təşkil edib. Sorğuda həmçinin respondentlərin təhsil səviyyəsinə görə nisbəti də əks olunub. Respondentlərin təxminən yarısı ali (40%) və natamam ali təhsilli (8%), 24 və 12%-i müvafiq olaraq tam orta və natamam orta təhsilli, nəhayət, 16%-i orta ixtisas təhsilli olub. Rəy soruşulanlardan yarıdan çoxunu evli (58%), müvafiq qaydada 19 və 18%-ni subay və boşanmış, 5%-ni isə dul respondentlər təşkil edib. Belə bölgü bizə problemə dair daha dolğun cavablar almağa yardım edib.

Respondentlərin uşaqların uşaq evlərinə düşməsi səbəbləri haqqında cavablarını nəzərdən keçirək. Rəyi soruşulanların təxminən 1/3-i (28%-i) bunu "valideynlərin öz övladlarından imtina etməsi", 22%-i isə "valideynlərin hər ikisinin vəfatı və uşağa baxanın olmaması" ilə izah edir. Üçüncü yerdə gələn səbəb isə "valideynlərin sosial vəziyyətinin aşağı səviyyədə olması"dır

(15%). Göstərilən hər üç səbəb, zənnimizcə, daha çox yoxsulluq, maddi imkansızlıq problemi ilə izah edilə bilər. Digər səbəblər arasında daha çox sosial-psixoloji problemlər öndə gəlir: məsələn, valideynlərdən birinin sonradan yenidən ailə həyatı qurması (7%), valideynlik hüququndan məhrum edilməsi (5%), ümumiyyətlə boşanması (3%) və s.

Qeyd etdiyimiz kimi, bir sıra valideynlər sosial vəziyyətlərinin aşağı səviyyədə olması səbəbindən uşaqlarını uşaq müəssisələrinə yerləşdirir, özləri ilə bərabər övladlarının da pis yaşamasını istəmirlər. Lakin cəmiyyətdə bu cür valideynlərə münasibət heç də yaxşı deyil. Belə ki, rəyi soruşulanların böyük əksəriyyəti (80%) üçün bu cür valideynlər pis nümunədir. Yalnız 20% respondent bunun “normal” (15%) və yaxşı hal olduğunu bildirib.

Əvvəl qeyd etdiyimiz kimi, uşaqların uşaq evlərinə düşmələrinin digər bir səbəbi də valideynlərin könüllü olaraq uşaqlarından imtina etməsidir. Bu suala respondentlərin cavabı birmənalı olaraq neqativdir (95%). İstənilən halda dünyaya gəlmiş körpə valideynləri sağ ikən onların himayəsində qalmalıdır. Cavablardan belə nəticəyə gəlmək olar ki, bu cür valideynlərə respondentlər heç cür bəraət qazandırmır, onları qınayırlar. Bəs, görəsən, respondentlər valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün nəzərdə tutulmuş uşaq evlərinin uşaqların bir şəxsiyyət kimi formalaşmasında roluna dair nə fikirdədirlər? Gözlədiyimizin əksinə olaraq, respondentlərin çoxu onların rolunu “olduqca əhəmiyyətli” (75%) və “müəyyən qədər əhəmiyyətli” (5%) hesab edirlər. Sorğuda iştirak edənlərin 1/5-nin fikrincə isə onlar bu işdə “heç bir rol oynamırlar”.

Bizi respondentlərin uşaq evlərində böyüyən valideyn himayəsindən məhrum olmuş uşaqların psixoloji durumuna rəyi də maraqlandırmışdır. Məsələ burasındadır ki, bu uşaqlar deprivasiya vəziyyətində olduğundan bir çox hallarda psixoloji problemlər yaşayırlar. Rəyi soruşulanların cavabları bunu təsdiqləyir: respondentlərin 56%-nə görə, “onlar əsəbi, çılğın, ətrafdakılar ilə tez-tez dalaşan olurlar”, 33%-nin fikrincə, "onlar çox vaxt sakit olurlar, ətrafdakılar ilə az ünsiyyətə girirlər" və nəhayət, 11% respondent “uşaq müəssisələrində hər cür uşağa rast gəlməyin mümkünlüyünü” vurğulayır .

Cədvəl 1-dən göründüyü kimi, respondentlərin uşaq evini tərk etdikdən sonra valideyn himayəsindən məhrum olmuş uşaqların həyat şəraitlərinə dair cavabları bir qədər ziddiyyətlidir. Belə ki, əgər onlardan 36%-i həmin uşaqların çox pis vəziyyətdə olduğunu düşünürsə (“Küçədə dilənçi vəziyyətində yaşayırlar”), təxminən bir o qədəri də (32%) uşaqların cəmiyyətdə özlərinə layiqli yer tuta biləcəyini zənn edirlər. Respondentlərin 18%-i burada hər bir şeyin mümkünlüyünü qəbul edir və hər şeyi onların öz ixtiyarına

**Cədvəl 1.**

***Respondentlərin valideyn himayəsindən məhrum olmuş uşaqların uşaq evini tərk etdikdən sonra həyat şəraitlərinə dair cavabları (respondentlərin %-lə sayına nisbətdə)***

| № | Suallar | Cavablar |
|---|---|---|
| **1.** | Küçədə dilənçi vəziyyətində yaşayırlar | 36 |
| **2.** | Cinayət edərək həbsxanaya düşürlər | 13 |
| **3.** | Cəmiyyətdə özlərinə layiqli yer tuturlar | 32 |
| **4.** | Hər cür vəziyyətə düşə bilərlər | 18 |
| **5.** | Başqa | 1 |
| | **Cəmi:** | 100 |

buraxaraq, vəziyyəti şəraitlə əlaqələndirir. Yalnız 13% respondent onların həbsxanaya düşə biləcəyini zənn edir. Beləliklə, respondentlərin yarıdan çoxu onlar haqqında pozitiv düşünmür, 1/3-i isə bunu mümkün hesab edir.

Buradan belə bir sual yaranır: Görəsən, uşaq evlərində böyüyən valideyn himayəsindən məhrum olmuş uşaqlar gələcəkdə cəmiyyət üçün faydalı insan ola biləcəklərmi? Bu haqda respondentlər nə düşünür? Respondentlərin 82%-i bunu yalnız uşağın öz fərasəti ilə bağlayır. Onların fikrincə, bu məsələdə uşağın "uşaq evində və ya ailə mühitində böyüməsinin əsaslı fərqi yoxdur". Rəyi soruşulanların 11%-i onların cəmiyyət üçün faydalı ola biləcəyinə inanır və hətta bu şəxslərin valideynləri ilə yaşayan uşaqların bir çoxundan artıq cəmiyyətə fayda verəcəyini bildirir. Sorğuda iştirak edənlərin 7%-i isə buna inanmır və səbəb kimi də uşaq evini göstərir, çünki "onlara uşaq evində bunu aşılaya bilmirlər" .

Müasir dünyada təhsil çox vacib bir sosial institutdur və yaxşı təhsil onu verən müəssisənin yüksək tələblərə cavab verən müəllimlərə, avadanlığa və ümumiyyətlə uşaqları inkişaf etdirmək üçün digər imkanlara malik olması ilə şərtlənir. Təhsil həm də bu sahəyə kapital qoyulmasını, onun əlçatan olmasını tələb edir. Yəqin ki, elə bu düşüncələri əsas tutaraq, respondentlər valideyn himayəsindən məhrum olmuş uşaqların ailə mühitində böyüyən uşaqlardan təhsil səviyyəsinə görə zəif olması cavabını veriblər (53%). Rəyi soruşulanların 43%-i bu uşaqlar arasında əhəmiyyətli fərqin olmadığını, yalnız 7%-i isə valideyn himayəsindən məhrum olmuş uşaqların ailə mühitində böyüyən uşaqlardan təhsil səviyyəsinə görə yüksək olduğunu qeyd edib. Zənnimizcə, burada respondentlər daha çox potensial imkanları nəzərə alaraq belə cavablar veriblər. Amma əslində təhsil üçün lazım olan elementlərin çoxu indiki şəraitdə valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün, təəssüf ki, əlçatan deyil [5, s.179].

Respondentlərin uşaq evlərinin məzunlarının gələcək həyatları barədə düşüncələri demək olar ki, yarı-yarıya nisbətdə bölünür. Belə ki, onların 54%-i həmin şəxsləri gələcəkdə çox problemlərin gözlədiyini bildirir, 25%-i onların "normal" və 21%-i "yaxşı" bir həyat keçirəcəklərinə inanır (Cədvəl 2).

Rəyi soruşulanların mühüm bir hissəsi (68%) uşaq evlərinin məzunlarının işlə təminatını vacib məsələ sayır. Onların 1/5-nin rəyinə görə (20%) məzunlar yaşayış yeri ilə təmin edilməlidirlər. Digər vacib şərtlər arasında maliyyə yardımı (14%) və maddi yardımlar (12%) göstərilib. 16% respondent sadalanan bütün yardımların vacibliyini vurğulayır. Respondentlərin yalnız 2%-i dövlətin bu işə qarışmamasını istəyir.

Uşaq evlərinin məzunlarına nə cür münasibət bəsləməsinə dair suala respondentlərin cavabları belə olmuşdur: təqribən 2/3-nin "onlara yazığı gəlir, hallarına acıyır" (56%) və "onlara kömək üçün əlindən gələn hər şeyi etməyə hazırdır"

**Cədvəl 2.**
***Respondentlərin uşaq evlərinin məzunlarının gələcək həyatları barədə suallara cavabları (respondentlərin %-lə sayına nisbətdə)***

| № | Cavablar | Faizlər |
|---|---|---|
| **1.** | Çox ağır, çətin olur | 54 |
| **2.** | Normal bir həyat tərzi keçirirlər | 25 |
| **3.** | Yaxşı bir həyat keçirirlər | 21 |
| | Cəmi: | 100 |

**Cədvəl 3**
***Respondentlərin "Uşaq evlərinin məzunlarına dövlət hansı yardımı etməlidir" sualına cavabları (sualların sayına nisbətdə %-lə)***

| № | Suallar | Cavablar |
|---|---|---|
| **1.** | Maliyyə yardımı | 14 |
| **2.** | Maddi yardım | 12 |
| **3.** | İşlə təmin etməlidir | 68 |
| **4.** | Yaşayış yeri ilə təmin etməlidir | 20 |
| **5.** | Yuxarıda göstərilənlərin hamısı ilə | 16 |
| **6.** | Heç bir yardım göstərməməlidir | 2 |
| **7.** | Digər | 3 |

(20%). Rəyi soruşulanların 15%-i dövlətin həmin şəxslərin qayğısına qaldığına görə "hallarına yanmır" və bir o qədər sayda respondent onlara "yaxşı münasibət bəsləmir". Zənnimizcə, belə bir cavabın verilməsinin səbəbləri növbəti sorğularda araşdırılmalı və bu istiqamətdə müəyyən işlər görülməlidir. İstənilən halda antipatiya, qayğısızlıq, diqqətsizlik cəmiyyətdə harmonik münasibətlərin yaranmasına birbaşa maneədir.

Cədvəl 4-dən göründüyü kimi, respondentlərin 66%-i uşaq müəssisələrində böyüyən uşaqla ailə mühitində böyüyən uşaq arasında hər hansı bir fərqi görmür, qalan 34% üçün isə bu fərqlərin olması faktdır.

İstənilən cəmiyyətdə indifferent şəxslərin olması istisna deyil və buna fövqəladə hal kimi baxmaq düzgün olmazdı.

Respublikamızda uşaqların sosial və hüquqi müdafiəsi ilə bağlı məsələlər Azərbaycan Respublikasının Konstitusiyası, bir sıra qanunverici və normativ-hüquqi aktlarla tənzimlənir. Qeyd etmək lazımdır ki, ölkəmizdə uşaq hüquqlarının müdafiəsi təkcə müvafiq qanunvericilik aktlarının qəbul edilməsi ilə yekunlaşmamış, konkret tədbirlərin həyata keçirilməsi yolu ilə reallaşmaqdadır. Bu məqsədlə ölkəmizdə uşaqların sosial müdafiəsinə yönəlmiş mühüm addımlar atılmışdır. Ölkəmizdə fəaliyyət göstərən beynəlxalq təşkilatların dəstəyi ilə Azərbaycan hökuməti həssas qruplara aid olan uşaqların problemlərinin həll edilməsi istiqamətində mühüm tədbirlər həyata keçirir. Dövlətimiz tərəfindən xüsusi qayğı göstərilən qruplardan biri valideyn himayəsindən məhrum olmuş uşaqlardır. Azərbaycan Respublikasında 22 iyun 1999-cu il tarixində qəbul edilmiş "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Qanunla bu kateqo-

**Cədvəl 4.**
***Respondentlərin uşaq müəssisələrində böyüyən uşaqla ailə mühitində böyüyən uşaq arasında hər hansı bir fərq qoyması haqqında suala cavabları (respondentlərin sayına nisbətdə %-lə)***

| № | Cavablar | Faizlər |
|---|---|---|
| **1.** | Bəli | 34 |
| **2.** | Xeyr | 66 |
| | **Cəmi:** | 100 |

riyadan olan uşaqların orta-ixtisas və ali təhsil aldığı müddətdə müdafiəsinin təmin edilməsi nəzərdə tutulur [8]. Bu uşaqların müdafiəsi istiqamətində atılmış ən mühüm addımlardan biri "De-institusionalizasiya və ya alternativ qayğı üzrə Dövlət Proqramının (2006-2015-ci illər)" qəbul edilməsi olmuşdur. Proqram Azərbaycan Respublikası Prezidentinin 29 mart 2006-cı il tarixli 1386 nömrəli Sərəncamı ilə təsdiqlənmişdir [2, s.121; 6; 9]

Valideyn himayəsindən məhrum olmuş uşaqların tərbiyəsi və saxlanılması tədbiri kimi onların övladlığa, qəyyumluğa, himayəçiliyə və digər ailəyə verilməsinin üstünlüyü təsbit edilmişdir. Qeyd etmək lazımdır ki, uşaqların tərbiyə, təhsil, sosial təminat, müvafiq müəssisələrdə saxlanılması (yerləşdirilməsi) və s. məsələlər o halda tətbiq olunur ki, həmin uşaqların müdafiə və tərbiyə edilməsinin başqa formalarının (qəyyumluğa, himayəyə, övladlığa vermə və s.) tətbiqi mümkün olmasın [11, s.46].

Uşaqların hüquqlarının qorunması sahəsində övladlığa götürmə institutu diqqət edilməsi vacib olan əsas sahələrdən biridir. Bu institut həm övladlığa verən, həm övladlığa götürən, həm tərbiyə müəssisələri, həm də dövlət qurumlarının qarşısında müxtəlif hüquq və vəzifələr qoyur, uşaqların mənafelərini üstün tutaraq onlar üçün vacib institut olduğunu sübut etmək istiqamətində səylərini optimallaşdırmağa çalışır [7].

Övladlığa götürmə heç də sadə, yəni valideynlər arasında baş tutmuş razılıqla və ya müvafiq müəssisələrin razılığı ilə uşağın övladlığa götürülməsindən ibarət deyil. Uşaq hüquqlarının həyata keçirilməsi, onların düzgün tərbiyə olunması, yüksək mənəviyyatlı, hərtərəfli şəxsiyyət kimi formalaşmasına şərait yaradılması, uşağın zəruri maddi və məişət şəraitində böyüyüb tərbiyə olunması, mütərəqqi tələblər əsasında təhsil alması, layiqli vətəndaş kimi formalaşmasının təmin edilməsi Azərbaycan Respublikasının dövlət siyasətinin əsas istiqamətlərindən biridir [5, s.89; 6, s.185].

Dövlət Statistika Komitəsinin məlumatına görə, Azərbaycanda 2020-ci ildə 234 uşaq övladlığa götürülmüşdür. Onlardan 111-i qız, 123-ü oğlan uşaqlarıdır. Bu uşaqların əksəriyyətinin yaşı əsasən 1-5 yaş arasında dəyişir [3].

Bəzən cəmiyyətdə bu tərbiyə və himayə formalarının qarşı-qarşıya qoyulması hallarına, bəzən internatların lazımsızlığı, bəzən isə ailəyə uşaq verilməsinin təhlükəli olması kimi fikirlərə rast gəlinir. Hesab edirik ki, bu yanaşma qüsurludur. Çünki bu tərbiyə və himayə formaları uzun illər ərzində beynəlxalq təcrübələrin sınağından çıxaraq bu gün mövcud olmaq haqqına sahib ola bilmişdir. Ola bilər ki, bir uşaq övladlığa, qəyyumluğa və himayəyə verilib, bu uşaq üçün çox uğurlu, səmərəli olmuşdur. Ola bilər ki, bir internat tipli müəssisədə çox keyfiyyətli təhsil, tərbiyə verilmiş və həmin internatın məzunu gələcəkdə uğurlu həyat yaşamışdır. Eynilə himayədar ailədə uşaq üçün əlverişli ola bilər, onun uğurunu təmin edər. Yaxud əksinə, mümkündür ki, hansısa bir uşağın övladlığa, qəyyumluğa verilidiyi ailə, tərbiyə aldığı müəssisə onun üçün uğursuz olsun; uşaq yaxşı təhsil ala bilməsin, sağlamlığına ciddi təhlükə yaransın. Qeyd olunanlar bir daha gostərir ki, hər bir tərbiyə və himayə formasının üstünlüyü və mövcud olmaq reallığı vardır. Lakin burada ən vacib cəhət həmin tərbiyə və himayə formalarına ciddi dövlət nəzarətinin olması və bu sahədəki fəaliyyətin, eləcə də dövlət, valideyn himayəsindən məhrum olmuş uşaq və müəssisə (himayədar ailə, qəyyum, himayəçi və s.) arasındakı münasibətlərin hüquqi cəhətdən dəqiq, mükəmməl tənzimlənməsidir. Azərbaycan Respublikasında dövlət uşaq siyasəti valideyn himayəsindən məhrum olmuş uşaqların ailələrə verilməsinə yönəlmişdir. Lakin hazırkı tədqiqat işinin hazırlanması zamanı aparılan ekspert sorğusuna əsasən gəldiyimiz qənaət

belədir ki, bunun icrası yaxın illərdə mümkün deyil. Həm valideyn himayəsindən məhrum olmuş uşaqların sayı, həm uşağı tərbiyə üçün götürməyin ölkədə ənənəvi olmaması və s. məsələlər, yəqin ki, hələ uzun illər uşaq internat müəssisələrinin mövcud olmasını şərtləndirəcəkdir.

## Nəticə

Apardığımız tədqiqatdan aşağıdakı nəticələrə gəlmək olar:

**1.** Azərbaycanda valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün nəzərdə tutulan uşaq evləri və internat məktəblərində uşaqların sayının artmasının başlıca səbəbi yoxsulluqdur. Apardığımız sorğuda respondentlərin əksəriyyəti uşaqların uşaq evlərinə və internat məktəblərinə düşməsinin digər əsas səbəblərindən biri kimi valideynlərin öz uşaqlarından imtina etməsini və valideynlərin vəfat etməsini göstərirlər. İnsanlarda bu fikirlərin yaranması təsadüfi deyil. Çünki uşaq evləri yaradılarkən əsas məqsəd valideynləri vəfat etmiş uşaqlara sığınacaq, qida, geyim, təhsil vermək olmuşdur.

İnsanlarda belə bir fikir formalaşıb ki, yalnız uşağın valideynləri vəfat etdikdən sonra və onlara baxan olmadığından uşağı uşaq evinə və ya internat məktəbinə vermək olar. Amma həm bizim apardığımız tədqiqatdan, həm də müvafiq orqanların verdiyi məlumatlardan məlum olur ki, uşaq müəssisələrində "sosial yetimlər"in, yəni valideynləri sağ olan, lakin müxtəlif səbəblərə görə (yoxsulluq, boşanma, həbsxanada olma) uşaq müəssisələrində yerləşdirilən uşaqların sayı "bioloji yetimlər"dən kifayət qədər çoxdur.

Kimsəsiz uşaqlar üçün nəzərdə tutulan uşaq müəssisələrində uşaqların psixoloji vəziyyəti çox zaman ürəkaçan olmur. Bu müəssisələrdə müxtəlif cür uşaqlara rast gəlmək mümkündür. Onlar arasında istər sakit, ətrafdakılarla az ünsiyyət quranlar, istərsə də aqressiv, ünsiyyətcil olanlar da var. Nisbətən böyük yaş qrupunda olan uşaqlar arasında bu cür hallara daha çox rast gəlinir. Eyni zamanda onlardan bəziləri uşaq müəssisələrindən kənara çıxmaq istəmirlər. Səbəbini isə ətrafdakılarla ünsiyyətdə olmaq istəməmələri ilə izah edirlər. Onların fikrincə, onlar üçün ən yaxşı məkan uşaq evləridir.

Böyük yaş qrupunda olan uşaqlardan fərqli olaraq müşahidə etdiyimiz kiçik yaşlı uşaqlar sakit, utancaq və bir qədər də nədənsə ehtiyatlanan, qorxan vəziyyətdədirlər. Sorğuda iştirak edən respondentlərin əksəriyyətinin fikrincə, uşaq müəssisələrində böyüyən uşaqlar sakit, özlərinəqapalı, ünsiyyəti sevməyən olurlar.

**2.** Uşaq müəssisələrində yaşayan uşaqlarla aparılan sosial iş zamanı müəyyən olundu ki, uşaqların əksəriyyətində psixoloji zədələr var. Bu zədələr ailə mühitindən gəlsə də, uşaq müəssisələrində onların üzərində lazımi iş aparılmadığı üçün daha da dərinləşib.

**3.** Eyni zamanda uşaq müəssisələrində olan uşaqların təhsil səviyyəsinin ailə mühitində böyüyən uşaqların təhsil səviyyəsindən aşağı olduğu müəyyən edilib.

**4.** Uşaq müəssisələrinin məzunlarının həyatları uşaq müəssisələrində keçirdikləri həyatdan aşağı vəziyyətdə olur. Düzdür, onlar arasında öz həyatlarını nisbətən yaxşı qurmağı bacaranlar da var, ancaq bu göstərici çoxluq təşkil etmir. Rəyi soruşulanların əksəriyyətinin fikrincə, uşaq müəssisələrinin məzunları bir sıra hallarda küçədə dilənçi vəziyyətində yaşayırlar və ya müəyyən bir işdə çalışsalar da, məvacibləri çox zaman minimum əmək səbətindən aşağı olur.

Tədqiqatımızın nəticələrinə əsaslanaraq, valideyn himayəsindən məhrum olmuş uşaqların cəmiyyətdə vəziyyətini yaxşılaşdırmaq məqsədilə onların foster ailələrdə, bioloji ailələri olduğu halda isə öz ailələrində yerləşdirilməsini məqsədəuyğun hesab edirik. Valideynlərin sosial vəziyyətinin aşağı səviyyədə olduğu və bunun uşaq(lar)a baxmaqda problemə çevrildiyi hallarda bu tip ailələrə dövlət

yardımının artırılması vacibdir. Fikrimizcə, hazırkı şəraitdə dövlət uşaq müəssisələrinin məzunları iş və yaşayış şəraiti ilə təmin edilməlidir ki, onlar cəmiyyət üçün faydalı insan ola bilsinlər. Müvafiq dövlət orqanları, QHT-lər, hüquqi, psixoloji və sosial iş mərkəzləri valideyn himayəsindən məhrum olmuş uşaqlarla mütləq uzunmüddətli psixo-sosial reabilitasiya işləri aparmalı, onların yüksək səviyyədə təhsil almaları üçün QHT-lər, müxtəlif aidiyyəti qurumlar, mərkəzlər, ictimaiyyət nümayəndələri və başqaları dəstək göstərməlidirlər. Uşaqlar ailələrdə yerləşdirilən zaman ailə və uşaqla ayrı-ayrılıqda sosial işçilər məşğul olmalıdır. Burada məqsəd əvvəlcədən ailə ilə uşağın bir-birinə uyğun olub-olmadığını aşkar etmək, hər iki tərəfə yeni mühitə uyğunlaşmaqda kömək göstərməkdən ibarətdir.

Bütün bunların yerinə yetirilməsi, fikrimizcə, cəmiyyətdə valideyn himayəsindən məhrum olmuş uşaqlara qarşı neqativ yanaşmanı xeyli dərəcədə aradan qaldırmış olar.

Beləliklə, valideyn himayəsindən məhrum olmuş uşaqlara qayğı göstərilməsində dövlət və yerli idarəetmə orqanları, uşaq müəssisələri ilə yanaşı vətəndaş cəmiyyətinin əsas elementlərindən olan qeyri-hökumət təşkilatlarının (istər beynəlxalq, istərsə də yerli), ictimai birliklərin fəaliyyəti də mühüm əhəmiyyət kəsb edir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:


**Azərbaycan dilində:**

1. “Azərbaycan müəllimi” qəzeti, 27 dekabr 2013-cü il, № 30

2. “Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı dövlət proqramı (2006-2015-ci illər). /Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 mart tarixli 1386 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir/ - https://e-qanun.az/framework/11537

3. Dövlət Statistika Komitəsinin elektron portalı. 2010-2020 https://www.stat.gov.az

4. Həsənov, R. Sosial siyasət. - Bakı: “Avropa” nəşriyyatı, 2016, - 310 s.

5. Nəcəfova, N.X. Valideyn himayəsindən məhrum olmuş uşaqlar problemi sosial iş kontekstində. // Bakı Universitetinin Xəbərləri, Sosial-siyasi elmlər seriyası, Bakı, 2015, №1, s. 118-125.

6. Rəcəbli, H. Azərbaycan Respublikasının sosial müdafiə sistemi. /Ali məktəblər üçün dərs vəsaiti. Bakı: MBM, 2012, - 408 s.

7. Uşaqların yerli vətəndaşlara övladlığa verilməsinin tərəfdarıyıq. - www.hafta.az

8. “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu. /Bakı, 22 iyun 1999-cu il/ - https://e-qanun.az/framework/3859

**Türk dilində:**

9. Aliyeva, Y.N. Sahipsiz şocuklar: Azerbaycan örneği / Y.N.Aliyeva, S.N.Aliyeva. İstanbul: SAMER, Bağcılar Baskısı, 2014, №3, s.306-313.

**Rus dilində:**

10. Ахинов, Г.А. Социальная политика. Теория и практика /Г.А.Ахинов, С.В.Калашников. - Москва: ЗАО Издательство Экономика, 2008, -312 с.

11. Бессчетнова, О.В. Приемная семья: социально-демографический анализ. - Саратов: Научная книга, 2008, -288 с.

12. Симерницкая, Э.Г. Нейропсихологическая диагностика и коррекция школьной неуспеваемости. // Психодиагностика и коррекция детей с нарушениями

и отклонениями развития / Сост. В.М.Астапов, Ю.В.Микадзе. – Санкт-Петербург: Питер, 2001, с.177-185 (Хрестоматия по психологии).

**Natavan Najafova**

## EMPIRICAL STUDY OF SOCIAL POLICY REGARDING GRADUATES OF ORPHANAGES

### Abstract

The successful solution of the social problems of children left without parental care is important for ensuring solidarity and social security in society. As in many countries, in Azerbaijan, measures concerning persons from this category are considered one of the main goals of state social policy. This article analyzes the social problems of children left without parental care. The problems faced by graduates of orphanages after leaving these institutions are investigated. With the help of sociological research, the general opinion that has developed in society about these children was studied. The data obtained made it possible to analyze many complex issues related to children left without parental care. It is concluded that caring for children left without parental care is of great importance on the part of state authorities and local governments, children's institutions, as well as a number of organizations and public associations operating in this area in our country.

**Keywords:** family, children's institutions, social policy, government programs, guardianship

**Натаван Наджафова**

## ЭМПИРИЧЕСКОЕ ИССЛЕДОВАНИЕ СОЦИАЛЬНОЙ ПОЛИТИКИ В ОТНОШЕНИИ ВЫПУСКНИКОВ ДЕТСКИХ ДОМОВ

### Резюме

Успешное решение социальных проблем детей, оставшихся без родительской помощи, важно для обеспечения солидарности и социального обеспечения в обществе. Как и во многих странах, в Азербайджане меры, касающиеся лиц из этой категории, считаются одной из основных целей государственной социальной политики. В этой статье анализируются социальные проблемы детей, оставшихся без родительской помощи. Проблемы, с которыми сталкиваются выпускники детских домов после выхода из этих учреждений, исследуются. С помощью социологических исследований было изучено общее мнение, которое развивалось в обществе об этих детях. Полученные данные позволили анализировать многие сложные проблемы, связанные с детьми, оставшимися без родительской помощи. Сделан вывод, что уход за детьми, оставленными без родительской помощи, имеет большое значение со стороны государственных властей и местных органов власти, детских учреждений, а также для ряда организаций и общественных ассоциаций, действующих в этой области в нашей стране.

**Ключевые слова:** семья, детские учреждения, социальная политика, государственные программы, опека

# AKTUAL İCTİMAİ-SİYASİ MƏSƏLƏLƏR

# CURRENT SOCIAL AND POLITICAL ISSUES

# FUTURE OF KARABAKH: PEACE, RETURN, RESTORATION AND REVIVAL

**Malik Musawar HAMEED**
*Founder and President of the Youth Diplomacy Forum,*
*BS International Relations, Pakistan*
*E-mail: musawarnuml@gmail.com*

**Abstract.** During the Soviet period, Karabakh was an autonomous region within Azerbaijan with an area of about 4,400 square kilometers. In 1991, Armenia and Azerbaijan gained independence from the Soviet Union. As a result of the occupation policy of Armenia, the first Karabakh war broke out between Armenia and Azerbaijan. The UN Security Council adopted 4 resolutions on the occupation and liberation of lands.

In 1994, both countries reached a ceasefire agreement. Despite this, illegal elections were being held in the self-proclaimed Nagorno-Karabakh Republic at the time, which Azerbaijan opposed. Many attempts were made to resolve the conflict peacefully and keep peace in the South Caucasus. On September 27, 2020, as a result of the provocation of the Armenian side hostilities broke out between Azerbaijan and Armenia, resulting in the “Second Karabakh War”, which lasted 44 days. This war was won by Azerbaijan, which liberated its ancient lands from the Armenian occupation. On the initiative of the Russian Federation, on November 9-10, a tripartite statement was signed on a complete ceasefire and all hostilities in the zone of the Nagorno-Karabakh conflict. According to the statement, the contingent of the Russian peacekeeping forces was temporarily deployed in Karabakh for a period of 5 years.

**Keywords:** Azerbaijan, Armenia, OSCE, Karabakh Wars, post-conflict period, peace, return of refugees, restoration and revival

## Introduction

The status of Karabakh, before and after occupation, the liberation of Karabakh, Azerbaijan's victory in this war, the role of modern warfare/drone technology, the role of peacekeeping, and the future social, political, economic, and military outcomes of this problem will all be discussed in this article.

From 1991 through 2021, it covers the historical context, social, political, economic, and military components of Azerbaijan and Armenia. It is critical to research the Karabakh conflict since modern technology, particularly drone technology, has been used in warfare in the modern period, resulting in the liberation of the Karabakh territory. We'll talk about how Azerbaijan won the battle, the causes and implications of the second Karabakh war, and what the future holds with Russian and in the region. (2015)[I]

***Research Questions:***

Reasons and consequences of failure of OSCE?

Who is a peaceful regional actor in the Caucasian region?

The Future of Karabakh: How are peace and refugee return processes related?

***Literature review:***

This is a descriptive, qualitative, and quantitative study, with data acquired from a variety of social media platforms, including official websites, news, and publications. When did this fight begin, and who initiated it? Why and how did a 44-day war occur? Is it a religious or political conflict? What are the United Nations resolutions?

Who was the perpetrator of war crimes and cultural genocide? Karabakh's War impact on economic operations and facilities, as well as the war's effects for both countries

***Hypothesis:***

Regarding the Azerbaijan-Armenia conflict, I have come to the conclusion that Azerbaijan as a country that liberated its territory from occupation is a peaceful regional actor in Karabakh in terms of security, economy, trade, and transportation links, among other things. Peacekeeping soldiers stationed in Karabakh for an extended period of time pose a threat to Azerbaijan's sovereignty. Although possessing resources and significant oil and gas pipelines, it is a question of territorial integrity.

***Theoretical framework:***

Theory of realism is applied on Second Karabakh War and future of Karabakh region. According to realism, state is a unitary actor, decision makers are rational actors to achieve national interests, lastly, there is no established hierarchy internationally. In case of Azerbaijan and Armenia, this is considered to be military intervention from Armenian side. Coercive and aggressive Armenian nature and policies moved both countries towards violence which further leads to war. The 44 days wars solved the disputes which started 30 years ago. War was used as a tool to gain national interest. Armenia started the war to take further control of Karabakh region but failed to do so. In response, Azerbaijan won the war, regained the control of territories which were lost in first Karabakh war. Moreover, Azerbaijan implemented UN resolutions by using military force and liberated the lands which were internationally recognized as territories of Azerbaijan by the UN.

***Timeline:***

- Historical background
- Second Karabakh War
- UN resolutions
- Role of the OSCE Minsk Group
- Deployment of peacekeeping troops
- Development projects

- Peace Agreement
- Trilateral working group
- Future implications

***Failure of the OSCE Minsk Group:***

Within the Republic of Azerbaijan, the Soviet Union formed the autonomous republic of Nagorno-Karabakh in the 1920s, where the majority of the population is ethnically Armenian. Following the breakup of the Soviet Union in 1991, as a result of the occupation policy of Armenia, the first Karabakh war broke out between which lasted until 1994. Armenia occupied Karabakh and 20% of adjacent Azerbaijan's territory in 1993. In 1994, Russia negotiated peace, and a the OSCE Minsk Group was constituted to do so, but it failed to produce any results.

***Role of the OSCE:***

The Organization for Security and Cooperation in Europe (OSCE) was established in 1992 to promote Nagorno-Karabakh conflict negotiations and a peaceful resolution. France, Russia, and the United States are in charge. Azerbaijan and Armenia are both parties to the Nagorno-Karabakh conflict. Belarus, Finland, Germany, Italy, Sweden, and Turkey are also members of the OSCE Minsk Group. The OSCE issued a number of declarations stating that the occupation of this region is unacceptably dangerous to regional stability, but that it is unable to propose a solution. During the second Karabakh war, the OSCE, like other organizations, has called for a rapid ceasefire.

Turkey, as an OSCE member, has backed Azerbaijan's right to self-defense, but the Minsk Group has put Azerbaijan and Armenia in an impasse. Unsuccessful mediation efforts, ceasefire violations, and rising tensions between Azerbaijan and Armenia rekindled a military war between the two countries. The second Karabakh war changed the situation, and brushing aside the Minsk Group's global diplomacy failed miserably. Russia has a good position by establishing a ceasefire agreement with Turkey, but the Minsk Group is nowhere in the Nagorno-Karabakh conflict peace process.

The territorial integrity, self-determination, and security of Nagorno-Karabakh were all omitted by the OSCE. The OSCE's effectiveness in conflict zones is hampered by this flaw. Furthermore, the OSCE chairmen' remarks are unclear and ambiguous, and their opinions on the status of Nagorno-Karabakh are not neutral. The Minsk Group has not played a major role in resolving this war, but it has held both parties accountable for the escalation and for maintaining peace. What role does the OSCE play if Azerbaijan and Armenia decide on peace and stability? The fact that conflicting parties will decide peace among themselves is a disadvantage in and of itself. Although the OSCE Minsk Group's approach appears to be influenced by France, the mediator was supposed to represent unbiased involvement. France is one of the OSCE's Co-Chairs, and the majority of Armenians live there. (Chairmanship 10/10/2020)[ii]

Following the Second Karabakh War, the French president paid a visit to Armenian families in France, offering condolences and expressing sympathy. Since 1992, this 30-year conflict has been fueled by territorial claims, ethnic and religious disputes, and war crimes. Unfortunately, the OSCE failed to play a critical role, resulting in the Armenian-Azerbaijani wars and allowing the Russian Federation to intervene. A researcher from NUML conducted an interview from ADA University's Vice Rector, Mr. Fariz Ismailzadeh. The Vice Rector was asked about the failure of the OSCE, and he stated that while the OSCE failed to produce positive outcomes such as peace and stability in the Caucasus, Russia

played a significant role in providing a peace agreement, establishing a ceasefire, and deploying peacekeeping forces for five years.

Mr. Fariz further said that the OSCE failed to mediate in the First and Second Karabakh wars between Azerbaijan and Armenia. Also, the OSCE did not expressly defend Azerbaijan's territorial integrity because it is not on the OSCE's agenda. Despite the fact that the OSCE has given or deployed peacekeeping personnel in Moldova, Ukraine, and Georgia, it has not done so in Azerbaijan.

An online interview was taken by a researcher from Azerbaijani Member of Parliament Ms. Nigar Arpadarai. While discussing about OSCE Minsk Group, she said that OSCE failed to resolve the Karabakh conflict since 1994. She also said that approach of OSCE was not neutral.

***The UN resolutions on Karabakh:***

The United Nations Security Council passed four resolutions in response to the deteriorating situation between Azerbaijan and Armenia: resolution 822 (30 April 1993), resolution 853 (29 July 1993), resolution 874 (14 October 1993), and resolution 884 (12 November 1993). Most notably, it expressed grave concern about the large-scale displacement of civilians and requested an immediate end to all hostilities and the unconditional departure of Armenian forces. The UN also calls on both parties to restart talks on resolving Nagorno-Karabakh.

Furthermore, it is demanded that international humanitarian relief efforts conducted under the auspices of the OSCE avoid from any illegal actions. The occupation of Azerbaijani districts and attacks on citizens and populated areas were also denounced by the UN Security Council.

After defeating Armenian Armed Forces in the Second Karabakh War, the Republic of Azerbaijan regained its territorial integrity. Armenia broke the ceasefire and disobeyed UN resolutions by staging provocations along the Azerbaijan border, resulting in a 44-day conflict.[III]

***Tovuz Clashes:***

Some journalists and analysts believe it is unclear who started the battle, but both sides are blaming one other. In reality, in the middle of a global pandemic, Armenian soldiers breached a ceasefire agreement by firing on Azerbaijani positions in the Tovuz border region on July 12, 2020. As a result of the clashes, a civilian and 12 Azerbaijani military, including Major General Polad Hashimov, were killed, while scores were injured. This sparked a conflict between the two countries, with Azerbaijan liberating land that had been occupied by Armenia for the previous 30 years. According to Serj Sargsyan, a former Armenian president, the Armenian administration referred to the clashes as a successful action.

He remarked, "In my perspective, it was a harmful move for which Azerbaijan was obligated to respond." In an interview with the BBC, the former president of Armenia stated. (Sheikh 10/2/2020)[IV]

Azerbaijani MEP Ms. Arpadarai while giving interview stated that Armenia violated International law, United Nations resolutions and destroyed the cultural heritage of Azerbaijan. Armenia committed war crimes on the internationally recognized territory of Azerbaijan.

***Karabakh before and after occupation:***

According to the Republic of Azerbaijan, decades of occupation resulted in the systematic destruction of Azerbaijani towns, cultural, historical, and religious sites. Armenia, which caused the creation of a “gray zone” in Karabakh was cultivating drugs on Azerbaijani property that was illegally controlled. Armenia also planted millions of landmines

across the Nagorno-Karabakh territory. Armenia has also repeatedly breached the ceasefire agreement, leading to the Second Karabakh War. From Khojaly in 1992 to Ganja in 2020, Armenia's ethnically driven fascist policies against Azerbaijani population spanned 30 years.

***Trilateral peace agreement:***

Armenia will ensure the security of regional transportation corridors and communication networks.

Member of Milli Mejlis (parliament of the Republic of Azerbaijan), Ms. Nigar Arpadarai said that using rhetoric of Russian intervention is not correct. Russia has not intervened but supported Azerbaijan and helped in ceasefire as well as peace agreement between Armenia and Azerbaijan. She also stated that Russia is strategic partner of Azerbaijan. (Broers 20202)[V]

***Economic dimension:***

The Second Karabakh War began on September 27, 2020, and ended on November 10, 2020. During the 44-day war, about 2800 Azerbaijani military and 100 civilians were killed. The war between Azerbaijan and Armenia came to an end on November 10 when the Russian Federation brokered a ceasefire agreement between the two countries. Armenia's regular missile attacks on Azerbaijani cities across the frontline, according to a Central Asia Caucasus analyst, have prompted concerns in the European Union. According to him, the EU was concerned about energy infrastructure security, particularly damage to the Baku-Tbilisi-Ceyhan pipeline and the Trans Anatolian pipeline.

***Trans Adriatic Pipeline:***

The Southern Gas Corridor includes the Trans Adriatic Pipeline, which carries natural gas from Azerbaijan's Shah Deniz II field to Europe. The Second Karabakh War began a month before TAP's operational phase. Because it will deliver 10 billion cubic meters of gas per year from Azerbaijan to Greece, Albania, and Italy, this pipeline is of critical importance to Europe. It establishes a link between the region and Western markets.[VI]

***Security dimension:***

The "indiscriminate onslaught on residential areas in the conflict zone of Karabakh is unacceptable," according to the UN Secretary General. Armenian soldiers also conducted an artillery bombardment on Azerbaijan's Goran-boy area, killing people, according to Human Rights Watch. Armenia launched SCUD missiles at Azerbaijan's Ganja city and Armenia's Fuzuli area. Armenian soldiers began pounding the "Tartar" area, causing severe destruction and many civilian casualties. According to official Azerbaijani data, 1000 civilian objects were partially damaged or destroyed, including schools, hospitals, and government facilities. These are Armenian war crimes perpetrated during the Second Karabakh War, which have not been resolved even after the war. Landmines have been discovered in the region.

Landmines were discovered in the liberated territory, killing many people who came to see them. Following the discovery of landmines in previously occupied regions, Azerbaijan began the demining effort with the assistance of Turkish businesses, and UNDP later joined the project.

***Land Mines in Karabakh:***

The area of Karabakh is thickly laced with mines and unexploded ordnance a year after fierce warfare between Azerbaijan and Armenia. Thousands of mines have been removed, but clearing the area completely might take more than ten years. The government-run Azerbaijan national agency for mine action is in charge of demining operations (ANAMA). According to a Trust survey,

landmines and cluster bombs are found in 68 percent of populated towns. More than 16 kilometres of land are estimated to be contaminated and will not be suitable for agricultural production, according to Trust. Talking about landmine issue the Azerbaijani parliamentarian said that around 97000 mines are found only in Aghdam district of Azerbaijan. The maps provided to Azerbaijan are not accurate which results the deaths of many innocent lives.

***Mine Maps dispute:***

According to the Azerbaijan National Agency for Mine Action, in total, 3,358 people, including 357 children and 38 women, have been killed by mines since the Armenian occupation. 18000 anti-personnel mines, over 9000 mines, and 23000 unexploded ordnances have been cleared, as well as 19000 hectares of land. Armenia provided a large number of land mine maps, however only around a quarter of them are accurate.

Mr. Fariz, Vice Rector of ADA University, and Ms. Aybaniz Ismailyova, Head of the Karabakh Revival Fund, posed the issue. Both of them stated that the maps provided by Armenia are incorrect. Armenia must offer detailed maps of landmines because if Armenia does not provide accurate information regarding landmines, the rehabilitation process will be hampered and would take a long time.

"The ones we did receive were erroneous and incomplete," said ANAMA Deputy Chairman Samir Poladov. Many don't even have coordinates; instead, they have a basic map of the area with some information and approximate locations, but it's better to have something than nothing."

Armenia was discovered to have planted more than 100,000 landmines in the region, according to a UN report. People who were uprooted in the 1990s wanted to return to their hometowns after 30 years, according to Azerbaijani authorities. As a result of some visitors to the area, 60 villagers were hurt, including two who died as a result of landmines. The removal of landmines from the area is required for rehabilitation.[VII] (Gencturk 2021)

ANAMA, in collaboration with UNICEF, is launching a campaign to raise awareness about the dangers of landmines among visitors to the freed areas.

**Tədqiqatın metodoloji əsasları.** Məqalədə analiz və sintez, həmçinin tarixi-müqayisəli, tarixi-genetik, tarixi-tipoloji, həmçinin tarixi-sistem metodlarından, aksioloji yanaşma prinsipindən istifadə edilmişdir. Skandinaviya ölkələrində sosial siyasətin səciyyəvi xüsusiyyətlərini tədqiq edərkən induktiv və deduktiv metoda müraciət edilmişdir. Məqalədə həmçinin məzmunun açılması, abstraktlaşdırma, ümumiləşdirmə kimi ümumelmi metodlardan da istifadə edilmişdir. Məqalənin mənbə bazasını sosioloqların, filosofların əsərləri, Skandinaviya ölkələrində sosial siyasətin mənşəyi və inkişafı ilə bağlı araşdırmalar təşkil edir.

### 1.Skandinaviya ölkələrində sosial siyasət

Danimarka, İslandiya, Norveç, Finlandiya və İsveç kimi ölkələrdə tətbiq edilən sosial siyasət modeli bir-birinə oxşardır. Sosial inkişafın etatik adlanan bu istiqamətinin əsasını sosial ədalətə, vətəndaşların gəlirlərinin bərabərləşdirilməsinə, mülkiyyət bərabərsizliyinin azaldılmasına və rifah dövlətinin yaradılmasına əsaslanan sosial siyasət təşkil edir [5]. Ərazidə həyata keçirilən dövlət proqramlarının əsas şüarı sosial bərabərliyin genişləndirilməsi idi, aparıcı rol dövlətə məxsus idi. O, cəmiyyətin üzvlərini yüksək yaşayış minimumu ilə təmin etmək, həqiqətən ehtiyacı olanlara yardım göstərmək vəzifəsini daşıyır. Əmək münasibətləri sahəsində dövlət bütün vətəndaşların yüksək səviyyədə tələbatını ödəmək üçün pul qazanmasına şərait yaratmalı, işçilərin əmək şəraitini yaxşılaşdırmalıdır. Sosial dövlətin qarşısına həmçinin vətəndaşların siyasi hüquqlarını və azadlıqlarını qorumaq vəzifəsi qoyulmuşdu. Bu tədbirlər cəmiyyətdə iqtisadi və siyasi qarşıdurmaların olmamasını və maksimum sabitliyi təmin etməli idi. İsveçdə qanuni baxımdan baş verən dəyişikliklər digər Şimali Avropa ölkələrinin sosial qanunvericiliyində də öz əksini tapdı. Klassik sosial dövlətdən fərqli olaraq, Skandinaviya ölkələrinin sosial sferasında xüsusi yeri məşğulluğun təmin edilməsinə istiqamətlənmiş fəal siyasət tutur. İşsizlərin statusunun müəyyənləşdirilməsinə sərt yanaşma onunla bağlıdır ki, əmək qabiliyyətli əhalinin tam məşğulluğuna nail olunması İsveçin sosial siyasətinin əsaslandığı əsas prinsiplərdən biridir. Məşğulluq problemi üzrə tədbirlər kompleksinə bunlar aiddir: işçi qüvvəsinin yetişdirilməsi, yeni iş yerlərinin açılması tədbirləri, ictimai işlər, gənclər komandaları, işləyən əlillərə subsidiyalar, işsizlərə müavinətlərin ödənilməsi və s.

Dövlət siyasətində sığorta çox önəmli yer tutur. Gənclər siyasətinə gəlincə, onun ən maraqlı istiqaməti gənc nəslin kriminallaşmasının qarşısını almaq üçün 10-16 yaşlı gənclərin fəaliyyətini təşkil edən gənclər klublarının yaradılmasıdır, İsveçdə əksər bələdiyyələrdə gənclərin asudə vaxtlarının keçirilməsi ilə bağlı komitələr var, onlar gənclər mərkəzlərini, klubları və hobbi təşkilatlarını maliyyələşdirirlər. Şimali Avropa ölkələri ən xoşbəxt insanların yaşadığı yerdir. Danimarkalılar, norveçlilər, isveçlilər və finlər bu baxımdan ardıcıllığı ifadə edirlər. Bu nəticələr “Gallup” agentliyinin apardığı araşdırma nəticəsində əldə edilib [6].

Norveç 20 ildən çoxdur ki, insan inkişafı potensialına görə dünyada ilk yeri tutur, ən sakit və sülhsevər ölkə olaraq qəbul edilir. Yaşlılar üçün daima yeni təhsil imkanlarının yaradılması təhsil siyasətinin əsas üstünlüklərindəndir. Yaşlı nəslin nümayəndələrinin peşələrinə uyğun şəkildə bacarıqlarının inkişafına lazımi imkanlar yaradılır. Qeyri-hökumət təşkilatlarının, bələdiyyələrin yaşlı insanların təhsilinin təşkil olunmasına cəlb edilməsinə xüsusi əhəmiyyət verilir.

Skandinaviya ölkələri digər ölkələrlə müqayisə edildikdə sosial xidmətlərə, güclü təhsil siyasətinə və dövlət tədqiqatlarına daha çox diqqət göstərirlər. Skandinaviya ərazisində meydana çıxan yeni ideologiyalar bütün dünyaya müxtəlif yollarla təsir edir. Feministlər qadınların sosial-siyasi, iqtisadi haqlarını gücləndirmək üçün mübarizə aparırlar. Norveçdəki feminist hərəkat ölkədə qanunlar və sosial adətlər sahəsində islahatların aparılmasında əhəmiyyətli irəliləyiş əldə edib.

Ekologizm insanları təbiətin bir hissəsi kimi qəbul edir. Vahid bir tam kimi yaşamaq üçün təbiətlə harmoniyada olmaq, biosferi qorumaq vacibdir. Arne Ness “Ekoloji mənlik”, "Dərin mən" kon-

sepsiyasını özümüzə fərd kimi yox, canlılar aləminin bir parçası və təbiətin ifadə formaları kimi hiss etməyimiz üçün yaratmışdır. Ness fəlsəfəsi, ümumiyyətlə, "dağ kimi düşün" şüarı ilə sonlanır. Tarixən ətraf mühiti öz maraqlarımıza uyğunlaşdırmaqla uğur qazandıq, istifadə edə biləcəyimiz qaynaqlarla təmin etməyin ətraf mühitin əsas vəzifəsi olduğuna inandıq. Dağ kimi düşünmək o anlama gəlir ki, əsas marağımız təbiətin mühafizəsi olmalıdır; nəticədə, təbii fəlakətlər və bununla da keyfiyyətli həyatdan daha çox zövq alırıq. Arne Ness, həmçinin Aldo Leopold düşünürdülər ki, abstrakt düşüncə qabiliyyətimiz olduğundan təbiətə görə məsuliyyəti üzərimizə götürməliyik. Heyvanlardan fərqli olaraq, əməllərimizin uzunmüddətli nəticələri haqqında düşünə bilərik və bu səbəbdən ətrafa olan mənfi təsirlərimizi azaltmaq üçün hər şeyi etmək etik bir zərurətdir [1, s.4]. Bu “genişlənmiş şüur” adı altında təzahür edir.

Ness dərin ekologiya konsepsiyasının müəllifi və eyni adlı cərəyanın banisi hesab olunur. “Dərin ekologiya” adlanan təlimdən fərqli olaraq, "Ekosophi T" anlayışı onun şəxsi fəlsəfəsinin adı idi. Ness, ümumiyyətlə, hər kəsin öz fəlsəfəsi üzərində işləməli olduğuna inanırdı. Nessə görə, bütün canlılar - istər insan, istər heyvan, istərsə də bitki - yaşamaq və çiçəklənmək üçün bərabər hüquqa malikdir. Əslində, Ness üçün özünü dərk etmək o deməkdir ki, əgər siz hərəkətlərinizin nəticələrinin digər varlıqlara necə təsir edəcəyini bilmirsinizsə, o zaman belə hərəkət edə bilməzsiniz [1, s.3]. Arne Ness həm də fədakar ekoloq idi, o, bir çox təbiəti mühafizə aksiyalarında iştirak etmişdir. Siyasi ekologiya da ətraf mühitin mühafizəsini və davamlı inkişafı hədəfləyir.

Norveç, Danimarka və İsveç dünyanın ən xoşbəxt ölkələri sırasındadırlar. Skandinaviya ölkələri təbii gözəlliyin qorunmasına xüsusilə həssasdırlar, buna görə də, məsələn, tullantıların təkrar emalı və digər ekoloji məsələlər tez-tez gündəmdədir. Bu xoşbəxtliyin əsasında duran müəyyən prinsiplər var. Skandinaviyanın təbiətə dərindən bağlanma fəlsəfəsi Friluftsliv - "açıq hava" adlanır. Bu ifadənin digər dillərdə birbaşa tərcüməsi, qarşılığı yoxdur. Bu konsepsiyaya uyğun əsas tələbat malları istisna olmaqla, müasir sivilizasiyanın təfərrüatlarından “azad” oluruq. Norveçdə qanunlar da “friluftsliv” fəlsəfəsinə görə hazırlanır. Statistikaya görə, Skandinaviya ölkələrini yüksək səviyyədə əhalinin xoşbəxtliyi ilə təmin edən məhz bu fəlsəfə olub, onun həyata keçirilməsi çox sadədir. Laqoma - "orta", "tarazlıq", "optimal" və "uyğun" kimi tərcümə olunur, "kafi", məqsədəuyğunluq mənasını daşıyır. “Laqoma” anlayışına “qızıl orta" prinsipi uyğun gəlir. “Hyuqqe” Skandinaviya ölkələrində yaranmış bir anlayışdır, rahatlıq, ifah və məmnunluq hissləri ilə rahat ünsiyyəti ifadə edir. Son illərdə “Hyuqqe” Danimarka mədəniyyətinin müəyyənedici xüsusiyyətinə çevrilib. Hyuqqe "gündəlik birlik forması", təhlükəsizlik, bərabərlik, şəxsi bütövlük, kortəbii sosial iş və təcrübə axını deməkdir. Özünüzü cəmiyyətin bir parçası kimi hiss edin, pul və xoşbəxtliyi tarazlayın, sağlamlığa fikir verin, seçim azadlığına sahib olun, daha çox inam yaradın, xeyirxahlıq göstərin [2, s.106].

Skandinaviya ölkələri digər ölkələrlə müqayisədə daha keyfiyyətli sosial xidmətlər, inkişafa yönümlü təhsil siyasəti və yüksək dərəcəli dövlət tədqiqat proqramlarına sahibdir. Skandinav model sərbəst bazar məntiqi ilə bərabər əmək haqqı sistemini sintez etməyi bacarıb. “Təsirli bir vergi siyasəti və ədalətli, universal (bütün vətəndaşlar üçün bərabər) sosial sistemə sahib olmaq lazımdır” fikri bu regiona aiddir [5]. Skandinaviya ölkələrində qanunun aliliyi, mülkiyyətin qorunması, açıq iqtisadiyyat, sərbəst ticarət, sosial harmoniya, homogen

əhali, şəffaflıq, liberal düşüncə və fərdi özünəinam anlayışları yüksək səviyyəli sosial quruluşun xüsusiyyətləridir. Bu yarımadada sosial sülhə və firavanlığa söykənən özünəməxsus siyasi, iqtisadi və sosial ölçüləri olan bir sistem haqqında danışmaq mümkündür. Skandinav birliyi qlobal anlamda problemləri həll etmək istəyir, skandinav idarəetmə ənənəsinin burada effektiv olacağını düşünür. İqtisadi səmərəliliyi, ahəngdar və balanslaşdırılmış əmək bazarını, ədalətli gəlir bölgüsü və sosial birliyi bir araya gətirərək inkişaf edən Skandinaviya ölkələri sosial və iqtisadi standartlar baxımından qlobal lider olmaq istəyən ölkələr üçün model halına gəlmişdir.

Bərabərlik, azadlıq (iqtisadi mənada), təhlükəsizlik, sosial ədalət və həmrəylik prinsipləri sosial demokratiyanın Skandinaviya ölkələrinə məxsus Nordik adlanan modelin uğurunun əsas göstəriciləridir. Bu modelin mərkəzində səhiyyə, məşğulluq, təhsil, sosial inteqrasiya anlayışları dayanır. Sözügedən sistemin üç əsas aspekti var. Bunlardan birincisi, vətəndaşların bütün sosial hüquqları birdir, universaldır. İkincisi, təhsil, səhiyyə, mənzil təminatı baxımından çox sayda sosial təkliflər səxavətlə vətəndaşlara təklif olunur. Nəhayət, “bərabərlik” anlayışı ön plana çıxır ki, bu yolla sosial strukturda bərabərsizlik aradan qaldırılır. Bu baxımdan yoxsulluğun minimuma endirilməsi, sosial həyat səviyyəsinin yüksəldilməsi, sosial öhdəliklərin çoxalması və iqtisadiyyatın yüksəldilməsi, rifah səviyyəsinin artırılması bu modelin təməlidir. Digər tərəfdən, Nordik model bürokratik tənzimləmə kimi müəyyən düzəlişlərə məruz qalıb. Skandinaviya ölkələrində sosial təminat o səviyyəyə çatmışdı ki, əhalinin qayğıları içərisində “iş axtarışında olmaq”, “işsizlik” anlayışları yer almırdı. Nordik model sosialist elementləri özündə ehtiva etdiyi üçün tənqid də olunurdu. Nordik modeldə sosializm və kapitalizmin ən uğurlu nəticələrini özündə birləşdirən hibrid sistem tətbiq edilir. Bu modeldə davamlı inkişaf strategiyasının iqtisadi, sosial və ekoloji kimi üç əsas ölçüsü var. Rifah dövlətinin Nordik modelində ekoloji təfəkkür böyük rol oynayır.

### 2. Skandinavizm - Skandinaviya ölkələrinin özünəməxsus təfəkkürünün təzahürü kimi

"Skandimiks" adlanan dil qrupu bir çox oxşar dilləri birləşdirən Skandinaviya dillərinin uyğunlaşdırılmış bir versiyasıdır. Skandinaviya coğrafiyasında ortaq bir dil yaratmaq səyləri ticarət məhsullarının etiketlərində anlaşıqlığın qorunması istəyi nəticəsində ortaya çıxmışdı. [3, s.288]. Skandinaviya coğrafiyasında ortaq bir dil qurma cəhdləri XIX əsrdə təsirini artıran Skandinaviya hərəkatı ilə sürət qazandı. Skandinaviya coğrafiyasında ortaq bir mədəniyyət yaratmaq səylərinə təsir edən xüsusiyyətlərdən biri də "pansermenizm" adlanan hərəkat idi. İsveçdəki siyasi qərarvermə prosesi əhəmiyyətli mövzularda mümkün olduğu qədər konsensus tələb edir. Güclü siyasi münaqişələr yoxdur, ancaq siyasi debatlarda diqqət və sağlam düşüncə ön plandadır. İslahat proqramları, kollektiv sövdələşmə, ortaqlıq vacib xüsusiyyətlərdir. Qurumların dövlət işlərinə inteqrasiyası təmin edilir. İsveç modelinə həmrəy əmək haqqı siyasəti (gəlirlərdə az fərqlə) və aktiv əmək siyasəti ilə nail olmaq mümkün idi. Burada işləmək üçün bərabər hüquqların verilməsi tələbi əsas müzakirə mövzusu idi. İqtisadiyyatın modernləşdirilməsi və effektivliyi təmin olunduqdan sonra cəmiyyətin rifah səviyyəsi yüksəldi. Qadınlar üçün ödənişli iş hüququ İsveç modelini mükəmməlləşdirdi. Cəmiyyətdə qadınların sosial mövqeyi, ailə və peşə həyatı ilə bağlı statusları dəyişdi.

### 3. Şəxsiyyət böhranı sosial dövlət modelinin ən ciddi problemlərindən biri kimi

Ümumrifah dövlətlərinin "əminlik və təhlükəsizlik" kimi önəmli xüsusiyyəti vardır. XX – XXI əsrlərdə həmin dövlətlərin əsas problemləri iki hissəyə bölünür:

1) fərdin dövlətdə yeri;

2) sosial-siyasi problemlər.

Əmək prosesində ruh yüksəkliyi azalıb, şəxsi münasibətlərə, nikaha liberal münasibət artıb. Homoseksualizm, evtanaziyaya münasibət neytraldır, bunlar insanların şəxsi işi hesab olunur, amma vergidən yayınma, rüşvət kimi hallar ictimai zərərli olduğu üçün kəskin tənqid edilir. Ailə qurulmasına maraq azdır, sosial münasibətlər həzz prinsipi üzərində qurulur. Mədəni azadlıq, artan fərdiləşmə tendensiyası ilə "özünü yarat" ifadəsi aktuallaşır. "Tərbiyə" artıq öz ideyalarının uşaqlara zorla təlqin edilməsi sayılır. Artıq ictimai mənfəət naminə addımlar atılımır, latent eqoizm yüksək həddədir. Skandinaviya ölkələrində əhaliyə təklif olunan sosial şərtlər təbii resurslara olan ehtiyacla ziddiyyət təşkil edir. Xüsusən gənclər ictimai nemətlərdən tək istifadə edir, onları qorumur, yaratmır. Gənclik dərin depressiya yaşayır. Müasir Skandinaviya cəmiyyətində dissiplin və öhdəliklərə əsaslanan ənənəvi protestant əxlaqından uzaqlaşma baş verir. Daha çox ekspressivlik və gedonizm, devitant davranış müşahidə edilir, uşaq və böyük mədəniyyətinin uzlaşması müşahidə edilir. Norveç gəncliyi "ümumi qəbul edilmiş əxlaq normalarında kənara çıxmağı", əməyin müqabilində nə qədər ödənilməsindən asılı olmayaraq zövq verən sahələrdə çalışmağı üstün tutur. Hökumət rifahın davamlılığına söz verməklə, vətəndaşları faktiki olaraq sosial institutlara olan ehtiyaclarından azad edib. Bu yolla hüquqi normalar sosial davranış normalarını dəyişdirir və son illərin statistikasında əksini tapmış Skandinaviya cəmiyyətinin mədəni dissonansına gətirib çıxarır. Skandinaviya ölkələrində fərdlərin istəklərinin ictimai mənfəətdən üstün tutulması siyasi apatiyaya səbəb olur. Vətəndaşlar dövlət və milli ideologiyanın inkişafının onları narahat etmədiklərini bildiriblər. Aparılmış bir rəy sorğusunda respondentlərin 30%-i özlərini ümumavropa siyasi və mədəni sferasına aid hesab ediblər və "vətənpərvərlik" ideyasının mahiyyətini anlamadıqlarını bildiriblər.

İsveç və Norveçin dünyada həyat səviyyəsi baxımından yüksək yerləri tutmasına baxmayaraq, gənclər dövlət siyasətini onlara münasibətdə o qədər də liberal hesab etmirlər və hətta başqa ölkələrə emiqrasiya etməyi planlaşdırırlar. Ailə münasibətlərinin XX əsrin sonunda yaranmış yeni formaları Skandinaviya insanının həyat tərzini, ailə dəyərlərini, analıq və uşaqlıq anlayışlarını dəyişmişdir. Təkcinsli nikahlara tolerant münasibət ona gətirib çıxarıb ki, Skandinaviya ölkələrində çoxsaylı uşaqlar homoseksual valideynlərə sahibdir. Bu, ona gətirib çıxarır ki, belə ailələr uşaqların erkən yaşlardan azad cinsi tərbiyə almasına səbəb olur. Belə ailələrdə uşaqların "cinsi dünyagörüşünün" artırılması və yeni ailə mədəniyyəti ilə tanış olmasına xidmət edən uşaqların iştirakı ilə müxtəlif incəsənət nümunələrinin yaradılması müşahidə edilir. Avropa psixoloqlarının əksəriyyətinin düşüncəsinə görə, bu hal uşaq psixikasının formalaşmasına dağıdıcı təsir göstərir, həmçinin müvafiq davranış modelini cəmiyyətə "yeridir".

İndividuallaşma şəraitində bərabər hüquq və azadlıqları təmin edən sosial dövlət "özünüaxtarış" və "özünüreallaşdırma"nın müvafiq formalarını dəstəkləyir. Beləliklə, belə uşaqların tərbiyəsi tənzimlənmir. Hər iki valideyn ilə birlikdə "sağlam ailələrdə" böyüyən uşaqlar

natamam, qeyri-ənənəvi ailələrdə böyüyən uşaqlardan fərqlənir. Belə uşaqlarda tez-tez psixoloji pozuntulara rast gəlinir və davranış problemləri yaranır. Skandinaviya cəmiyyətində nikah-ailə münasibətlərini araşdırarkən "feminist hərəkatı"na toxunmaq lazımdır. Feminizmin sürətlə yayılmasının yan təsirlərindən biri ailədə qadının rolunun qüvvədən düşməsidir. Uğurlu iş həyatı qadının siyasi aktivliyinin ailədə qadın kimi fəaliyyətinə əks mütənasibdir. Qadının valideyn və həyat yoldaşı kimi qəbul edilməsi meyli azalır, beləliklə, onun "maskulinniyi" "analıq" instinktinin itməsinə səbəb olur, bu da ailədə onun rolunun səthiləşməsinə gətirib çıxarır, uşaqlarda ana "avtoritetinin" inkarı müşahidə edilir. Bu qənaətə gəlmək olar ki, ailə və nikah sferasında Skandinaviyanın sosial siyasəti əhalinin marginallaşmasına təhrik edir. Əhalinin rifah vəziyyətinin və sosial təminat səviyyəsinin yüksəlməsinə yönəlmiş ailə siyasəti cəmiyyətin individual və material iddialarını möhkəmləndirmiş və ailə dəyərlərinin zəifləməsinə səbəb olmuşdur.

## 4. Skandinaviya ölkələrinin miqrasiya siyasəti və miqrasiyanın hüquqi tənzimlənməsində yaranan çətinliklər

Sosial-demokratik hakimiyyət Skandinaviya ölkələrində aktiv şəkildə miqrantların cəlb olunmasını həyata keçirir. "Açıq sərhədlər siyasəti" adını almış miqrasiya strategiyası əsasən iki məsələni həll etmək üçün hazırlanmışdır: 1) sənayenin inkişafı şəraitində ixtisaslaşmış işçi qüvvəsinin azlığı; 2) "millətin sağlamlaşdırılması" – skandinaviya etnosunun uzun əsrlər boyu izolyasiyası ilə əlaqədar varislik yolu ilə ötürülən xəstəliklərin genetik assimilyasiya yolu ilə həlli.

İsveçdə miqrasiya məsələləri üzrə idarə yaradılmışdır. Əməkqabiliyyətli miqrantlar dövlət imtiyazları əldə edir, yaşayış yeri ilə təmin olunur, dörd il ölkə ərazisində yaşadıqdan sonra işçilər, qaçqınlar və onların ailələri yaşayış və vətəndaşlıq hüququ alırlar. 2013-2014-cü illərdə Skandinaviya ölkələrinə gələn miqrantların sayı beş dəfədən çox artmışdır.

"Skandinaviya rifah modeli" tez-tez Danimarka, İsveç və Norveçin sosial dəstək sistemlərini, səhiyyə və təhsil proqramlarını necə təşkil etdiyini və maliyyələşdirdiyini təsvir etmək üçün ümumi termin kimi istifadə olunur. Rifah modelinin əsasını təşkil edən prinsip ondan ibarətdir ki, yardım sosial və ya ailə vəziyyətindən asılı olmayaraq təsirə məruz qalan bütün vətəndaşlara göstərilməlidir. Bu sistem universaldır və yardım fərdə verilir, məsələn, evli qadın ərindən asılı olmayaraq bir çox hüquqlara malikdir. Səhiyyə və məşğulluq sahəsində isə müavinət almaq hüququ əvvəlki işdən, bəzən isə həmkarlar ittifaqı üzvlüyündən asılıdır. Bununla belə, maliyyə məsuliyyətinin ən böyük payı dövlətin üzərinə düşür və xüsusi subsidiyalar vasitəsilə deyil, geniş əhatə dairəsi və yüksək səviyyələri ilə xarakterizə olunan vergi sistemi vasitəsilə həyata keçirilir.

Siyasi sistemlə işçiləri və işəgötürənləri təmsil edən təşkilatlar arasında sıx əməkdaşlıq mövcuddur. Bundan əlavə, əhalinin mərkəzi hökumətə və digər dövlət orqanlarına sədaqəti ölkənin siyasi strukturunun fundamental xarakteristikasıdır və "Skandinaviya rifah modeli"ndə mühüm rol oynayır.

Danimarkanın ictimai səhiyyə sistemi bütün vətəndaşlar üçün pulsuz və bərabər çıxış prinsipinə əsaslanır. Ümumiyyətlə, səhiyyə və sosial xidmətlər vergilər, mərkəzi hökumətin ünvanlı qrantları, xərclərin ödənilməsi və kompensasiya planları hesabına maliyyələşdirilir. Uzunmüddətli planlaşdırmaya əsaslanan Danimarka iqtisadi siyasəti ənənəvi olaraq

sabitliyin təmin edilməsinə yönəlmişdir. Əmək münasibətlərinin Danimarka modeli sosial tərəfdaşlar - həmkarlar ittifaqları və sənaye təşkilatları arasında çoxəsrlik sosial dialoq və danışıqlar ənənəsinə əsaslanır. Əmək bazarının inkişafı əsasən dəyişən sənaye və bazar şərtləri qarşısında işçilərin möhkəm müdafiəsini təmin edən Danimarka kollektiv sövdələşmə modeli sayəsində mümkün olmuşdur. Belə ki, bazar münasibətlərinin iştirakçıları kollektiv əmək müqavilələri bağlamaq yolu ilə əmək şəraiti ilə bağlı məsələləri həll edirlər [5].

Miqrantlar Skandinaviyaya ilk dəfə gələndə sosial dövlət modeli inkişaf edirdi. Bir çox cəhətdən bu, əmək miqrantlarının iqtisadiyyata töhfəsi sayəsində reallığa çevrilib. Miqrantlar hətta turist kimi gəlib daha sonra iş icazəsi ala bilirdilər. Siyasi nöqteyi-nəzərdən miqrasiya problemi sosial dövlətin inkişafı və rifahı naminə iqtisadiyyatın əməyə ehtiyacına cavab olaraq meydana çıxıb. O vaxt hökumətin hətta həmkarlar ittifaqları və yerli işçilərin etirazlarını belə aradan qaldıra bildiyi zaman bu, çox mühüm addım idi. Amma əslində ümumilikdə Avropada olduğu kimi, miqrantların geri dönəcəyi gözlənilirdi. Buna baxmayaraq, Avropanın heç bir yerində şimali rifah dövlətlərindəki kimi immiqrasiya, yaşayış və seqreqasiya yox idi. Həmçinin, əvvəlcə inteqrasiya siyasəti yox həddində idi, lakin miqrantlar rifah dövlətinin sosial institutları və yerli əhali ilə bərabər əsasda ehtiyac duyduqları hər şeylə təmin edilirdilər. Bu, ən azı ilkin mərhələdə heç bir etiraz yaratmadı. İlk növbədə, yoxsul ölkələrdən təhsilsiz işçilərin immiqrasiyasına son qoyuldu. Bununla belə, ailənin birləşməsi və qaçqınların qəbulu davam edirdi ki, bu da qaçqınların və ailə mühacirlərinin daha çox Şərqdən olduqları üçün fərqli mədəni kimliyə malik yeni miqrantların əksəriyyətini təşkil etməsinə səbəb oldu. Miqrantların zəif mənzil və pis iş şəraiti tədricən sosioloqlar tərəfindən "sosial alt" adlandırılan təbəqənin artması və əcnəbilərin kriminallaşması demək idi. Uğurlu sosial-demokratik cəmiyyətlərdə immiqrasiya sosial institutların bütün səylərinə baxmayaraq, məhz miqrantların həddindən artıq yoxsulluğuna görə bu cəmiyyətlərin əsasları və təməlləri üçün təhlükə yaradırdı. Həmin illərdə Norveç parlamentindəki müzakirələrdən biri bu vəziyyəti daha dolğun şəkildə göstərir: "Norveçlilərin nəsilləri yoxsulluqdan və insanların bərabərsizliyindən qurtulmağa çalışıblar. Biz ədalət və sosial bərabərliyə əsaslanan cəmiyyət qurmaq məqsədi güdürdük. Bu baxımdan biz çox şey əldə etmişik. Ancaq cəmiyyətimizi yeni bir xəstəliyə, bir növ bədxassəli şişə, toxunulmazlar kastasına malik gecəqondulara yoluxdurmaq istəmiriksə, o zaman miqrasiya və miqrant probleminin öz axarı ilə getməsinə imkan verə bilmərik. Qonaqlarımız üçün daha humanist şəraitin təminatlarını nəzərdən keçirmək və hazırlamaq bir qədər vaxt aparır. İşəgötürənlərin istəkləri bu təminatların əsası deyil, bu səbəbdən biz qonaqlarımızı layiqli və bərabər şəraitlə təmin etməliyik" [5]. Bundan sonra siyasətçilər ikili qərara gəldilər: bir tərəfdən immiqrasiyanın məhdudlaşdırılması, digər tərəfdən isə artıq ölkədə olan miqrantlar üçün layiqli həyat səviyyəsinə zəmanət verən sosial siyasət.

Bütövlükdə, müxtəlif dövrlərdə də olsa, ölkələrin problemi eyni şəkildə həll etməsinə baxmayaraq, miqrasiya siyasətinin strategiyasında və inkişafında bir sıra uyğunsuzluqları qeyd etmək olar. Birincisi, bu ölkələr inteqrasiya siyasətləri ilə bağlı müxtəlif institusional qərarlar qəbul ediblər. Bütün ölkələrdə əsas prinsip miqrantların dövlətlərin vətəndaşları ilə eyni sosial hüquqlara malik olması idi. Yuxarıda qeyd etdiyimiz kimi, bu yük sosial institutların üzərinə düşürdü. Sosial dövlət miqrantların

ehtiyaclarını, o cümlədən öz mədəniyyətlərini və dinlərini inkişaf etdirmək hüquqlarını təmin etməyi öhdəsinə götürdü. Əslində, miqrantlara seçim azadlığı verildi - cəmiyyətə inteqrasiya və ya öz mədəni paradiqması çərçivəsində mövcud olmaq.

İsveçlilərdən fərqli olaraq miqrantların mədəni hüquqları institutlaşdırılmamışdı. Miqrantların problemləri demək olar ki, tam şəkildə dövlət tərəfindən iqtisadi cəhətdən təmin edilən sosial institutların, bələdiyyələrin və qeyri-hökumət təşkilatlarının ixtiyarına buraxıldı. Məhz bu səbəbdən bütövlükdə oxşar siyasət indiyədək qarışıq nəticəyə gətirib çıxardı. Danimarka öz yolu ilə getdi, inteqrasiya siyasətini inkişaf etdirdi. Siyasi nöqteyi-nəzərdən Danimarka miqrasiyaya demək olar ki, dərhal münaqişə ilə reaksiya verdi, çünki o vaxtdan hakimiyyətdə miqrantlardan inteqrasiya və əslində assimilyasiya tələb edən sağçı Tərəqqi Partiyası var idi. Skandinaviya ölkələrinin parlamentlərində inteqrasiyanın əsas prinsiplərinin və ümumiyyətlə, miqrasiya probleminin müzakirə edildiyi siyasi debatların əksəriyyəti əmək miqrantları ilə bağlı idi. O dövrün sənədlərinə əsasən, siyasətçilər hesab edirdilər ki, miqrasiya prosesi əmək bazarının vəziyyətindən asılı olaraq asanlıqla tənzimlənə bilər və sosial dövlətlərin sosial institutları tərəfindən problemsiz dəstəklənir. Lakin zaman keçdikcə bu fikirlərin yanlış olduğu üzə çıxdı. Ölkələrin cənubdan gələn əmək miqrantları üçün tamamilə qapalı olmasına baxmayaraq, əmək miqrasiyası ölkəyə ailə birləşməsi yolu ilə daxil olan qaçqın və miqrantlarla əvəz olundu. İsveçdən fərqli olaraq Norveç və Danimarka miqrantların sosial adaptasiyası üzrə məsuliyyəti dövlət tərəfindən maliyyələşdirilən qeyri-hökumət təşkilatlarına həvalə etdi.

Bu və ya digər şəkildə bu inteqrasiya siyasəti böyük ölçüdə səmərəli oldu. Yerli hakimiyyət orqanları ölkədə ilk iki ildə miqrantlara hər cür köməklik göstərdilər. Onları mənzil və dil kursları ilə təmin etdilər, məşğulluq və sosial adaptasiya ilə bağlı məsləhətlər verdilər. Amma bütün bunlar pul tələb edirdi. Norveçdə sığınacaq axtaranların sayının artması immiqrasiya əleyhinə həm də cəmiyyətin əsaslarını və dövlət iqtisadiyyatının sabitliyini potensial təhlükə altına alan miqrantlara üstünlük verilməsinə qarşı kampaniya aparılmasına səbəb oldu.

Miqrant axını Skandinaviya ölkələrinin hökumətlərini bir sıra sırf praktiki problemlərlə üzləşməyə məcbur etdi. Çox sayda insanın müvəqqəti mənzilə, dil kurslarına, işə ehtiyacı var idi. Əvvəlcə bələdiyyələrə, əsasən də işçi qüvvəsinə ehtiyacı olan bələdiyyələrə axın etdilər. Getdikcə məlum oldu ki, bu problemi hansısa yolla həll etməyin yeganə yolu bütün ölkəni bu işə cəlb etmək, miqrantları sərfəli mənzil olan yerlərə göndərməkdir. “Mənə iş ver” – bu başlıq belə araşdırmaların ən bariz nümunələrindən biridir. Aparılan bir sorğu iş azlığının Norveçdəki immiqrantları sosial yardımdan asılı vəziyyətə saldığını müəyyən etdi. Tədricən onlar ümumiyyətlə fəaliyyətini dayandırır və cəmiyyətə inteqrasiya edirlər. Əksər hallarda üç ölkənin hökumətlərinin üzləşdiyi problemlər eyni idi: humanitar miqrasiyanın idarə edilməsində çətinliklər, aşağı məşğulluq dərəcələri və miqrantlarla yerli əhali arasında həyat standartlarında böyük fərq. Bununla belə, hər yerdə köhnə prinsip var idi: miqrantlar digər vətəndaşlar kimi dövlətdən yardım almaq üçün eyni formal hüquqlara malikdirlər [5].

İsveçdə miqrasiya sahəsində hüquqi tənzimləmənin əsas məqsədi miqrantların bərabər şərtlərlə inteqrasiyasıdır. İsveç dövlətində milliyyətindən, siyasi və dini mövqeyindən asılı olmadan, siyasi sığınacaq hüququ əsas insan

hüquqlarından sayılır. Ona görə də indi qaçqınlar bu ölkədə ən çoxsaylı miqrant kateqoriyalarından biridir. Kütləvi miqrasiya İsveçin simasını xeyli dəyişdi və bir çox sosial problemlərin yaranmasına səbəb oldu. İri sənaye şəhərlərində verilən hüquq və azadlıqlara baxmayaraq, əhalinin təcrid olunması prosesi getdikcə geniş vüsət aldı. Böyük şəhərlərdə miqrant gettoları peyda oldu. Yerli isveçlilər arasında miqrantlarla bağlı müxtəlif etnosiyasi miflər və stereotiplər yayılırdı. Bir yerə toplanan immiqrantlar özlərini yerli əhalidən təcrid olunmuş vəziyyətdə tapırdılar. Müvafiq sosial bacarıqlara malik olmayan və dil bilməyən mühacirlər qanunvericiliyin qorunmasına baxmayaraq, tez bir zamanda işlərini itirirdilər, sahibkarlar isə seçim olarsa, isveçliləri işə götürməyə üstünlük verirdilər. Bundan əlavə, əməkhaqqı və digər sosial müavinətlərin alınmasında, sözsüz, ayrı-seçkilik müşahidə edilirdi. Nəticədə bir çox miqrant əmək bazarında ayrı-seçkiliklə rastlaşırdı. Bunun səbəbi isə miqrantların cəmiyyətə uyğunlaşması üçün ən yumşaq siyasətin mövcudluğunda idi. Hazırda yeni miqrantların qəbulunu təhlil edən İsveç hakimiyyət orqanları artıq dövlət ərazisində yaşayan miqrantların inteqrasiyası üçün aydın və məqsədyönlü tədbirlərin görülməsinə ehtiyac olduğunu bildirirlər.

Son vaxtlar İsveç hökuməti miqrantların, xüsusən də gənclərin radikallaşması problemindən ciddi şəkildə narahatdır. Xüsusilə təhlükəli olan 2-ci və 3-cü nəsil gənclərdir ki, ünsiyyət bacarıqları və dil bilgilərinin olmaması səbəbindən praktiki olaraq onların heç bir perspektivi yoxdur. İsveçdə zorlamaların 77%-i islam ölkələrindən gələn insanlar tərəfindən törədilib. Xarici vətəndaşların İsveçə girişi, ölkədən getməsi və onun ərazisində yaşaması şərtlərini və prosedurlarını, habelə əcnəbilərin işə götürülməsi şərtlərini və sığınacaq almaq hüququnu müəyyən edən qanunda əcnəbi vətəndaşa sığınacaq hüququnun verilməsindən imtina və deportasiya şərtləri ilə bağlı da müddəalar var. Universitetlərdə tələbələrlə bərabər rəftar aktı, uşaqlara və tələbələrə qarşı ayrı-seçkiliyi və digər ləyaqəti alçaldan rəftarı qadağan edən xüsusi akt və İsveçin vətəndaşlıq qanunu diqqətəlayiqdir.

İsveçin tolerant siyasəti nəticəsində miqrantların sayı hər il artır. Hökumət Yaşıllar Partiyasının dəstəyi ilə işçi qüvvəsinin azad miqrasiyasına qərar verib. Bu, məlum sahədə ən böyük islahatdır, əcnəbilərin İsveçdə iş tapması asanlaşıb, eyni zamanda gettoların sayı artıb. Stokholm məktəblərində şagirdlərin 70%-i immiqrantdır. İsveçin sosial və hüquqi siyasəti immiqrantlar və yerli əhali üçün bərabər sosial təminatların təmin edilməsindən ibarətdir. Çox vaxt miqrant üçün işsizlik müavinətini almaq və ya aşağı ixtisaslı iş yerində işləmək əhəmiyyət kəsb etmir.

Hazırda İsveçin miqrantlarla bağlı siyasəti aşağıdakı prinsiplərə əsaslanır: 1) İmmiqrantlar və yerli əhali arasında hüquq və vəzifələrdə bərabərlik; 2) Mədəni seçim azadlığı (yəni immiqrant “isveçli olmağa” və ya öz milli adət-ənənələrini qoruyub saxlamağa özü qərar verir); 3) İsveçlilər və immiqrantlar arasında əməkdaşlıq, qarşılıqlı tolerantlıq və hörmət. Ölkəyə köçdükdən sonra immiqrant İsveç dili kursları keçməli, ixtisasını sübut etməli və ya yeni bir peşə öyrənməlidir. Vətəndaş statusunu əldə edərkən dil biliyi imtahanından keçmək lazımdır. Digər Skandinaviya ölkələri ilə müqayisədə İsveç miqrantların hüquqları indeksinə görə ən liberal qanunvericiliyə malikdir.

Bir çox digər Qərb ölkələri kimi Danimarka da kadr çatışmazlığı ilə üzləşir. Ölkəni gələcəkdə rəqabətədavamlı saxlamaq üçün çıxış yolu əvvəlki illərlə müqayisədə müvafiq ixtisas və təhsilə malik olan immiqrantlara qarşı tələbləri

yumşaltmaqdır. Daha yumşaq inteqrasiya siyasətinə və qanunvericiliyə keçid ölkənin miqrantlar üçün daha əlverişli olmasına səbəb olub. Görülən tədbirlər danimarkalıların əcnəbilərlə nikahlarının sayını kəskin şəkildə azaldıb.

İnteqrasiya Aktının əsas məqsədləri aşağıdakılardır: 1. Yeni gələn immiqrantların Danimarka vətəndaşları ilə bərabər hüquqlara malik olması və ictimai aləmin siyasi, iqtisadi, sosial, dini və mədəni həyatında bərabər iştirakı, habelə bərabər hüquqlar və bazarda əmək imkanları; 2. Yeni gələn mühacirlərin tez bir zamanda maliyyə və iqtisadi müstəqillik əldə etməsinə köməklik; 3. Xarici vətəndaşlar tərəfindən Danimarka cəmiyyətində həyatın əsas prinsipləri və normaları haqqında bilik və ideyaların mənimsənilməsi. Qanuna əsasən, əsas inteqrasiya tədbirləri qaçqınların mənzillə təmin edilməsi, oriyentasiya proqramlarının həyata keçirilməsi və yeni gələn immiqrantların Danimarka cəmiyyətinin həyatına erkən inteqrasiyası məqsədilə digər fəaliyyətlərdən ibarətdir.

Oxşar siyasət və idarəetmə sisteminə, mədəni dəyərlərə və normalara malik olan bu ölkələr eyni zamanda miqrantların inteqrasiyası və uyğunlaşması üçün tamamilə fərqli yanaşmalardan istifadə edirlər. İsveç miqrantların inteqrasiyasına multikultural və liberal yanaşması ilə tanınır. Lakin liberal yanaşma həmişə miqrasiya problemini həll etmək gücündə deyil. Ümumiyyətlə, İsveçin miqrantlarla bağlı problemləri heç bir digər ölkələrdən az deyil. Məhz bu problemlər inteqrasiyanın fərqli siyasi modelinə tədricən keçidə səbəb olub. Danimarka miqrant inteqrasiyası və miqrasiya siyasətinin sərt versiyası ilə tanınır.

Norveç Aİ-nin üzvü deyil və öz siyasətini yürüdür, miqrantlara qarşı sərtlik baxımından İsveç və Danimarka arasında ortada yer alır. Skandinaviya ölkələrinin oxşarlığı eyni idarəetmə formasının - konstitusiyalı monarxiyanın mövcudluğundadır ki, bu da ümumilikdə müsbət milli kimliyin formalaşmasına kömək edir. Bütün Skandinaviya dövlətlərində sosial institutlar inkişaf edib, hamısı rifah dövlətləridir. Onların oxşar hüquq sistemi, sosial siyasəti, mədəniyyəti və ortaq tarixi var. Əslində, hətta İsveç xalqı aktiv multikultural siyasətinə və öz şəxsiyyətinin “eroziyasına” baxmayaraq, hələ də çox homogendir. Miqrantlara hüquqların verilməsi onların inteqrasiyasına kömək etmir, “rifah” isə, əksinə, onları yeni cəmiyyətə uyğunlaşmaq həvəsindən (akkulturasiya stressi səbəbindən) məhrum edir. Özləri və dövlət üçün kifayət qədər fəlakətli vəziyyətə gətirib çıxarır ki, nəticədə cəmiyyətin hər yeni üzvü ilə bağlı xərcləri artır. Üstəlik, sosial dövlət tamhüquqlu əmək inteqrasiyasına hətta əmək bazarı vasitəsilə inteqrasiya siyasətinin yüksək səviyyədə inkişaf etdiyi Danimarkada da müdaxilə edir. İsveç isə yaxın gələcəkdə yeni vətəndaşlarının əmək "itirməsi" səbəbindən ciddi iqtisadi problemlərlə üzləşə bilər. Fəal şəkildə həyata keçirilən multikultural siyasətə baxmayaraq, İsveç hələ də mədəni və dini homogenlik ideyalarından əl çəkməmişdir. Ona görə də bu dövlət tədricən öz siyasətini yumşaltmağa hazırlaşır.

Danimarka sərt siyasətinə baxmayaraq, digər inkişaf etmiş ölkələr kimi hələ də miqrantlara ehtiyac duyur. Bu prosesi vahid regional miqrasiya siyasətinin qurulması istəyi ilə deyil, həm sosial, həm də iqtisadi miqrasiya ilə bağlı müxtəlif çağırışlar, eləcə də maliyyə yükünün azaldılması cəhdi ilə əlaqələndirmək olar. Danimarka miqrantların mədəniyyətinin "arzuolunmaz" tərəflərini bərabərləşdirərək və çoxsaylı məhdudiyyətlər tətbiq edərək inteqrasiya siyasəti aparmağa başladı. Nəticədə, bu siyasət Avropanın ən radikal siyasətlə-

rindən birinə çevrildi. Miqrantlara qarşı həddindən artıq təzyiq onları yerli əhalidən uzaqlaşdırdı, eyni zamanda Danimarka daha az əmək resursları aldı ki, bu da tədricən sosial dövlətin böhranına səbəb oldu. Danimarka cəmiyyətində bu problemlərin fəal müzakirəsi nəticəsində miqrantlardan narazılıq və islam qorxusu ideyaları ətrafında tədricən mənfi milli kimlik yarandı.

Sosial-iqtisadi bərabərsizliyi azaltmaq və hər kəsə bərabər imkanlar təqdim etmək məqsədi daşıyan sosial dövlət sistemi, əslində, seçici və şərtidir, hətta cəmiyyətdə struktur bərabərsizliyinin güclənməsinə töhfə verir. Sosial təhlükəsizlik şəbəkəsi tam məşğulluğa əsaslandığından, artan işsizlik və qeyri-müəyyən iş şəraiti əmək bazarına və sosial təminat sistemlərinə qarşı ayrı-seçkiliklə nəticələnib. “Mədəni fərqlər” haqqında yeni diskurs əslində əcnəbilərə və onların uşaqlarına qarşı açıq ayrı-seçkiliyə töhfə verib. İndiki dövrə qədər inteqrasiya probleminin müzakirəsi struktur ayrı-seçkilikdən tədricən əmək bazarı vasitəsilə inteqrasiyaya keçdi. İsveçdə miqrantlar yerli əhali ilə eyni məbləğdə pul alırlar ki, bu da son nəticədə gərginliyin artmasına və sosial dövlətin iqtisadiyyatı üzərində ağır yükə səbəb olur. Qeyd edək ki, bütün Skandinaviya ölkələri üçün belə inteqrasiya siyasətinə keçidin səbəbi eynidir: əmək bazarı vasitəsilə inteqrasiya və miqrantların iqtisadiyyata “daxil edilməsi” həddindən artıq yüklənmiş sosial institutları sabitləşdirməyin yeganə yoludur. Bu və ya digər şəkildə İsveçin miqrasiyanın tənzimlənməsinə yanaşması çox özünəməxsusdur.

Bütün dövrlərdə müxtəlif qanunlara uyğun yaşayan bir neçə nəsil miqrant yetişdirilib. Həmçinin, hazırda dili bilməyən yeni vətəndaşlara qarşı kifayət qədər loyal münasibət hələ də mövcuddur. Əmək bazarında inteqrasiya tədbirləri hələ də zəifdir. Bununla belə, multikultural siyasətdən inteqrasiya siyasətinə tədricən keçid var. Hər iki siyasət miqrantların İsveç cəmiyyətinə inteqrasiyası məqsədini güdür. Lakin birincisi tamamilə məntiqi fiaskoya uğrayıb, ikincinin tətbiqi isə çox ləng templə həyata keçirilir.

Frimanın müdafiə etdiyi bir yanaşma əsas problemi iqtisadi dayanıqlıqda görür, digərləri isə sosial rifah cəmiyyəti üçün sosial birliyin vacibliyinə diqqət yetirir və yenə də miqrasiya nəticəsində bu sosial sistemin dağılmasından qorxur. Sosial quruluşun sosial dövlət kimi modelinin miqrasiyanın yaratdığı bütün problemlərin öhdəsindən gələ və miqrantların yeni cəmiyyətə uyğunlaşmasına töhfə verə biləcəyinə inanan multikulturalistlərin yanaşması fərqlidir. Eyni zamanda, sosial dövlət modeli və miqrasiya axınlarının qarşılıqlı təsiri məsələləri ilə məşğul olan nəzəriyyəçilər Skandinaviya ölkələrini öz tədqiqatlarının predmeti hesab etmirdilər. Lakin millətin homogenliyi, sosial və siyasi sistemlərin oxşarlığı, əslində, bu ölkələrdə “nəzarət olunan rasional eksperiment” aparmağa imkan verir, çünki müqayisəli təhlil üçün şərait hazırda ən optimaldır. Danimarkalılar hesab edirlər ki, əsas problem miqrantların mədəniyyətindədir, kimlik böhranının səbəbini inteqrasiya institutlarının həddindən artıq dözümsüzlüyündə görən İsveçdə tamamilə fərqli yanaşma görürük. Əslində, isveçlilər hesab edirlər ki, struktur ayrı-seçkiliyi miqrantların cəmiyyətdə tam fəaliyyət göstərməsinə mane olur və daha çox hüquqların verilməsi bu problemi həll edə bilər. Lakin R.Kupmans və K.Zimmermanın sübut etdiyi bu yanaşma real səmərəlilikdən uzaqdır. Biz burada elə bir vəziyyətlə qarşılaşırıq ki, miqrantlar cəmiyyətə inteqrasiya stimulundan demək olar ki, tamamilə məhrumdurlar. Bundan əlavə, ünsiyyət və dialoqun vahid sahəsi yoxdur. Müvafiq olaraq, İsveç yanaşması da ideal deyil,

çünki o, multikultural cəmiyyətin qurulmasını - vahid dil və cəmiyyətdə oxşar davranış etikasını nəzərdə tutan vahid mədəni və kommunikasiya məkanının yaradılmasını istisna edir. Norveç hesab edir ki, bələdiyyələr miqrasiya problemlərinin öhdəsindən gələ bilmir, bir qədər orta siyasət yürüdürlər. Lakin yanaşmalardakı uyğunsuzluq səbəbindən belə bir siyasət də effektiv hesab edilə bilməz. Bununla belə, ümumilikdə İsveç modeli səmərəli inteqrasiya institutlarının yaradılması şəraitində bütün cəmiyyət üçün çox əlverişlidir. Eyni zamanda, bütün ölkələrdə biz akkulturasiya stresi altında stimul çatışmazlığı problemi ilə üzləşirik. Müvafiq olaraq, iddia etmək olar ki, siyasi müdaxilə olmadan sosial dövlət modeli nəinki töhfə vermir, əksinə miqrantların tam inteqrasiyasına və iqtisadi rifahına mane olur. Nəticədə, bölgədə yaranan ksenofobik əhval-ruhiyyə əsasında terror aktları riskini və cinayətlərin artmasını müşahidə edə bilərik. Daha qısa nəticə çıxarmaq üçün - danimarkalılar problemi miqrantlarda və onların mədəniyyətində, isveçlilər öz vətəndaşlarının irqçiliyində, norveçlilər isə bələdiyyələrdə göstərilən xidmətlərin keyfiyyətində görürlər. Bununla belə, qeyd etmək lazımdır ki, əgər əvvəllər isveçlilər institutların dəyişdirilməsinə, ayrı-seçkiliyin və irqçiliyin səviyyəsinin azaldılmasına daha dəqiq diqqət yetirirdilərsə, indi daha çox miqrantların əmək bazarı vasitəsilə inteqrasiyasına diqqət yetirirlər.

Danimarkada işləmək üçün daha çox imkanlar və stimullar var. Eyni zamanda, qəbul edilmiş inteqrasiya tədbirləri olmadan miqrantların əksəriyyəti əmək bazarının yüksək ödənişli seqmentindən kənarda qalmışdır. Norveç yanaşması miqrantın cəmiyyətə inteqrasiya etmək və tam hüquqlar əldə etmək üçün bir sıra səylər göstərməsini təmin edən hüquqi yanaşma kimi xarakterizə edilə bilər. Bununla belə, real işlə təmin edən xidmətlərlə inteqrasiya proqramları arasındakı uyğunsuzluq öz işini görür. Norveç sosial sistemi də miqrasiya axınının təzyiqi altındadır. Əslində, optimal siyasət əmək bazarı vasitəsilə mərkəzləşdirilmiş, yerli əhali də daxil olmaqla müşayiət olunan inteqrasiya təhsil proqramları və miqrantların bölüşdürülməsi üçün yaxşı düşünülmüş plandır. Hazırda hər üç ölkədə etnik və milli kimlik böhranından çıxmağın yeganə yolu yeni siyasi dəyərlərə keçiddir.

İsveç və Norveçdə doğum göstəriciləri Afrika və Yaxın Şərq ölkələrinin statistikasına yaxın həddə artmışdır. Bu, adətən, immiqrasiya etmiş əhalinin, xüsusən İraq və keçmiş Yuqoslaviya ölkələrindən gələnlərin hesabına baş vermişdir. Tədqiqatlar göstərir ki, əgər bu tendensiya davam etsə, etnik isveçlilər bir-iki nəsil sonra azlıq təşkil edəcək. Bu yolla İsveç və Avropaya miqrasiyanın genişlənməsi ona gətirib çıxarır ki, yerli əhali daha çox assimilyasiyaya və degenerasiyaya səbəb olur. İsveç və Norveçdə miqrasiya siyasəti ilə bağlı təhlillər onu göstərir ki, hökumət xalqın maraqlarını nəzərə almadan bu siyasəti həyata keçirir. Hər iki ölkədə bu şəkildə siyasi fəaliyyət etnik skandinavların yox olmasına, milli və irqi problemlərin kəskinləşməsinə səbəb olur. Həmçinin, əgər son 40 il ərzində İsveç sənayesinin inkişafını izləsək, əmək immiqrasiyası adlanan daha bir yük Skandinaviya ölkələrinin iqtisadiyyatına əlavə olunur.

## 5. İslam Avropa və Skandinaviya ərazisində mənfi kimliyin simvolu kimi

Danimarkada həddindən artıq sərt inteqrasiya siyasəti nəticəsində müxtəlif sosial fobiyalar yaranmağa başladı. Xüsusən də müsəlman miqrantların say çoxluğu, həyat tərzi narazılığa səbəb olur. Əslində, islam Qərb demokratiyaları üçün bir növ mənfi kimliyin simvo-

luna çevrilmişdir, bu münasibətə Skandinaviya ölkələrində də rastlaşmaq mümkündür. Təqdim olunan ssenarilərdən Avropanın yerli əhalisinin qorxularını ən parlaq şəkildə “Yeni xilafət” ssenarisi təsvir edir. Ssenari bir çox cəhətdən yuxarıda göstərilən Edvard Səidin nəzəriyyəsini, eləcə də Şərq ölkələri ilə bağlı bir sıra Avropa stereotiplərini təsdiqləyir. Onun məntiqinə görə, müsəlmanlar yeni dünya birliyində - “Yeni xilafət” dövlətində birləşəcəklər [4, s.93]. Dini kimliyin artan təsiri demokratikləşmə proseslərinin dayanmasına və bəzi demokratik rejimlərin mümkün süqutuna, habelə “radikal dini kimliyə əsaslanan qlobal hərəkatın formalaşmasına səbəb olacaq” milli kimliyin əhəmiyyətinin azalması prosesini sürətləndirəcək, məsələn, dünya nizamını sarsıtmağa və sivilizasiyalararası ideoloji qarşıdurmanı işıqlandırmağa qadir olan qlobal islam layihəsi”. Müsəlmanların dövlətlərarası birliyinin yaradılması terrorizm və münaqişələr təhlükəsini azaltmayacaq, əksinə artıracaq. Müsəlman dünyasının özündə, məsələn, sünnilərlə şiələr arasında qarşıdurmaların olması, xilafəti “kafirlərdən” qoruyan yeni terror təşkilatlarının yaranması tamamilə mümkündür. Bu ssenari, demək olar ki, beynəlxalq təhlükəsizlik sistemindəki böhranın təsviridir. Bu sistemdə güc balansı kövrəkdir, Qərb və müsəlman dünyası arasında qarşıdurma hər an münaqişəyə (regional, yerli və hətta qlobal) çevrilə bilər. Bu ssenari avropalılar baxımından ən təhlükəlidir. Bəziləri hətta “İslam Avropası” dövlətinin yaranmasından qorxurlar. Qorxu daha çox bu ölkələrin Avropaya təcavüzünə görə deyil, müsəlmanların Avropada yavaş-yavaş məskunlaşmasına görə yaranır. Avropa cəmiyyəti müsəlman mühacirləri özünə təhlükə kimi görür, problemlərinə görə onları günahlandıraraq, özünü onlardan təcrid etməyə çalışır. Milli kimliyin “bərpasına” çağıran radikal partiyaların yaranması üçün zəmin yaradılır. Müsəlmanlar isə "dərin bir şəkildə Qərb cəmiyyətinə inteqrasiya etmiş və öz tələblərinə çata biləcək dərəcədə Qərb modelini mənimsəmişlər. Eyni zamanda, onların siyasi avanqardının irəli sürdüyü məqsədlər köklü şəkildə Qərb cəmiyyətinin fundamental prinsip və əsaslarına alternativdir. Bir sözlə, belə fəaliyyətin vektorunu müsəlmanları” Qərb cəmiyyətinə uyğunlaşmaq yox, özlərinə uyğunlaşdırmaq istəyi kimi müəyyən etmək olar”. Böhran və sosial qeyri-sabitlik dövründə siyasətçilər bütün günahlarını “yadların” üstünə atırlar.

## Nəticə

Görünür, rifah dövləti siyasəti Skandinaviya regionunu prinsipial olaraq yeni, dünyada ən yaxşı yerlərdən birinə çatdırsa da, müasir mərhələdə tənəzzül yaşayır, cəmiyyət və fərd üçün müəyyən mənfi prinsiplər irəli sürür. Skandinaviyada individualizmin inkişafının güclənməsi rifah dövlətinin kollektivizm siyasəti ilə uyğunlaşmadı, bu yolla bir sıra problemlər meydan çıxdı: qarşılıqlı yardımın yox olması, özünüifadənin yeni aqressiv formalarının yaranması, suisid meyillərinin artması, nəsillərarası əlaqənin dağılması və s. [4, s.90].

İsveç, Norveç və Danimarkada dövlət səviyyəsində həyata keçirilən sosial siyasət ictimaiyyətin ümumi maraqlarının azalması, ənənəvi ailənin dağılması, feminist hərəkatın genişlənməsi, etnik skandinavların hüquqlarının qorunmasının qəlizləşməsi kimi narahatlıqlara səbəb olur. Protestant etikasına xas fərdi dünyagörüşü ilə təşkil edilən ümumrifah dövlətinə məxsus konsepsiya xüsusi sosial-siyasi xarakterli problemlər doğurur. Əvvəllər konservativ hesab edilən bir sıra sahələrdə dövlət tərəfindən verilən azadlıqlar Skandinaviya cəmiyyətinin fərdiləşməsini daha da gücləndirir.

Skandinaviya ölkələrində milli

məsələlərlə bağlı situasiya kəskinləşir. İsveçdə hər il miqrantlara, xüsusən də Yaxın Şərqdən gələnlərə qarşı açıq müqavimət halları sürətlə artır. Sağ təmayüllü partiyalar və ictimai təşkilatlar bu kəskin sosial-siyasi problemi həll etməyin yolunu kütləvi immiqrasiyanı və cəmiyyətdə multikultural təcrübəni dayandırmaqda görürlər.

Sosial-demokrat partiyalar tərəfindən irəli sürülən miqrasiya siyasətinə dair tənqidlər fonunda səbirsiz və aqressiv Skandinaviya cəmiyyəti formalaşır, hətta bəzi tədqiqatçılar Skandinaviya ölkələrində antiimmiqrasion əhval-ruhiyyə üçün "neonasizm" terminindən istifadə edirlər. Görünən odur ki, rifah dövləti "fövqəlməqsəd"in öhdəsindən gələ bilmir, bütün Skandinaviya əhalisinin ümumrifahını təmin etmək üçün süni şəkildə yaradılmış çoxmillətli cəmiyyətdə kadr və genetik problemlərin həllində aydın görünən problemlər var. İctimai institutların reformasiyası şəraitində Skandinaviya ölkələrində yaranmış problemlər kompleksini həll etmək olar.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:


1. *Arne, Naess.* Ecology Community and Lifestyle, David Rothenberg, CUP, Cambridge, 1989
2. *Элизабет, Карлссон.* Лагом. Шведские секреты счастливой жизни. Одри, 2021, -208с.
3. *Ларс Миттинг.* Норвежский лес:скандинавский путь к силе и свободе. Эксмо, 2017, -320 с.
4. *Лащенко, П.В.* Трансформация современной философии общежития в Скандинавских странах. // Научное обозрение: гуманитарные исследования. М.: Наука образования, 2014, № 9, с. 88-96.
5. *Karen N. Breidahl.* Ethnic diversity, social policy and the Scandinavian welfare states: Similar or different policy responses, http://vbn.aau.dk/files, 2011.
6. *Елкина В.* Четыре скандинавских принципа, которые помогут вам изменить жизнь к лучшему. /16 июня 2019/ - https://rb.ru/story/candinavian-life-philosophies


**Gunel Garayeva**

## UTOPIC WORLDVIEW AS A SOURCE OF SOCIAL POLICY IN THE SCANDINAVIAN COUNTRIES


### Abstract

Scandinavian countries use the possibilities of their social policy to maintain the existing order and unity in society, to provide broad rights for every person living in the country, including migrants. After some time, the citizens of the Scandinavian countries began to think about the threat to the well-being and social-democratic foundations of their state. Cultural conflicts were linked to the problem of the sustainability of social programs and fueled the debate on the crisis of Scandinavian identity and unity. Studies show that under the influence of migration policy at the

present stage, the worldview of the Scandinavian people the main indicators of which are patience, obedience and rationality is being transformed. As a result, the only way to solve the problem is to work with the population as a whole, because the other way is effectively discrimination.

In the article were analyzed the peculiar aspects of social policy and the ideology of Scandinavianism in the Scandinavian countries, the identity crisis was considered as one of the most serious problems of the welfare state model, the difficulties arising in the migration policy of the Scandinavian countries and the legal regulation of migration were paid attention to and the attitude towards the Islamic religion in Europe and Scandinavia was analyzed.

**Keywords:** social policy, welfare state model, social peace, Scandinavian principles of happiness, individualism, collectivism

**Гюнель Гараева**

## УТОПИЧЕСКОЕ МИРОВОЗЗРЕНИЕ КАК ИСТОЧНИК СОЦИАЛЬНОЙ ПОЛИТИКИ В СКАНДИНАВСКИХ СТРАНАХ

### Резюме

Скандинавские страны используют методы своей общественной политики для поддержания нынешнего порядка и единства в социуме, для предоставления широких прав каждому человеку, проживающему в стране, в том числе мигрантам. Через некоторое время граждане скандинавских стран впервые стали задумываться об угрозе благополучия и социал-демократическим устоям своего государства. Культурные конфликты были связаны с проблемой устойчивости общественных программ и подпитывали дебаты о кризисе скандинавской идентичности, единства. Исследования показывают, что под влиянием миграционной политики на современном этапе трансформируется мировоззрение скандинавского народа, основными показателями которого являются терпеливость, послушание и рациональность. В результате единственный способ решить проблему — работать с населением в целом, потому что другой путь — это фактически дискриминация.

В статье проанализированы особенности социальной политики и идеологии Скандинавства в скандинавских странах, кризис идентичности рассмотрен как одна из самых серьезных проблем модели государства всеобщего благосостояния, уделено внимание миграционной политике скандинавских стран и сложностям, возникающим в правовом регулировании миграции, проанализировано отношение к исламской религии в Европе и Скандинавии.

**Ключевые слова:** социальная политика, модель государства всеобщего благосостояния, социальный мир, скандинавские принципы счастья, индивидуализм, коллективизм

# İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏN SONRA ERMƏNİSTAN HAKİMİYYƏTİNİN XARİCİ SİYASƏT KURSU VƏ DİASPOR-ERMƏNİSTAN MÜNASİBƏTLƏRİ

**Əvəz RƏHİMOV**
*Xəzər Universitetinin magistrantı*
*Bakı, Azərbaycan*

*E-mail: avazrmoff98@gmail.com*
*ORCID: 0009-0008-1291-6717*
*UOT: 327*

**Xülasə.** 44 günlük Vətən müharibəsi təkcə Qarabağın yenidən Azərbaycanın tərkibinə qaytarılması ilə nəticələnmədi, həm də Ermənistan xarici siyasətini önəmli dərəcədə dəyişdi. Digər tərəfdən erməni diasporunun əsl potensialı ortaya çıxdı. Müharibədən sonra diaspor və Ermənistan hakimiyyəti xarici siyasət istiqamətlərini müəyyənləşdirməklə bağlı ciddi problemlər yaşayır. Rusiya ilə münasibətlərdə ortaya çıxan ziddiyyətlər bu ölkədəki diaspor nümayəndələri ilə münasibətlərə də əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Əvəzində isə Fransa və ABŞ-dakı yenilikçi diaspor üzvləri Ermənistan hakimiyyəti üzərində təsirlərini daha da möhkəmləndirməkdədir. Digər tərəfdən Ermənistanın qonşuları ilə münasibətləri normallaşdırma cəhdləri radikal və ənənəvi diaspor təşkilatları tərəfindən müsbət qarşılanmamışdır. Beləliklə, Paşinyan administrasiyasının ayrı-ayrı yenilikçi diaspor qrupları ilə əlaqələri genişlənsə də, ənənəvi və köklü diaspor təşkilatları ilə münasibətlər düşmənçilik həddinə çatmışdır. Xüsusən 2022-ci il mitinqləri hökumətə qarşı daşnaklar başda olmaqla radikal diaspor və müxalifətin geniş işbirliyini ortaya qoydu. Lakin istənilən halda bu münasibətlər Ermənistan hakimiyyətinin sülh prosesində qətiyyətsiz iştirakına rəvac verdi. Gələcəkdə xüsusilə Ermənistan xarici siyasətinin hansı istiqamətə doğru yönələcəyinə diaspor-daxili qüvvələr balansının da təsiri olacaqdır.

**Açar sözlər:** diaspor, xarici siyasət, Ermənistan hökuməti, Qarabağ müharibəsi, ziddiyyət, prioritet

## Giriş

2020-ci ildə Qarabağda münaqişəli vəziyyət daha da dərinləşdi. Buna Ermənistan tərəfinin törətdiyi təxribatlar səbəb oldu. Belə ki, 2020-ci il iyulun 12-də Azərbaycanın Tovuz rayonu istiqamətindən hücuma keçməyə cəhd edən Ermənistan ordusunun qarşısı Azərbaycan silahlı qüvvələri tərəfindən uğurla alındı. Tovuzun münaqişə zonasından kənarda yerləşməsi isə Ermənistanın münaqişənin həllindən çox onun miqyasının genişlənməsində maraqlı olduğuna işarət edirdi. Nəhayət, ermənilərin növbəti 2020-ci ilin 27 sentyabr təxribatından sonra Azərbaycan ordusu əks hücuma keçdi. Nəticədə artan gərginlik "İkinci Qarabağ müharibəsi" adlanan və 44 gün davam edən yeni bir müharibəyə səbəb oldu. Müharibə davam etdikcə Azərbaycan ordusu irəliləyərək torpaqlarını işğaldan azad etməyə başladı. Bir-birinin ardınca işğal etdiyi torpaqları əldən verən, ciddi əsgər və digər maddi itkiləri olan Ermənistan 10 noyabr 2020-ci il tarixində Rusiyanın vasitəçiliyi ilə üçtərəfli bəyanatı imzalamağa məcbur oldu. Nəticədə, Azərbaycan qalib dövlət kimi öz ərazi bütövlüyünü hərbi yolla bərpa etdi.

Məhz İkinci Qarabağ müharibəsinin nəticələri və ardınca baş verən proseslər regionda siyasi və hərbi qüvvələr balansında, Ermənistanın xarici siyasətində, eləcə də Ermənistan hakimiyyəti ilə erməni diasporu arasında münasibətlərdə ciddi dəyişikliklərə səbəb oldu.

Beləliklə, Ermənistanın xarici siyasət istiqamətlərinin formalaşmasında diasporun aktiv rolunu nəzərə aldıqda, Ermənistan hakimiyyəti - diaspor münasibətlərində dönüş nöqtəsi olan İkinci Qarabağ müharibəsi dövründə və ondan sonrakı proseslər, eləcə də erməni diasporunun bu proseslərə münasibəti araşdırmanın aktuallığını şərtləndirir.

## 1. İkinci Qarabağ müharibəsi dövründə erməni diasporunun fəaliyyəti

Erməni diasporu II Qarabağ müharibəsi dövründə aktiv fəaliyyət göstərmişdir. Diasporun fəaliyyətinin bir hissəsi iqtisadi və maliyyə yardımları, habelə hərbi vasitələrlə Ermənistanı təmin etmək, eyni zamanda digər dövlətləri də bu fəaliyyətə təşviq etmək idi. Ümumilikdə müharibə dövründə fəaliyyət göstərən fondlarda Ermənistan üçün sadəcə 150 milyon dollar ianə toplanmışdı. Bu isə sayı təxminən 10 milyona yaxın olan dünya erməniləri üçün olduqca kiçik bir rəqəmdir. Üstəlik, bu məbləğə onlarla milyarder və milyoner erməni oliqarxların köçürdüyü vəsait də daxildir. Bu məbləğin 45%-i ABŞ-da yaşayan ermənilər və onlarla əlaqəli şəxslər tərəfindən köçürülmüşdür. Rusiyadakı erməni diasporu isə yardım prosesində xeyli passiv iştirak etmişdir (10%-dən bir qədər çox) [3]. ABŞ-da yaşayan ermənilərin əksəriyyətinin orta təbəqəyə daxil olduğunu və daha yüksək təşkilatlandığını nəzərə alsaq, bu fərq başadüşüləndir. Lakin istənilən halda nüfuzuna və gücünə nisbətdə diaspor ermənilərinin Ermənistana edilən köməyi heç də mütənasib deyil. Erməni ekspertləri də bu faktı təsdiq edirlər ki, dünyadakı ermənilərin yardımları heç də onların Ermənistanın yanında olduğunu söyləməyə əsas vermir.

Bundan əlavə, hakimiyyətin toplanan vəsaitləri necə xərcləyəcəyi də diaspor tərəfindən şübhə doğurur. Sirr deyil ki, Ermənistanda korrupsiyanın səviyyəsi yüksəkdir. Bu halda ianələrin təyinatı üzrə şəffaf və məqsədli xərclənəcəyinə inanmaq çətindir. Daxil olan yardımlar əsasən "Ermənistan" fonduna köçürülmüşdür. Bu fond isə çirkli pulların yuyulması və mənimsənilməsi ilə tanınır [4].

Diaspor xarici ölkələrdə olan ermə-

ni militanların, habelə digər millətlərdən olan muzdlu döyüşçülərin Qarabağa – döyüş zonasına göndərilməsinə də yardım etmişdir. Müharibənin lap əvvəlindən Azərbaycan və Türkiyə rəsmiləri Ermənistan tərəfindən Suriyadan gələn muzdluların iştirak etdiyini bəyan etmişdir. Onların bir çoxu keçmiş ASALA-nın üzvləri və ya Suriya vətəndaş müharibəsində iştirak edən terrorist qüvvələr idi [17]. Ümumilikdə isə Fransadan, Yunanıstandan, Livandan, Suriyadan, Latın Amerikası ölkələrindən və s. xeyli sayda erməni könüllü diaspor fəaliyyəti ilə müharibəyə cəlb edilmişdi.

Erməni diasporunun İkinci Qarabağ müharibəsi dövründə fəaliyyətinin digər bir istiqaməti Azərbaycanı və guya müharibə dövründə ona yardım edən Türkiyəni təcavüzkar ölkə kimi tanıtmaq, digər dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən bu iki dövlətə qarşı sanksiyaların tətbiq olunmasına, qondarma “Dağlıq Qarabağ Respublikası”nın müstəqilliyinin tanıdılmasına nail olmaq, ən azından bu yolla aparıcı dövlətlərin və beynəlxalq qurumların müharibənin gedişatına müdaxilə etməsinə və onlara sərf edən qərarların alınmasına nail olmaq idi. Üçtərəfli bəyanatın imzalanmasından sonra erməni lobbisinin təzyiqi və ermənipərəst deputatların yaxından iştirakı ilə Fransa, Niderland və Belçika parlamentlərində tövsiyə xarakterli bir sıra qərəzli qətnamələr qəbul edildi. Bu qətnamələrdə guya Qarabağda yaşayan erməni əhalisinin həyatının təhlükədə olduğu və buna görə də beynəlxalq müdaxilənin zəruriliyi iddia edilir, o cümlədən Azərbaycan və hətta Türkiyə işğalçı ölkələr kimi qələmə verilir, onlara qarşı sanksiyaların tətbiq edilməsi təklif edilirdi [2]. Xüsusilə Fransa İkinci Qarabağ müharibəsi zamanı və ondan sonra Ermənistanın ən yaxın dəstəkçilərindən biri idi. Müharibə dövründə Fransa hökuməti Ermənistana dəfələrlə “humanitar yardım” göndərmişdi.

Lakin erməni diasporunun 44 günlük Vətən müharibəsi dövründə bütün cəhdlərinə baxmayaraq, heç bir dövlət Ermənistan üçün rəsmi hərəkətə keçmədi. Çünki dünya birliyi tərəfindən Qarabağ yekdilliklə Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi qəbul edilmişdir.

## 2. Erməni diasporunun 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatla bağlı mövqeyi

Erməni diasporunun üçtərəfli bəyanata dair mövqeyinə gəlincə burada ciddi haçalanma meydana gəldi. Yeganə olaraq erməni diasporunun ən nüfuzlu və radikal təşkilatı olan Erməni İnqilab Şurası və ya “Daşnaksütyun” ilk gündən bəyanata etiraz etdi. Digər diaspor təşkilatları isə yalnız etirazlar dalğası genişlənəndən sonra Ermənistan hakimiyyətinə və bəyanata etiraz etməyə başladı. “Daşnaksütyun” və 50-yə yaxın diaspor təşkilatı bəyanatın imzalanmasından sonra Ermənistan baş nazirinə müraciət edərək Nikol Paşinyanın dərhal istefa verməsini və bəyanatın icrasının dayandırılmasını tələb etdilər [5]. Bu çağırışa Rusiya erməniləri birliyi də qoşulmuşdu. Xaricdə yaşayan ermənilər Ermənistanda baş verən etirazlara dəstək məqsədilə mitinqlər keçirdilər. Ermənistanda etiraz aksiyaları 2021-ci ilin yanvarın 11-də İlham Əliyev, Vladimir Putin və Nikol Paşinyanın Moskvada keçiriləcək görüşü ərəfəsində daha da kəskinləşdi. Rusiya Erməniləri Birliyinin sədri Ara Abramyan Ermənistan baş nazirinə məktub yazaraq Moskva görüşünə gəlməməsini, xalqın maraqlarına uyğun olmayan bəyanatı imzaladığı üçün dərhal istefa verməsini tələb etdi. Rusiya erməniləri 2021-ci il yanvarın 11-də Rusiyadakı Ermənistan səfirliyi qarşısında etiraz aksiyası keçirərək “vətən xaini” Nikol Paşinyanın istefa-

sını, bəyanatın icrasının tamamilə dayandırılmasını tələb etdilər. Lakin o da aydın idi ki, Abramyanın etirazları milli duyğularından deyil, siyasi məqsədlərindən irəli gəlirdi. Belə ki, 2021-ci ildə Ermənistanda keçirilən növbədənkənar parlament seçkilərinə qatılan Abrahamyan belə bir siyasi kampaniya ilə dəstək qazanmağa çalışırdı. Lakin sonda o, Tiqran Urixanyanla koalisiyada cəmi 0,95% səs toplaya bilmişdi [20].

2022-ci ilin aprelindən isə Ermənistanda müxalifətin (keçmiş prezident, rusपərəst Robert Köçəryan və keçmiş müdafiə naziri Seyran Ohanyanın rəhbərliyi) və diasporun təşkil etdiyi yeni antihökumət mitinqləri dalğası başladı. Etirazçılar Paşinyan hökumətinin Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşmasının əleyhinə çıxır və erməni milli maraqlarına xəyanət etdiyi üçün baş nazirin istefasını tələb edirdilər. “Daşnaksütyun”, həmçinin Fransadakı bir çox diaspor qrupları, Rusiya Erməniləri Birliyi də bu etirazlara qoşulmuş, ABŞ-da, Rusiyada, Fransada və s. geniş dəstək mitinqləri təşkil etmişdilər. Diasporla iş üzrə ali komissar Zareh Sinanyanın daşnak liderlərinin Paşinyan hökumətinə qarşı sərt münasibətini “vətənə xəyanət” adlandırması Daşnaksütyun - hökumət münaqişəsini daha da qızışdırmışdı. Sinanyan Los-Ancelesə səfəri zamanı daşnakların sərt müqaviməti ilə üzləşmişdi [13].

Rusiyada daşnakların etirazı səbəbindən erməni baş nazir Moskvaya səfəri zamanı bəzi diaspor üzvləri ilə görüşünü təxirə salmalı olmuşdu. Bundan əlavə, Paşinyan hökumətinin diasporun bəzi nüfuzlu üzvlərini "persona non grata" elan edərək ölkəyə girişinə qadağa qoyması Ermənistan hakimiyyətinin də heç də kompromis axtarmadığını ortaya qoyurdu [9; 12].

Lakin bütün bunlara baxmayaraq bəzi diaspor təşkilatları hakimiyyəti müdafiə edirdilər. Məsələn, Sosial Demokrat Hnçak Partiyası dərc etdiyi bəyanatda müxalifəti və bu etirazlarda iştirak edən diaspor qruplarını tənqid etmiş, diasporun belə siyasi intiriqalarda iştirak etməsinin düzgün olmadığını vurğulamışdır. Hnçak Partiyası təşkilatın, eləcə də erməni əhalisinin əksəriyyətinin bu etirazları dəstəkləmədiyini diqqətə çatdırmışdır [18]. 2022-ci ilin yayında sosial bazasının məhdudluğu səbəbindən müxalifət mitinqləri dayandırmalı olmuşdu.

### 3. 2020-ci il müharibəsinin Ermənistan hökuməti-diaspor münasibətlərinə təsiri

İlk növbədə qeyd etmək lazımdır ki, Ermənistan hökuməti-diaspor münasibətləri bir qrup milyarderin və Ermənistan siyasi elitasının maraqları əsasında inkişaf etməkdədir. Müharibə də göstərdi ki, bu varlı şəxslərin heç də Ermənistan əhalisinin problemlərinə şərik olmaq kimi niyyətləri yoxdur. Onların əsas maraqları Ermənistanda və ya erməni adı ilə sahib olduqları biznes imkanlarının genişləndirilməsidir. Yardımların əksəriyyəti də bu məqsədə xidmət etmək üçün ayrılmışdır.

“Diaspor-Ermənistan vəhdəti”nin iç üzü İkinci Qarabağ müharibəsi dövründə açıldı. Müharibənin əsas "ağırlığı" Qarabağda yaşayan ermənilərin, qismən də Ermənistan ermənilərinin üzərinə düşdü. Müharibədən minlərlə kilometr uzaqlıqda yaşayan diaspor erməniləri üçün isə müharibə dəhşətlərini dərk etmək mümkünsüz idi. Diasporu heç də Ermənistanda yaşayan ermənilərin rifahı deyil, öz iqtisadi və biznes maraqları maraqlandırırdı.

Müharibənin Ermənistanı diaspordan narazı salan məsələlərin dərinləşməsində də rolu olmuşdur. Belə ki, erməni diasporunun müharibə ərzində və ondan

sonrakı dövrdə bütün fəaliyyəti boyu heç bir dövlət açıq-aşkar Ermənistanı dəstəkləyən bəyanat qəbul etmədi. Qəbul edilən bəzi sənədlər isə tövsiyə xarakteri daşıyırdı. Ona görə də Ermənistan artıq yəqin etməkdədir ki, diaspor heç də onların düşündüyü qədər güclü təsir imkanlarına malik deyil. Beləcə 44 günlük müharibə diasporun gücünün sınanmasına və əsl potensialının üzə çıxmasına da töhfə vermiş oldu.

Eləcə də diasporun öz daxilində də həmrəyliyin o qədər də güclü olmadığı müharibədən sonrakı dövrdə bir daha aydın oldu. Erməni diasporunun Ermənistan hakimiyyətinə olan münasibəti tam fərqli iki istiqamətə haçalanmışdır. Doğrudur, bir tərəfdən əksər diaspor qrupları Ermənistandakı hadisələrə dəstək verərək baş nazirin və hökumətin istefasını tələb edirlər. Onların fikrincə, Ermənistanın bugünkü ağır siyasi və iqtisadi böhrana düçar olmasının səbəbi Nikol Paşinyan və onun populist xarici siyasəti olmuşdur. Lakin digər tərəfdən hakimiyyəti dəstəkləyən qüvvələr də az deyil. Onlar isə belə düşünür ki, Ermənistandakı ağır durumun səbəbi Nikol Paşinyandan əvvəl hakimiyyətdə olan qüvvələrdir. Məhz onlar tərəfindən əsası qoyulan və davam etdirilən münaqişə həmişə Ermənistanın aktiv xarici siyasət aparmasını əngəlləmişdir.

### 4. Paşinyanın qərbyönümlü xarici siyasəti və diaspor faktoru

Ermənistanın İkinci Qarabağ müharibəsindən sonra xarici siyasət kursunda 3 əsas tendensiyanı müşahidə etmək mümkündür. Birincisi, Rusiya ilə münasibətlərdə yaranan durğunluq və bəzi ziddiyyətlər, bunun qarşılığında Qərb dövlətləri (ilk növbədə Fransa) ilə inkişaf edən əlaqələr; ikincisi, 2020-ci ildəki məğlubiyyətdən sonra Qarabağın yenidən Azərbaycanın nəzarətinə keçməsi ilə əlaqədar bu məsələ ətrafında danışıqlarla bağlı "haqqlarını" itirməsi və bu səbəbdən artıq iddialarını Qarabağ regionu yerinə Qarabağda yaşayan ermənilərə qədər daraltması; və nəhayət, Türkiyə və Azərbaycanla münasibətlərdə ortaya çıxan yaxınlaşma ümidləri.

Ermənistan hakimiyyətinin müharibəyə qədərki ənənəvi Rusiya mərkəzli xarici siyasəti müharibədən sonra nisbətən balanslı və hətta Rusiyanı bəzən tənqid etməyə qadir ritorika ilə əvəz olunmuşdur. Ermənistan hakimiyyətinin Rusiyaya qarşı belə mövqeyinin yaranmasını iki amillə əsaslandırmaq olar: Birincisi, İkinci Qarabağ müharibəsində sarsıdıcı məğlubiyyətindən sonra Ermənistanın və qondarma separatçı rejimin təhlükəsizliyində Rusiyanın guya zamin rolu oynaması artıq erməni rəsmiləri və politoloqları tərəfindən şübhə altına alındı. İkincisi, Ukraynaya qarşı 2022-ci ilin fevralında başlayan genişmiqyaslı müharibənin Rusiyanın yumşaq gücünə ciddi təsir göstərməsi, onu regional məsələlərdən qismən kənarda saxlaması və vasitəçilik mövqeyini sarsıtmasıdır. İkinci amil Ermənistanı son dövrlərdə daha sərbəst hərəkət etməyə sövq etmişdir.

Buna baxmayaraq, erməni xalqının Paşinyanın Rusiya ilə münasibətləri “soyutmasını” dəstəklədiyini söyləmək olmaz. Rusiyadan dərin iqtisadi və hərbi-siyasi asılılıqdan əlavə, bu ölkəyə qarşı davam edən rəğbətin kökündə bir vacib amil dayanır. Bu, Rusiyada yaşayan çoxsaylı erməni diasporudur (təxminən 2,5 milyon nəfər). Üstəlik, bu diasporun böyük bir hissəsi ABŞ-dakı, Fransadakı və s. fərqli olaraq müstəqillik əldə etdikdən sonra Ermənistandan, bir hissəsi isə SSRİ dövründə mühacirət edənlərdir. Ona görə də onların əksəriyyətinin Ermənistanla hələ də əlaqələri var. Bir çoxunun ailə üzvləri Ermənistanda yaşayır. Rusiya isə

miqrant və əcnəbi əhalidən məharətlə mənsub olduğu ölkəyə təsir vasitəsi kimi istifadə edə bilir [19]. Bu səbəbdən də Ermənistan əhalisinin əhəmiyyətli bir hissəsi hələ də Rusiya ilə müttəfiqliyin davam etdirilməsinin tərəfdarıdır. Avropayönlü siyasət əksər Qərb diaspor təşkilatlarının marağındadır. Xüsusilə Fransadakı güclü diaspor qurumları Paşinyanın qərbyönümlü xarici siyasətini formalaşdıran mühüm qüvvələrdən biridir. Nəticədə bu "islahatçı" təşkilatlar "demokratikləşmə" və "Avropaya inteqrasiya" adı altında Ermənistana təsirlərini gücləndirirlər. Lakin Rusiyanın hərtərəfli əhəmiyyətinə görə Paşinyan administrasiyası anti-Rusiya ritorikasında çox uzağa gedə bilmir və bu, tənqiddən daha çox küsməyə bənzəyir. Digər tərəfdən, istər Qərbdə, istərsə də post-sovet məkanında diaspor qrupları yaxşı başa düşürlər ki, hər şeyə baxmayaraq, Rusiyanın Ermənistana çoxşaxəli təsir rıçaqları hələ də çox böyükdür və onu dəyişmək asan məsələ deyil. Digər tərəfdən taxıl idxalında 70%, enerji sahəsində isə 80% Rusiyadan asılı olan Ermənistan artıq Rusiyaya qarşı Qərbin tətbiq etdiyi sanksiyaların əks təsirlərini hiss edir [11]. Ona görə də bu məsələ digər iki xarici siyasət məsələsi kimi mübahisəli deyil.

### 5. Azərbaycan-Ermənistan münasibətlərinin hazırkı vəziyyətinə diasporun münasibəti

Ermənistan hökumətinin xarici siyasət strategiyasında son dövrlərdə aşkar hiss edilən dəyişikliklərdən biri də Qarabağ məsələsinə yanaşmasıdır. Müstəqillik əldə etdikdən bu günə kimi Qarabağ problemi Ermənistanın ən önəmli siyasi prioriteti olmuşdur. Bu prioritet dəyişməsə də, məqsəd və gözləntilər İkinci Qarabağ müharibəsindəki məğlubiyyətdən sonra ciddi dəyişikliyə uğrayıb. Bunu sadəcə Paşinyanın ritorikasından da anlamaq olar. 2019-cu ildə "Qarabağ Ermənistandır və nöqtə" və ya "Biz bacararıq" kimi reallığı əks etdirməyən ifadələrdən [7] "Beynəlxalq ictimaiyyət Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıyır" və ya "BMT Təhlükəsizlik Şurasının Qarabağla bağlı qətnamələrini gözardı etməklə heç də rasional addım atmamışıq" kimi etiraflara keçid dediklərimizi sübut edir [15].

Bu gün Ermənistan hər nə qədər məğlub olduğunu qəbul etsə də, təxribatçı fəaliyyətlər Qarabağda hələ də davam etməkdədir. Paşinyan administrasiyasının Qarabağla bağlı hər hansı bir iddia irəli sürmək hüququ olmasa da, Azərbaycan hələ də sülh naminə qanunsuz erməni dəstələrinin Qarabağdakı fəaliyyətinə dözüm nümayiş etdirir. Ermənistan sülh danışıqlarında nə isə əldə edəcəyi ümidi ilə Qarabağ məsələsi ətrafında mümkün qədər suveren hərəkət etməyə çalışır. Hətta qondarma "dqr"in qondarma rəhbərlərindən verdikləri bəyanat və açıqlamalarında ehtiyatlı olmağı, təzada yol verməməyi ciddi şəkildə tələb edir [6].

Paşinyan hökuməti ABŞ-dansa (daha mürəkkəb və təsir imkanları məhdud olduğu üçün) daha çox Fransa üzərində təsir imkanlarını artırmağa çalışır. Fransada erməni lobbi qrupları və diaspor qurumları aktiv çalışaraq Makron hökumətinin qərəzli siyasətinin formalaşmasına təsir göstərirlər. Lakin, təbii ki, Fransanın bu şəkildə vasitəçi rol oynaması Azərbaycan üçün qəbuledilməzdir. Bu səbəbdən 2022-ci il Praqa Sammitindən sonra Prezident İlham Əliyev Fransanın mediator rolu ilə münasibətlərin nizamlanması məsələlərində Azərbaycanın iştirak etməyəcəyini bəyan etmişdir [1]. Ona görə də Fransa yalnız qalmaqallı bəyanatlar verməklə kifayətlənməli olur. Rusiyanın bölgədə təsirinin zəifləməsi (müharibə ilə əlaqədar) və Fransanın birtərəfli ermə-

nipərəst mövqeyi səbəbindən vasitəçilik məsələsində ABŞ-ın təşəbbüsləri güclənməkdədir.

Aydındır ki, nə diaspor, nə də Fransa kimi ölkələr əgər sülhü təşviq etmək fikrində olmasalar, Qarabağ məsələsində Ermənistana heç bir yardım edə bilməzlər. Diasporun birbaşa Qarabağ məsələsi ilə bağlı təsir mexanizmləri məhduddur. Paşinyan hökuməti hər nə qədər Qarabağ məsələsinə Ermənistanın yanaşması ilə bağlı diasporun tənqidlərinə çox da əhəmiyyət verməməyə çalşsa da, hesab edir ki, diasporun imkanlarından Azərbaycanla bəzi məsələlərin tənzimlənməsində istifadə etmək mümkündür və istifadə də edilir. Misal üçün, Azərbaycanın cənub-qərb hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında yaradılması nəzərdə tutulan Zəngəzur dəhlizinin reallaşmaması istiqamətində bu imkanlardan istifadə edilir. Ermənistan üçtərəfli bəyanatda nəzərdə tutulan dəhlizin açılmasını ləngitməyə və bəlkə, bununla Azərbaycandan kompromis əldə etməyə çalışır. Bu səbəbdən azərbaycanlı ekoaktivistlərin 2022-ci ilin dekabrın 12-dən başlayan və 2023-cü ilin aprelin 28-dək davam edən Xankəndi-Laçın yolunun Şuşadan keçən hissəsində keçirdikləri aksiyanı blokada kimi qələmə verməyə, diaspor da Ermənistanın bu yalanını dünyaya yaymağa çalışırdı. Lakin aydın məsələdir ki, aksiya keçirildiyi müddətdə ərazidən humanitar məqsədlərdən istifadə davam etdirilirdi və Şərqi Zəngəzurda yaşayan erməni əhalinin həyati təhlükəsizliyinin pozulmasından söhbət gedə bilməzdi. Sadəcə Azərbaycanla danışıqlarda müəyyən mövqe qazanmaq üçün Ermənistan tərəfindən belə dezinformasiyalar yayılırdı.

Diasporun mövqeyinə gəlincə, ilk növbədə demək lazımdır ki, Ermənistan Qarabağın itirilməsi və Azərbaycanla sülh prosesi ilə bağlı diasporun ittihamlarını qəbul etmir. Xüsusən “Daşnaksütyun” antihökumət çıxışlarında ən öndə gələn diaspor qurumudur. Daşnaklar Ermənistan parlamentində də təmsil olunurlar. 2022-ci ildə keçirilən Ermənistan daxilindəki "Müqavimət Hərəkatı" mitinqlərində daşnaklar da aktiv iştirak etmiş, eləcə də Fransa və ABŞ-da, habelə Rusiyada etiraz yürüşləri təşkil etmişdilər [20]. Hakimiyyət erməni birliyini pozmaqda, “Daşnaksütyun” isə milli maraqlara xəyanət etdiyi üçün bir-birini satqın adlandırırdılar [7]. Bu səbəbdən “Daşnaksütyun” ilə Ermənistan hakimiyyəti arasında münasibətləri son dərəcə gərgin hesab etmək olar. Paşinyan daşnaklar üçün ən qəbuledilməz lider hesab oluna bilər. Ancaq xalq üçün daha uyğun namizəd olmadığındandır ki, Paşinyan hələ də hakimiyyətdə qalır. Radikal diaspor qanadı isə Paşinyanın Qarabağla bağlı siyasətinə etiraz etsə də, bu, əslində onun Qarabağın itirilməsindən çox qonşuları Türkiyə və Azərbaycanla münasibətləri normallaşdırmaq cəhdlərindən qaynaqlanır. Lakin digər tərəfdən Paşinyana qarşı etirazlar Levon Ter-Petrosyan dövründəkindən daha güclü deyil. Çünki hazırda Paşinyan hakimiyyətinin Ermənistan üçün mümkün ən demokratik inkişaf yolu olduğunu düşünən diaspor qrupları da var. Beləliklə, Paşinyan Qarabağın itirilməsi və sülh prosesi ilə bağlı radikal diaspor ilə münaqişədə olsa da, digər tərəfdən islahatlara meyilli siyasəti ilə Qərbdəki bir çox yenilikçi diaspor üzvlərinin dəstəyini qazanmaqdadır.

## 6. Türkiyə ilə gündəmdə olan barışıq prosesinə diasporun təsiri

Xarici siyasət prioritetlərində 3-cü bir dəyişiklik isə Türkiyə ilə münasibətlərin normallaşmasına olan ümidlərdir. Bu məsələ İkinci Qarabağ müharibəsindən sonrakı dövrdə regional münasibətlərin

önəmli məsələlərindən biridir. Tərəflər 2021-ci ilin dekabrında münasibətlərin normallaşması üçün xüsusi nümayəndə təyin etdikdən sonra bir neçə dəfə görüşsələr də, hələ də diplomatik münasibətlər qurulmayıb. İkitərəfli münasibətlərdə "buzların əriməsi" heç də maneəsiz həyata keçirilmir və uğurla nəticələnəcəyi də sual altındadır. Qeyd edək ki, Türkiyə Ermənistanla sərhədlərin açılması və diplomatik münasibətlərin qurulması üçün həmişə keçmiş Dağlıq Qarabağ münaqişəsinin həllini və Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasını ilkin şərt kimi önə sürüb. Bu gün münaqişənin həllində müəyyən uğur əldə olunsa da, sülh müqaviləsi hələ də imzalanmayıb. Bu səbəbdən Ermənistan və Türkiyə arasında münasibətlərin tam normallaşması Cənubi Qafqazda sülh bərqərar olana qədər mümkün deyil. Ermənistandakı hakim qüvvə ümid edirdi ki, 14 may 2023-cü ildə Türkiyədə keçirilən prezident və parlament seçkilərində müxalifət qalib gələrsə, Türkiyə ilə münasibətlərin normallaşma ilə bağlı irəli sürülən ilkin şərt aradan qalxa bilər [10]. Lakin seçkinin nəticələri Ermənistan hakimiyyətinin bu ümidlərini də puça çıxardı.

Türkiyə ilə münasibətlərin normallaşmasına ciddi təsir edəcək daha bir məsələ isə erməni diasporunun iradəsidir. Qeyd edək ki, Ermənistan daxilində də Türkiyə ilə yaxınlaşma və münasibətlərin normallaşması o qədər rəğbətlə qarşılanmır. Belə ki, 2022-ci ildə Ermənistanda keçirilmiş ictimai rəy sorğusuna əsasən, respondentlərin 59%-i Türkiyə ilə münasibətlərin normallaşdırılmasına mənfi yanaşmış və yalnız 34%-i Ermənistanın Türkiyə ilə sərhədlərinin açılmasının iqtisadiyyatın yaxşılığa doğru inkişafına təsir edəcəyini düşünmüşdü [16]. Təbii ki, uzun illər ərzində diaspor qruplarının da təsiri ilə həyata keçirilən antitürk təbliğatı bu nəticələrin ortaya çıxmasını labüd etmişdir.

Diasporun bu məsələdə mövqeyi daha kəskindir. Ölkə xaricində yaşayan erməni əsilli sıravi şəxslər üçün bu, elə də narazılıq doğurmur. Lakin Ermənistan üzərində ciddi təsiri olan bəzi diaspor təşkilatlarının bu məsələyə münasibəti əvvəlki kimidir. Yəni ənənəvi diaspor qrupları əvvəllər olduğu kimi Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşmasının əleyhinədir. Xüsusilə, “Daşnaksütyun” başda olmaqla Yaxın Şərq, Fransa və ABŞ-dakı diaspor qrupları normallaşma prosesinə mənfi mövqe nümayiş etdirirlər. Onlar ilk növbədə qondarma soyqırımın tanınmasını şərt kimi irəli sürürlər. Daşnaklar demək olar ki, bütün diaspor təşkilatları üzərində təsirə malik olduğu üçün, ümumən diasporun mövqeyi də daşnaklardan o qədər fərqlənmir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da diasporun bu hərəkətlərinin danışıqlar prosesini baltaladığını qeyd etmişdir. Onun fikrincə, diasporu bu əməllərdən ancaq Ermənistan hökuməti çəkindirə bilər [8].

Bəzi hallarda erməni diasporunun Ermənistan üçün mənfi rol oynadığını da qeyd edə bilərik. Türkiyə-Ermənistan münasibətləri nümunəsi erməni diasporunun Ermənistan xarici siyasətinə mənfi yöndə təsir etdiyini göstərən tutarlı faktlardandır. Hər nə qədər 2009-cu ildə Sarkisyan buna nail olmuş kimi görünsə də, daşnaklar başda olmaqla narazı diaspor nümayəndələri daima münasibətlərin normallaşmasına mane olublar. Türkiyəyə qarşı ideoloji mübarizə, qondarma erməni soyqırımının tanınması diasporun varlığının və birliyinin çox önəmli bir ünsürüdür. Lakin Türkiyə ilə münasibətlər normallaşarsa, bunun Ermənistan üçün çox ciddi faydaları ola bilər. Belə ki, Ermənistan daha yaxşı nəqliyyat dəhlizlərinə çıxış əldə edə, eləcə də Avropa ölkələri ilə

əlaqələrdə daha qısa marşrut yarana, bu da ixracı daha da şaxələndirə bilər. Eyni zamanda Türkiyə məhsulları yerli bazarda Rusiyadan asılılığı və rəqabət şəraitində qiymətləri xeyli dərəcədə azalda bilər. Beləliklə, Türkiyə ilə sərhədlərin açılması ilə diasporun həll edə bilmədiyi bir çox məsələləri çox asanlıqla həll etmək olar.

## Nəticə

Beləliklə, Ermənistan hakimiyyətinin müharibə dövründə xalqı yanlış məlumatlandırması və daha sonra Qarabağın işğalına son qoyan 10 noyabr 2020-ci il tarixində imzalanan üçtərəfli bəyanat diasporun narazılığına səbəb olub. Ermənistanın Türkiyə ilə münasibətlərin normallaşdırılmasına və Azərbaycanla sülh müqaviləsinin imzalanmasına, sərhədlərin delimitasiya və demarkasiyasına edilən cəhdləri xüsusilə tarixi düşmənçiliyi ön plana çəkən ənənəvi və radikal diaspor təşkilatlarının ittihamlarını xeyli artırmışdır.

Rusiyanın Ukraynada "başının qarışmasından" istifadə edən Ermənistan hakimiyyəti mümkün qədər qərbyönümlü xarici siyasət yürütməyə çalışsa da, görünən odur ki, son vaxtlar belə bir xarici siyasət kursunun ölkənin daha çox zərərinə işlədiyi qənaətinə gəlib. Bu səbəbdən Paşinyan hökuməti yenə də özünün ənənəvi erməni xarici siyasətinə sadiqlik nümayiş etdirməyə çalışır. Məsələn, martın 14-də keçirilən mətbuat konfransında Paşinyan, görünür, ilk brifinqdəki fikirlərini geri götürərək Ermənistanla Rusiya arasında ciddi gərginliyin olmadığını və Ermənistanın KTMT-də qalacağını bəyan etmişdir [14].

Rusiyanın regionda təsirinin zəifləməsi və Fransanın birtərəfli ermənipərəst mövqeyi səbəbindən ABŞ-ın vasitəçilik təşəbbüsləri güclənir. Paşinyan Qarabağ məsələsində hər hansı təsir rıçaqları əldə etmək üçün özündən əvvəl hakimiyyətdə olan qüvvələrin siyasətinə sadiq olsa da, hazırda Qarabağla bağlı sələflərindən xeyli az resurs və səlahiyyətə malikdir. Bununla belə, Paşinyan hökuməti sülh prosesində fəal rol oynamaq ümidi ilə diasporu və hətta Rusiyanı oyundan kənarlaşdırmağa hazırdır (E.Vardanyanın qondarma hakimiyyətdən uzaqlaşdırılmasını nəzərə alaraq). Radikal diaspor qanadı Paşinyanın Qarabağda yayaşan ermənilərlə bağlı siyasətinə etiraz etsə də, bu, əslində onun Qarabağı itirməkdən daha çox qonşuları - Türkiyə və Azərbaycanla münasibətləri normallaşdırmaq cəhdlərindən irəli gəlir.

Hadisələrin gələcək inkişafı mürəkkəb görünür. Məsələ burasındadır ki, Türkiyə ilə münasibətləri normallaşdırmağa çalışması və Qarabağ məsələsindəki məğlub mövqeyinə görə Paşinyan diaspor təşkilatları tərəfindən ciddi tənqid olunsa da, hal-hazırda Ermənistan üçün ən rasional yol qonşuları ilə münasibətləri normallaşdırmaqdır. Çünki Ukrayna ilə apardığı müharibədə xeyli zəifləyən Rusiya hər nə qədər Ermənistan üçün regional hakim güc olmağa davam etsə də, Ermənistanın gələcəyi üçün heç nə vəd etmədiyi dəqiqdir. Üstəlik, Avropaya inteqrasiya etməyə çalışan Ermənistan üçün Azərbaycan və Türkiyə ilə sülh önəmlidir. Yalnız bununla Ermənistan regional layihələrdə iştirak edə və Avropa ilə də əlaqələrini genişləndirə bilər. Diaspora gəlincə, o, ilk növbədə antitürk mövqeyindən imtina etməlidir. Zaman keçdikcə sərhədlərin açılması sayəsində əldə ediləcək mənfəət təzadlı fikirləri azaldacaq və diaspor da antitürk siyasətini davam etdirməyin lüzumsuz olduğunu qəbul edəcək.

Digər yol isə daha məntiqsiz görünən diaspor ilə həmrəylik roludur. Əslində Paşinyanın bu gün tam dəqiq hansı istiqamətdə irəlilədiyini söyləmək çətindir.

Azərbaycanla danışıqlarda tez-tez təzadlar və problemlər yaratması, güman ki, Paşinyan hakimiyyətinə diasporun təsirindən qaynaqlanır. Türkiyəni mümkün qədər neytrallaşdırmaqla Qarabağ məsələsinin Türkiyə-Ermənistan münasibətlərinə təsirini ortadan qaldırmaq istəyir. Lakin aydındır ki, Türkiyə buna getməz. Təbii ki, bu, danışıqların ruhuna xələl gətirir. Diasporu dinləyərək tarixi düşmənçiliyi davam etdirməyin region və Ermənistan üçün heç bir faydası yoxdur.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

**Azərbaycan dilində:**

1. *Azərbaycan Prezidenti:* "Fransa sülh danışıqlarında iştirak edə bilməz və bu, onun günahıdır". /25.11.2022/ - https://az.trend.az/azerbaijan/politics/3673493.html
2. Erməni diasporunun üçtərəfli bəyanata reaksiyasına dair. /Təhlil, Fevral 2021/ - https://aircenter.az/uploads/files/diaspora%20tehlil.pdf
3. Ermənistan və erməni diasporası: qarşılıqlı küskünlük. /12.11.2020/ - https://stm.az/en/news/418

**Rus dilində:**

4. Что не так с всеармянским фондом "Айастан"? /21.03.2022/ - https://vestikavkaza.ru/analytics/cto-ne-tak-s-vsearmanskim-fondom-ajastan.html

**İngilis dilində:**

5. ARF: More than 50 diaspora organizations demand Armenia PM Pashinyan's resignation, /03.12.2020/ - https://news.am/eng/news/616878.html
6. Armenia's Pashinyan to Artsakh authorities: Political statements that worsen situation should be avoided. /12.01.2023/ - https://news.am/eng/news/739153.html
7. Armenia diaspora faces waning influence on Turkey, Azerbaijan negotiations. /22 June 2022/ - https://eurasianet.org/armenia-diaspora-faces-waning-influence-on-turkey-azerbaijan-negotiations
8. Armenian diaspora in France, US disrupt normalization: Erdoğan. /10 November, 2022/- https://www.dailysabah.com/politics/diplomacy/armenian-diaspora-in-france-us-disrupt-normalization-erdogan
9. Armenian government continues anti-ARF policies toward ARF Youth. /29.01.2023/ -https://armenianweekly.com/2023/01/29/armenian-government-continues-anti-arf-policies-toward-arf-youth/
10. Can football help normalise relations between Armenia and Turkey? /24/03/2023/ - https://www.euronews.com/2023/03/24/can-football-help-normalise-relations-between-armenia-and-turkey
11. Explainer | The South Caucasus braces for Russia's hard landing. /16 March 2022/ - https://eurasianet.org/explainer-the-south-caucasus-braces-for-russias-hard-landing
12. Government Breaks Silence on Barring Entry of French-Armenian Leader. /22. 07.2022/ - https://asbarez.com/government-breaks-silence-on-barring-en-

try-of-french-armenian-leader/

13. Los Angeles Armenian Community Rejects Zareh Sinanyan. /June 08, 2022/ - https://horizonweekly.ca/en/los-angeles-armenian-community-rejects-zareh-sinanyan/

14. Nikol Pashinyan press conference. /15.03. 2022/ - https://jam-news.net/nikol-pashinyan-press-conference/

15. Pashinyan press conference. /10.01.2023/ - https://jam-news.net/pashinyan-press-conference/

16. Public Opinion Survey: Residents of Armenia. /June 2022/ - https://www.iri.org/wp-content/uploads/2022/09/IRIpoll2022Presentation_CRRC-Armenia_Public-Slides_CISR-Approved.pdf

17. Report: On The Use Of Foreign Terrorist Fighters By The Republic Of Armenia In Its Recent Aggression Against The Republic Of Azerbaijan. /November 2020/ - https://spcommreports.ohchr.org/TMResultsBase/DownLoadFile?gId=35751

18. Statement Regarding the Events Taking Place in Armenia. /21 May 2022/ - https://massispost.com/2022/05/statement-regarding-the-events-taking-place-in-armenia/

19. Terzyan Aram: "Russian policy, Russian Armenians and Armenia: ethnic minority or political leverage?" /2019/ - https://www.researchgate.net/publication/334720768

20. The Armenian diaspora in Russia: The second Karabakh war and its outcomes, /Baku 2022/ - https://aircenter.az/uploads/3gu2hVzye_RU.pdf

**Avaz Rahimov**

## THE FOREIGN POLICY COURSE OF THE ARMENIAN GOVERNMENT AND DIASPORA-ARMENIAN RELATIONS AFTER THE SECOND KARABAKH WAR

### Abstract

The Second Karabakh War not only resulted in the re-joining of Karabakh to Azerbaijan, but also changed Armenia's foreign policy to an important extent. On the other hand, it revealed the true potential of its popular diaspora. After the war, the diaspora and Armenia are experiencing serious problems in determining the direction of foreign policy. The conflicts that have arisen in relations with Russia have significantly disrupted relations with the diaspora here. Instead, reformist members of the diaspora in France and the United States are strengthening their influence on the Armenian authorities. On the other hand, Armenia's claims of normalization of relations with its neighbors worsened the attitude of radical and traditional diaspora organizations towards the government. Thus, although the Pashinyan administration's relations with individual modernist diaspora groups have increased, the relations with traditional and fundamental diaspora bodies have reached the level of hostility. In particular, the 2022 rallies revealed the broad cooperation of the radical diaspora with the opposition, led by the Dashnaks. But in any case, this fear

prompted Armenia's indecisive participation in the peace process. The direction of Armenia in the future will be influenced by the internal balance of diaspora forces.

**Keywords:** diaspora, foreign policy, Armenian government, Karabakh war, contradiction, priority

**Аваз Рахимов**

## ВНЕШНЕПОЛИТИЧЕСКИЙ КУРС ПРАВИТЕЛЬСТВА АРМЕНИИ И ДИАСПОРО-АРМЯНСКИХ ОТНОШЕНИЙ ПОСЛЕ ВТОРОЙ КАРАБАХСКОЙ ВОЙНЫ

### Резюме

Вторая Карабахская война привела не только к воссоединению Карабаха с Азербайджаном, но и в значительной степени изменила внешнюю политику Армении. С другой стороны, это раскрыло истинный потенциал народной армянской диаспоры. После войны диаспора и Армения испытывают серьезные проблемы в определении направления внешней политики. Возникшие конфликты в отношениях с Россией существенно нарушили здесь отношения с диаспорой. Вместо этого новаторские представители диаспоры во Франции и США усиливают свое влияние на власти Армении. С другой стороны, заявления Армении о нормализации отношений с соседями ухудшили отношение радикальных и традиционных диаспорских организаций к правительству. Таким образом, хотя отношения администрации Пашиняна с отдельными модернистскими диаспорскими группами усилились, отношения с традиционными и устоявшимися диаспоральными структурами достигли уровня враждебности. В частности, митинги 2022 года против власти выявили широкое сотрудничество радикальной диаспоры во главе с дашнаками с оппозицией. Однако боязнь потерять власть в любом случае поощряла нерешительный подход правительства Армении к мирному процессу. На направление Армении в будущем будет влиять баланс внутренних сил в диаспоре.

**Ключевые слова:** диаспора, внешняя политика, правительство Армении, карабахская война, конфликт, приоритет

# SOSİAL-İQTİSADİ TƏDQİQATLAR

# SOCIO-ECONOMIC STUDIES

# “BİR KƏMƏR, BİR YOL” TƏŞƏBBÜSÜNÜN MÜASİR VƏZİYYƏTİ VƏ GÖZLƏNİLƏN TƏSİRLƏRİ

**Şamil ƏZİZOV**
*Azərbaycan Dövlət İqtisad Universitetinin elmlər doktoru üzrə doktorantı, iqtisad üzrə fəlsəfə doktoru*
*Bakı, Azərbaycan*

*E-mail: azizov_shamil@yahoo.com*
*JEL code: F43, O18, R42*
*UOT 33*

**Xülasə.** *Tədqiqatın məqsədi* “Bir kəmər, bir yol” təşəbbüsünün (KYT) müasir vəziyyətinin, onun çərçivəsində həyata keçirilən layihələrin araşdırılması və bu təşəbbüsün gerçəkləşdirilməsi nəticəsində əmələ gələ biləcək təsirlərin qiymətləndirilməsidir.

*Tədqiqat metodikası* olaraq analiz və sintez, induksiya və elmi ümumiləşdirmədən istifadə olunmuşdur.

*Tədqiqatın başlıca nəticələri* a) KYT çərçivəsində indiyədək reallaşdırılmış infrastruktur layihələrinin maliyyələşdirilməsi mənbələrinin identifikasiyası; b) onların effektivliyini şərtləndirən amillərin müəyyənləşdirilməsi; c) bu prosesdə səlahiyyətli dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının rolunun aydınlaşdırılmasından ibarətdir.

*Tədqiqatın məhdudiyyətləri* KYT üzrə sistemləşdirilmiş kəmiyyət verilənlərinin olmamasıdır.

*Tədqiqatın orijinallığı* KYT sahəsində çoxsaylı tədqiqatların monitorinqi əsasında bu istiqamətdə həyata keçirilən infrastruktur investisiya layihələrinin xüsusiyyətlərinin müəyyənləşdirilməsi və ümumiləşdirilməsindən ibarətdir.

*Tədqiqatın elmi yeniliyi* KYT sahəsində indiyədək mövcud olan tədqiqatların qısa şəkildə icmalından ibarətdir. Məqalədə Azərbaycanın bu təşəbbüsdə nəzərdə tutulan investisiyalarda rasionallığa nail olunmasına xüsusi önəm verilir.

*Tədqiqatın praktiki əhəmiyyəti* regionumuzda son iki ildə baş verən geosiyasi proseslər nəticəsində əhəmiyyəti dəfələrlə artmış KYT-nin Azərbaycandan keçən Orta Dəhlizinin və xüsusən də Azərbaycanın rolunun elmi əsaslarla qiymətləndirilməsindən ibarətdir.

**Açar sözlər:** “Bir kəmər, bir yol” təşəbbüsü, infrastruktur investisiyaları, xarici ticarət, sərhəd keçidləri, daşınma sürətləri

## Giriş

Tədqiqatçıların rəyinə görə, tarixi əhəmiyyəti baxımından Böyük İpək Yolu Roma imperiyası ilə bir səviyyədə olmaqla minilliklər boyu davam etmək, müasir iqtisadiyyata və cəmiyyətlərə güclü təsir göstərmək iqtidarındadır [10, s. 31].

"Bir kəmər və bir yol" təşəbbüsü iki əsas komponent üzərində qurulmuşdur [3, s. 2] (şəkil 1).

1) Qədim quru İpək Yolu İqtisadi Kəməri (Silk Road Economic Belt - SREB).

2) XXI əsrin Dəniz İpək Yolu (Maritime Silk Road - MSR).

Beləliklə, "Bir kəmər və bir yol" kəlməsindəki “kəmər” sözünün mahiyyəti onunla izah olunur ki, "kəmər" dedikdə Çini Mərkəzi və Cənubi Asiya və onun ardınca Avropa ilə birləşdirən qədim quru İpək Yolu, "yol" dedikdə isə Çini Cənub-Şərqi Asiya ölkələri, daha sonra Körfəz ölkələri, onun ardınca Şərqi və Şimali Afrika ölkələri və nəhayət, Avropa ilə birləşdirən XXI əsrin Dəniz İpək Yolu nəzərdə tutulur.

### 1. "Bir kəmər və bir yol" təşəbbüsü çərçivəsində dəhlizlər

Ümumilikdə "Bir kəmər, bir yol" təşəbbüsü altı nəqliyyat dəhlizindən ibarətdir (cədvəl 1).




**Şəkil 1.** "Bir kəmər və bir yol" təşəbbüsünün əhatə etdiyi “kəmər” və “yol”

**Cədvəl 1.** KYT dəhlizləri

| Dəhlizin adı | Dəhlizin əhatə elədiyi ölkələr |
|---|---|
| **Yeni Avrasiya quru körpüsü iqtisadi dəhlizi** | Çin, Belarus, Qazaxıstan, Qırğızıstan, Polşa, Çexiya, Rumıniya, Ukrayna, Slovakiya Respublikası, Moldova |
| **Çin-Mərkəzi Asiya-Qərbi Asiya iqtisadi dəhlizi** | Çin, Rusiya Federasiyası, Əfqanıstan, Azərbaycan, Gürcüstan, İran İslam Respublikası, Qırğızıstan, Tacikistan, Türkiyə, Türkmənistan, Özbəkistan |
| **Çin-Monqolustan-Rusiya iqtisadi dəhlizi** | Çin, Rusiya Federasiyası, Monqolustan |
| **Çin-Pakistan iqtisadi dəhlizi** | Çin, Pakistan |
| **Banqladeş-Çin-Hindistan-Myanma iqtisadi dəhlizi** | Çin, Banqladeş Hindistan, Myanma |
| **Çin-Hindistan-Çin yarımadası iqtisadi dəhlizi** | Çin, Kamboca, Laos XDR, Malayziya, Myanma, Sinqapur, Tailand, Vyetnam |

***Mənbə: [2, s. 20]***

Cədvəlin tərtib olunduğu məqalədə qeyd olunduğu kimi, siyahıya bütün KYT ölkələri deyil, "coğrafi cəhətdən strateji əhəmiyyətə malik olan ölkələr daxil edilmişdir" [2, s. 19]. Göründüyü kimi, Cənubi Qafqaz ölkələrindən yalnız Azərbaycan bu kateqoriyaya aid edilmişdir. KYT-də iştirak edən ölkələrin rəsmi siyahısı isə hələ də mövcud deyil [3, s. 2].

Bu dəhlizlərdən ilk dördü yuxarıda göstərilən qədim quru İpək Yolu İqtisadi Kəmərini, qalan ikisi isə XXI əsrin Dəniz İpək Yolunu təşkil edir. Bu dəhlizlərin hər biri qısa şəkildə aşağıdakı kimi səciyyələnir [8, s. 19-23].

**1. Yeni Avrasiya quru körpüsü iqtisadi dəhlizi (quru yolu).** Çini Mərkəzi Asiya və Şərqi Avropa üzərindən Niderland ilə birləşdirən və artıq fəaliyyət göstərən böyük bir logistik dəhlizdir. Belə ki, 2017-ci ilin aprelində yeni dəmir yolu marşrutu ilə Çinin şərqindən İngiltərənin Barkinq şəhərinə yola düşən ilk yük qatarı Qazaxıstan, Rusiya, Belarus, Polşa, Almaniya, Belçika və Fransanın bir çox şəhərindən keçərək, 12 000 km məsafəni 18 gün ərzində qət etməklə, əvvəlki daşıma müddətini iki dəfə azaltmışdır. Bu yol da daxil olmaqla yeddi ölkəyə və yol boyunca bir çox şəhərə çıxışı təmin etdi. Beləliklə, bu yol 8 ölkədən keçməklə 16 Avropa şəhərini birləşdirən 12 marşruta qoşulur. Bu dəhlizin Çin üçün böyük əhəmiyyətini təsəvvür etmək üçün onun Qazaxıstan-Türkmənistan -İran-Türkiyə yüksək sürətli dəmir yolu layihələrinə 150 milyard ABŞ dolları sərmayə qoyma planını qeyd etmək kifayətdir. Çin həmçinin Moskva ilə Kazanı birləşdirən yüksək sürətli dəmir yolunu maliyyələşdirməyi planlaşdırır ki, bu da iki şəhər arasındakı səyahət müddətini indiki 14 saatdan cəmi 3,5 saata qədər azaldacaq və eyni zamanda 25 milyondan çox sərnişinə xidmət göstərəcəkdir [8, s. 19-20].

**2. Çin-Mərkəzi Asiya-Qərbi Asiya iqtisadi dəhlizi (quru yolu).** Bu dəhliz Çinin qərbində yerləşən Sincan vilayətindən başlamaqla Qazaxıstan, Qırğızıstan, Tacikistan, Özbəkistan, Türkmənistan, İran, İraq və Türkiyəni dəmir yolu şəbəkəsi vasitəsilə birləşdirir. Çinin Mərkəzi Asiya ölkələri ilə KYT-yə qədər də sıx əməkdaşlıq əlaqələri mövcud idi. Çin enerji sahəsində Qazaxıstanda neft hasilatına, Özbəkistanda qaz və uran hasilatına, Türkmənistandan qaz ixracına 15 milyard ABŞ dolları həcmində sərmayə qoymuşdur. Həmçinin Sincandakı logistika mərkəzindən və Qazaxıstanın Almatı şəhərinə uzanan yeni marşrut üzrə avtomobil hissələri, geyim və ev əşyalarının daşınması üçün yük dəmir yolu tikintisini qismən maliyyələşdirmişdir. Bundan əlavə, Sincanın paytaxtı Urumçi ilə Qərbi Çini və Almatını birləşdirən 1500 km-dən çox yollar üzərində yeni avtomobil və dəmir yolu körpüləri tikilmişdir [8, s. 20].

**3. Çin-Monqolustan-Rusiya iqtisadi dəhlizi (quru yolu).** Bu yolun əsas elementi 2016-2019-cu illər ərzində tikilərək istifadəyə verilmiş və Rusiyanın Blaqoveşensk şəhəri ilə Çinin Tonq-Jianq şəhərini birləşdirən, uzunluğu 2197 m olan dəmir yolu körpüsüdür [12]. Köhnə yolla müqayisədə 700 km qısa olan bu yol vasitəsilə ildə 21 milyon tona yaxın yük daşınır [8, s. 21].

**4. Çin-Pakistan iqtisadi dəhlizi (əsasən okean marşrutu boyunca Quadar limanında bitən quru yolu)**. Bu dəhliz Çinin şimal vilayəti olan Sincanın Kaşqar şəhərindən Pakistanın cənubundakı Quadar limanına qədər uzanır. Öz növbəsində Quadar beşinci dəhliz üzərində yerləşir. Bu marşrutla əlaqədar Çin hökuməti elektrik stansiyaları və kömür-mədən müəssisələri, hidroelektrik stansiyaları, neft və qaz boru kəmərləri tikintisi, həmçinin bərpa olunan enerji mənbələrinin öyrənilməsi kimi enerji infrastrukturuna 46 milyard ABŞ dolları dəyərində sərmayə qoymağı öhdəsinə götürmüşdür. Bundan başqa, avtomobil və dəmir yolları, körpülər, həmçinin Quadar limanının tikintisinə və optik şəbəkələrin çəkilməsi layihələrinə də sərmayə qoymağı planlaşdırır. Çin və Pakistan hökumətləri 2030-cu ilə qədər həyata keçi-

rilәcәk uzunmüddәtli planlar hazırlayıblar [8, s. 21].

**5. Banqladeş-Çin-Hindistan-Myanma iqtisadi dәhlizi (quru-okean hibrid marşrutu).** Dörd quru dәhlizi iki dәniz dәhlizi ilә tamamlanır. Dәhlizinin әsas arteriyası quru yoludur. Banqladeş-Çin-Hindistan–Myanma dәhlizi Çinin cәnubundakı Kunmingdәn başlayır, Myanma vә Banqladeşdәn keçәrәk, Hindistanın Kәlküttә şәhәrinә qәdәr 2800 km uzanır. Ümumi dәyәri 22 milyard ABŞ dolları olmaqla vә avtomobil, dәmir yolu, su vә hava әlaqәlәrini birlәşdirmәklә multimodal xarakterlidir. Dәhliz, demәk olar ki, hazır vәziyyәtdәdir. Onun vasitәsilә ticarәtin әhәmiyyәtli dәrәcәdә artması gözlәnilir. Bu dәhliz çәrçivәsindә Kaladandan başlayan başqa bir multimodal tranzit layihә marşrutu hәm quru, hәm dә dәniz marşrutlarını ehtiva etmәklә hibrid xarakterlidir. Onun әsas tәyinatı ticarәt mallarının Kәlküttәdәn dәniz vasitәsilә Myanmadakı Sittve limanına, oradan daxili Myanma çayı vasitәsilә Kaladana vә әks istiqamәtdә Hindistanın şimali-şәrqindәki Mizorzma çatdırmaqdır. Uzunluğu 1328 km olan quru yolla müqayisәdә bu yolun uzunluğu 539 km-dir [8, s. 22].

**6. Çin-Hindistan-Çin yarımadası iqtisadi dәhlizi (okean marşrutu).** Bu dәhliz Çinin Cәnub-Şәrqi Asiyadakı layihәlәrini ehtiva etmәklә Banqkokdan Sinqapura gedәn sürәtli dәmir yolu, on ölkәlәrarası magistral yolu, Cәnub-Şәrqi Asiyanın beş әsas ölkәsindәn keçәn nәhәng Mekong subregion transmilli infrastruktur şәbәkәsindәn ibarәtdir. Bu, eyni zamanda dәyәri 23 milyard ABŞ dolları olmaqla Çini Cәnub-Şәrqi Asiya ölkәlәri ilә birlәşdirmәyi planlaşdıran Kunminq-Sinqapur dәmir yolunu da әhatә edir. Çinlә Laos arasında bu ölkәlәrin sәrhәdindәn Tailanda qәdәr uzunluğu 417 km, dәyәri 6,8 milyard dollar olan dәmir yolları xәttinin çәkilmәsi haqqında müqavilә imzalanmışdır. Oxşar müqavilә vә/vә ya memorandumlar Malayziya, Sinqapur vә Tailandla bağlanmışdır.

## 2. "Bir kәmәr, bir yol" tәşәbbüsü üzrә hәyata keçirilәn investisiyalar

Nәqliyyat infrastrukturunun tәkmillәşdirilmәsi layihәlәrindә meydana çıxan mühüm problemlәrdәn biri xәrclәrin qiymәtlәndirilmәsi ilә bağlıdır. Sözsüz ki, investorlar hәr bir konkret layihә üçün xüsusi tәdqiqatlar әsasında dәqiqlәşdirmәlәr aparmalı olurlar. Aydındır ki, çoxsaylı layihәlәri әhatә edәn elmi araşdırmalarda bütün layihәlәr üçün ortalama göstәricilәrdәn istifadә olunduğundan belә yanaşma mümkün deyil. Ona görә dә belә tәdqiqatlarda müәyyәn dәrәcәdә әsaslandırılmış normativlәrdәn istifadә olunur. Mәsәlәn, aparılan bir tәdqiqatda [4] hәyata keçirilәn kәmiyyәt qiymәtlәndirilmәsindә investorlar tәrәfindәn Karaçi-Lahor-Pişәvәr dәmir

**Cәdvәl 2.** İnfrastruktur tikinti xәrclәrinin hesablanmasında fәrziyyәlәr

| Layihәnin tipi | 1 km-ә xәrc, mln. ABŞ dolları |
|---|---|
| Yeni dәmir yolu | 12,14 |
| Mövcud dәmir yolunun tәkmillәşdirilmәsi | 4,37 |
| Tunel | 11 |
| Kanal | 30 |
| Körpü | 10 |
| Yeni liman | fәrdi әsasda |
| Tәkmillәşdirilmiş liman | fәrdi әsasda |

*Mәnbә: [4, s. 17]*

**Cədvəl 3.** Ölkələr üzrə təxmin edilən ümumi xərclər (milyon ABŞ dolları ilə)

| Ölkə | Ölkə üzrə ümumi xərc, mln. ABŞ dolları | Xüsusi çəkisi, % |
|---|---|---|
| **Çin** | 63707 | 17,3 |
| **Pakistan** | 49302 | 13,4 |
| **Monqolustan** | 35516 | 9,6 |
| **Myanma** | 26398 | 7,2 |
| **Keniya** | 23598 | 6,4 |
| **Qazaxıstan** | 21306 | 5,8 |
| **Rusiya Federasiyası** | 18066 | 4,9 |
| **Türkmənistan** | 15155 | 4,1 |
| **Əfqanıstan** | 12252 | 3,3 |
| **Malayziya** | 12998 | 3,5 |
| **Tailand** | 11798 | 3,2 |
| **İran İslam Respublikası** | 10621 | 2,9 |
| **Efiopiya** | 9131 | 2,5 |
| **Vyetnam** | 8587 | 2,3 |
| **Banqladeş** | 6880 | 1,9 |
| **Laos** | 6529 | 1,8 |
| **Özbəkistan** | 5781 | 1,6 |
| **Qırğızıstan** | 5391 | 1,5 |
| **Gürcüstan** | 5146 | 1,4 |
| **Sudan** | 4311 | 1,2 |
| **Tacikistan** | 3480 | 0,9 |
| **Hindistan** | 3400 | 0,9 |
| **Azərbaycan** | 2262 | 0,6 |
| **Kamboca** | 2040 | 0,6 |
| **Türkiyə** | 1947 | 0,5 |
| **Tanzaniya** | 1100 | 0,3 |
| **İndoneziya** | 583 | 0,2 |
| **Cibuti** | 580 | 0,2 |
| **Sinqapur** | 304 | 0,1 |
| **Cəmi** | **368169** | **100** |

***Mənbə: [4, s. 18]-in məlumatları əsasında hesablanmışdır***

yolunun yenidən qurulması və müasirləşdirilməsi üçün hesablanmış xərclər əsas olaraq götürülmüşdür (cədvəl 1).

Həmin tədqiqatda məhz bu fərziyyələrə əsaslanaraq, 29 KYT ölkəsində bu təşəbbüs üzrə nəzərdə tutulan infrastruktur xərcləri hesablanmışdır (cədvəl 2) Göründüyü kimi, bu xərclərin ən böyük hissəsi (17,3%) Çinin payına düşməklə, Pakistanla birlikdə onların xərcləri məcmu xərclərin təqribən üçdə birini (31%) təşkil edir. Onu da qeyd edək ki, burada Çinin yalnız öz ərazisindəki xərclər nəzərdə tutulur və sözsüz ki, Çinin başqa ölkələrdə reallaşdıracağı infrastruktur xərcləri də nəzərə alınsa, rəqəm daha da böyükdür. Monqolustan üçün xərclərin çox olması (9,6%) ərazinin böyük olması ilə izah olunur. Postsovet ölkələrində xərclərin nisbi azlığı (məsələn, dünyada ən böyük əraziyə malik olan Rusiyada cəmi 4,9%) quruda ən çox xərc aparan dəmir yol xətləri şəbəkəsinin bu ölkələrdə əvvəldən geniş olmasıdır.

### 3. KYT-nin sərhəd keçidləri, ticarət prosedurları və sürətlərinə təsiri

Bəzi tədqiqatlar nəqliyyat xərclərinin regionlara görə müxtəlifliyini və bu

**Cədvəl 4.** Regionlar üzə sürətlər

| Region | Sürət, km/saat |
|---|---|
| KYT | 85 |
| Qeyri-KYT | 77 |
| Şimali Amerika | 104 |
| Yaxın Şərq və Şimali Afrika | 89 |
| Avropa və Mərkəzi Asiya | 88 |
| Latın Amerikası və Karib dənizi | 70 |
| Sahara altı Afrika | 70 |
| Şərqi Asiya və Sakit okean | 58 |
| Cənubi Asiya | 42 |

*Mənbə: [2, s. 17]*

fərqlərin kifayət qədər yüksək olduğunu göstərir. Digər tərəfdən məlum olduğu kimi, nəqliyyat xərclərini formalaşdıran mühüm amillərdən biri də bölgədəki orta sürətdir ki, bu da yolların keyfiyyəti və tıxaclardan asılıdır. Digər bir tədqiqatda [2] Google xəritəsindən və uyğun məlumatlardan istifadə edilməklə, bölgələr üzrə sürətlər qiymətləndirilmişdir (cədvəl 3). Cədvəldən göründüyü kim, KYT üzrə nəqliyyat xərcləri qeyri-KYT bölgələri ilə müqayisədə yüksək olsa da, hətta Yaxın Şərq və Şimali Afrika, həmçinin Mərkəzi Asiya kimi bölgələrdən də geri qalır. Orta hesabla saatda 41 km olan ən aşağı sürət isə Cənubi Asiyadadır.

Dünya Bankının hesabatında qeyd edildiyi kimi, təchizat zəncirlərindəki zəif halqalar istənilən logistika təşəbbüslərinin effektivliyini əhəmiyyətli dərəcədə aşağı salır. Bu səbəbdən 2013-cü ildə Ümumdünya Ticarət Təşkilatının üzvləri Balidə Ticarətin Sadələşdirilməsi üzrə Razılaşma (Trade Facilitation Agreement (TFA) imzalamış, 2017-ci ildə isə bu razılaşma ratifikasiya olunmuşdur [11]. Bu sənəddə aşağıdakı istiqamətlər üzrə islahatlar xüsusilə vurğulanmışdır [5, s. 10]:

- əmtəələrin hərəkətinin sürətləndirilməsi;
- əmtəələrin gömrük təmizlənməsinin sürətləndirilməsi;
- ticarət prosedurlarının sadələşdirilməsi məsələsi üzrə gömrük təşkilatı da daxil olmaqla səlahiyyətli orqanların effektiv əməkdaşlığı;
- texniki dəstəyin təşkili.

Ticarətin Sadələşdirilməsi üzrə Razılaşma aşağıdakı prinsiplərə əsaslanır [5, s. 16].

1) *Sadələşdirilmə* – bürokratiyada və prosedurlarda təkrarlanmaların və bütün lazımsız elementlərin aradan qaldırılması;

2) *Harmonizasiya* – milli sənədlərin rəsmiyyətlərin, əməliyyatların və prosedurların beynəlxalq standartlara, kon-

vensiyalara və pozitiv təcrübələrə uyğunlaşdırılması;

3) *Standartlaşdırılma* – prosedur və əməliyyatlarda, həmçinin sənədləşmə və informasiya təminatında beynəlxalq səviyyədə razılaşdırılmış formatlardan istifadə;

4) *Modernləşmə* – prosedurların icrasında beynəlxalq səviyyədə razılaşdırılmış müasir proses və sistemlərin tətbiqi;

5) *Şəffaflıq* – ticarətdə tətbiq edilən prosedurların şəffaflığı.

Bununla əlaqədar onu da qeyd etməliyik ki, ticarətin sadələşdirilməsi qətiyyən milli təhlükəsizlik tədbirlərinin yumşaldılması hesabına baş verə bilməz. Bu, Dünya Bankının 8 bənddən ibarət "Sərhəd nəzarətinin modernləşdirilməsi və tətbiqi üçün istinad bələdçisi" adlı ümumi təlimatında da öz əksini tapmışdır. Kifayət qədər geniş olan bu sənədin qısa təqdimatı faydalıdır [9, s. 3-4].

1. *Qida təhlükəsizliyi* – həm idxal, həm də ixracda təmin olunmalıdır.

2. *Bioqoruma* – heyvan karantini. Heyvanlar vasitəsilə xəstəliklərin miqrasiyasının qarşısının alınması.

3. *İmmiqrasiya* – Avropa Birliyindəki kimi xüsusi rejim halları istisna olmaqla, ölkəyə daxil olan və ya ölkəni tərk edən insanların ciddi yoxlanılması və viza rejimindən istifadə məsələləri aiddir.

4. *Əqli mülkiyyət* – əqli mülkiyyətin qorunması, saxta və pirat malların beynəlxalq ticarətinin qarşısının alınmasını nəzərdə tutur.

5. *Gəlir yığımı* – idxal-ixrac rüsumlarının yığılmasında ciddilik, o cümlədən fiziki müayinə, həbs, audit və istintaq kimi ölçülər nəzərdə tutulur.

6. *Nəqliyyat təhlükəsizliyi* – terror hücumları riskinin minimuma endirilməsi, o cümlədən yükləri qəbul edən işçilərin etibarlılığının yoxlanılmasında geniş səlahiyyətləri nəzərdə tutur.

7. *Təhlükəsizlik standartları* – idxal və ixrac olunan məhsulların həm fiziki xüsusiyyətlərinin, məsələn, dizayn təhlükəsizliyinin, həm də istehlakçı üçün digər riskli ola bilən aspektlərinin yoxlanılması nəzərdə tutulur.

Bu istiqamətdə genişmiqyaslı investisiyalara rəğmən, sərhəd prosedurları hələ də təchizat zəncirində ən böyük problem olaraq qalır. Çinin Monqolustan kimi iqtisadi cəhətdən zəif ölkələrdə KYT çərçivəsində infrastruktur investisiyalarının mühüm amillərindən biri də bu zəif halqaların gücləndirilməsidir.

Ölkələrarası nəqliyyat dəhlizlərinin istismarı çoxsaylı maraqlı tərəflərin iştirakı səbəbindən mürəkkəbləşir. Bu səbəbdən dəhlizin idarə edilməsi spesifik ola bilər [1, s.218]. Xüsusən multimodal xarakterli dəhlizlərdə müxtəlif dövlət strukturlarının koordinasiyası zərurəti meydana gəlir ki, bu da iyerarxik qurumların yaradılması ilə nəticələnir. Məsələn, belə qurumlar Malayziya və Hindistanda yaradılmışdır.

KYT çərçivəsində mühüm tədbirlərdən biri də sərhəd nəzarəti və gömrük prosedurlarının sadələşdirilməsidir. Hələ ki, KYT rəsmi şəkildə təşkilatlanmayıb. Bu tədbirlər əsasən ikitərəfli əsasda, bəzən bir neçə ölkə arasında razılaşmalar əsasında, hətta birtərəfli qadada həyata keçirilir. Bu məqsədlə KYT-yə daxil olan ölkələr arasında 40-dan çox müqavilə imzalanmışdır. O da qeyd olunur ki, bu müqavilələrin heç də hamısı işləmir [7, s. 11].

Fəaliyyət göstərən sistemlərə nümunə olaraq Hindistan sərhədlərində inteqrasiya edilmiş nəzarət məntəqələrini (integrated checkpoints - ICP), burada yaradılmış "bir pəncərə" sistemini və Cənub-Şərqi Asiya ölkələri üçün xüsusi yaradılmış əlverişli şəraiti misal gətirmək olar. Afrikanın cənubunda yerləşən Maputo dəhlizindəki sərhəd postlarında da keçid-qeydiyyat prosesləri əhəmiyyətli dərəcədə sadələşdirilmişdir [7, s. 10].

Sərhəd prosedurlarının sadələşdirilməməsi və sərhəddən keçid vaxtının qısaldılmaması halında nəqliyyat investisiyalarının effektivliyi baxımından rahatlılıq və nəqliyyat xərclərinin azalması digər amillər arasında ön plana çıxır, belə ki, nəqliyyat xərclərinin əhəmiyyətli dərəcədə azalması əməkhaqqlarının artım sürətinə böyük töhfə verir [6, s. 24].

Bundan başqa KYT-nin əhatə etdiyi regionlarda aşağıdakı müəyyən mənada unikal sərhəd idarəetmə sistemləri qeyd olunur [7, s. 11]:

• Layihə koordinasiyası çərçivəsində fəaliyyət göstərən Mərkəzi Asiya Regional İqtisadi dəhlizi strukturu;

• Dar Es Salaam dəhlizinin idarə olunması üçün yaradılan Dar Es Salaam Dəhlizi Komitəsi;

• Ölkələr arasındakı müqavilələrə əsaslanan və qanunvericiliklə təsbit olunan idarəetmə strukturu nümunəsi kimi Şimal Dəhlizi Tranzit və Nəqliyyat Koordinasiya İdarəsi.

## Nəticə

• KYT çərçivəsində böyük hissəsi Çin tərəfindən həyata keçirilən investisiyalar əsasən Çinlə qonşu olan ölkələri əhatə edir. Nəzərə alınsa ki, nəqliyyat infrastrukturu layihələrinin maliyyələşdirilməsinin əksər hissəsi dövlət büdcəsi hesabına gerçəkləşdirilir, onda Azərbaycan kimi ölkələrin bu xərcləri optimallaşdırmaq zərurəti meydana çıxır.

• KYT layihələrinin effektivliyinin artırılması əhəmiyyətli dərəcədə sərhəd keçidlərində və ticarət prosedurlarında aparılan islahatlardan asılıdır. Bu isə öz növbəsində qanunvericiliyin müasir standartlara uyğunlaşdırılmasını, qabaqcıl İKT-lərin tətbiq olunmasını tələb edir.

• Müxtəlif səlahiyyətli dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının fəaliyyətinin koordinasiyası zəruridir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:


1. *Arvis J.-F., Carruthers R., Smith G., Willoughby C.* Connecting Landlocked Developing Countries to Markets—Trade Corridors in the 21st Century - The World Bank: Washington, DC, USA, 2011. – 304 p. - ISBN 978-0-8213-8416-9

2. *Chen M.X., Lin C.* Foreign Investment across the Belt and Road: Patterns, Determinants and Effects. - WBG, WPS 8617, 2018. – 77 p.

3. *de Soyres F., Mulabdic A., Murray S., Rocha N., Ruta M.* How Much Will the Belt and Road Initiative Reduce Trade Costs? – WBG, WPS 8614, 2018. – 43 p.

4. *de Soyres F., Mulabdic A., Rut M.* Common Transport Infrastructure A Quantitative Model and Estimates from the Belt and Road Initiative – WBG, WPS 8801, 2019. – 43 p.

5. *Johns M.B. and et.* Trade Facilitation challenges and reform priorities for maximizing the impact of the Belt and Road Initiative. - 2018 The International Bank for Reconstruction and Development / The World Bank, 1818 H Street, NW Washington, DC 20433, WB Group, Discussion paper, MTI Global Practice, No.4, September, 2018. - 97 p.

6. *Lall S. V., Lebrand.* Who Wins, Who Loses? Understanding the Spatially Differentiated Effects of the Belt and Road Initiative. – WB, Social, Urban, Rural and Resilience Global Practice, Policy Research Working Paper 8806, 2019. – 55 p.

7. *Quium A.* Transport Corridors for Wider Socio–Economic Development //

Sustainability 2019, 11, 5248; doi:10.3390/su11195248

8. Repaving the ancient Silk. Executive Summary. - PwC Growth Markets Centre – Realising opportunities along the Belt and Road, 2017. – 12 p.

9. Risk-Based Compliance Management Making it Work in Border Management Agencies. - Border Management Modernization Reference and Implementation Guide. – WB, Inernational Trade Department, 2012. – 42 p.

10. *Zofia A.* The Road to Riches: Quantifying the Persistent Effects of the Silk Roads Network. - A Thesis Presented to The Faculty of the Department of Economics Bates College. Lewiston, Maine, March 20, 2019. – 52 p.

11. https://www.wto.org/english/tratop_e/tradfa_e/tradfa_e.htm (14.02.2023) / Trade facilitation

12. https://www.interfax.ru/russia/845677 (10.06.2022) / Мост через Амур в Китай заработал после двух лет ковидного простоя

**Shamil Azizov**

## CURRENT STATUS AND EXPECTED EFFECTS OF THE "ONE BELT, ONE ROAD" INITIATIVE

### Abstract

**The purpose of the study** is to study the current state of the "One Belt, One Road" initiative (OBOR), projects implemented within its framework, and to assess the effects that may arise as a result of the implementation of this initiative.

Analysis and synthesis, induction and scientific generalization were used as **research methods.**

**The main results of the study** are: a) identification of sources of financing for infrastructure projects implemented so far within the framework of the OBOR; b) identification of factors that determine their effectiveness; c) clarification of the role of authorized state bodies and non-governmental organizations in this process.

**The limitations of the study** are the lack of systematic quantitative data on OBOR.

**The originality of the research** lies in the identification and generalization of the specifics of infrastructure investment projects implemented in this direction based on the monitoring of numerous studies in the field of OBOR.

**The scientific novelty** of the study consists in a brief overview of the research available so far in the field of OBOR. The article pays special attention to Azerbaijan's achievement of rationality in investments provided for by this initiative.

**The practical significance of the study** lies in the fact that this study is a necessary stage for the scientific assessment of the role of the OBOR Middle Corridor passing through Azerbaijan and, in particular, Azerbaijan, whose importance has increased many times as a result of the geopolitical processes that have taken place in our region over the past two years.

**Keywords:** One Belt, One Road initiative, infrastructure investments, foreign trade, border crossings, transportation speed

**Шамиль Азизов**

# СОВРЕМЕННОЕ СОСТОЯНИЕ И ОЖИДАЕМЫЕ ЭФФЕКТЫ ИНИЦИАТИВЫ "ОДИН ПОЯС, ОДИН ПУТЬ"

## Резюме

**Целью исследования** является изучение современного состояния инициативы "Один пояс, один путь" (ОПОП), проектов, реализуемых в ее рамках, и оценка эффектов, которые могут возникнуть в результате реализации этой инициативы.

В качестве **методики исследования** использовались анализ и синтез, индукция и научное обобщение.

**Основные результаты исследования** заключаются в а) идентификации источников финансирования инфраструктурных проектов, реализуемых до сих пор в рамках ОПОП; б) выявлении факторов, обуславливающих их эффективность; в) выяснении роли уполномоченных государственных органов и неправительственных организаций в данном процессе.

**Ограничения исследования** заключаются в отсутствии систематизированных количественных данных по ОПОП.

**Оригинальность исследования** заключается в выявлении и обобщении специфики реализуемых в данном направлении инфраструктурных инвестиционных проектов на основе мониторинга многочисленных исследований в области ОПОП.

**Научная новизна исследования** заключается в кратком обзоре имеющихся до сих пор исследований в области ОПОП. В статье особое внимание уделяется достижению Азербайджаном рациональности в инвестициях, предусмотренных этой инициативой.

**Практическая значимость исследования** заключается в том, что данное исследование является необходимым этапом для научной оценки роли проходящего через Азербайджан Среднего коридора ОПОП и, в частности, Азербайджана, значение которого многократно возросло в результате геополитических процессов, происходивших в нашем регионе за последние два года.

**Ключевые слова:** инициатива "Один пояс, одна дорога", инвестиции в инфраструктуру, внешняя торговля, пограничные переходы, скорость перевозок

# ALÜMİNİUM SƏNAYESİNİN FORMALAŞMASI: DÜNYA VƏ AZƏRBAYCAN TİMSALINDA

**Ramil HƏSƏNOV**
*Azərbaycan Texnologiya Universitetinin doktorantı*

*E-mail: r.hasanov@uteca.edu.az*
*ORCID: 0000-0003-4267-7039*
*UOT: 338.2, 338.3, 332.1.*

**Xülasə.** Alüminium istehsalının formalaşması dünyadakı böyük inqilabi yeniliklərdən idi. XIX əsr Avropa saraylarında qızıldan daha dəyərli əmtəə kimi xüsusi qonaqlara təqdim edilən alüminium bir anda hər kəsin əldə edə biləcəyi metala çevrildi. Səbəb isə onun kütləvi istehsalının kəşf edilməsi idi.

Alüminium sənayesinin qlobal əhəmiyyəti ilə yanaşı Azərbaycan üçün də xüsusi önəmi vardır. Dünyada hər ölkə təməldən alüminium istehsal edəcək sənaye potensialına malik olmur. Bunun üçün böyük miqdarda enerji təminatı və gərəkli resurslar lazımdır.

Alüminium sənayesi Azərbaycan iqtisadiyyatı üçün mühüm strateji əhəmiyyətə malikdir. Məqalədə dünya ilə yanaşı Azərbaycanda alüminium sənayesinin formalaşması və inkişafının mühüm mərhələləri qeyd edilmişdir. Tədqiqat işinin məqsədi qeyri-neft sektorunda əsas paya sahib bu sənaye sahəsinə elmi-informatik baxış həyata keçirməkdir. Alüminium sənayesi üzrə Azərbaycanda aparılan tədqiqatların hədəfi mövcud strateji sahəyə diqqət formalaşdırmaqla yanaşı sosial tədqiqatlar sferasına da töhfə verməkdir. Məqalədə alüminium sənayesinin dünya və Azərbaycan üzrə təşəkkül tarixi, texnoloji proses və modern iqtisadi layihələr olmaqla bir sıra önəmli məsələlər ətraflı araşdırılmışdır.

**Açar sözlər:** alüminium sənayesi, istehsal, iqtisadiyyat, iqtisadi tarix, Azərbaycan sənayesi, yaşıl enerji

## Giriş

Sivilizasiya tarixində bəşəriyyət bir çox önəmli mərhələlər keçmişdir. Əcdadlarımız olan ilk ağıllı insanların (homo sapienslərin) daş alətlərlə tanışlığı və onlardan geniş istifadəsi təkamülün ilkin mərhələlərini formalaşdırmışdır. Min illər keçdikcə insanlar təkmilləşmiş və daş alətləri metal ləvazimatlar əvəz etmişdir. Beləliklə, əmək alətlərindən geniş istifadəyə görə ibtidai icma quruluşu 3 böyük mərhələyə bölünmüşdür: Daş, Tunc və Dəmir dövrləri.

Sərt və möhkəm metal olan dəmirin kəşfi ilə insanların iqtisadi fəaliyyətləri genişlənmiş, təminat-təchizat sistemində yeniliklər artmışdır. Dəmirin əvəzedilməz metal kimi hegemonluğu müasir dövrümüzədək davam edir. Ona yeganə rəqabəti yeni dövrümüzün unikal metalı olan alüminium formalaşdırmışdır. Sənayedə istifadə olunmağa başlandığı gündən etibarən alüminium dəmirin əhatə çevrəsini daraltmaqdadır. Bunun da başlıca səbəbləri içərisində alüminiumun həm iqtisadi, həm də ekoloji cəhətdən sərfəli olmasındadır.

## 1. Dünyada alüminium istehsalının formalaşması

### 1.1. Alüminiumun kimyəvi xassələri

Alüminiumun kimyəvi xüsusiyyətlərinin öyrənilməsi onun sənayedə istifadə olunmasının ilkin dövrlərinə yol açmışdır. Alüminium Mendeleyevin dövri sistemində 13-cü element olan metaldır. Atom nömrəsi 13, beynəlxalq simvolu Al-dır. Alüminium atomunun nüvəsi 13 proton və 14 neytrondan ibarətdir. Nüvə ətrafında dövr edən elektronların sayı isə 13-dür. Atomik kütləsi 26.9815384 q/mol, sıxlığı 2,702 q/sm$^3$-dır. Alüminiumun ərimə temperaturu 660 °C, qaynama temperaturu isə 2,467 °C təşkil edir [11]. Alüminium gümüşü-ağ rəngdə, yüngül və yumşaq metaldır. Korroziyaya qarşı müqaviməti ilə tanınır. Həm alüminiumun spesifik rənginin, həm də müqavimət gücünün əsası səthində yaranmış oksid təbəqədir. Alüminium adi şəraitdə birləşmələrində üçvalentlidir, lakin yüksək temperaturda birvalentli halda da ola bilir. Alüminium oksigenlə çox tez birləşərək alüminium oksid əmələ gətirir. Oksidləşdikdə səthində nazik və möhkəm oksid pərdəsi yaranır və onu sonrakı oksidləşmədən qoruyur. Alüminium Yer kürəsində ən çox yayılmış metaldır və planetimizin nüvə kütləsinin 8%-dən çoxu alüminiumdan ibarətdir. Eyni zamanda, oksigen və silikondan sonra Yer kürəsində ən çox yayılmış 3-cü elementdir. Bütün bu cəhətlərə baxmayaraq kimyəvi xassələrinə uyğun olaraq alüminium asanlıqla digər elementlərlə birləşir. Məsələn, alüminium təbiətdə qaya parçalarının, daşların, torpağın, hətta canlıların belə tərkibinə kimyəvi olaraq birləşmişdir. Məhz bu səbəbdəndir ki, alüminiumla insanlıq yeni tarixdə tanış olub, onun sənaye istehsalına yaxın dövrlərdə başlanılıb.

### 1.2. Sənaye üsulu ilə alüminiumun alınması

Alüminium fransız dilində “alumine” sözündən formalaşıb və latınca “alum” sözündən gəlmədir. “Alum” qədim dövrlərdən istifadə olunmuş alüminium tərkibli mineraldır. Termin kimi ilk dəfə Heredot tərəfindən istifadə edilib. Latın dilində “alumen” adlı maddə hələ eramızdan əvvəl parça boyamaq üçün istifadə edilirdi. Metal kimi alüminium ilk dəfə XIX əsrdə əldə edilib. 1808-ci ildə ingilis fiziki və kimyaçısı Hemfri Devi elektroliz üsulu ilə bor, kalium, natrium, barium, kalsium və maqnezium kimi elementlərin alınmasını aşkar etdi. Devi həmin təcrübələrdə dün-

ya elmi və sənayesi üçün inqilabi yenilik olacaq yeni bir element üçün yol açdı. Təcrübələrdə müəyyən edildi ki, elektroliz üsulu ilə alüminium oksiddən (gil-torpaq) alüminium əldə etmək olar. 1821-ci ildə gələcəkdə alüminium üçün əsas xammal olacaq boksit kimyəvi maddəsi Fransada kəşf edildi [8]. Qırmızı rəngdə olan boksiti Pyer Bertye adlı fransız geoloq ixtira etdi. Boksit adı isə onun tapıldığı yer olan Fransanın cənubundakı Les Bauks adlı ərazidən götürülüb. Boksit filizi alüminium istehsalının və təchizat zəncirinin ilkin mərhələsində əsas mineral-xammaldır.

Rəsmi olaraq alüminium ilk dəfə 1824-cü ildə danimarkalı fizik və kimyaçı Hans Ersted tərəfindən əldə edilmişdə, onun kəşf etdiyi üsullarla alüminium çox çətin və az miqdarda əldə olunurdu. Hətta qızıldan daha baha başa gəlirdi.

Sənaye üsulu ilə alüminium ilk dəfə 1856-cı ildə fransız kimyaçı Anri Etyen Sent-Kler Devilin rəhbərlik etdiyi qrup tərəfindən əldə edilir. Devil aşkar edir ki, alüminium trixloridi natriumla azaltmaq olar. Devil 1858-ci ildə həyata keçirdiyi təcrübələri və əldə etdiyi elmi məlumatları toplayaraq ilk dəfə tarixdə "Alüminium" adında kitab yazır. 1855-1890-cı illər aralığında 200 ton alüminium metalı istehsal edilir. Bu üsul Völerin istifadə etdiyi kalium metodundan daha rahat və ucuz olsa da, alüminiumu istənilən keyfiyyətdə istehsal etmək mümkün deyildi. 1867-ci

**Şəkil 1.** Boksit filizi.



dir. O, hidratsız alüminium xloridini kalium amalqama ilə reaksiyaya verərək fərqli bir maddə aldığını elan etmişdi. 1827-ci ildə alman kimyaçısı Fridrix Völer Erstedin təcrübələrindən yola çıxaraq alüminiumun tozunu kəşf etdi.

İlk dəfə əldə olunan alüminium tozu 30 qram çəkidə idi. Bundan sonra 1845-ci ildə Völer artıq kiçik parça alüminium metalları əldə edə bildi. Bu səbəbdən tarixdə alüminium metalının ixtiraçısı kimi dah çox Fridrix Völer qəbul edilsə

ildə Parisdə ilk dəfə alüminium qatqılarından ibarət alüminium-bürünc birləşməli metal sərgisi təşkil edildi. 1884-cü ildə ABŞ-da cəmi 60 kq alüminium əldə edilmişdi və onun da bazar qiyməti təxminən gümüş dəyərində idi. Alüminiumun sənayedə geniş istehsalı ilk dəfə 1886-cı ildə fransız mühəndiz Pol Eru və amerikan mühəndis Çarlz Martin Hol tərəfindən həyata keçirildi. İnqilabi yenilik olan Hol-Eru texnoloji prosesi ilə alüminium oksid (alumina) metala çevrildi. Həmin dövrlər-

**Şəkil 2.** Elektroliz üsulu maye alüminium istehsalının həyata keçirildiyi ilk sex. Kensington, ABŞ.




**Mənbə:** Alcoa.

dən bu günədək alüminium istehsalında elektroliz üsulundan istifadə etməklə bu texnologiya tətbiq olunur. Bu üsul böyük həcmdə maye alüminium istehsal edilməsi ilə yanaşı, qiymətin də dəfələrlə aşağı düşməsinə səbəb oldu. 1888-ci ildə ABŞ-ın Kensinqton ərazisində elektroliz üsulu ilə ilk alüminium ərintisi emalı zavodu yaradıldı. İlk günlər istehsal gündəlik 22 kq təşkil edirdi. 2 il sonra gündəlik istehsal həcmi 240 kq-a çatdı [9].

Növbəti böyük inqilabi kəşf isə 1889-cu ildə avstriyalı kimyaçı Karl Yozef Bayer tərəfindən həyata keçirildi [12]. "Bayer prosesi" adlanan üsulla boksitdən alüminium oksid əldə edildi. Bu gün dünyadakı alüminium oksidin böyük əksəriyyəti məhz bu texnologiya ilə əldə edilir.

### 1.3. Yaşıl enerji layihələrinin hazırlanması ilə kütləvi alüminium istehsalına keçid

Elektroliz üsulu ilə alüminium istehsalının kəşfi ilə yüksək enerji tələbatının ödənilməsi üzrə axtarışlar başlandı. Ən rasional metod kimi yaşıl enerji vasitəsi olan su elektrik stansiyaları (SES) əsas götürüldü. XIX əsrin sonlarından etibarən ABŞ-da SES-lərin tikintisinə başlanıldı [14]. Bu istiqamət alüminium zavodlarının tikintisi üçün də diqqətdə saxlanıldı. Eyni proses Avropada da davam etdirildi.

Robert Viktor Neher ilk dəfə davamlı yayma prosesi ilə alüminium istehsalı texnologiyasını ixtira etdi [13]. Həmin texnologiya üzrə 1910-cu ildə dünyada ilk dəfə nazik rulonlara qədər yayma zavodu İsveçrədə tikildi. 1909-cu ildə alman metallurq Alfred Vilm ilk dəfə alüminium ərintilərini kəşf etdi. Yeni ixtiralarla müəyyən edildi ki, alüminiuma digər metallar əlavə edildikdə o, daha da güclənir. Beləliklə, ilk dəfə duralumin, alüminium-mis, alüminium-manqan, alüminium-maqnezium ərintiləri alındı. 1920-ci ildə Rusiyada ölkənin elektrikləşdirilməsi üzrə dövlət komissiyasının (QOELRO) proqramı çərçivəsində kütləvi alüminium istehsalı zavodlarının yaradılması üçün yeni SES layihələri önə sürüldü və bütün SSRİ-də yaşıl enerji mənbələrinin tikintisinə başlanıldı [10]. 1932-ci ildə SSRİ-də elekroliz üsullu ilk alüminium zavodu tikildi. Dünyada alü-

minium istehsalının həcmi və onun paralelində SES-lərin tikintisi çoxaldı.

1972-ci ildə Beynəlxalq Alüminium İnstitutu (International Aluminium Institute) yaradıldı. Dünya üzrə alüminium istehsalının, boksitdən gil-torpağa bütün növ alüminium istehsalçılarının vahid institutu formalaşdırıldı. Məqsəd qlobal alüminium sənayesi və onun inkişaf perspektivləri üçün birgə elmi və texnoloji tədqiqatları təşkil etmək idi. Eyni zamanda institutun son dövrlərdəki əsas fəaliyyəti və strategiyası qlobal tendensiyaya uyğun olaraq alüminium sənayesi üzrə yaşıl prinsiplərin həyata keçirilməsi, yaşıl enerji və təchizat sistemlərinin qurulması istiqamətindədir.

## 2. Azərbaycanda alüminium sənayesinin yaranması və inkişafı

### 2.1. Yerli eko-iqtisadi və texnoloji baza ehtiyatının formalaşdırılması

Alüminium istehsalının əsasını elektrik enerjisi təmin etdiyindən istənilən irihəcmli sənaye müəssisəsi üçün əvvəlcədən bu təminat qarşılanmalıdır. İlk analitik təhlillərdən sonra bütün dünya üzrə dərk edilmişdi ki, alternativ enerji resursları olmadan alüminium sənayesi komplekslərini inşa etmək həm çox baha, həm də ekoloji zərərli olacaqdır. Sırf yüksək enerji istehlakı baxımından alüminium sənayesinin təməlində yaşıl enerji dayanmalıdır. Yaşıl iqtisadiyyatın təməl meyarı kimi bu amil həm ekoloji, həm də iqtisadi olaraq mənfəətli hesab olunur. Bu baxımdan rahatlıqla söyləmək mümkündür ki, Azərbaycanda alüminium istehsalının bünövrəsi sırf yaşıl enerji təminatı üzərində qurulmuşdur.

Alüminium metalının strateji önəmi dərk edildikcə pillə-pillə onun istehsalı dünyada genişlənir və böyük dövlətlərin əsas iqtisadi inkişaf proqramlarına daxil edilir. Qlobal müstəvidə alüminiuma artan maraq Azərbaycandan da yan keçmir və bu sənayenin yaradılması üçün ilkin elmi-praktiki tədqiqatlar həyata keçirilir. Azərbaycanda ilk alüminium istehsalına SSRİ dövründə başlanılmışdır. Qlobal siyasi güc olmağı hədəfləyən SSRİ bunun möhkəm iqtisadiyyatsız olmayacağını anlamışdı. Avropa və ABŞ-da ilk addımlarını atmış alüminium sənayesi həmin coğrafiyalarda artıq yüksəlməkdə idi və qlobal rəqabətdə Sovet İttifaqı bu sahəni arxa plana ata bilməzdi. Bu prinsiplər əsas götürülməklə İttifaqın mümkün ərazilərində geoloji baxışlar və zəruri ön tədbirlər həyata keçirildi. Azərbaycan da bu prosesin tərkibində yer aldı.

ABŞ-da olduğu kimi SSRİ-də də ilk başlıca istiqamət su elektrik stansiyalarının tikintisi oldu. 1920-ci illərdə başlanan və bütün keçmiş SSRİ-ni əhatə edən layihələrin icrasında əsas məqsəd bir sıra spesifik sahələr üzrə İttifaqın ümumi elektrikləşdirilməsi idi. Bu minvalla mümkün enerji təminatı hesabına mövcud resurslara uyğun sənaye komplekslərinin tikilməsi hədəflənirdi. Mövcud gedişat daxilində Azərbaycan ərazisində Kür çayı üzərində su elektrik stansiyalarının yaradılması planlaşdırıldı. Bunlardan ən böyük və strateji alternativ enerji layihələrindən olan Mingəçevir Su Elektrik Stansiyasının (SES) tikintisinə başlanıldı. Sadəcə alüminium sənayesi üçün deyil, ümumən ölkənin enerji təminatında bu SES önəmli rol oynayacaqdı.

Alüminium istehsalı üçün gərəkli olan ən mühüm cəhətlərdən biri də mümkün qədər uyğun və sərfəli ilkin xammalı tapmaqdır. Dünyanın əksər ölkələrində tətbiq edilən texnoloji metodlardan fərqli olaraq Azərbaycan təcrübəsində daxili xammal resursu olaraq boksit yox alünit müəyyən edilmişdi. Geoloji tədqiqatlar nəticəsində Gəncə yaxınlığında yerləşən Daşkəsən rayonunda alunit yataq-

ları aşkarlandı və yerli resurs əsasında xüsusi texnologiyaya malik alüminium zavodunun layihəsi hazırlandı.

1930-1931-ci illər arasında Gəncə şəhərində illik 500 ton istehsal gücünə malik olan təcrübi alüminium oksid (gil-torpaq) zavodunun layihəsinin hazırlanması prosesi həyata keçirildi [1].

1931-ci ilin sonunda layihə Alüminium Birliyi tərəfindən təsdiq edildi və 1932-ci ildən Gəncə (keçmiş Kirovabad) şəhərində təcrübi alüminium oksid zavodu tikilib istismara verildi. Baza olaraq burada zəylik alünit yatağının işlənilməsi texnologiyası yarımsənaye miqyasında hazırlanmışdır.

## 2.2. Gəncə alüminium zavodu (Gil-torpaq kombinatı)

1955-ci ildə keçmiş SSRİ-nin 50 illiyi şərəfinə Gəncə alüminium zavodunun (ovaxtkı KirAZ – Kirovabad alüminium zavodu) tikintisinə başlanıldı. Ölkənin ən böyük zavodlarından biri olacaq bu müəssisənin tikintisi 11 ilə tamamlandı. Beləliklə,1966-cı ildə Gəncə alüminium zavodu (GAZ) istifadəyə verildi [3]. Gəncə şəhəri bölgənin əsas alüminium oksid (gil-torpaq) istehsal edən sənaye mərkəzinə çevrildi. Bununla da alüminium sənayesinin təməl qatında zəruri olan 2 əsas komponentin bünövrəsi atılmış oldu və son nəticə etibarilə isə Azərbaycanda ilk ən böyük alüminium zavodu tikildi. GAZ keçmiş SSRİ mərkəzi sənaye planlaması üzrə şəbəkə sisteminə qoşuldu. Yəni SSRİ-dəki mövcud planlama prinsipinə əsasən sənaye kompleksləri İttifaq boyu bir-birini xammal və zəruri istehsalla təmin etməli idi. Bu baxımdan GAZ-da istehsal edilən alüminium oksid xammalı Azərbaycandan xaricə və ölkə daxilində isə Sumqayıt alüminium zavoduna göndərildi. Gəncədən Sumqayıta göndərilən alüminium oksiddən elektroliz üsulu ilə maye alüminium alındı. Yəni klassik GAZ alüminiumun özünü deyil, onun əsas xammalını sıfırdan emal edən kimyəvi zavod idi. Yaradılan təməl sənaye zənciri ilə Azərbaycanda ilk dəfə alüminium istehsalı şəbəkəsi formalaşdı. Bununla yanaşı, təchizat zənciri sistemi də təşəkkül tapdı.

GAZ kimyəvi istehsal proseslərinə

**Şəkil 3.** Azərbaycanda yaradılan ilk alüminium istehsalı şəbəkəsi



əsaslanan texnoloji layihə əsasında tikilmişdi. Gil-torpaq kombinatı kimi qeyd edilən bu zavod alunitdən 3 fərqli maddə istehsalına malik oldu:

*1. Alüminium oksid*

*2. Sulfat turşusu*

*3. Kalium gübrəsi.*

Alüminium istehsalı üçün gərəkli olan alüminium oksiddən başqa əldə edilən digər kimyəvi istehsallar da ölkə daxilində və onun xaricindəki tələbat üzrə müxtəlif sahələrə göndərildi.

1966-1997-ci illər arasında GAZ-da Daşkəsən zəylik yataqlarından əldə olunan alunitdən alüminium oksidin istehsalı həyata keçirilirdi. Göstərilən müddət ərzində 18,4 mln. ton alunit filizinin emalı nəticəsində 2,1 milyon ton alüminium oksid, 4.5 milyon ton sulfat turşusu və 0,8 milyon ton gübrə istehsal edilmişdir [2]. Alunitdən alınan alüminium oksid istehsalının müsbət cəhəti sıfırdan yerli resurslar hesabına istehsalın baş verməsi idi. Ancaq bir önəmli nüans da alunitdən alüminium oksidinin alınma faizinin təxminən 10-15% arasında olmasıdır. Klassik texnologiyada bu üsulun həm rentabellik potensialı aşağı, həm də ekoloji olaraq problemləri mövcud idi. Dünyada ən çox alüminium xammalı kimi istifadə olunan boksitlə müqayisədə alunitdən alınan alüminium oksid 3-4 dəfə azlıq təşkil edirdi. Bu səbəbdən GAZ-da istehsalın yeni fazası olan boksitlə emal sektoru istifadəyə verildi.

GAZ Bayer prosesinə uyğun olaraq boksitlə emal texnologiyasını istehsal strategiyasına daxil etdi. Müxtəlif dövrlərdə GAZ-da aylıq 30.000 ton aluminium oksid istehsal edilmişdir. Zavodun rekord göstəricisi aylıq 40.000 ton təşkil etmişdir. GAZ praktiki təcrübəsinə əsasən yerli texnologiyamızda ən faydalı boksit növü Afrikanın Syerra-Leone bölgəsindən çıxarılandır. Bu boksitdən sonda 40% xalis alüminium oksid almağı Azərbaycan istehsalçıları bacarmışdır. Digər bir çox boksit növlərində ya fiziki-kimyəvi emal şərtləri qəliz, ya da son alıcılıq faizi aşağı olmuşdur.

GAZ-ın yaranması həm Azərbaycan, həm də onun ən böyük ikinci şəhəri olan Gəncə üçün önəmli hadisə idi. Bu sənaye müəssisəsinin meydana gəlməsindən sonra Gəncədə alüminiumun kimyəvi xammal istehsalının məktəbi formalaşdı. Minlərlə insan bu istehsal prosesində iştirak etdi, zehni və fiziki əmək sərf etdilər. Müəssisə çoxlu sayda insan resursları formalaşdırdı. GAZ-ın layihəsi olaraq böyük bir Alüminiumçular qəsəbəsi salındı. Sənaye ilə elm arasında əlaqəni möhkəmləndirmək üçün bir sıra zəruri addımlar atıldı. 1970-ci ildə Azərbaycan Politexnik İnstitutunun Gəncə filialı fəaliyyətə başladı. Daha sonralar isə keçmiş SSRİ Nazirlər Sovetinin 202 saylı 22 fevral 1979-cu il tarixli, ona müvafiq olaraq Azərbaycan SSR Nazirlər Sovetinin 206 saylı 10 iyul 1980-ci il tarixli qərarları ilə məhz həmin Alüminiumçular qəsəbəsinin ərazisində Azərbaycan Texnologiya İnstitutu (UTECA) yaradıldı [5]. Əsas məqsəd yaradılan sənaye müəssisələri və ümumilkdə Azərbaycan iqtisadiyyatı üçün kadrlar yetişdirmək idi. UTECA yarandığı vaxtdan bu günədək alüminium istehsal müəssisələri ilə əməkdaşlığını davam etdirməkdədir. Gəncə alüminium kompleksinin təsisatlarında, mövcud yeni texnologiyaların yaradılması istiqamətində yeni layihələr və modernləşmə üzrə tədqiqat işləri aparılır.

### 2.3. Sumqayıt alüminium zavodu

Azərbaycanda saf alüminium metalı istehsal edən ilk zavod Sumqayıt alüminium zavodu (SAZ) olmuşdur. Əsas tikintisinə 1949-cu ildən, elektroliz sexinin tikintisinə isə 1952-ci ildən başlanılan SAZ-da 1955-ci ilin martın 8-də ilk alümi-

**Şəkil 4.** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Gəncədə yarımfabrikat alüminium məhsulları istehsal edən yeni zavod istifadəyə verilir (2014-cü il)




**Mənbə:** President.az

nium külçə istehsalı həyata keçirilmişdir. 1960-cı illərdə növbəti korpuslar yaradıldı. 1964-cü ildə elektroliz sexinin alüminium məftil istehsal edən şöbəsi, 1968-ci ildə məişət soyuducuları üçün buxarlandırıcı istehsal edən sex, 1974-cü ildə alüminium və latundan qab-qacaq istehsal edən sex tikilmişdir [4]. SAZ-da külçə formasında müxtəlif markalı ilkin alüminium, məftillər, silindrik formada geniş çeşiddə alüminium ərintiləri, məişətdə istifadə edilən istehlak malları istehsal edilmişdir. SAZ-ın istehsal texnologiyası GAZ-dan gətirilən alüminium oksid xammalı hesabına qurulur. Azərbaycanda sıfırdan alüminium istehsalı bu iki müəssisənin fəaliyyəti nəticəsində baş vermişdir. Gəncə və Sumqayıt alüminium zavodları Azərbaycanda alüminium sənayesinin əsasını, onun əsas bazasını, iqtisadiyyatını, elmi platformasını, nəzəri-praktik əsaslarını, insan resurslarının yaranması prosesinin nüvəsini təşkil etmişdir.

## 2.4. Azərbaycanda müasir alüminium sənayesinin qurulması

İlkin özəyi Gəncədə yaradılmış alüminium sənaye zəncirinin inkişaf etdirilməsi Azərbaycan dövlətinin daima marağında olmuşdur. 2008-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Gəncədə yeni alüminium kompleksinin təməli qoyuldu. Sürətlə davam edən quruculuq işlərindən sonra ümumilikdə 74 hektar əraziyə malik kompleksin ilkin mərhələsi olaraq ildə 50 min ton alüminium istehsal edəcək 240 kiloamperlik 84 elektroliz təknəsi quraşdırıldı [7]. Geniş istehsal şəbəkəsinə malik kompleksdə alüminium külçə və rulonların qlobal bazarlara satışı həyata keçirilir. 2014-cü ildə kompleksdə Təzyiqlə emal və boyama zavodunun yaradılması ilə alüminiumun yarımfabrikat məhsullarının istehsalına başlanıldı.

Azəralüminium şirkəti istehsal etdiyi

məhsullarının 98%-ni xaricə ixrac edir. Gəncə Alüminium Kompleksində istehsal edilən yerli brend məhsulların əsas alıcıları ABŞ, Türkiyə, Rusiya və Avropa ölkələridir. Son zamanlar ən böyük ixracın ABŞ bazarlarına yönləndirilməsi Azərbaycanın önəmli iqtisadi uğurlarındandır.

Azərbaycanda alüminium sənayesinin inkişaf etdirilməsi dövlətin əsas strategiyalarından biridir. Qeyri-neft sektoru üzrə əsas paya sahib alüminium sənayesinin istehsal potensialının artırılması ilə bağlı işlər davam etdirilir. İlk fazanın tikintisi dünya alüminium istehsalında ən böyük çəkiyə malik Çin şirkətləri ilə yerli insan resurslarımızın birgə fəaliyyəti nəticəsində ərsəyə gətirilmişdir. Sənayenin ikinci fazasına keçid texnologiya nəhəngi olan Almaniya ilə birlikdə hədəflənir. 2022-ci ildə Azərbaycan Sənaye Korporasiyası, Azəralüminium və Almaniyanın "Achenbach Alpha GmbH" şirkəti arasında imzalanmış yeni müqaviləyə əsasən, illik potensialı 105 min ton olan alüminium yayma məhsullarının istehsalı nəzərdə tutulur. Layihənin ümumi investisiya məbləği 451,2 milyon ABŞ dolları, birinci mərhələdə investisiya məbləği isə 132 milyon ABŞ dolları təşkil edir [6]. Yeni layihənin həyata keçirilməsi ilə Azərbaycan alüminium sənayesi daha da genişlənəcək, regionda iqtisadi münasibətlər və əmək bazarı canlanacaq. İstehsalın artması ilə “Azəralüminium” şirkəti üzrə işçi sayının 2 mini keçməsi gözlənilir.

## Nəticə

Məqalədə alüminium sənayesinin dünya və Azərbaycan timsalında iqtisadi-texnoloji tarixinin geniş icmalı tədqiq edilmişdir. Alüminiumun bir metal kimi ilk istehsalının əsas mərhələləri və qlobal səviyyədə alüminium sənayesinin inkişaf prosesləri ətraflı şəkildə təsvir edilmişdir. Eyni zamanda alüminium sənayesinin fundamental təşəkkülü üzrə müasir dünya elminin əsas çağırışlarına uyğun olaraq yaşıl enerji sistemlərinin qurulmasının əhəmiyyəti vurğulanmışdır.

Tədqiqat işində Azərbaycan alüminium sənayesinin əsas prinsipləri araşdırılmış və ölkənin iqtisadiyyatı üçün strateji önəmi vurğulanmışdır. Problemin xüsusi əhəmiyyəti iqtisadi-sosial prinsiplər üzrə gündəmə gətirilməsinin zəruriliyidir. Məqalədə gəlinən əsas qənaət və təklif bu yöndədir ki, Azərbaycan alüminium sənayesi üçün regional episentr rolunu oynayır və bu sahənin inkişaf etdirilməsi ölkənin qeyri-neft sektoruna ciddi təsir göstərəcəkdir. Məqalənin digər əsas məqsədi dayanıqlı gələcək üçün geniş vektorlara malik bu strateji sənayenin tədqiq edilməsinin elmi mühitlə yanaşı ictimai sferaya faydalı qatqı bəxş etməsinə çalışmaqdır.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

**Azərbaycan dilində:**

1. *Azeraluminium (2023a).* Gəncə Gil Torpaq İstehsalat Sahəsi. https://azeraluminium.com/az/f%C9%99aliyy%C9%99timiz/istehsalat/g%C9%99nc%C9%99-gil-torpaq-istehsalat-sah%C9%99si/

2. *Azeraluminium (2023b).* Gəncə Gil Torpaq İstehsalat Sahəsi. https://azeraluminium.com/az/gil-torpaq-zavodunun-modernizasiyasi-v%C9%99-yenid%C9%99n-qurulmasi/

3. *Azərbaycan Sovet Ensiklopediyası (1976).* Kirovabad Alüminium Zavodu. 5-ci hissə, səh 400-401.

4. *Azərbaycan Sovet Ensiklopediyası (1976).* Sumqayıt Alüminium Zavodu. 9-cu hissə, səh 76-77.

5. *Azərbaycan Texnologiya Universiteti (2023).* Universitetin tarixi. https://uteca.edu.az/module_4.php?id=1

6. *Economy.az (2022).* Alüminium məhsulları istehsalı müəssisəsinin yaradılmasına dair müqavilə imzalanıb. https://economy.gov.az/az/post/731/aluminium-mehsullari-istehsali-muessisesinin-yaradilmasina-dair-muqavile-imzalanib

7. *President.az (2012).* İlham Əliyev "DET AL" Alüminium MMC-nin Gəncə alüminium zavodu kompleksinin açılışında iştirak etmişdir. https://president.az/az/articles/view/4118

**İngilis diində:**

8. *Aluminium Leader (2015a).* The History of Aluminium, Bauxite Discovery. https://www.aluminiumleader.com/history/timeline/#1821

9. *Aluminium Leader (2015b).* The History of Aluminium. Hall`s smelter. https://www.aluminiumleader.com/history/timeline/#1888

10. *Aluminium Leader (2015c).* The History of Aluminium. GOELRO. https://www.aluminiumleader.com/history/timeline/#1920

11. *Britannica (2022).* Aluminium, Chemical Element. https://www.britannica.com/science/neon- chemical-element

12. *Dana Askenazi (2019).* How aluminum changed the world: A metallurgical revolution through technological and cultural perspectives. Technological Forecasting and Social Change, Volume 143, Pages 101-113. https://doi.org/10.1016/j.techfore.2019.03.011

13. *Hernandez, F.C.R. et al. (2017).* Applications in the Automotive and Aerospace Industries. Al-Si Alloys pp 163–171. https://doi.org/10.1007/978-3-319-58380-8_7

14. *Sanya Carley (2011).* Historical analysis of U.S. electricity markets: Reassessing carbon lock-in. Energy Policy. Energy Policy, Volume 39, Issue 2, Pages 720-732. https://doi.org/10.1016/j.enpol.2010.10.045

**Ramil Hasanaov**

## THE FORMATION OF THE ALUMINUM INDUSTRY: ON THE EXAMPLE OF THE WORLD AND AZERBAIJAN

### Abstract

One of the world's great revolutionary innovations was the establishment of aluminum production. Aluminum, a commodity more valuable than gold in 19th-century European palaces, suddenly became a metal available to everyone. The reason was the discovery of mass production.

Along with its global significance, the aluminum industry is of particular importance to Azerbaijan. Not every country on the planet has the industrial capacity to manufacture aluminum from scratch. This necessitates a large amount of energy and other resources.

The aluminum industry is strategically important to Azerbaijan's economy. The article discusses the key stages in the formation and development of the aluminum

industry in Azerbaijan and around the world. The study's goal is to conduct a scientific-informatics review of this industry, which has the largest share of the non-oil sector. Such research on the aluminum industry conducted in Azerbaijan will have a positive impact on the field of social research while also focusing on the existing strategic field.

**Keywords:** aluminum industry, production, economy, economic history, Azerbaijan industry, green energy

**Рамиль Гасанов**

## СТАНОВЛЕНИЕ АЛЮМИНИЕВОЙ ПРОМЫШЛЕННОСТИ: НА ПРИМЕРЕ МИРА И АЗЕРБАЙДЖАНА

### Резюме

Одним из величайших мировых революционных нововведений стало создание алюминиевого производства. Алюминий, более ценный, чем золото в европейских дворцах XIX века, внезапно стал металлом, доступным каждому. Причиной стало открытие массового производства.

Наряду с мировым значением, алюминиевая промышленность имеет особое значение для Азербайджана. Не каждая страна на планете имеет промышленные мощности для производства алюминия с нуля. Это требует большого количества энергии и других ресурсов.

Алюминиевая промышленность имеет стратегическое значение для экономики Азербайджана. В статье рассматриваются ключевые этапы становления и развития алюминиевой промышленности Азербайджана и мира. Целью исследования является проведение научно-информационного обзора этой отрасли, на долю которой приходится наибольшая доля ненефтяного сектора. Такое исследование алюминиевой промышленности, проводимое в Азербайджане, окажет положительное влияние на область социальных исследований, а также сосредоточит внимание на существующей стратегической области.

**Ключевые слова:** алюминиевая промышленность, производство, экономика, экономическая история, промышленность Азербайджана, зеленая энергетика

# CONCEPT OF SOCIAL MARKETING

**Habib MAHMUDOV**
*Ph.D. candidate at Azerbaijan Tourism and Management University*
*Email: habib.mahmudov@atmu.edu.az*

**Abstract.** The social marketing was first brought to discussion by Wiebe in 1951 and later the first definition of social marketing was originated by Kotler and Zaltman in 1971. Within significant research in the field of sociology many other researchers came with their own definition of the term. Today social marketing is aim towards resolution of specific social problems and causes in different parts of society to improve the level of live and reach a common good for the better part of population. Within particular social marketing programs private institutions and government bodies reach to their set aims and objectives in the field of social marketing. The synergy between social marketing research essentials, being the available literature and knowledge on the topic and diverse approaches for implementation in forms of social programs and channels of distribution and economic determinants in form of social indexes and statistics is creating a strong basis for an in-depth investigation of certain social problems and causes.

**Keywords:** Sociology, social problem, social marketing, social marketing program, target audience, communication, behavioural change, society

## Introduction

